# 10 May – ümummilli lideri xalqımıza bəxş edən gün

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 96 (30212) 10 may 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün xəbəri**

Bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi tamam olur.

## Azərbaycanı möhtəşəm hədəflərə yönləndirən lider

### Ulu öndər Heydər Əliyev bu mübarizəsində azad sözün gücünə arxalanırdı

**Ümummilli liderimiz Heydər Əliyevin 100 illik yubileyini qeyd etdiyimiz bu gözəl gündə, dahi şəxsiyyətin jurnalist əməyinə qədirbilənliklə yanaşmasını sübuta yetirən bir çox hadisələrə nəzər salmağa ehtiyac var. Bu ehtiyacı yada salmaq, həm də mənəvi borcumuzdur.**



Əslində, "Heydər Əliyev və mətbuat" mövzusu özü ayrıca bir tarixdir. Bu tarixin hər səhifəsində ənənələrimizə, keçdiyimiz yola, varlığımıza misilsiz dəyər nümunəsi var. Ən böyük dəyər isə ana dilimizədir. Heydər Əliyev şəxsiyyəti bütün varlığı ilə mətbuatı dil hadisəsi kimi görürdü. Ulu öndər onu ana dilimizin varlığının qorunmasında böyük məxəz sayırdı. Nəzərə alaq ki, dilin varlığının qorunması, bütövlükdə, xalqın mövcudiyyət faktorudur. Görünür, məhz buna görə də ulu öndər Sovetlər Birliyi dönəmində ana dilimizdəki ilk çıxışını bir mətbuat orqanının yubileyində etmişdi. Nə xoş ki, bu mətbuat orqanı indiki "Xalq qəzeti" olmuşdu.

Azərbaycan Xalq Cümhiyyəti dövründə – 1919-cu ildən işıq üzü görmüş qəzetimizin 50 illik yubileyi ulu öndərin Azərbaycanda hakimiyyətə başladığı zaman kəsiyinə təsadüf etmişdi. Təntənəli yubiley mərasimində çıxış edən respublika rəhbəri o zaman "Kommunist" adı ilə fəaliyyət göstərən nəşrin ictimai həyatdakı rolunu yüksək qiymətləndirmiş, onun keçdiyi yolun mükəmməl təsvirini incəliklərinə qədər vermiş, qəzetimizi yeni gün uğrunda mübarizənin flaqmanı kimi göstərmişdi.

Beləcə, tariximiz ümummilli liderin sözə dəyərinin ilk anadilli nümunəsinə şahidlik etmişdi. Bu nümunədə, eyni zamanda, mətbuatın gücünü, malik olduğu potensialı dövlət idarəçiliyi baxımından səfərbər etmək əzmi ön planda dayanırdı ki, sonrakı illərdə bu əzmin yeni və parlaq nümunələrlə zənginləşməsi baxımından bütöv bir tarix yazıldı desək, heç bir mübaliğəyə yol vermərik.

Ümumən, dünya tarixində fəaliyyət prinsiplərini mətbuatla əlaqəli şəkildə qurmağı bacaran dövlət xadimləri və liderlər olublar. Qətiyyətlə deyə bilərik ki, ulu öndər Heydər Əliyev həmin liderlərin ən parlaqlarındandır. Məsələyə XX əsrin tarixi prizmasından yanaşsaq, bu obraz unikaldır. Onun unikallığında jurnalistika dövlət-cəmiyyət oxunun hərəkətverici qüvvəsi, bir növ, katalizatorudur.

Ulu öndərin nəzərincə, mətbuat idarəçiliyi daha da çevikləşdirməyin, ona ahəngdarlıq verməyin müstəsna vasitəsi kimi çıxış edir. Heydər Əliyev liderliyinin xarakterik xüsusiyyətlərindən biri idarəçiliyi yad təsirlərdən qorumaq, onu insanların nəzərində daim yüksək tutmaq naminə mətbuata arxalanmaqdır. Əlbəttə, dahi şəxsiyyət mətbuata arxalanmağı da özünə xas üslubda edirdi. Jurnalistikaya dəyər verir, bu peşə sahiblərini daim yüksək tutur, onların əməyini məxsusi qiymətləndirirdi.

***

Ümumən, baxışlarımızdakı mütəhərrik mətbuatın tarixi çox da uzaq keçmişə söykənmir. Orta əsrlər dövrünün ikinci yarısından başlayaraq Avropanı, yaxşı mənada, cənginə almış sənaye çevrilişlərinin fonunda yenilikləri cəmiyyətə çatdıran qəzetlərin populyarlaşması dövrü başlamışdı. Söhbət mətbuatın gücünün idarəçiliyə tətbiqindən gedirsə, bu mənada, zaman baxımından Almaniyanın məşhur dövlət xadimi Otto fon Bismarkın fəaliyyətini yada salmaq mümkündür. Bismark həmin dövrün dövlətlərarası ziddiyyətlərinin doğurduğu mühiti ölkəsinin mənafeyi naminə dəyişmək məqsədi ilə mətbuat amilindən ciddi şəkildə bəhrələnmişdi.

Əlbəttə, tarixi şəxsiyyətlərin tətbiq etdikləri idarəçilik metodlarının məzmunca bir-birindən fərqləndiyini də nəzərə almalıyıq. Ancaq mahiyyət dəyişmir. İndiki halda söhbət həm də mətbuatın gücünə arxalanaraq, dövləti möhkəmləndirməkdən gedirsə, tam əminliklə söyləyə bilərik ki, Heydər Əliyev bu mənada XX əsr dünya tarixinin şəriksiz lideridir. Gəldiyimiz qənaəti sübuta yetirmək üçün bir neçə məqama da diqqət yetirək.

İlk növbədə, qeyd edək ki, mətbu fəaliyyət aktivləşmə dövrünə qədəm qoyanda, ictimai institut kimi möhkəmlənib özünü təsdiqləməyə başlayanda, Avropanın oturuşmuş dövlət strukturları var idi. Həmin dövrdə medianın özü də, müəyyən mənada, yetkin sistem təsiri bağışlayırdı. Burjua inqilablarının doğurduğu böyük dəyişikliklər, sənayedəki sıçrayışlar fonunda bu sistem, necə deyərlər, daş-daş, kərpic-kərpic formalaşmamışdı. O, ümumi inkişaf trayektoriyasının hazır məhsulu qismində meydanda idi.

**(ardı 4-cü səhifədə)**

## Şuşa – dirçələn və yüksələn şəhər

*Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfəri*

### Şuşanın Elektrik Şəbəkəsi müasirləşdirilib




**Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzinin açılışını edib.**



"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzində (EŞİTM) müxtəlif gücdə transformatorlar, 35 kV-luq yeni yarımstansiya inşa olunub, müasir standartlara cavab verən elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi, avtomatika sistemləri və 0,4 kV şəbəkələrini də əhatə edən SCADA dispetçer idarəetmə sistemi quraşdırılıb.

*(ardı 2-ci səhifədə)*

## Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar rəsmi "Twitter" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir.**

## Mehriban Əliyeva faşizm üzərində Qələbə Günü ilə bağlı paylaşım edib




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesabında 9 May faşizm üzərində Qələbə Günü ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir: "Faşizm üzərində Qələbə Günü münasibətilə bütün veteranlarımızı təbrik edir, hər bir vətəndaşımıza möhkəm cansağlığı, ölkəmizə sülh və tərəqqi arzulayıram".

*AZƏRTAC*

## Prezident İlham Əliyev faşizm üzərində qələbə münasibətilə Azərbaycan veteranlarını təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Twitter" hesabında 9 May Qələbə Günü ilə bağlı paylaşım edib.**

Paylaşımda qeyd olunub: "9 may – II Dünya müharibəsində faşizm üzərində qələbə münasibətilə Azərbaycan veteranlarını təbrik edirəm!".

*AZƏRTAC*

# Şuşanın Elektrik Şəbəkəsi müasirləşdirilib




(əvvəli 1-ci səhifədə)

Mərkəzin ərazisində elektromobillərin enerji ilə doldurulmaları üçün müvafiq qurğular yerləşdirilib. Burada, həmçinin günəş enerjisi ilə çalışan panellər quraşdırılıb. Həmin panellər vasitəsilə əldə olunan enerjinin bir hissəsi yarımstansiyada qəza hallarında daxili tələbatın ödənilməsi və elektromobil enerji doldurma cihazları üçün istifadə olunur. Qalan enerji isə avtomatik rejimdə şəbəkəyə ötürülür.

Şuşa şəhərinin ənənəvi elektrik təchizat şəbəkəsi rəqəmsal xəritə sisteminə köçürüləræk planlama və ölçmə işlərinin aparılması təmin ediləcək. Şəhərin estetik görünüşünə xələl gətirən əvvəlki 48 Komplekt Transformator Məntəqəsi (KTM) əvəzinə müasir güc kabelləri ilə 35/0,4 kV-luq 9 transformator yarımstansiyası vasitəsilə dairəvi təchizat sxeminin qurulması həyata keçirilməkdədir. Bütün bunların nəticəsində kənar fiziki müdaxilələr və ətraf mühitin təsiri aradan qaldırılmış olur, ekoloji tələblər yerinə yetirilir, meşə zolaqları və canlı orqanizmlərin yanğın təhlükəsizliyi ilə bağlı risklər aradan qaldırılır. Bundan başqa, enerji itkiləri 3-3,5 faizədək azaldılır, işçi qüvvəsi, mal-material və istismar xərclərinə 60 faizədək qənaət olunur, enerji təchizatının keyfiyyət parametrləri yaxşılaşdırılır, texniki təhlükəsizlik qaydaları tam təmin edilir.

Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi yeni yaradılan dairəvi təchizat sxeminin tərkib hissəsi kimi layihələndirilib, Nöqtə Buludu texnologiyasından istifadə edilməklə ərazinin virtual xəritəsi hazırlanıb, əraziyə getmədən sahədə ölçmə və layihələndirmə işlərinin yerinə yetirilməsi, görüləcək işlərin əvvəlcədən planlaşdırılaraq vaxta qənaət edilməsi, həyata keçirilən işlərin monitorinqinin və qiymətləndirilməsinin aparılması təmin olunacaq. Bundan əlavə, Şuşa şəhərinin və Mərkəzin Virtual Tur modeli hazırlanıb ki, bununla da cihaz və avadanlıqların, habelə şəbəkə aktivlərinin məsafədən əyani şəkildə təlim-tədrisinin təşkili mümkün olacaq.

Bildirildi ki, beynəlxalq təcrübədə istifadəsi və iqtisadi-texnoloji üstünlükləri nəzərə alınaraq Şuşa şəhərinin Rəqəmsal Əkiz modeli hazırlanıb, bu da EŞİTM-in təsnifat modelinə daxildir. Belə ki, burada quraşdırılan xüsusi monitorlar vasitəsilə Rəqəmsal İdarəetmə Mərkəzinin, rəqəmsal yarımstansiyanın, 3D mobil xəritə və Rəqəmsal Əkiz modelin, Kompozit dayaqların, optik lifli güc kabelləri ilə qurulan 35/0,4 kV şəbəkə modelinin, Yeni Yaşma Külək Enerji Stansiyasının, mikro-fotovoltaik stansiyaların, elektron xidmətlərin, SCADA sisteminin, bərpaolunan enerji mənbələrinin, qabaqcıl ölçmə infrastrukturun, Şəbəkələrin Dron Monitorinq Sisteminin, müasir 0,4 kV-luq Dispetçer və Smart Sayğac oxuma sistemlərinin interaktiv rejimdə izlənməsinə imkan yaranacaq.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzini işə saldı.

Mərkəzdə təhlükəsizliyin təmin edilməsi və qəzaların aradan qaldırılması məqsədilə qapalı paylayıcı quruluşla digər yarımstansiyalar arasında əlaqələr, eləcə də yarımstansiyadan çıxan elektrik verilişi xətləri yeraltı kabellər vasitəsilə həyata keçirilir.

Burada növbətçi heyət üçün lazımi iş şəraiti, müvafiq xidmət otaqları yaradılıb, ərazidə geniş abadlıq işləri görülüb.

***

Qeyd edək ki, Yaşıl Enerji Zonasında "Azərişıq" ASC tərəfindən qurulan paylayıcı şəbəkələrdə mikrosəviyyəli bərpaolunan enerji mənbələrinin tətbiqi enerji itkilərinin kompensasiyası, xüsusi sərfiyyat tələbatının ödənilməsi, enerji böhranı hallarında güc mərkəzlərinin dayanıqlı işinin təmini və elektrik avtomobillərinin enerji ilə təchiz edilməsi üçün nəzərdə tutulub. Bununla yanaşı, paylayıcı şəbəkələrdəki enerji obyektlərinin dam örtüklərində quraşdırılan Günəş enerji mənbələri bir sıra üstünlüklərə malikdir. Belə ki, bu mənbələr əlavə torpaq sahəsi tələb etmir, müasir ekoloji tələblərə cavab verir, güc mənbəyinə kommutasiyası ciddi xərc tələb etmir, illik ən azı 40 min kVts enerji istehsalı imkanına malikdir. Bir Günəş enerji mənbəyi ilə ildə 1150 elektromobilin enerji tələbatını təmin etmək mümkündür ki, bu da ildə 23 min ton karbohidrogen yanacağına qənaət deməkdir.

Müasir paylayıcı şəbəkələrdə tətbiq edilən paylanmış generasiya mənbələri, eyni zamanda, enerji böhranı hallarında qlobal mənbələr şəbəkəsi yaratmağa imkan verir ki, bu da enerji təchizatında dayanıqlılığı artırır.

"Azərişıq" ASC-nin bütün şəbəkələri üzrə transformator yarımstansiyalarının yaşıl enerji mənbələri ilə təchiz edilməsi nəticəsində illik 48 milyon kVts elektrik enerjisinin hasil olunması ilə 12 milyon kubmetr təbii qaza qənaət etmək mümkündür. Nəticədə Günəş enerji sistemlərinin bütün istismar dövrü ərzində CO2 (karbon dioksid) kvota dəyəri də nəzərə alınmaqla, 145,4 milyon manat vəsait əldə edilə bilər.

İşğaldan azad edilmiş ərazilərdə inşası nəzərdə tutulan 400-dən çox enerji obyektində tətbiq ediləcək yaşıl enerji mənbələrinin bütün istismar dövrü ərzində orta hesabla 480 milyon kVts elektrik enerjisi ilə 120 milyon kubmetr təbii qaza qənaət təmin oluna bilər. Bununla yanaşı, bərpaolunan enerji mənbələrinin paylayıcı şəbəkələrdə tətbiqi iqlim dəyişikliklərinin mənfi təsirlərinin qarşısının alınmasında ölkəmizin Paris Sazişi üzrə istilik effekti yaradan qazların emissiyasının 2030-cu ilədək 35 faiz azaldılmasına imkan verəcək.

***AZƏRTAC***

# Qarabağ küçəsi bərpa edilir

**Mayın 9-da Şuşa şəhərinin Qarabağ küçəsində inşa olunacaq qeyri-yaşayış binasının təməli qoyulub.**



Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qarabağ və Sadıqcan küçələrində görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ küçəsində inşa ediləcək yaşayış binasının ümumi sahəsi 5400 kvadratmetr olacaq. Dörd mərtəbədən və zirzəmi qatından ibarət binada yerləşəcək mənzillərdən 24-ü ikiotaqlı, 6-sı isə üçotaqlıdır. Qeyd edildi ki, ərazidə qeyri-yaşayış binası da inşa olunacaq. A və B korpuslarından, həmçinin ofis binasından ibarət həmin binanın ümumi sahəsi 5745 kvadratmetr nəzərdə tutulub. Binanın ikinci mərtəbəsində avtodayanacaq yerləşəcək.

Sonra dövlətimizin başçısı Qarabağ küçəsində inşa olunacaq qeyri-yaşayış binasının təməlini qoydu.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığına əsasən Qarabağ küçəsinin abadlaşdırılması ilə bağlı ilkin vəsait ayrılıb. Abadlıq və infrastruktur işləri binaların inşası prosesi ilə paralel aparılır. Görülən işlərin bir qismi Prezident İlham Əliyevin tapşırığı ilə dövlət-özəl sektor tərəfdaşlığı əsasında həyata keçirilir. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti bu küçəyə rəmzi olaraq "Qarabağ" adını verib. Gövhər Ağa məscidi, "Qarabağ" oteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqətdə saxlanılır.

Şuşalı keçmiş məcburi köçkünlərin yaxın gələcəkdə doğma şəhərlərinə qayıdışından sonra Prezident İlham Əliyevin tapşırığı ilə burada əsasən yerli sakinlərin işə götürülməsi nəzərdə tutulur. Bu baxımdan əhalinin məşğulluğunun təmin olunması istiqamətində də fasiləsiz iş aparılır, siyahılar dəqiqləşdirilir. Şuşada fəaliyyət göstərmək məqsədilə qeydiyyatdan keçən şirkətlər tərəfindən yerli sakinlər üçün təşkil olunan üç əmək yarmarkasında 200-dək şuşalı gənc siyahıya alınıb. Hazırda onlar üçün treninqlər təşkil olunur.

***AZƏRTAC***

# Molla Pənah Vaqif və Pənahəli xan küçələri abadlaşdırılır

**Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada Molla Pənah Vaqif və Pənahəli xan küçələrinin kəsişməsində lövhələrin açılışında iştirak edib.**




Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına küçələrdə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Molla Pənah Vaqif küçəsinin uzunluğu 2473 metr, eni isə yol yatağına uyğun olaraq 10-15 metr aralığında dəyişir.

Pənahəli xan küçəsinin uzunluğu 864 metr, eni isə yol yatağına uyğun olaraq 10-13 metr təşkil edəcək.

Qeyd edildi ki, küçələr müasir səviyyədə yenidən qurulacaq, bütün zəruri infrastruktur yaradılacaq.

***AZƏRTAC***

# Atatürk küçəsinə lövhə qoyulub






**Mayın 9-da Şuşada Atatürk küçəsinin lövhəsinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına küçədə aparılacaq bərpa-yenidənqurma işləri, yaradılacaq ictimai-iaşə obyektləri barədə məlumat verdi.

Bildirildi ki, küçənin uzunluğu 714 metr, eni isə 11 metrdir.

Dövlətimizin başçısı Atatürk küçəsinin lövhəsinin açılışını etdi.

***AZƏRTAC***

# Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin məzarını ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin Heydər Əliyev Fondu tərəfindən bərpa olunan məzarını ziyarət edib.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, XIX əsrin Azərbaycana bəxş etdiyi görkəmli simalardan, şəxsiyyətlərdən biri, şair, rəssam, xəttat, musiqi nəzəriyyəçisi, Qarabağ ədəbi mühitinin inkişafında özünəməxsus rolu olmuş ensiklopedist alim Mir Möhsün Nəvvab Qarabağinin Şuşa şəhərindəki məzarı və qəbirüstü abidəsi bərpa olunub.

*(ardı 3-cü səhifədə)*

# Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin məzarını ziyarət



**(əvvəli 2-ci səhifədə)**

Şuşa şəhəri işğal altında olduğu illərdə Mir Möhsün Nəvvab Qarabağinin Cıdır düzündə yerləşən məzarı ermənilər tərəfindən tamamilə dağıdılmışdı. Heydər Əliyev Fondu bu ilin mart ayından ərazidə müvafiq işlərə başlayıb və qəbirüstü abidə bərpa olunub.

Prezident İlham Əliyev Mir Möhsün Nəvvab Qarabağinin məzarı üzərinə gül dəstəsi qoydu.

Qeyd edək ki, bu il görkəmli alimin anadan olmasının 190 ili tamam olur. Heydər Əliyev Fondu tərəfindən aparılmış bərpa işləri alim və şairin xatirəsinə ehtiram, eləcə də mədəniyyətimizin qorunub saxlanılması istiqamətində görülən işlərə daha bir töhfədir.

Xatırladaq ki, Mir Möhsün Nəvvab Qarabaği 1833-cü ildə Şuşada anadan olub, orada yaşayıb-yaradıb və 1918-ci ildə vəfat edib.

***AZƏRTAC***

# Mehmandarovların malikanə kompleksinin açılışı



**Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma kompleksdə görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış kompleksinə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir.

Diqqətə çatdırılıb ki, 2021-ci ilin oktyabr ayından etibarən Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib.

Kompleksə daxil olan evin və məscidin binalarının dam örtükləri yenilənib, tavanlar bərpa edilib. Malikanə kompleksinin dağılmış divarı bərpa olunub, zədəli divarda bərkitmə işləri aparılıb. Evin döşəmə daşlarının dağılmış yerləri, pilləkəni yenidən qurulub, divar və tavanlardakı rəsmlər eskiz layihələri üzrə bərpa edilib. Məscidin "Güldəstə"si restavrasiya olunub.

Qeyd olundu ki, yaşayış evinin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilib.

Görülmüş işlərdən sonra malikanə kompleksində muzey ekspozisiyası qurulub. "Qarabağ zadəganının evi" mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu – XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülüb.

Ekspozisiyada Azərbaycan Milli Kino-Foto Sənədləri Arxivi, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun materialları, həmçinin elmi ədəbiyyat mənbə qismində istifadə edilib.

Zadəgan malikanəsinin qonaq otağı evin siması olduğundan burada ən müasir interyer elementlərindən istifadə edilirdi. Otaqda milliliyi nümayiş etdirən elementlər də var idi. İnteryerdə dövrün fotoçərçivələrinə salınmış məlumat və portretlər asılıb. İnteryer təəssüratını pozmamaq üçün foto və məlumatların çərçivələri dövrə uyğun tərtib edilib. Fotolar Şuşanın tanınmış zadəgan nəsilləri – Mehmandarovlara, onlarla qohumluq əlaqəsi olan Rüstəmbəyovlara, Vəzirovlara, Qacarlara aiddir.

Malikanədəki otaqları milli əşyalarla yanaşı, avropasayağı məişət əşyaları da bəzəyir. Otaqlar dövrün eksponatları ilə XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid interyer qaydalarına uyğun tərtib edilib. Burada ziyarətçi özünü XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşamış azərbaycanlı zadəganının evindəki kimi hiss etmiş olur.

Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox antiq əşyadan istifadə edilib.

Xatırladaq ki, işğaldan azad olunan ərazilərdə genişmiqyaslı quruculuq işləri, mədəni-dini abidələrimizin bərpası davam edir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə 2020-ci il dekabrın 8-dən etibarən mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlayıb. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Aparılan işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunub.

Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilib. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir.



Heydər Əliyev Fondu hazırda Şuşada daha bir neçə layihənin bərpasını başa çatdırıb. Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir.

***AZƏRTAC***

# Xüsusi nümayəndəliyin inzibati binasının qarşısı yenidən qurulur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Şuşada Xüsusi nümayəndəliyin inzibati binasının qarşısındakı meydanda olublar.**

Dövlətimizin başçısına və birinci xanıma meydanda görüləcək işlər barədə məlumat verilib.

***AZƏRTAC***

# Baş nazir Əli Əsədov "SpaceX" şirkətinin prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 9-da ölkəmizdə səfərdə olan ABŞ-ın "Space Exploration Technologies Corporation" ("SpaceX") şirkətinin prezidenti və baş əməliyyat direktoru xanım Qven Şotvel ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycanda "Starlink" internet xidmətlərinin göstərilməsi ilə bağlı "SpaceX" şirkəti ilə imzalanacaq ilkin razılıq sazişinin əhəmiyyəti vurğulanıb.

Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları, o cümlədən, elektron hökumət, distant təhsil sahələrinin və kosmos sənayesinin inkişafı istiqamətində əldə edilmiş mühüm nailiyyətlər diqqətə çatdırılıb.

Bakı şəhərinin bu ilin oktyabr ayında keçiriləcək 74-cü Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququnu qazanması ölkəmizin bu sahədə nailiyyətlərinin beynəlxalq kosmik icma tərəfindən yüksək səviyyədə tanınmasının bariz nümunəsi kimi qiymətləndirilib.

Görüşdə Azərbaycan ilə "SpaceX" şirkəti arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

***AZƏRTAC***

# XİN nasizm üzərində Qələbənin 78-ci ildönümü ilə bağlı bəyanat yayıb

**Bu gün dünya tarixinin ən dağıdıcı müharibələrindən biri olan İkinci Dünya müharibəsində nasizm üzərində tarixi qələbənin qazanılmasından 78 il ötür. 9 May – Qələbə Günü kimi qeyd olunan bu əlamətdar gündə bəşəriyyəti ciddi təhdid altında qoyan nasizm təhlükəsinə qarşı mübarizə aparan hər kəsin, o cümlədən, müharibə dövründə misilsiz şücaət və fədakarlıq nümayiş etdirən qəhrəman həmvətənlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik.**

Nasizm üzərində qələbənin ildönümündə irqçilik, nasizm, faşizm kimi beynəlxalq sülh və təhlükəsizliyə hədə törədən təhlükəli ideologiyalara bəraət qazandırılması, onları dəstəkləyənlərin qəhrəmanlaşdırılması cəhdlərini qətiyyətlə pisləyir, bir daha bütün dünyanı sarsıdan, kütləvi insan tələfatı və dağıntılarla nəticələnən müharibə təhlükələri ilə üzləşməmək naminə beynəlxalq ictimaiyyəti bu kimi tendensiyaların aradan qaldırılması istiqamətində əməkdaşlığa çağırırıq.

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin nasizm üzərində Qələbənin 78-ci ildönümü ilə bağlı yaydığı bəyanatda öz əksini tapıb.

Bəyanatda deyilir: "Tarix boyu Vətənini, suverenliyini və ərazi bütövlüyünü qorumaq naminə bütün fədakarlıqlara hazır olan xalqımızın müasir tarixi də parlaq qələbələrlə, xüsusilə 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusunun qazandığı şanlı Zəfərlə əlamətdardır. Məhz 44 günlük Vətən müharibəsində xalqımız beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyümüzün bərpası naminə səfərbər olaraq Ermənistanın 30 ilə yaxın davam edən qeyri-qanuni hərbi işğalına son qoydu, bununla da tariximizə şanlı Zəfəri yazmağa müvəffəq oldu.

Nasizm üzərində qələbənin qazanılmasında müharibə illərində ön cəbhədə, o cümlədən, arxa cəbhədə igidlik göstərən, 600 mindən çox oğul və qızını cəbhəyə yola salan, Qafqazdan Berlinədək şanlı döyüş yolu keçən Azərbaycan xalqının rolu və xidmətləri danılmazdır. Bu xüsusda, qələbənin qazanılmasında göstərdiyi şücaətə görə 123 həmvətənimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif olunub.

Qələbə naminə tam səfərbərliyi ön cəbhədə döyüşən orduya dəstəyin göstərilməsində, o cümlədən, müharibədə qələbə qazanılmasında arxa cəbhədə xalqımızın fədakar əməyi müstəsna əhəmiyyət kəsb edib.

Azərbaycanın təbii sərvətləri, xüsusilə neft ehtiyatları nasizmə qarşı aparılan mübarizədə qələbənin təmin olunmasında həlledici rol oynayıb. 1941-1945-ci illərdə Sovet İttifaqında istehsal olunan neftin 70 faizindən çoxu, benzinin 80 faizi və mühərrik yağlarının 90 faizi Azərbaycanın payına düşüb. Cəbhənin tələbatını ödəmək naminə gecə-gündüz çalışan neftçilərimizin əvəzsiz xidməti sayəsində istehsal olunan məhsullar müharibənin taleyində həlledici rol oynayıb.

Dövlətimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən həmvətənlərimizin əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq. Bir daha tariximizə şanlı qələbələr yazan qəhrəman soydaşlarımızı dərin hörmət və minnətdarlıqla yad edirik".

***Q.QASIMOV,***
***"Xalq qəzeti"***

# Azərbaycanı möhtəşəm hədəflərə yönləndirən lider

(əvvəli 1-ci səhifədə)



Yəni, işlək sistemə daha da dinamiklik gətirmək o qədər çətin deyildi. Bu baxımdan, haqqında söz açdığımız Bismark həmin dövrün Almaniyasında, bütövlükdə, “köhnə qitə”nin siyasi arenasında dominantlıq naminə mətbuatın dəstəyindən istifadəyə üstünlük verəndə, qarşısında heç bir sıfır nöqtəsi yox idi. Jurnalistika onsuz da proseslərin içində yer alırdı. Onun köməyi ilə ictimai rəyə təsir göstərmək məharət tələb etsə də, istər sovet Azərbaycanındakı, istərsə də müstəqillik dövründəki qədər çətin və mürəkkəb vəzifə sayıla bilməzdi. Sovet Azərbaycanında mətbuatın funksionallığını xalq üçün ali dəyərlərə kökləmək son dərəcə ağır və təhlükəli sayılırdı. Çünki imperiya əsarəti, inzibati amirlik sistemi hökm sürürdü. Müstəqilliyimizin ilk illərinin təbiətinə isə pərakəndəlik və xaos hakim kəsilmişdi.

Bəli, Heydər Əliyev XX əsrin 90-cı illərinin əvvəllərindəki fəaliyyəti ilə dağılmış nəhəng imperiyanın yerində qərarlaşmış gənc dövləti təmsil edirdi. Həmin dövlətin özü kimi, mediasının da durumu ürəkaçan deyildi. Böyük mübarizədən qalib ayrılmış Azərbaycan insanının gələcəyə inamı daxili çəkişmələrin gətirdiyi ruhdüşkünlüyü ilə sınmış, həyat yeknəsəkləşmiş, ölkə, sanki, ümidlər qəbiristanlığına çevrilmiş, ictimai mühit bozlaşmış, təlatümlərdən adlamış cəmiyyət dağınıq görkəm almışdı. Elə idarəçilik aparatının özündəki ab-havaya da gərginlik hakim kəsilmişdi, hərc-mərclik təmayülləri təraddüdlər doğurmuşdu.

Azərbaycanın müstəqil dövlət kimi qalıb-qalmayacağı sual altına düşmüşdü. Heydər Əliyev respublikamıza ikinci dəfə rəhbərliyə, məhz, belə bir çətin şəraitdə gəlmişdi. Çətinlik mətbuatın mövzu palitrasına da təsirsiz ötüşməmişdi. Üstəlik, senzura amilini nəzərdən qaçırmamalıyıq. O amili ki, bütün mütərəqqi keyfiyyətlərinə rəğmən, sovet dövrü Azərbaycan mətbuatının iliyinədək işləmişdi. Ziddiyyətə baxın ki, azadlığın və istiqlalın əldə edilməsində müstəsna pay sahibi olan mətbuat özü azad ola bilməmişdi.

Həmin dövrdə ulu öndər Heydər Əliyev medianı ideyalara inandırırdı. İdeyaları isə özü yaradırdı. Cəmiyyəti müqəddəs amallara köklədi. Ulu öndərin çıxışları, keçirdiyi tədbirlər ictimai mühitdə böyük canlanma yaratdı. Beləcə, həm də mətbuat üçün geniş mövzu bazası yarandı. Jurnalistikamız formalaşdı, cilalandı, möhkəmləndi. Bu prosesdə dayanıqlıq əzminin məğzini müstəqil dövlətçilik uğrunda mübarizə təşkil etdi. Ümummilli liderə inanan jurnalistlər mübarizənin ideya əsgərlərinə çevrilirdilər. Hər bir qələm sahibində qəti əminlik yarandı ki, Heydər Əliyevin dediyi fikir, söylədiyi söz ölkəmiz və xalqımız üçün həyati əhəmiyyətlidir.

Bəli, hər bir jurnalist özünü son dərəcə vacib missiyanı yerinə yetirən şəxsiyyət kimi təsəvvür edirdi. Çünki ulu öndər jurnalistlərə, ilk növbədə, şəxsiyyət kimi yanaşırdı. O dövrü yaxşı xatırlayıram. Dahi rəhbər hələ Naxçıvanda idi. Mən Bakıda AZƏRTAC-ın baş direktorunun birinci müavini vəzifəsində çalışırdım. Naxçıvandan olan xəbərlərlə bağlı tez-tez telefon zəngləri edərdim. Özü hər cümlənin yazılışına, söz sırasına xüsusi diqqət yetirərdi. Hər sözünə və kəlməsinə son dərəcə həssas yanaşardı. Heydər Əliyev şəxsiyyəti üçün mətbu sözün nə kimi böyük əhəmiyyət daşıdığını elə o zaman anladım.

Gənc idim, ancaq məndə yetkin şəxslərə xas əminlik yarandı. Sidq-ürəklə inandım ki, Heydər Əliyevin hər sözü dövlətimiz və xalqımız üçün vacibdir. Bu vacibiyyəti dərk edərək, bir jurnalist kimi püxtələşdim, necə deyərlər, yetişdim. Ulu öndərlə hər təmasım təcrübəmi artırdı. Bir jurnalist olaraq dövlətimə və xalqıma faydalı olmaq üçün nəyi və necə etməli olduğumun fərqinə vardım. Tam əminəm ki, ulu öndərlə söhbətləşmiş digər həmkarlarım da eyni hissləri keçiriblər və anadan olmasının 100-cü ildönümü kimi gözəl gündə, şübhəsiz, onların da bölüşməyə xatirələri, təəssüratları var. Elə təəssüratlar ki, onlar o zamanın gəncləri olaraq bizə həm də tariximizin bir parçasına çevrilmək xoşbəxtliyini nəsib edir.

***

Əvvəldə də vurğuladığım kimi, Heydər Əliyev idarəçiliyin özünü də media amilinə kökləyirdi. Medianı ideya cəhətdən hazırladığı kimi, onun missiyasını dövlətin idarəçiliyinə də gətirirdi. Prinsip bu idi: əgər dövlət idarəçiliyində xoşagəlməzliklər, mənfi hallar qalırsa, jurnalistlər ona reaksiya verməlidirlər. Jurnalist reaksiyası idarəçiliyə münasibəti formalaşdırırdı. Media orqanı tənqidi material qələmə alırdısa, deməli, nöqsan var və həmin nöqsanın aradan qaldıdırlması üçün səfərbərlik də mütləqdir. Beləcə, jurnalistika öyrənirdi. Öyrənməklə bərabər, ictimaiyyətə öz prinsiplərini – tərəfsizliyi, qərəzsizliyi, obyektivliyi və operativliyi aşılayır, öyrədirdi.

Əlbəttə, başlıca amil azad söz idi. Daha dəqiq ifadə etsək, söhbət sözü necə demək bacarığından gedir. Hər bir jurnalist ulu öndərin sözə önəmini anlayır və dərk edirdi. Bu mənada Heydər Əliyev şəxsiyyəti ilə media təmsilçiləri arasında qəribə bir bağ, izaholunmaz anlaşma yaranmışdı. O dövrdə mətbuata verdiyi çoxsaylı müsahibələrə nəzər salanda da bunu görmək mümkündür. Hər müsahibəsi bir dərs idi. Jurnalistlər onun fikirləri ilə maariflənirdilər. Bu maariflənmə azad sözün ifadə vasitələrini də zənginləşdirirdi.

Jurnalistlərimiz bilirdilər ki, hansı sualı, hansı məqamda ünvanlamaq, hansı məsələni necə diqqətdə saxlamaq vacibdir. İndi düşünəndə görürük ki, ulu öndər özü də cavablarında mövcud istiqamətdə tövsiyələr verir, sanki, fəaliyyət strategiyası müəyyənləşdirirdi. Bəzən diqqəti elə bir vacib məsələyə, daha doğrusu, elə bir mühüm məsələ ilə əlaqədar nüansa yönəldirdi ki, konkret hadisə və ya prosesə dair mənzərə gün kimi aydın olurdu. Jurnalistlər də həmin mənzərəyə uğun ictimai rəy formalaşdırırdılar.

Digər bir məqama diqqət yetirim. Yaxşı yadımdadır, Azərbaycan Prezidenti cənab İlham Əliyev jurnalistlər üçün inşa edilmiş binanın açılışındakı nitqində bildirmişdi ki, media təmsilçiləri biznesmen deyillər, gəlirləri azdır və özləri mənzil ala bilmirlər. Heydər Əliyev prezidentliyi zamanında dövlət başçımızın illər sonra dilə gətirəcəyi bu deyimi nəzərə alıb fəaliyyət göstərirdi. Buna görə özü, bilavasitə qanunvericilik təşəbbüsləri ilə çıxış edirdi, təklifləri dinləyir, hər bir məqamı hərtərfli nəzərdən keçirirdi. Mediamızın maddi-texniki bazasının möhkəmləndirilməsinə, jurnalistlərin qayğı ilə əhatə olunmasına çalışırdı. Bunun mexanizmlərini müəyyənləşdirirdi.

Bir qədər öncə mətbuatımızın azadlıq və istiqalal yolunda böyük xidmətlər göstərdiyini, lakin senzuranın mövcudluğu şəraitində özünün mütləq azadlığına qovuşmadığını vurğuladım. Əlbəttə, bunun obyektiv səbəblərinin mövcudluğu diqqətdən yayınmamalıdır. Ən böyük səbəb isə Ermənistanın Azərbaycana təcavüzü, torpaqlarımızın işğalı idi. Bu amil müharibə təhlükəsini qaçılmaza çevirmişdi. Müharibə isə həm də məhdudiyyət deməkdir. Məhdudiyyətin ağırlıq yükünü öz üzərində hiss edən ən mühüm ictimai institut mətbuatdır. Onun fəaliyyətinə, istər-istəməz, nəzarət edilməlidir.

Mətbuatın dövlətsizləşdirilməsi xəttini götürən ulu öndər xarakterinə xas əminliklə həmin nəzarəti tarixin arxivinə göndərməklə, jurnalistikanın, azad sözün qarşısında, tamamilə, yeni bir səhifə açdı. Elə bir səhifə ki, 1875-ci il iyulun 22-dən, yəni ilk milli nəşrimiz olan “Əkinçi”nin ərsəyə gəldiyi gündən həmin vaxtadək nəinki heç görünməmiş, heç təsəvvürə belə gətirilməmişdi.

Ulu öndər Heydər Əliyev “Azərbaycan Respublikasınada söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” 1998-ci il 6 avqust tarixli Fərmanı ilə ölkəmizdə senzuranı aradan qaldırmaqla, xəyalları gerçəkləşdirdi. Bu, son dərəcə böyük hadisə idi. Qeyd etdiyimiz müharibə təhlükəsinin sovuşmadığı bir zamanda belə bir qərarın verilməsi isə həm də böyük iradə və cəsarət tələb edirdi.

Fərmanın başlıca önəmi bu idi ki, ona əsasən, “Mətbuatda dövlət sirlərini mühafizə edən baş idarə” ləğv edilir, həmçinin Azərbaycan Respublikası Prezidentinin hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərmanı və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncamı qüvvədən düşmüş sayılırdı. Sənəddə, həmçinin ölkəmizin söz, fikir və məlumat azadlığının qorunması sahəsində müvafiq beynəlxalq sazişlərə qoşulmasından tutmuş, jurnalist kadrların peşə hazırlığının və təhsilinin yüksəldilməsinə, onlara vətəndaşlıq məsuliyyətinin və mənəvi dəyərlərin aşılanmasınadək, bir sıra məqamlar dolğun şəkildə əksini tapmışdı.

Həmin fərman, eyni zamanda, ulu öndərin jurnalistlərə inamı sayılmalıdır. Hesab edirəm ki, 1993-cü ildən 1998-ci ilədək olan müddətdə Heydər Əliyevin şəxsində dövlətlə media arasında bənzərsiz etimad bağı formalaşmışdı. Bu bağ vətəndaş cəmiyyətinin möhkəmlənməsini, hüquqi dövlət quruculuğunun dərinləşməsini, ən əsası isə müxtəlif platformalarda ölkəmizin haqq işinin dəstəklənməsini rəhbər tuturdu.



***

Medianın dövlətimizin və xalqımızın mənafeyi baxımından fəaliyyətini yüksək qiymətləndirən Prezident Heydər Əliyev 1999-cu ildə Azərbaycanda “Kütləvi informasiya vasitələri haqqında” Qanun imzaladı. Bu, postsovet məkanında media ilə bağlı barmaqla sayılacaq mütərəqqi dövlət sənədlərində biri, hətta, birincisi di.

Ulu öndərin 2000 və 2001-ci illərdə imzaladığı fərmanlar da xüsusi vurğulanmalıdır. Bunlardan biri “Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında” 27 mart 2000-ci il tarixli fərman idi. Mətbuatımızın keçdiyi yola müfəssəl baxışın ifadəsini tapdığı bu sənədə diqqət yetirəndə, gözlərimiz önündə mətbuatımızın yaranmasından həmin dövrə qədərki proseslər incəliklərinədək canlanır, ətraflı şərh olunurdu.

Əlbəttə, media cəmiyyətin maraqları naminə fəaliyyət göstərməli idisə, ona dəyər də vacib idi. Sözügedən fərman böyük dəyər nümunəsi kimi tariximizdə qalacaqdır. Həmin sənəd, eyni zamanda, yeni ənənənin də əsasını qoydu. Söhbət milli mətbuatımızın yubileylərinin keçirilməsi ənənəsindən gedir. Azərbaycan Prezidenti İlham Əliyevin milli mətbuatımızn 130, 135, 140 və 145 illik yubileylərinin qeyd edilməsini əsas tutan sərəncamlarını xatırlayaq. Bu sərəncamlar Heydər Əliyev siyasətinə varisliyin media seqmentinin vurğulanması baxımından müstəsna əhəmiyyət daşıyır. Onlar, həmçinin jurnalist əməyinə dəyər ənənəsində də davamlılıq nümunələridir.

Medianın dövlət və cəmiyyət naminə çalışması prinsip kimi götürülürdüsə, deməli, onun problemləri də aradan qaldırılmalı idi. Problemlərin həlli isə sahəyə fundamental yanaşmanı aktuallaşdırırdı. Bu mənada Prezident Heydər Əliyevin 20 iyul 2001-ci ildə imzaladığı “Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında” fərman xüsusi vurğulanmalıdır. Sənədə diqqət yetirəndə görürük ki, o, media fəaliyyəti ilə bağlı istək və arzuların dəqiq ifadə olunmuş platformasıdır. Yəni, biz mətbuatı, jurnalistikanı necə görmək istəyirik? Suala cavab bu dövlət sənədində əhatəli şəkildə əksini tapmışdı. Orada jurnalistlərin, kütləvi informasiya vasitələri ilə bağlı mütəxəssislərin beynəlxalq standartlara uyğun hazırlığı və ixtisaslarının artırılması ilə əlaqədar məsələlər də təsvir olunub.

Bu sənədin ruhundan irəli gələn məziyyətlərdən biri də bu idi ki, orada uzun müddət rəhbəri olduğum Azərbaycan Mətbuat Şurası ilə bağlı axtarışlar yer almışdı. Çünki ulu öndər medianın özünütənzimləmə strukturunun olmasına, onun dövlətsizləşdirilməsi xəttinin vahid model olaraq seçilməsinə ciddi önəm verirdi. Təsadüfi deyil ki, Prezident Heydər Əliyev Mətbuat Şurasının təsis edildiyi Azərbaycan jurnalistlərinin 2003-cü il martın 15-də keçirilmiş qurultayına təbrik məktubu ünvanlamış, ali məclisin işinə uğurlar arzulamışdı.

Ulu öndər Heydər Əliyev mətbuata misilsiz dəstək nümunələrinə görə “Jurnalistlərin dostu” mükafatının qalibi seçilmişdi. 2002-ci il martın 22-də Heydər Əliyev kimi nəhəng dövlət adamına bu mükafatı təqdim etmənin qürur və fəxarət hissini bu gün də xatırlayıram. Bu böyük şəxsiyyətin təqdimetmə mərasiminin keçirildiyi “Hyatt Regency” hotelinə gəlişi, sanki, kino lenti kimi gözümün önündədir. Tədbirdəki çıxışı isə həm peşəmizə önəmin nümunəsi, həm cəmiyyətə və dövlətə baxışın ifadəsi, həm də ayrıca jurnalistika dərsidir:

“…Mən sizinlə, jurnalistlərlə dost olmaq istəyirəm. Amma dostluq ikitərəfli şeydir. Gərək, iki tərəf də dost olmaq istəsin. İndi belə bir hadisə baş verib, iş belə gətirib ki, biz, iki tərəf də dost olmaq istəmişik. Amma gəlin danışaq ki, bu, daha pozulmasın, biz dost olaq, axıra qədər dost olaq. Mən dost olmaq istəyirəm”.

“Əmin edirəm ki, mən keçmişdə olduğu kimi, bu gün də o təhlükəsizliyin dostuyam və təhlükəsizliyin dostu olacağam”.

“Jurnalistika elə bir sahədir ki, ümumiyyətlə, tənqidlə məşğuldur, bütün başqa vəzifələri ilə bərabər, əsas məqsədi tənqid etmək, nöqsanları aşkar etmək, onların aradan qaldırılması üçün çalışmaqdır. Jurnalistika cəmiyyətdə həmişə bu işləri görüb, bu gün də görür və çox uğurla görür”.

“Mətbuat Azərbaycanda, həqiqətən, çox sərbəstdir, çox azaddır. Bu da o deməkdir ki, söz azaddır, fikir azaddır”.

“Biz bir xalqıq, bir xalqın övladlarıyıq. Bir millətik, bir millətin insanlarıyıq və bu cəmiyyətdə bir yerdə yaşayırıq. Heç bir yerə də getməyəcəyik, mən buradan çıxıb bir yerə getməyəcəyəm, sən də getməyəcəksən, niyə də gedək! Biz bir yerdə, bir Vətəndə, bir torpaqda, bir cəmiyyətdəyik. Bir cəmiyyətdə olduğumuz halda gərək, biz danışaq, fikir mübadiləsi aparaq, bir-birimizi anlamağa çalışaq”.

***

Heydər Əliyev şəxsiyyətinin jurnalistikaya yanaşması, ümumən, medianın qanunvericilik bazasının formalaşması və təkmilləşməsi istiqamətində imzaladığı qanunlar, verdiyi qərarlar Azərbaycanın bugünkü media siyasəti üçün çıxış nöqtəsidir. Bildirdiyim kimi, “Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında” fərman mətbuatla bağlı arzu və istəklərin dəqiq ifadə olunmuş forması idi. Prezident İlham Əliyev 31 iyul 2008-ci il tarixdə təsdiqlədiyi “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə dövlət dəstəyi Konsepsiyası” isə həmin arzu və istəklərin fundamental əsaslarla sistemləşdirilməsini hədəf seçdi.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin media, jurnalistika ilə bağlı baxışlarını özünün konseptual yanaşmaları ilə zənginləşdirdi. Bu yanaşmalar dövrün, zamanın tələbindən irəli gələn müasirlik obrazı qazandı. Onu da vurğulamaq lazımdır ki, cənab İlham Əliyevin sayəsində ümummili liderin jurnalistika ilə əlaqədar yanaşmalarındakı dövlətçilik xətti jurnalist fəaliyyətinin qayəsinə çevrildi. Məhz bunun nəticəsidir ki, ümummilli məsələlərdə jurnalistlərimiz daim həmrəylik nümayiş etdirdilər. 44 günlük Vətən müharibəsi bu baxımdan tarixi və taleyüklü sınaq idi və jurnalistlərimiz sınaqdan üzüağ, alnıaçıq çıxdılar.

Prezidenti İlham Əliyev, eyni zamanda, Heydər Əliyev şəxsiyyətinin media baxışlarına islahat mahiyyəti qazandırdı. Bu mahiyyət müasirləşmə üçün müstəsna təminatdır. Bu, habelə, Azərbaycanın media orqanlarının dünyanın kütləvi informasiya vasitələri ilə rəqabət aparmalarını təmin edən müstəsna faktordur. Nəticə etibarilə, hazırda Azərbaycan mediası regionda lider statusuna malikdir.

Bəli, ümummilli lider Heydər Əliyevin media siyasəti bu gün də dövlətimiz, xalqımız və dövlətçiliyimiz üçün xidmət amalına köklənib. Əminəm ki, bu dəstxətt Azərbaycan dövlətinin özü kimi əbədi olacaqdır. Heydər Əliyev şəxsiyyətinin qəlbimizdə qurduğu ümman kimi əbədi. Ulu öndəri böyük hörmət və etiramla anır, onun ruhu qarşısında baş əyirəm!

***Əflatun AMAŞOV,***
***“Xalq qəzeti”nin baş redaktoru***

# Heydər Əliyev peşəkar təhlükəsizlik zabiti kimi nəsillərə nümunədir

## Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevin müsahibəsi

**– Cənab general, sıx iş qrafikinizdə müsahibəyə vaxt ayırdığınıza görə təşəkkür edirik. Ümummilli lider Heydər Əliyevin 80 illik ömrünün 25 ili xüsusi xidmət orqanlarında fəaliyyətdə keçib. 100 illik yubiley ərəfəsində geniş ictimaiyyət üçün məhz bu fəaliyyətin təfərrüatları böyük maraq doğurur. İlk növbədə, Azərbaycan xüsusi xidmət orqanlarının 1950-ci illərə qədərki dövrünə tarixi ekskurs etmək istərdik. Sovet hakimiyyətinin ilk illərindən bu xidmət necə formalaşdırılırdı, azərbaycanlı kadrların işə qəbulu və onların xidmət göstərdiyi sahələr hansılar idi?**

– Bildiyiniz kimi, 104 illik tarixə malik xüsusi xidmət orqanlarımız öz başlanğıcını Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə, 1919-cu ilin mart ayının 28-də Hərbi Nazirliyin tərkibində yaradılmış Kəşfiyyat və əks-kəşfiyyat bölməsindən götürür. Ulu öndərin 1997-ci il mart ayının 23-də imzaladığı sərəncamla 28 mart gününün Azərbaycan təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü elan edilməsi məhz tarixi varisliyə əsaslanır. AXC-nin fəaliyyətinin qısa zamanı əhatə etməsinə baxmayaraq, ovaxtkı təhlükəsizlik orqanlarımız ölkəmizə qarşı yönələn xarici və daxili təhdidlərin qarşısının alınmasında mühüm işlər görmüşdür. Lakin Azərbaycanın bolşeviklər tərəfindən istilası ilə Xalq Cümhuriyyətinin digər təsisatları kimi bu orqanların da fəaliyyətinə son qoyulmuş və respublikada sovet ideologiyasına xidmət edən təhlükəsizlik qurumu yaradılmışdır. Ulu öndər Heydər Əliyevin də dediyi kimi, XX əsrin 20-ci, 30-cu, 40-cı illərində bu orqanlar xalqımızın milli kimliyinə böyük zərbələr vurmuşdur. Həmçinin bu orqanlarda rəhbər vəzifələrdə oturan şəxslərin başqa millətlərin nümayəndələrindən və Azərbaycan xalqına yad ünsürlərdən təşkil edilməsi təhlükəsizlik təsisatının milli maraqlardan uzaq bir təşkilat kimi formalaşmasına rəvac vermişdir. Lakin 1944-cü ildə təhlükəsizlik orqanlarında xidmətə başlayan və vəzifə pillələrində addım-addım irəliləyən Heydər Əliyevin 1950-ci illərin əvvəllərindən – Əks-kəşfiyyat şöbəsində rəhbər vəzifələrdə işlədiyi vaxtdan təhlükəsizlik orqanlarının tərkibinin milliləşdirilməsi, milli düşüncəli azərbaycanlı kadrların bu orqanlara cəlb olunması yönümündə fəaliyyəti o dövr üçün, heç şübhəsiz, böyük cəsarət və hünər tələb edən bir addım idi. Həmin illərdə azərbaycanlılar, əsasən, qeyri-əməliyyat sahələrində xidmət edirdi. Xidmətə qəbul və rəhbər vəzifələrə təyinat məsələlərinin Moskvada həll olunmasına baxmayaraq, Heydər Əliyevin misilsiz səyləri nəticəsində qısa zaman ərzində xüsusi xidmət orqanlarının tərkibi milliləşdi və ulu öndərin rəhbərliyi altında bu qurumun fəaliyyətinə önəmli töhfələr vermiş azərbaycanlı kadrlardan ibarət yeni nəsil yetişmiş oldu. Həmin əməkdaşlar bu orqanlara Heydər Əliyevin təşəbbüsü ilə qəbul edildikdən sonra kəşfiyyat və əks-kəşfiyyat sahələrində mühüm əməliyyat tapşırıqlarını uğurla icra etməyə başladılar.

**– 1950-ci ilin 25 avqustuna qədər gənc zabit Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında müxtəlif vəzifələrdə çalışırdı. Bəs onun həmin dövrün DTK naziri Yemelyanovun əmri ilə Bakıya – Azərbaycan SSR DTK-nın mərkəzi aparatına təyinatında hansı keyfiyyətləri rol oynadı?**

– Sirr deyil ki, Heydər Əliyevin dərin biliyə, iti zəkaya, geniş dünyagörüşünə malik olması hələ gənclik dövründən özünü büruzə verməyə başlamışdı. Malik olduğu fitri istedad, işgüzar və şəxsi keyfiyyətlər daim Heydər Əliyevi öz yaşıdları arasında fərqləndirmiş və çox qısa zamanda onun yüksək vəzifələrə təyinatına imkan vermişdir. O dövrdə Bakıda, Mərkəzi Aparatda bilikli, savadlı, geniş əməliyyat təfəkkürünə malik əməkdaşlara ciddi ehtiyac duyulurdu. Belə bir məqamda Heydər Əliyev kimi bir kadr burada işləyən rəhbər şəxslərin diqqətindən yayına bilməzdi. Beləliklə, Heydər Əliyev 1950-ci ilin avqustunda Azərbaycan



SSR Dövlət Təhlükəsizlik Nazirliyində bölmə rəisi vəzifəsinə irəli çəkilir. Mərkəzi aparata gəldikdən sonra burada da ətrafındakı əməkdaşlardan bütün cəhətləri ilə seçilməsi, bu orqanların xalqımızın milli mənəviyyatına ziyan vuran ünsürlərdən təmizlənərək yerli kadrların işə cəlb olunması üçün inadla fəaliyyət göstərməsi, əlbəttə ki, qurumun ovaxtkı rəhbər şəxsləri qıcıqlandırdığından onun bu fəaliyyətinə ciddi maneə törətməyə çalışırlar. Hətta bu amillər Heydər Əliyevin qısa bir zamanda vəzifə pilləsində aşağı salınması ilə də nəticələnir.

Lakin belə maneələr Heydər Əliyevi öz məqsədindən çəkindirə, yolundan edə bilməzdi. Çox keçmir ki, onun zəngin xidməti karyerasını ardıcıl vəzifə yüksəlişləri əvəz edir və o, 1958-ci ildə gənc yaşında Əks-kəşfiyyat şöbəsinin rəisi vəzifəsinə yüksəlir. Qeyd olunmalıdır ki, həmin şöbənin rəisi DTK Kollegiyasının üzvü olmaqla, bu şöbə əməkdaşların sayına və yerinə yetirdiyi işlərin həcminə görə ən böyük struktur vahidi sayılırdı.

**– Əli müəllim, ulu öndərin 30 yaşlarında Azərbaycan SSR DTK-nın 2-ci şöbəsinə rəhbərliyinin həmin dövrə qədər formalaşmış stereotiplərin qırılmasında əhəmiyyəti nə dərəcədə idi? Daha geniş yanaşsaq, Azərbaycan DTK-nın əks-kəşfiyyat işində nə dəyişdi?**

– Qeyd etməliyəm ki, ulu öndərin 1950-ci illərin əvvəllərindən təhlükəsizlik orqanlarının milliləşdirilməsi istiqamətində göstərdiyi səylər Əks-kəşfiyyat şöbəsinin rəisi kimi məsul bir vəzifəyə təyin olunduqdan sonra daha geniş vüsət aldı. Təsadüfi deyil ki, 50-ci illərin sonlarından başlayaraq 60-cı, 70-ci illəri Heydər Əliyevin birbaşa rəhbərliyi və sonralar da onun himayəsi altında təhlükəsizlik orqanlarının intibah dövrü adlandırırıq. Heydər Əliyev 2-ci şöbənin rəisi təyin olunduqdan sonra təhlükəsizlik orqanlarına qəbul olunmuş azərbaycanlı kadrların sayının durmadan artması, onun diqqət və qayğısı ilə bu sahədə yeni gənc nəslin yetişməsi, təbii ki, bu qurumun fəaliyyətinə müsbət təsirini göstərməklə yanaşı, ulu öndərin respublikaya rəhbərliyi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu vaxtlarda da təhlükəsizlik orqanlarının fəaliyyətinin səmərəli qurulmasını şərtləndirmişdir. Bunu sadəcə belə ifadə etmək olar ki, Heydər Əliyev bu addımı ilə, sanki, gələcək müstəqil Azərbaycan dövlətinin kadr potensialını yaradırdı.

**– Ümummilli liderin 1950–69-cu illərdə Azərbaycan SSR DTK-da şəxsən iştirak etdiyi və rəhbərlik etdiyi – “Duel”, “Alagöz”, “Naturalist”, “İzuver”, “Axito” və başqa əməliyyat oyunlarının regional və ümumittifaq əhəmiyyətini necə qiymətləndirə bilərik? Heydər Əliyevin məhz “çekist” kimi fəaliyyət miqyasını təsvir etsək, hansı mənzərənin şahidi olarıq?**

– Heydər Əliyev Azərbaycan SSR DTK-da işlədiyi vaxtlarda çoxlu sayda uğurlu əməliyyatlar keçirmişdir. Bunların sırasında “Naturalist”, “Duel”, “Axito”, “Alagöz” və s. bu kimi əks-kəşfiyyat işinin şah əsərləri sayıla biləcək əməliyyat kombinasiyalarını sadalaya bilərik. Qürurvericidir ki, bu gün Heydər Əliyevin adını daşıyan DTX-nin Akademiyasında həmin əməliyyat işləri gələcəyin əməkdaşlarına öyrədilir. Bütün bu əməliyyatlara aid sənədli materiallarla yaxından tanış olduqda onların qurulmasında mahir əks-kəşfiyyatçı izini, Heydər Əliyev dəst-xəttini, Heydər Əliyev peşəkarlığını görmüş olursan.

Keçirdiyi əməliyyatlarla bağlı əvvəlcədən qurduğu əməliyyat planları onun uzaqgörənliyinin, təhlil etmək bacarığının mücəssəməsidir. Necə deyərlər, bu bir elmdir, ustad dərsidir, şedevrdir. Bu fikirlər vaxtilə Heydər Əliyevlə birgə çiyin-çiyin çalışmış və iş üslubuna yaxından bələd olan veteran əməkdaşlarımız, xidməti ərzində yolları bu dahi şəxsiyyətlə kəsişmiş digər şəxslər tərəfindən də birmənalı olaraq etiraf edilir. Sadalananlar həm ölkə daxilində, həm də onun sərhədlərinin xaricində Heydər Əliyevi peşəkar təhlükəsizlik zabiti kimi tanıdır və xarakterizə edir.

**– Sovetlər İttifaqının sonu, müstəqilliyin bərpasının ilk illərinə nəzər salsaq, Azərbaycana qarşı həm siyasi, həm ideoloji cəbhədə total hücumları görərik. Heydər Əliyevin Siyasi Bürodan istefasından sonra Azərbaycana qarşı ərazi iddiaları hərb müstəvisinə keçdi. Hətta SSRİ DTK-nın mümkün planları reallaşdırıldı – 1988-ci il Sumqayıt hadisələrini nümunə çəkə bilərik. 2 il sonra imperiyanın 20 Yanvar faciəsi törədildi. Bütün bu proseslər Lider fenomeninin yoxluğu nöqteyi-nəzərindən necə görünür?**

– Məlumdur ki, Heydər Əliyevin Sovetlər İttifaqı rəhbərliyindən qərəzli şəkildə, müxtəlif səviyyələrdə böhtan kampaniyası aparılmaqla uzaqlaşdırılması Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələri fəallaşdırdı. İttifaqın tərkibinə daxil olan xalqların öz azadlığına qovuşmaq arzusunu beşiyində boğmağa çalışan Moskvada hakimiyyət başında oturan bəzi qüvvələr millətlərarası nifaq toxumu səpməklə yeni münaqişə ocaqlarının yaranmasına çalışırdı. Təbii ki, Azərbaycan da bu planlardan kənarda deyildi. Heydər Əliyevin siyasi hakimiyyətdən kənarlaşdırılması ermənilərin soydaşlarımıza qarşı etnik təmizləmə prosesi aparmasına, Sumqayıt və 20 Yanvar hadisələri kimi qanlı hadisələrin törədilməsinə şərait yaratmış oldu. 1988-ci ildə Qarabağ ətrafında başlanan təlatümlü hadisələrin münaqişə ilə müşayiət olunaraq torpaqlarımızın Ermənistan tərəfindən işğala məruz qalması ilə nəticələnməsi isə tariximizin qan yaddaşına çevrilmiş oldu.

Bütün bunlar, təbii ki, o dövrdə Azərbaycanda güclü siyasi liderə ehtiyacın nə dərəcədə olduğunu bütün çılpaqlığı ilə nümayiş etdirdi. Həyatı hər an təhlükədə olan Heydər Əliyevin o dövrdə Azərbaycan xalqına qarşı törədilən qırğınlarla bağlı millətinin səsinə səs verərək bütün dünya birliyinə baş verən hadisələrə siyasi-hüquqi qiymət verilməsi üçün çağırış etməsi bu şəxsiyyətin böyüklüyünü bir daha göstərmiş oldu.

Lakin təəssüflər olsun ki, ulu öndərin həyatına təhlükə yaradılması üçün nəinki mərkəz Moskvadan, həmçinin ölkə daxilində olan bəzi məkrli qüvvələr tərəfindən də bəzi planlar cızılır, ovaxtkı səriştəsiz və bacarıqsız hakimiyyət nümayəndələri Heydər Əliyevin Bakıya gəlməyinə hər vəchlə mane olmaqla kifayətlənməyərək, onu həyatına son qoyacaqları ilə də hədələyirdilər.

**– 1990-cı ildən xalq azadlıq mübarizəsini məntiqi sonluğa çatdırmaq üçün güvəndiyi liderə ehtiyac duyurdu. Həmin ilin iyulundan ulu öndər Heydər Əliyev Moskvadan Bakıya, 2 gün sonra Naxçıvana dönür. Bu dövr, Heydər Əliyevin 1990-93-cü illərdəki Naxçıvanda fəaliyyəti azərbaycançılıq məfkurəsinin reallaşdırılmasının nümunəsi kimi necə qiymətləndirilə bilər?**

– Bəli, qeyd etdiyiniz illər ulu öndərin Naxçıvan MR-dəki fəaliyyəti ilə əlamətdardır. Lakin vurğulanmalıdır ki, Naxçıvan camaatının hərtərəfli dəstəyini öz üzərində hiss edən və yekdil səslə Naxçıvan Ali Məclisinin Sədri seçilən Heydər Əliyevin ömrünün ən qayğılı və ağrılı-acılı günləri də məhz bu dövrə təsadüf edir. Müstəqilliyinin itirilməsi və vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalan Azərbaycanın gələcək naməlum taleyi onun ürəyini göynədirdi. Mən bu məqamda ulu öndərlə bağlı şəxsi xatirəmi də bölüşmək istərdim.

Mən o illərdə Milli Təhlükəsizlik Nazirliyinin Nərimanov rayon şöbəsinin rəisi vəzifəsində xidmət edirdim. Vəziyyət elə gətirdi ki, həvalə olunmuş əməliyyat tapşırığının icrası ilə əlaqədar 1993-cü ilin aprel ayında Naxçıvan şəhərinə getməli oldum. O zaman Naxçıvan MR-in milli təhlükəsizlik naziri Abbas Əsgərov idi. Onunla görüşdüm və verilmiş əməliyyat tapşırığının icrasına dair geniş fikir mübadiləsi apardıq. Sonra A.Əsgərov gəlişim barədə Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevə telefonla zəng edərək məruzə etdi. Abbas müəllim dəstəyi yerə qoyan kimi Heydər Əliyevin məni qəbul etmək istədiyini bildirdi. Sözün açığı, bu mənim üçün gözlənilməz oldu. Ulu öndərlə həmin görüşdə onun ölkənin düşdüyü böhranlı vəziyyətdən, muxtar respublikanın blokada şəraitində qalmasından nə dərəcədə narahat olduğu, belə vəziyyətin onu nə qədər incitdiyi açıq-aydın sezilirdi.

Eyni zamanda, o, söhbət əsnasında vaxtilə təhlükəsizlik orqanlarında özünün gərgin səyləri ilə formalaşdırdığı kadr korpusundan əsər-əlamət qalmadığını, böyük zəhmətlə yetişdirdiyi peşəkar əməkdaşların bir çoxunun fəaliyyətlərindən qərəzli şəkildə uzaqlaşdırılmalarını xüsusi vurğulamışdı. Ulu öndərin bu orqanda o dövrdə hökm sürən belə vəziyyəti necə dərin təəssüf hissi ilə qarşıladığını görməmək mümkün deyildi.

**– Ulu öndərin 1993–2003-cü illər müstəqil Azərbaycanın Prezidenti kimi fəaliyyəti dövrünə nəzər salaq: ömrünün 25 ilini xüsusi xidmət orqanlarına həsr etmiş liderin xüsusi, tarixi, milli prioritetlərinin xarici siyasətin qurulmasında və ölkənin informasiya, iqtisadi, hərbi blokadadan çıxarılmasında rolu barədə fikirlərinizi öyrənmək istərdik?**

– Ulu öndərin xalqın təkidli tələbi ilə növbəti dəfə siyasi hakimiyyətə qayıdışı Azərbaycanın ikinci intibah dövrünə qədəm qoymasına səbəb oldu. Ölkəmizin təhlükəsizliyinə qarşı yönəlmiş qüvvələrə qarşı uğurlu əməliyyatlar həyata keçirildi, sabitlik və əmin-amanlıq təmin edildi, Ermənistanla atəşkəsə nail olundu. Reallaşdırılan yeni iqtisadi layihələr, aparılan uğurlu daxili və xarici siyasət kursu ilə ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoydu. Heydər Əliyevin rəhbərliyi altında respublikamız yüksələn xətlə inkişaf etməyə başladı. Təbii ki, bu yüksəliş təhlükəsizlik orqanlarının da fəaliyyətində öz sözünü dedi. Bu orqanların fəaliyyətinin səmərəli qurulması, kadr potensialının formalaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atıldı.

O dövrlər həmçinin təhlükəsizlik orqanlarımızın tarixində ulu öndərin şəxsi heyətlə görüşləri ilə yadda qalmışdır. Bunların sırasında 1997-ci ilin 28 iyun tarixində Milli Təhlükəsizlik Nazirliyinin akt zalında təhlükəsizlik orqanlarının əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş tədbiri xüsusi qeyd etmək istərdim. Təntənəli mərasimdə ümummilli liderimizin bir neçə saat yorulmadan söylədiyi nitqi bir həyat dərsi, eyni zamanda bu orqanların tarixinə bir ekskursiya adlandırsam yəqin ki, yanılmaram. O görüşdə ulu öndərin səsləndirdiyi dəyərli fikirlər o dövrün gənc əməkdaşları olan bizlərə verdiyi öyüd-nəsihətlər bu günədək xatirimdədir.

**– Ümummilli lider Heydər Əliyev çıxışlarından birində demişdi ki: “müstəqilliyi qazanmaq nisbətən asandır, onu qorumaq, möhkəmləndirmək qat-qat çətindir”. 2023-cü ilin reallığından baxdıqda, bu ifadənin xüsusi xidmət orqanlarına aid hissəsi nədən ibarətdir? Mövcud geosiyasi vəziyyətdə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və gələcək nəsillərə ötürülməsi istiqamətində xüsusi xidmət orqanlarının üzərinə düşən missiya necə reallaşdırılır?**

– Bildiyiniz kimi, müasir dövrümüzdə qlobal təhlükəsizliyimizə çoxsaylı təhdidlər mövcuddur. Yeni müharibə və münaqişə ocaqları, terrorçu və ekstremist qüvvələrin öz fəaliyyətlərini aktivləşdirməsi, regionumuzun bəzi ölkələrinin xüsusi xidmət orqanlarının ölkəmizə qarşı pozuculuq fəaliyyətini həyata keçirməsi cəhdləri bizi daim ayıq-sayıq olmağa sövq edir.

Bu gün möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda müasir çağırışlara adekvat cavab verə bilən təhlükəsizlik sistemi qurulmuşdur. Dövlətimizin başçısı tərəfindən milli təhlükəsizliyimizin etibarlı təmin olunması üçün qarşıya mühüm vəzifələr qoyulmuşdur. Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti bu vəzifələrin öhdəsindən layiqincə gəlmək əzmində və gücündədir.

Xalqımızı və müzəffər Ali Baş komandanı əmin edirik ki, ulu öndərin peşəkarlıq məktəbini layiqli şəkildə davam etdirərək gecə-gündüz yorulmadan çalışan Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları bundan sonra da respublikamızın müstəqilliyinə, ərazi bütövlüyünə, suverenliyinə, təhlükəsizliyinə yönələn hər cür plan və niyyətlərin qarşısını qətiyyətlə alacaqdır!

**– Əli müəllim, maraqlı müsahibə üçün təşəkkürümüzü bildiririk.**

***Müsahibəni aldı:***
***Rüfət HƏMZƏYEV,***
***“Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini, jurnalist***



# “Ulu öndərin haqqını heç vaxt itirmərəm...”

**“Heydər Əliyev xatirələr işığında” layihəmiz davam edir. Bugünkü qonağımız uzun illər ulu öndər Heydər Əliyevin rəhbərliyi altında işləmiş, onun göstərdiyi etimadı ləyaqətlə doğrultmuş Abid Şərifovdur. Sovet Azərbaycanında tikinti ustası vəzifəsindən müstəqil Azərbaycanda Baş nazirin müavini vəzifəsinə qədər yüksələn, rəhbər vəzifələrə bilavasitə Heydər Əliyevin irəli çəkdiyi Abid müəllim öz himayədarı haqqında xatirələrini bizimlə bölüşməyi həm də bir şərəf borcu saydığını bildirdi və elə ilk sözü bu oldu ki, o kişinin haqqını heç vaxt itirmərəm.**

***– Abid müəllim, dahilərlə ilk tanışlıq yaddaşa əbədi yazılan xatirəyə çevrilir. Sizin dahi Heydər Əliyevlə əbədi xatirənizin tarixi hardan başlayır?***

– Ulu öndər Heydər Əliyevi 1972-ci ildə tanımağa başlamışam. O zaman “Bakıbaştikinti” İdarəsinin 23 saylı müəssisəsinə rəhbərlik edirdim. Birinci və ikinci hökumət bağlarının bəzi obyektlərinin tikintisi bizim idarəyə həvalə edilmişdi. Elə o zamandan bütün Azərbaycan üçün canlı əfsanə olan Heydər Əliyev məni, çox az tanınan Abid Şərifovu ilk gündən mütəxəssis, bununla yanaşı, bir insan kimi tanımağa başladı. Biz hökumət bağlarında obyektlərin tikintisini aparanda Heydər Əliyev tez-tez ora gələr, işlərin gedişi ilə maraqlanar, göstərişlər verərdi. Onda hiss etdim ki, siyasi rəhbər olmasına baxmayaraq, bu insanın tikinti və memarlıq sahəsində mükəmməl biliyi və gözəl zövqü var.

O zamanlar dövlət bağ tikməyə icazə vermirdi. Ona görə də Heydər Əliyev ikinci hökumət bağında evlər tikilməsinə və rəhbər işçilərə paylanmasına göstəriş vermişdi. Yaxşı yadımdadır, ikinci dövlət bağında sonuncu binanı tikirdik. Binanın üst qatında ümumi istirahət üçün taxtadan xüsusi konstruksiya nəzərdə tutulmuşdu. Bütün bu işlərə də Süleyman Tatlıyev rəhbərlik edirdi. O zaman Süleyman müəllim Nazirlər Sovetində aparatın rəhbəri idi.

Layihədə verilmiş və xüsusi ölçüdə olan taxta tapa bilmirdik. Bazar günü idi, Heydər Əliyev obyektə gəlmişdi və birbaşa bizim yanımıza qalxdı. Süleyman müəllim ona müraciət edib dedi: “Heydər Əliyeviç bu taxta konstruksiyalar tapılmır. Olarmı, biz bu hissəni ümumiyyətlə tikməyək?”

Dərhal cavab verməyə tələsməyən bir qısa sükutdan sonra sözünə başlayan ulu öndərin cavabı heç yadımdan çıxmaz. Dedi: “Siz bir şeyi başa düşmürsünüz. Bizim nazirlərimiz, raykom katiblərimiz telefonda belə, bir-biriləri ilə lazım gələn problemləri müzakirə etmirlər. Mən dedim belə bir guşə tiksinlər ki, bəlkə onlar bura istirahətə gələndə qalxıb burda bir çay içsinlər, ünsiyyət qursunlar, mehribançılıq yaransın”. Onun dediyində böyük həqiqət vardı. Elə bu günün özündə də belə şeylər az deyil...

Bundan bir müddət sonra, 1978-ci ildə Nazirlər Soveti sədrinin mavini, çox gözəl və yaradıcı insan olan Əliş Ləmbəranski bizim baş idarənin rəisi Sabir Rzayevə dedi: “Heydər Əliyevin xüsusi tapşırığı var. Abid o tapşırığı icra etmək üçün ləngimədən Ulyanovsk şəhərinə getməlidir. Orada Nəriman Nərimanovun abidəsi ucaldılmalıdır. Abidənin açılışına Heydər Əliyev şəxsən özü gedəcək”.

Bütün işləri biz görməli olduğumuz üçün mühəndis, briqadir və ustalardan ibarət komandanı topladım. Zarafat deyil, Ulyanovsk şəhərinin mərkəzində Nərimanov şossesinin başlanğıcında azərbaycanlı siyasi xadimə heykəl ucaldılacaqdı. Ləmbəranski dedi: “Heydər Əliyev tapşırdı ki, Abid gedib birinci Ulyanovsk vilayət partiya komitəsinin birinci katibi və başqa rəhbər şəxslərlə görüşüb məsələni dəqiqləşdirsin”.

Sonra öyrəndim ki, Ulyanovskda Leninin yubileyi keçiriləndə Brejnev də orda iştirak edib. Heydər Əliyev bu tədbirdə onunla görüşüb və söhbət əsnasında Ulyanovsk şəhərində Nəriman Nərimanovun abidəsinin ucaldılmasının razılığını alıb. Bu razılıq da yazılı şəkildə protokollaşdırılıb. İndi vaxt gəlib çatıb, layihə və heykəl hazırdır. Mən gedib abidənin qoyulması üçün layihədə nəzərdə tutulan işləri görməliyəm.

Tapşırılan kimi Ulyanovska gəlib vilayət partiya komitəsinin rəhbərliyi ilə görüşdüm. Sənədləri axtarıb tapdılar. Onlarla birlikdə gedib abidənin qoyulacağı yerlə tanış olanda, gördük orda böyük bir yanacaqdoldurma məntəqəsi var. Mən də vilayətin rəhbərliyinə demişəm ki, bizə vaxt qoyulub, 3 aya işləri tamamlamalıyıq. Həmin vaxtlarda da Heydər Əliyev artıq Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəddir.

Dərhal hərəkətə keçdilər. Birinci işimiz həmin yanacaqdoldurma məntəqəsini sökmək oldu. Burada yerə basdırılmış böyük yanacaq çənləri vardı. Onları çıxardıq və yerlərini torpaqla doldurub tikintiyə başladıq. Heydər Əliyev Ləmbəranskiyə tapşırmışdı ki, hər həftə tikintinin gedişi haqqında məlumat versin. Mənə tapşırılan kimi də edirdim və hər həftə sonu Ləmbəranskiyə ətraflı məlumat verirdim.

İşi başa çatdırdıq. Abidə açılışa, demək olar, tam hazırdır. Xirda kosmetik işlər qalıb. Bir gün axşam yenə Bakıya zəng vurub məlumat vermək üçün danışıq məntəqəsinə gedirdim. Ulyanovskda da artıq şaxtalar başlamışdı və hava çox soyuq idi. Taksi dayanacağına tərəf gedirdim. Səkiyə qalxanda ayağım sürüşdü və yıxıldım. Dörd qabırğam sındı. Xəstəxanaya apardılar. İki-üç gün burada qalandan sonra baxdım ki, tibb personalı heç bir müalicə etmir. Birtəhər çıxıb Bakıya qayıtdım. Bundan 10 gün keçməmiş, yanılmıramsa, noyabrın ortalarında Heydər Əliyev Ulyanovsk şəhərinə gedib abidənin açılışını etmişdi. Sonra mənə dedilər ki, Heydər Əliyev səni soruşdu. Onlar da yıxıldığımı deməyib, sadəcə, bildiriblər ki, xəstələnmişəm.

***– Məsələ bununla bitdimi?***

– Yox.. Ulyanovsk ezamiyyətindən bir müddət sonra bəzi məsələlər haqqında danışdıqlarım çalışdığım qurumun rəhbərliyinin xoşuna gəlməmişdi və bu üzdən söhbətimiz alınmadı. 1979-cu ilin ortalarında Süleyman Tatlıyev məni yanına dəvət etdi. Elə ilk sözü bu oldu ki, “Nazirlər Sovetində işləməyə gələrsənmi? Amma kişinin sənə bir tapşırığı var. Bir obyekt var, biz onu Heydər Əliyevin tapşırdığı müddətdə tikib təhvil verməliyik. Bir məsələ də var ki, binanın tam iş layihəsi yoxdur. İşlərin gedişi ilə paralel layihələr veriləcək və onların əsasında tikintini aparmalısan”.

Razılaşdım. Mənim iş yerimin adı oldu Nazirlər Soveti, amma mən indiki Prezident Administrasiyası ilə üzbəüz, “Yaşıl teatr”ın yanındakı qonaq evinin – sonradan “Ağ ev” deyilən binanın tikintisini həyata keçirməyə başladım. Gecəli-gündüzlü işləyirdik. Bilirdim ki, Heydər Əliyevin tələbləri çox ciddidir, memarlıq və tikinti işlərinə xüsusi yanaşması var, hər şey zövqünə uyğun olmalıdır.

Əslində belə nəhəng bir binanı 1 il, 1il 3 aya tikmək o dövr üçün ağlabatan bir şey deyildi. Ona görə də Tatlıyev, demək olar hər gün işdən sonra tikinti obyektinə gələrdi. Heydər Əliyev də bir-iki dəfə özü gəlib işlərin gedişi ilə yaxından maraqlanmışdı. Bir gün Tatlıyevə müraciət edib dedim: “Süleyman müəllim, olarmı bir gün Heydər Əliyeviç gələndə ona deyəsiniz ki, hər bazar günü yolunu burdan salsın?” Süleyman müəllim mənim xətrimi çox istəyirdi və bunu deyəndə duruxdu, sonra qayıtdı ki, “Abid, sən dərk edirsən nə danışırsan? Yox, mən ona belə şeyi deyə bilmərəm”. Dedim: “Onda icazə verin mən deyim”. Soruşdu ki, “axı, hər bazar bura niyə gəlməlidir?” Dedim: “Süleyman Bayramoviç ona görə ki, elə ola bilər biz bir yeri tikib qurtaraq, Heydər Əliyeviç gəlib onu bəyənməsin və məcbur olub onu sökək, təzədən tikək. Bu olmasın deyə, hər bazar gəlsin ideyanı versin, istəklərini bildirsin, biz də onun dediyi kimi tikintini aparaq”. Dedi: “Yox, yox, mən deyə bilmərəm”.

Heydər Əliyev gələndə obyekti başdan-başa gəzirdi və görülən bütün yeni işləri diqqətlə nəzərdən keçirirdi. Həmişə də tək gəlirdi. Süleyman Tatlıyev, Rauf Əskərov və layihənin müəllifi Rasim Əliyev də orda iştirak edirdilər. Bazar günlərinin birində Heydər Əliyev gələndə ona yaxınlaşdım. Düzünü deyim ki, çox qorxurdum. Dedim: “Yoldaş Əliyev sizdən bir xahiş etmək olar?” Dedi: “Söylə görüm nə istəyirsən?” Dedim: “Olarmı hər bazar günü bura gəlib qeydlərinizi, göstərişlərinizi verəsiniz? Qorxuram nəyisə düz eləmərik, sonra söküb təzədən tikməli olarıq. Vaxt da qısadır”. Bir anlıq düşündü, gülümsünüb dedi: “Yaxşı, gələrəm”. Açığı bu cavabdan çox sevindim. Təsəvvür edin də hər bazar günü Azərbaycan KP MK-nın birinci katibi, Sov.İKP MK Siyasi Büronun üzvlüyünə namizəd, haqqında əfsanələr dolaşan bir şəxsiyyətlə hər bazar günü üz-üzə gəlirsən, ona gördüyün işlər haqqında məlumat verirsən, ünsiyyətdə olursan, onun fikirlərini eşidirsən. Həqiqətən, dediyi kimi də etdi və hər bazar günü obyektə gəlirdi.

İş başa çatmışdı. Bina açılışa tam hazır idi. Büro üzvlərinin hamısını obyektin açılışına dəvət ediblər. Burada iş başa çatdığı üçün mən artıq başqa yerdə işləyirdim, amma açılışa mən də dəvət olunmuşdum. Dəvət olunanlardan heç kim içəri keçmir və həyətdə dayanıb gözləyirlər. Süleyman Tatlıyevdən soruşdum: “Süleyman Bayramoviç niyə içəri girmirlər?” Dedi: “Kişi gəlməsə, kim içəri girər!” Rauf Əskərov, Rasim Əliyev və mən bir kənarda durmuşuq.

Heydər Əliyev gəldi və binaya girəndən sonra hamı bunun ardınca içəri keçdilər. Gəzdilər, bina ilə tanış oldular. Binanın birinci mərtəbəsində, daha doğursu, yarımzirzəmidə mağara kimi çox da böyük olmayan qeyri-adi bir otaq vardı. Bu otağı biləvasitə Heydər Əliyevin tapşırığı və dediyi üslubda tikmişdik.

***– Abid müəllim, yəqin ki, bu, Heydər Əliyevin sovet dönəmində sizə son tapşırığı olmadı?***

– Əlbəttə, son tapşırıq olmadı. Bu hadisədən 15-20 gün sonra məni yanına dəvət etdi. Dedi: “Abid, fikirləşib, belə qərara gəlmişəm ki, sənin iş yerini dəyişəm. Səni SSRİ Nəqliyyat və Tikinti Nazirliyinin “Azərnəqliyyattikinti” trestinin rəisi vəzifəsinə təyin edirəm. Artıq mənim zəmanət məktubum Moskvaya gedib. Nazirin sənin haqqında məlumatı var. Gedəcəksən Moskvaya, səni nazirliyin kollegiyasında bu vəzifəyə təsdiq edəcəklər. Sov.İKP MK-nın aparatında da müvafiq şöbədə də müsahibədən keçməlisən. Ancaq sənə bir tapşırıq verirəm. Mərkəzi Komitənin binasının tikintisi çox pis gedir. Sən bu işi öz üzərinə götürməlisən və vaxtında yüksək səviyyədə yerinə yetirməlisən”.

Təklif edilən trest çox böyük bir qurum idi. Hətta Azərbaycanın bir çox nazirliklərinin tikdiyi obyektlərdən də nəhəng obyektlərin tikintisi ilə məşğul olurdu. Dedim: “Heydər Əliyeviç, nə tapşırıq verirsiniz tam vaxtında icra etməyə çalışacağam”. Onunla 40 dəqiqədən artıq söhbətimiz oldu...

Moskvaya gedib müsahibədən keçdim, təyinatımı aldım və gəlib işləməyə başladım. “Abşeron” hotelin, Mərkəzi Komitənin, Onkoloji Xəstəxananın, Dövlət Təhlükəsizlik Komitəsinin binalarını və bir çox digər obyektlərin tikintisi bizim tres tərəfindən həyata keçirilirdi. Əslində bizim əsas vəzifəmiz bina tikmək deyildi, nəqliyyat obyektlərinin tikintisini həyata keçirmək idi.

***– Azərbaycanda nəqliyyat sahəsində də həmin illərdə quruculuq işlərinə böyük ehtiyac var idi. Bu sahədə Heydər Əliyev sizə hansısa layihənin icrasını həvalə etmişdimi?***

– Ümumiyyətlə, həmin illərdə Qazaxıstanda, Türkmənistanda, Dağıstanda və Azərbaycanda dəniz nəqliyyatı sahəsində bütün obyektləri biz tikirdik. Bu işlər elə də asan başa gələsi işlər deyildi. 1980-ci illərin əvvəli olardı, Yevlax-Balakən dəmir yolu layihəsinin tikintisi məsələsi ortaya çıxdı. Yəni layihənin ideya müəllifi Heydər Əliyev idi və daim onun nəzarəti altında idi. Dedi: “Abid, bu yolu ən qısa vaxtda tikib başa çatdırmaq lazımdır”. Dedim: “Baş üstə, yoldaş Əliyev”. Amma bir müddət sonra Heydər Əliyev Moskvaya getdi.

1985-ci ildə Yevlax – Balakən dəmir yolunun tikintisini də başa çatdırdıq. Amma artıq məlun Qorbaçov Heydər Əliyevi bütün vəzifələrdən uzaqlaşdırmışdı. Dəmir yolunun açılışında belə bir ənənə var, qatar bir yeni stansiyadan digər yeni stansiyaya yola düşəndə onu çəkib, o vaxtkı ittifaq televiziyasının “Vremya” xəbərlər proqramında göstərirdilər. Obyekt hələ tam qurtarmamışdı, amma bu mənim nömrəm idi. O vaxt Mais Məmmədov SSRİ televiziyasının Azərbaycan üzrə xüsusi müxbiri idi və onunla yaxın dostluq münasibətimiz vardı. Mais bilirdi ki, Heydər Əliyev mənə çox böyük dəstək verib, vəzifəyə irəli çəkib. Dedim: “Mais gəl yolun açılışını çək, “Vremya”da göstər”. Mən də Heydər Əliyevin böyük bir portretini lokomotivin qabağına yapışdırdım. Bəziləri mənə hədə-qorxu da gəldi ki, “Abid, Qorbaçov xəbər tutsa, sənin işin fırıq olacaq”. Dedim: “Nə olar, olsun, mən bilirəm ki, bu Heydər Əliyevin layihəsidir, onun başa çatması da onun xidmətidir. Onun buna haqqı çatır”. Mais də bunu çəkib “Vremya” proqramına ötürdü, onlar da bunu açıq şəkildə göstərdilər.

***– Heydər Əliyevin Moskvaya, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə getməyini necə qarşıladınız?***

– Bir tərəfdən sevinirdim, digər tərəfdən istəmirdim o Bakıdan getsin. Bunu elə o vaxt ona dedim. Necə?

1982-ci ildə Heydər Əliyev artıq Azərbaycan ictimaiyyəti ilə sağollaşıb Moskvaya yola düşəcəkdi. Onun köməkçiləri vardı – Rafael Allahverdiyev və Mixail Zabelin. İkisini də çox gözəl tanıyırdım. Cümə günü idi. Rafael Allahverdiyevə zəng vurub dedim ki, “kişiynən görüşmək istəyirəm”. Dedi: “Abid, sən nə danışırsan? İndi Heydər Əliyeviçin heç kimi, hətta qohumlarını belə qəbul etməyə vaxtı yoxdur. Yalnız bəzi kollektivləri qəbul edir. Bir-iki günə Moskvaya yola düşür”. Bilirdim ki, həqiqətən də, yola düşməyə hazırlıq gedirdi.

Rafaellə münasibətimiz çox yaxşı idi. Dedim: “Rafael, sən gəl mənə nağıl danışma, sənin borcun mənim sözümü o kişiyə çatdırmaqdır. Deynən, qəbul etməsə də canı sağ olsun, qəbul etsə də sağ olsun. Mənim borcumdur o kişiyə hesabat verim”...

Şənbə günü Rafaeldən xəbər çıxmadı. Bazar günü idi. Nasosnuda dəmiryolunun obyektləri var idi. Çox çətin obyektlər sayılırdı. Uzun müddət idi tikilirdi, başa çatmırdı. Getmişdim ora, oğlum da uşaq idi, özümlə aparmışdım. O vaxt tramvay parkı ilə üzbəüz binada yaşayırdım. Nasosnudan qayıdıb evə gəlirdim. Həyətə təzə çatmışdım, yoldaşım balkondan mənə səsləndi ki, “qalxma, qalxma, saat 3-də Mərkəzi Komitədə olmalısan. Səni gözləyirlər”.

Dərhal maşını sürdürdüm Mərkəzi Komitəyə. Qəbul otağında oturmuşdum, heç 15-20 dəqiqə keçmədi, Heydər Əliyev məni qəbul etdi. Kabinet bomboş, hər yan yığışdırılıb. Dedi: “Abid, nəsə bir sözün, xahişin var?” Dedim: “Yox. Gəldim bu iki ildə gördüyüm işlər barədə sizə məlumat verim”. Dedi: “Ehtiyac yoxdur. Mən sənin işindən razıyam”. Sonra soruşdu ki, “Plenumda oldun?” Plenum da onun yerinə Azərbaycanın KP MK-ya birinci katibin seçilməsi ilə bağlı idi, həm də Heydər Əliyev partiya fəalları ilə sağollaşırdı. Dedim: “İştirak edirdim”. Dedi: “Camaat necə baxırdı mənim getməyimə?” Dedim: “Necə baxacaqlar, ağlaşırdılar. Elə mən də ağlamışam bütün plenum boyu”. Həqiqətən, ağlamışdım, çünki onu həmişə özümə arxa bilmişdim. Dedi: “Yeni birinci katibin təyinatına münasibət necə oldu?” Dedim: “Heydər Əliyeviç, öz yetişdirdiyiniz kadrdır, necə baxarlar, əlbəttə yaxşı”. Beləcə, söhbətimiz başa çatanda dedi: “Sağ ol. Sənə bir şey lazım olsa, problemin olsa, mənə məlumat ver”.

***– Abid müəllim, sizin nəzərinizdə Heydər Əliyev Azərbaycan üçün nə qədər böyük şəxsiyyətdir?***

– Heydər Əliyev Azərbaycan üçün misilsiz bir şəxsiyyət, əvəzsiz bir dövlət xadimidir. Ölkəmizdə hələ də çox insanlar Heydər Əliyevin Azərbaycan üçün nə qədər böyük və misilsiz işlər gördüyünü dərk edə bilmirlər. Onun həyata keçirdiyi nəhəng layihələrin bir neçəsini sadalamaq istəyirəm. Elə başlayaq neft sektorundan. Əgər iqtisadiyyatdan az-çox baş açan adamlar varsa, yəqin ki var, onlar mənim dediklərimi yaxşı başa düşərlər. Bir şeyi dəqiq bilirəm ki, əgər Azərbaycanda Heydər Əliyevin tikdirdiyi Dərin Özüllər zavodu olmasaydı, Allah bilir bizim işimiz, neft müqavilələrinin taleyi necə olacaqdı. Əvvəla, o zavodda hazırlanan estakadaların hər birinin ağırlığı 15, 20, 30 min tondur.

Yeri gəlmişkən, Dərin özüllər zavodu ilə bağlı mənə məlum olan həqiqəti açıqlamaq istəyərdim. Sov.İKP Məkrkəzi Komitəsinin Siyasi Bürosunda bu obyektin hansı respublikaya verilməsi məsələsi ortaya çıxanda, qarşıya belə şərt qoyuldu ki, onu qısa müddətə tikib qurtarmaq lazımdır. Üç ölkə bu zavoda sözün əsl mənasında müştəri idi – Qazaxıstan, Rusiya və Azərbaycan. Elə bunların üzərində müzakirələr gedirdi. Heydər Əliyev orda bildirir ki, göstərilən müddətdə Azərbaycan bu zavodu tikib təhvil verəcək. Buna şübhəniz olmasın. Onu da bildirib ki, dünyada dənizdə neft çıxaran birinci ölkə Azərbaycandır, bu sahədə zəngin təcrübəmiz var. Dənizdə də bizim zəngin neft yataqlarımız var və onların qazılmasını və istismarını həyata keçirmək üçün bu zavodu Bakıda tikmək vacibdir. Bunu tam əsaslandırandan sonra zavodu Azərbaycana verdilər. Bu, birmənalı olaraq Heydər Əliyevin xidmətidir, heç kimin buna şübhəsi olmasın.

**(ardı var)**

***Söhbəti qələmə aldı:***
***İ.GÜLAĞAOĞLU, “Xalq qəzeti”***

# Çağdaş Azərbaycan Heydər Əliyevin əsəridir



**Ulu öndər Heydər Əliyevin mənim haqqımda, ayrı-ayrı əsərlərim haqqında, 60 illiyimlə bağlı dediyi xoş sözlər, mənim onun haqqında dediklərimdən və yazdıqlarımdan az deyil. Yalnız bir dəfə 75 illiyində "Oqonyok" jurnalının sifarişi ilə onun barəsində "Şəxsiyyətin miqyası" adlı ayrıca bir məqalə yazmışdım.**

İndi bu böyük şəxsiyyətin miqyasının o vaxt mənim yazdığımdan da böyük olduğunu etiraf edirəm. Və şübhə etmirəm ki, illər ötdükcə bu miqyasların çox-çox daha böyük olduğunu da dərk edəcəyik.

O mənim həyanım idi. Atamı, anamı itirəndən sonra mən bunu daha dərindən duyurdum. Ona həmişə arxalana bilərdim. Yazıçılar Birliyinin problemləriylə bağlı hər hansı bir təklifi Heydər Əliyev həssaslıqla qəbul edir, bütün məsələlərin həllində köməyini əsirgəmirdi.

Bu sözləri tam səmimiyyətlə deyirəm. Heydər Əliyevə nə qohumluğum çatırdı, nə də yaş fərqi, ictimai mövqe etibarı ilə dost ola bilərdik. Amma ömrüm boyu onun diqqətini və qayğısını, isti münasibətini duymuşdum. Bilirdim ki, istər sovet dönəmində, istərsə də müstəqillik dövründə məndən ona pis niyyətlə deyənlər də az olmayıb. Yazıçıların XX qurultayında çıxış edərkən özü bu barədə danışdı. Amma onu da bilirəm ki, bütün bu danoslar mənə olan münasibətinə zərrə qədər də təsir etmirdi və edə də bilməzdi. Çünki insan sərrafı idi. Və kimin kim olduğunu da yaxşı bilirdi. Boğazdan yuxarı təmənnalı sözləri də gerçək əməllərdən seçib ayırırdı.

Heydər Əliyevi tanıyanda çox gənc idim. Sonrakı illərdə Azərbaycan rayonlarına səfərlər zamanı, müxtəlif vaxtlarda Gəncədə, Naxçıvanda, Şuşada, habelə İstanbulda və Ankarada, Moskvada, Romada, Pekində və Şanxayda, Alma-atıda, Bişkəkdə, dövlət başçılarıyla söhbətlərində, sənətçilərlə ünsiyyətində, tarlalarda ya küçələrdə adi adamlarla görüşlərində onu yaxından müşahidə etmək imkanım olub.

Saysız-hesabsız toplantılarda, yubileylərdə onu dinləmişəm, yazıçılarla, sənət adamlarıyla görüşlərində iştirak etmişəm, iki-üç dəfə isə təkbətək çox ətraflı, məhrəm söhbətlərimiz olub. 1997-ci ilin payızında İtaliyadan qayıdarkən təyyarədə ta Romadan Bakıyacan üç saatdan artıq ikilikdə danışmışıq. Bu söhbətləri gündəliyimdə bütün ayrıntılarıyla və tam dəqiqliklə isti-isti qeyd etmişəm.

Əgər Sovet dönəmində Heydər Əliyev rayonlara yola düşəndə özü ilə mütləq yazıçıları da aparırdısa, müstəqil Azərbaycanın Prezidenti kimi fəaliyyətə başlayandan sonra bu adətinə sadiq qalmışdı, xarici səfərlərinə ziyalıları dəvət edirdi. Mən Rusiya, Çin, İtaliya, Türkiyə, Qazaxıstan, Qırğızıstan səfərlərində onu müşayiət edən nümayəndə heyətinin üzvü olmuşam. Heydər Əliyevin Çinin rəhbəri Tzyan Tzeminlə, İtaliya Prezidenti Oskar Luici Skalforo ilə, Roma Papası II İohann Pavellə, Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşlərində iştirak etmək imkanım olub. Prezidentin böyük dövlətlərin başçıları ilə necə təmkinlə, ləyaqətlə söhbət aparmasını, Qarabağ münaqişəsinin mahiyyətini necə səylə izah etməsini, əlini xəritənin üstündə gəzdirərək işğal olunmuş Azərbaycan rayonlarını göstərməsini müşahidə edirdim və qürur hissi keçirirdim.

"Manas" eposunun 1000 illik təntənələrində iştirak etmək üçün Türk Dövlətlərinin sammitinə Heydər Əliyev Yusif Səmədoğlu ilə məni də dəvət etmişdi. Bu görüşlərdə türkdilli ölkələrin yaşca nisbətən cavan Prezidentlərinin Heydər Əliyevə necə hörmətlə yanaşmalarını, onun rəylərilə hesablaşmalarını görmək çox xoş idi.

Heydər Əliyevlə bağlı epizodlar bir-bir xəyalımda canlanır. Yenidən hakimiyyətə qayıdandan sonra onun ilk görüşü ziyalılarla oldu. Heydər Əliyevin çoxlu məziyyətlərindən biri də bunda idi – həmişə ictimai proseslərdə mədəniyyət, elm xadimləriylə hesablaşardı, onların rolunu dəyərləndirərdi. Görüş 1993-cü ilin 21 sentyabrında Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında keçirildi. Görüşdə mən də çıxış etdim və iri həcminə görə onu məruzə hesab edənlər də oldu.

O da yaxşı yadımdadır ki,ulu öndər bir dəfə söhbət əsnasında dedi ki, hələ sovet vaxtı Siyasi Büronun üzvü olanda, ölkə rəhbərliyi tərəfindən Azərbaycana münasibətdə ikili standartlara üzləşib. Və indi, Azərbaycanın Prezidenti olanda da, dünya dövlətləri tərəfindən Azərbaycana və Ermənistana münasibətdə ikili standartların olmasını müşahidə edir.

Heydər Əliyevin son dərəcə zəngin hadisələrlə dolu taleyində bir məqam xüsusilə ibrətamizdir. Adətən, siyasi xadimləri onlar tarixin malı olandan sonra dəyərləndirirlər, onların şəxsiyyətinin həqiqi miqyası, gördükləri işlərin əhəmiyyəti zaman keçdikcə daha dəqiq qavranılır. O, heç bir vaxt qarşısına çıxan heç bir çətinliyin qabağından qaçmazdı. Ən qorxulu vəziyyətlərdən belə zəfər çalaraq çıxardı. Xalq Cəbhəsi hakimiyyətdə olan vaxt rus qoşunlarının Azərbaycandan çıxarılmasını böyük tarixi uğur hesab edirlər. Razıyam. Amma çıxarılan ordunun yerini tutacaq milli zabitlər korpusunun əsasını axı Heydər Əliyev çox-çox qabaqlar sovet dönəmində Naxçıvanski hərbi məktəbini yaratmaqla, neçə-neçə gənci SSRİ-nin ali hərbi məktəblərinə göndərməklə qoymuşdu.

Sirr deyil ki, sovet dövründə Azərbaycanın hərbi çağırışçıları orduda ya tikinti batalyonunda, ya mətbəxdə işlədilirdilər. Böyük əhəmiyyətini yalnız 15–20 il sonra Qarabağ davası başlananda – tam dərk etdiyimiz bu iş – milli hərbi kadrların yetişdirilməsi – sovet ehkamları üzərində qələbə idi. Azərbaycanı yalnız xammal ərazisi kimi görmək istəyənlərə qarşı – ən yeni sənaye ocaqlarının qurulması – SSRİ-nin iqtisadi ətalət siyasətinə qalib gəlməkdi.

37-ci ilin milyonlarla repressiya qurbanlarından yalnız birinin – böyük Hüseyn Cavidin nəşinin tapılıb vətənə gətirilməsi hələ də zehinlərdə hökm sürən Stalin buzlaqlarının əridilməsi deməkdi. Azərbaycanın görkəmli sənətkarlarının yüksək ümumittifaq mükafatlarına, təltiflərinə nail olmaq yalnız o konkret şəxslərin deyil, ümumən ədəbiyyatımızın, sənətimizin və deməli, Azərbaycanın nüfuzunu ucaltmaqdı. Bütün bunlar – Heydər Əliyev vətənsevərliyinin, Heydər Əliyev zəkasının, iradəsinin, uzaqgörənliyinin qələbəsi idi.

Və bütün bunlar bədnam qonşularımızı qıcıqlandırır, qızışdırır, qəzəbləndirir, yuxularını qaçırırdı. Moskvaya, mərkəzi dairələrə danos-danos dalınca gedirdi. – "Heydər Əliyev Naxçıvanı ermənilərdən təmizlədi, indi də Qarabağı təmizləmək niyyətindədir" – danosların əsas mövzusu bu idi.

Heydər Əliyev bunu bilirdi. Və bunu bilə-bilə məhəl qoymurdu. Brejnevlə xoş münasibətlərinin bir səbəbi də özünü və xalqını, respublikasını mikoyanlardan, baqramyanlardan və onların tör-töküntülərindən siğorta etmək idi.

Şuşada əzəmətli Vaqif məqbərəsini, Natəvan heykəlini ucaltmaqla, Üzeyir Hacıbəyli, Bülbül muzeylərini açmaqla, Şuşada təntənəli beynəlxalq sənət tədbirləri keçirməklə Heydər Əliyev bu qədim Azərbaycan şəhərinin milli simasını müəyyənləşdirirdi. Axı 50-ci illərdə Şuşada yeganə iki heykəlin Nelson Stepanyanın və Tevosyanın büstləri olduğunu mən yaxşı xatırlayıram. Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi olduğu illərdə Dağlıq Qarabağda erməni millətçiliyi meyllərinə qarşı çıxarılmış partiya qərarı da yadımdadır. Nə bundan əvvəl, nə sonra erməni millətçiliyi meyllərinə qarşı bu kəskinlikdə partiya qərarı qəbul olunmayıb.

Bütün bunlara rəğmən Heydər Əliyev iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına da layiq görülür, Siyasi Büronun tərkibinə düşür. Ermənilər yanıb-yaxılmasın neyləsinlər? Məni isə yandırıb-yaxan odur ki, Heydər Əliyev haqqında Moskvaya gedən danosların böyük bir qismi elə onun öz vətənindən, Azərbaycandan gedirdi. Onun öz soydaşları, azərbaycanlılar verirdilər bu danosları.

Səd heyif ki, yalnız ermənilərin deyil, bəzi "özümüzünkülərin" də Heydər Əliyevə bu bədxah münasibəti bizim günlərdə, müstəqillik dövründə də davam edir. Heydər Əliyev ermənilərlə mübarizə aparırdı, "Özümüzünkülər" isə onun özüylə. Bu nə milli şakərimizdir belə, anlaya bilmirəm. Azərbaycanın hər hansı bir görkəmli övladı – istər siyasət sahəsində olsun, istər elm, sənət, ədəbiyyat – xalqına şöhrət gətirirsə, ölkəmizin sərhədlərindən kənarda da ad qazanırsa, millətin beynəlxalq aləmdə layiqincə təmsil edirsə – həmin elə bu xalqın, bu millətin bir para insanları ona qənim kəsilir.

1987-ci ildə ermənilərin, erməni dairələrinin güclü təsiri altında olan Qorbaçovun birgə səyləri ilə Heydər Əliyev SSRİ-nin siyasi Olimpindən uzaqlaşdırıldı. Düz bir həftə sonra isə adıbədnam akademik Aqanbekyan Parisdə Qarabağ kampaniyasına start verdi.

Heydər Əliyev istefaya göndərildi, ailə üzvləri basqılara məruz qaldı, Moskva qəzetlərində böhtanlar, iftiralar dərc olundu, barəsində cinayət işi açmaq üçün qurdalanmağa başladılar. Təkləndiyi, yaxşılıq etdiyi adamların çoxunun dönük çıxdığı (bu da milli şakərimizdi?) bir məqamda Heydər Əliyev heç nədən və heç kəsdən qorxub-çəkinmədən Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlir, 90-cı ilin qara Yanvarını lənətlə damğalayır, bütün dünya mətbuatı qarşısında Qorbaçovu ittiham edirdi. Bu da onun qələbəsi idi.

O vaxt Moskvada Heydər Əliyevə telefon etmişdim. Moskva mətbuatındakı iftira dolu yazılardan ürək ağrısıyla danışırdı. – Belə yazılara fikir verməyin – dedim – Siz tarixi şəxsiyyətsiniz və bunu hamı bilir. Bu telefon söhbətinin bir başqa vacib məqamı və nəticələri haqqında gələcəkdə ətraflı yazacam. İndi isə ancaq onu deyim ki, bu söhbətdən Heydər Əliyevin daha Moskvada qalmaq, orada yaşamaq istəmədiyini başa düşdüm.

Əfsuslar olsun ki, Heydər Əliyevə nəinki Moskvada, heç Bakıda da yaşamağa imkan vermədilər. Tikilib qurulmasında bu qədər böyük zəhməti olan adama Bakıda bir mənzil də tapılmadı, doğulduğu yerə Naxçıvana getməli oldu. Soyuq, şaxtalı, yanacaqsız Naxçıvan qışında ətrafındakı etibarlı insanlara – "ölsək də bir yerdə öləcəyik, qalsaq da bir yerdə qalacayıq" – dedi. İlk baxışda belə görünə bilərdi ki, siyasi karyerası bitmiş Heydər Əliyev axır ki, məğlub edilib. Belə amansızlıqlarla üzləşmiş, belə dözülməz şəraitə düşmüş başqa birisi, bəlkə də, məğlub olardı. Hər hansı başqa birisi. Heydər Əliyev yox.

Cəmisi bir-iki il keçdi, Qorbaçovun özü də, ölkəsi də yerlə-yeksan oldu, indi SSRİ-nin ilk və son prezidenti vaxtını öldürmək üçün radioda uşaq nağıllarını səsləndirir və cibini doldurmaq üçün Makdonaldsı reklam edir. Heydər Əliyev isə XX əsrdə müstəqilliyini ikinci dəfə qazanmış milli dövlətinin düz on il ərzində Prezidenti oldu. Özü də elə bir Prezident ki, ərazisi və əhalisi baxımından kiçik ölkənin dövlət başçısıyla ən böyük məmləkətlərin rəhbərləri hesablaşırdı. Kim qalib çıxdı? Nəinki öz hakimiyyətini qoruya bilən, başçılıq etdiyi dövləti belə bada verən Qorbaçovmu, ya parçalanmaqda olan ölkəsini xilas edən, sonrakı çevriliş cəhdlərinin qarşısını alan, bir gecə yarısı televiziya çıxışı ilə Prezident sarayı ətrafına minlərlə insanı toplaya bilən Heydər Əliyevmi?

Bəziləri Heydər Əliyevi atəşkəs sazişinə görə suçlayır, Qarabağ problemini həll etməməkdə təqsirləndirirlər. Azərbaycanın hələ güclü ordusu olmadığı bir vaxtda Bişkək protokolu imzalanmasaydı, rus ordusunun açıq və gizli dəstəyilə ermənilər gəlib Yevlaxa çatsaydılar, Azərbaycan və Gürcüstan arasında yeni bir işğal zonası yaransaydı və neft boru kəməri əbədi olaraq gündəmdən çıxsaydı, bu ittihamçılar görən onda nə deyəcəkdilər?

Qarabağ probleminin gec-tez həll olunacağına, Azərbaycanın ərazi bütövlüyünün bərpasına, işğal edilmiş torpaqlarımızın qaytarılacağına qəti inamım var, amma bu problemin nə qədər çətin olduğunu da aydın dərk edirəm. Postsovet məkanının bu səpkili hansı problemi həll olunub – Moldova–Dnestrbasar problemi? Gürcüstanın Abxaziya, Cənubi Osetiya indi də Acarıstan problemi? Və nəhayət Rusiyanın Çeçenistan problemi? Hələ yarım əsrdən artıq sürən İsrail–Fələstin qarşıdurmasını demirəm. – Siyasət mümkün olana əsaslanmaq sənətidir – deyiblər. Hər halda Qarabağla bağlı danışıqlarda, hər yöndən güclü təzyiqlər altında Heydər Əliyev Azərbaycanın mənafeyinə zidd olan heç bir güzəştə getmədi. Və siyasətin mümkün olan əsasları baxımından bu da qələbə idi.

Sonuncu dəfə Heydər Əliyevi Rəsul Rzanın yubileyində, indi Prezidentin adını daşıyan sarayda görmüşəm. O, böyük maraqla teatrlaşdırılmış tamaşaya baxırdı, Rəsul Rzanın, Nigar Rəfibəylinin sözlərinə bəstələnmiş mahnıları diqqətlə dinləyirdi. Gənc müğənnilərin ifalarını xüsusilə qeyd edirdi:

–Bizim necə də istedadlı xalqımız var, – deyirdi, – hər dövrdə meydana yeni-yeni istedadlar çıxır, elə bil bulaqdılar, torpağın təkindən qaynayırlar.

Tamaşadan sonra səhnəyə qalxdı, ifaçılarla səmimi söhbət etdi. Heydər Əliyevin bu söhbətindəki incəlikləri mən təfsilatı ilə "Unudulmaz görüşlər" xatirə kitabımda yazıya almışam, çalışmışam ki, kağız üzərində olsa da o nostalji duyğuları yenidən canlandırım, o gecənin təkrarolunmaz anlarını yenidən yaşayım. Heyif, bu mənim böyük şəxsiyyətlə son görüşüm oldu. Tale belə insanları xalqa yüz ildə, bəlkə də üç yüz il, beş yüz ildə bir dəfə bəxş edir.

Arxivimdə Heydər Əliyevin bir foto-şəkli də var – Rəsul Rzanın 90 illik yubileyində çəkilib. Bu şəklə baxanda mənə elə gəlir ki, Heydər Əliyev bizim hamımızla vidalaşır. Və o cümlədən, mənimlə də vidalaşır...

2003-cü ili – ömrünün son ilini də Heydər Əliyev qalib kimi başa vurur. Geniş infakt keçirmiş, gecəsi-gündüzü olmayan, nə şənbə, nə bazar, nə məzuniyyət, nə istirahət bilən, yaşı səksənə çatmış insan çıxış edərkən qəlb böhranı keçirir, yıxılır, yeddi qabırğası sınır və dözülməz ağrılara tab gətirərək yenidən səhnəyə qayıdır, sözünə davam edir. Bir də yıxılır və yenə görünməmiş, inanılmaz bir iradə ilə səhnəyə dönür, xalqı ilə vidalaşmağa özündə güc tapır. Bu da onun yıxılması haqqında hərzə-hərzə danışan və yazan mənəviyyatsız düşüklər üzərində qələbə idi.

Ucuz mətbuat şoularına Heydər Əliyev bu mənhus xəbərlərin bazara çıxarılmasından sonra neçə ay yaşamasıyla, xəstə-xəstə belə Azərbaycanı idarə etməsiylə, prezident seçkilərində iştirakı və vaxtlı-vaxtında namizədlikdən imtina etməsiylə, seçkiləri izləməsi və nəticələrindən arxayın olmasıyla qələbə çaldı. Bəlkə də bu gün yeganə təsəllimiz odur ki, Prezidentimiz dövlətin taleyindən arxayın getdi.

İlham Əliyev Prezident seçiləndən sonra tez-tez çıxış edərkən Azərbaycan dilində belə səlis danışması məni heyrətə gətirirdi. Məsələ ondadır ki, orta məktəbdə də, institutda da rus dilində təhsil almışdı. Rusca təhsil alanlar, sonradan ana dilini nə qədər mənimsəsələr də, adətən fikirlərini ifadə edəndə çətinlik çəkirlər. Bu zaman məhdud söz ehtiyatı da, cümlələrin, sözlərin uzlaşmaması da, rusca düşündüyü fikri Azərbaycan dilində ifadə etmək cəhdi də hiss olunur.

İlham Əliyevin nitqində bu kəsirlərdən heç biri yoxdur. Onun ana dilində zəngin söz ehtiyatı var, o az işlənən ibarələrdən, sözlərdən belə yerində istifadə edir. Rus və ingilis dillərində də beləcə sərbəst danışır, amma bu - orta və ali təhsilin nəticəsidir. Azərbaycan dilini o sonra işlətməyə başlayıb, ancaq elə bil ki, doğulandan bu dilin təmiz axarında yetişib, ömrü boyu bu dildə danışıb. Məlum olur ki, xüsusi dil qabiliyyətindən başqa, Heydər Əliyev oğlunu məqsədyönlü şəkildə mühüm dövlət missiyasına da mükəmməl hazırlayıbmış.

Məhz elə buna görə də gənc Prezidentimiz bu çox çətin və təhlükəli dövrdə ölkəmizi açıq ya gizli şəkildə təhdid edən qüvvələr qarşısından geri çəkilmir, tarazlaşmış, müstəqil siyasət aparır, Qərbdən və Şərqdən, Şimaldan və Cənubdan çeşidli təzyiqlərə baxmayaraq Azərbaycanın ərazi bütövlüyü, işğal olunmuş torpaqlarımızın qaytarılması yolunda bir addım güzəştə getmir.

Dünyaya qalib kimi gəldi, dünyadan qalib kimi getdi. Heç kəsin xidmətini danmadan müstəqil Azərbaycanın qorunmasında, qurulmasında və yaşamasında Heydər Əliyevin müstəsna rolu insafı olanların hamısına açıq-aşkardır. Bir jurnalist doğru yazıb ki, Heydər Əliyev Qulliver, ona çirkab atanlar isə liliputlardır.

Bütün keçəri, ötücü narazılıqlar, umu-küsülər, giley-güzar unudulub gedəcək, Heydər Əliyevin möhkəmləndirdiyi, inkişaf etdirdiyi ölkə-sabit, istiqrarlı, söz, mətbuat azadlığı təmin olunmuş, müxtəlif siyasi qurumların, o cümlədən müxalifət partiyalarının fəaliyyət göstərdiyi, senzurasız, ölüm hökmsüz, sivil dünya ailəsində layiqli yer tutan demokratik Azərbaycan qalacaq. Əlbəttə, Azərbaycan, yaxın gələcəyin Azərbaycanı daha da gözəl, firavan, daha əzəmətli və daha ədalətli olacaq. Amma bu xoşbəxt gələcəyin təməlini bütün şər qüvvələriylə mübarizədə qalib çıxan Heydər Əliyev qurdu, əl-ayağa dolaşanlara rəğmən çətin doğulan əsər kimi yaratdı.

Çağdaş Azərbaycan, doğrudan da, Heydər Əliyevin əsəridir. Bizim borcumuz bu əsəri yaşatmaq, qorumaq, cilalamaq və gələcək nəsillərə yetirməkdir. Bütün siyasi çəkişmələr, dartışmalar, toqquşmalar – Xalqın taleyi qarşısında çox cılız görünür, böyük Tarix önündə çox kiçik həvəslər, hərisliklər, hikkələrdir.

Heydər Əliyev hər xalqa bəlkə də, əsrdə bir dəfə qismət olan nadir şəxsiyyət idi. Həyata qalib kimi gəlmişdi. Xalqı ölümüylə sarsıdan, sarsındıraraq birləşdirən, kədərləndirərək bütövləşdirən Heydər Əliyev ölümüylə də zəfər çaldı. Kim nə deyir-desin, nə yazır-yazsın, qalib gəldi, qalib getdi.

Azərbaycanımızın əbədi müstəqilliyi, ərazi bütövlüyünün bərpa olunması ulu öndər Heydər Əliyevin ölməz ruhunun hamımıza əmanətidir.

***ANAR,***
***Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı***

# Tarixlə üz-üzə dayanmış adam

## (Portret cizgiləri)



### İKİNCİ ESSE

***Bu yazıdan da artıq 23 il keçib və bu dövrdə də Heydər Əliyev haqqında çox yazılıb və bundan sonra da, şübhəsiz ki, çox yazılacaq, elmi tədqiqatlar, siyasi araşdırmalar aparılacaq, monoqrafiyalar yaranacaq.***

***Onun şəxsiyyətinin miqyası fenomenal dərəcədə geniş idi: o, nəhəng sovet imperiyasında bir tərəfdən dəmir yolundan tutmuş elm, mədəniyyət və tədris məsələlərinəcən olduqca böyük və məsuliyyətli bir sahəni idarə edirdi, o biri tərəfdən isə, Azərbaycan kəndində kəndli bir qadının ocaq çatıb, sacda yuxa bişirməyindən ruhən zövq alırdı, ruhən dincəlirdi, çünki əslində, onun varlığı doğma torpaqla birlikdə nəfəs alırdı.***

***O, bir tərəfdən, dünya elitasının sevimlisi və özü də bu elitanın nümayəndəsi olan Mstislav Rostropoviç ilə, o biri tərəfdən isə, zəhmətkeş, sadə, çox da koloritli bir azərbaycanlı çobanla dostluq etməyi bacarırdı; o, bir tərəfdən öz düşüncələri, səriştəsi, mədəniyyəti ilə XX əsr dünya baletinin ən məşhur simalarından Maya Plisetskayanın heyrətini və hörmətini qazanırdı, o biri tərəfdən isə, Qədir Rüstəmov kimi bir xalq sənətkarının sənətini qəlbən sevirdi və bu sənəti Prezident kimi rəsmən yüksək qiymətləndirirdi. (Qədirə birbaşa Xalq artisti fəxri adı verildi!)***

***Və bu cür misalları çox çəkmək olar.***

***Keçən il mən sovet dissident hərəkatının liderlərindən biri, məşhur sovetşünas alim-publisist, 97 yaşlı professor Roy Medvedyevin Rusiyanın ən nüfuzlu qəzetlərindən "Literaturnaya qazeta"ya verdiyi müsahibəsini oxudum və o müsahibədə müxbirin: "Qorbaçovdan başqa SSRİ-yə kim başçılıq edə bilərdi? Kim ölkə qarşısındakı problemləri həll edə bilərdi?" – sualına, "Yalnız Heydər Əliyev… Onun nəhəng potensional imkanları var idi." – deyə cavab verir. ("Литературная газета", 25 января 2022.)***

***O, bir məktəb idi: böyük siyasət məktəbi, quruculuq, idarəçilik, liderlik, cəsarət və səbr, dinləmək və yekunlaşdırmaq, hər şeyin məqamını bilmək məktəbi, eləcə də sırf insani məktəb, hiss-həyəcanlar, mərhəmət, məhəbbət və iradə məktəbi, sevinc və kədər, yumşaqlıq, kövrəklik və sərtlik, dönməzlik məktəbi.***

***Ustad Hüseyn Bozalqanlıdan neçə yüz illər əvvəl Xəstə Qasım da demişdi:***

***Neçə min yol boşalıbsan,***
***Neçə min yol dolan dünya…***

***Nəsillər bir-birini əvəz edəcək, gələnlər gedəcək, tariximizin nəhəng siması ulu öndər isə daima öz xalqı ilə bir yerdə olacaq.***

**13 yanvar 2023.**
**Bakı.**

"Naxçıvan" qəzetinin baş redaktoru Rizvan müəllimin xahişi ilə bu yazını başlamaq istəyəndə xəyal məni birdən-birə düz iyirmi altı il bundan əvvələ – 1969-cu ilin iyul ayına apardı...

O vaxt mən cavan bir aspirant idim, yay istirahətinə Kislovodska getmişdik və orada eşitdik ki, Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilib. Yaxşı yadımdadır, bu xəbərin özü qəribə bir yenilik əhval-ruhiyyəsi gətirdi, yeni ümidlər yaratdı, çox qısa bir müddətdən, xüsusən, avqust plenumundan sonra respublikada elliklə bir nikbinlik yarandı və tale elə gətirdi ki, bizim, yəni altmışıncı illərdə ədəbiyyata gəlmiş ədəbi nəslin bir qələm sahibi kimi formalaşması yetmişinci illərə təsadüf etdi və bütün bu illərdə Azərbaycan ədəbiyyatı və ümumiyyətlə, Azərbaycan mədəniyyəti ilə bilavasitə Heydər Əliyev arasında mənəvi və mən deyərdim ki, məhrəmanə bir körpü yarandı.

Bu barədə mən 1992-ci ildə Heydər Əliyev haqqında yazdığım oçerkdə bəhs etmişdim və indi təkrara varmaq istəmirəm, amma, əlbəttə, o uzaq 69-cu ildə bütün fikri-zikri ədəbiyyata bağlı olan bir cavan kimi, mənim heç vaxt ağlıma gəlməzdi ki, SSRİ dediyimiz o nəhəng imperiya kartdan quraşdırılmış evcik kimi tar-mar olacaq və yeni, müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevi mən yalnız bir yazıçı kimi kənardan yox, həm də həmin dövlətdə vəzifə tutmuş bir adam kimi yaxından müşahidə edə biləcəyəm...

Heydər Əliyev haqqında çox yazılıb, amma, şübhəsiz ki, yazılacaq kitablar, aparılacaq tədqiqatlar hələ irəlidədir, gələcəkdədir, çünki tarix özünə mənsub olan şəxsiyyətləri heç vaxt diqqətdən kənar qoymur, illər keçir, onilliklər, yüzilliklər bir-birini əvəzləyir, tədqiqatlar isə dayanmır, yeni-yeni faktlar aşkar olunur, yeni-yeni kəşflər ortaya çıxır.

Eyni zamanda, Heydər Əliyev özü tarixi məsuliyyəti dərindən dərk edən bir şəxsiyyətdir. Bəzən mənə elə gəlir ki, yalnız mühüm qərarları qəbul edərkən yox, adicə gündəlik qayğıların həllində də o, tarixi ona baxan, onun hərəkətlərini izləyən bir varlıq kimi yanında hiss edir. Elə bilirəm ki, təəssüratım məni aldatmır, belə də var, çünki söhbət daxilən zəngin və emosional, amma impulsivlikdən uzaq, ən gərgin çağlarda belə, özünü səfərbərliyə almağı bacaran, iradəli və qorxmayan, çəkinməyən, özünə inanan və öz böyük imkanlarını qiymətləndirməyi bacaran unikal bir şəxsiyyətdən gedir – müstəqil Azərbaycanın bu günün keşməkeşli yolları arasından magistral müəyyən edib, bir dövlət kimi gələcəyə doğru aparan şəxsiyyətdən.

Məhz bu fitri keyfiyyətlərinə görə onu yamsılayanlar, onun ayaqqabısını geyib, yerişini yerimək istəyənlər, əslində, gülünc vəziyyətə düşürlər, çünki onların imkanları və iddiaları arasında bir təzad yaranır.

Heydər Əliyevin imkanları yalnız onun özünə məxsusdur, başqasına yox.

Misal üçün, son iki ildə mən bunun dəfələrlə şahidi olmuşam və hər dəfə də mat qalmışam ki, Heydər Əliyev, deyək ki, ağır və üzücü səfərdən qayıdıb, aeroportda məlum olub ki, filan ölkənin dövlət bayramıdır, səfirlik qəbul düzəldib, ora gedib təbrik etmək lazımdır, dərhal, yəni yarımca saat da istirahət etmədən maşına minib o qəbula gedib, həmin ölkə ilə və ümumiyyətlə, xarici siyasətlə bağlı parlaq nitq söyləyib, sonra oradan çıxıb kənd təsərrüfatı işçilərilə görüşüb, bu sahənin problemləri və həmin problemlərin həlli yolları ilə bağlı çıxış edib, sonra heç bir fasiləsiz təhsil işçiləri ilə görüşüb, təhsilin müasir vəziyyəti və vəzifələri barədə danışıb, sonra da bir görkəmli şairin, yaxud rəssamın yubileyində iştirak edib, onun yaradıcılığı haqqında, Azərbaycan mədəniyyətində tutduğu yer barədə professional söhbət açıb...

Və bu bir istisna deyil, onun gündəlik işinin tərkib hissəsidir.

O bu çıxışlara necə hazırlaşır, bir-birindən tamamilə fərqli sahələri dalbadal necə ehtiva edir, axı, bir dəqiqə də boş vaxtı qalmır ki, heç olmasa, psixoloji cəhətdən özünü kökləsin... Bu, həqiqətən, mənim üçün bir sirr-xudadır...

Mən həmişə fikirləşirəm ki, Heydər Əliyevin köməkçilərinin işi bir tərəfdən çətindir, çünki tələbat böyükdür, böyük də məsuliyyət var, o biri tərəfdən də asandır, çünki onun üçün başqa dövlət başçıları kimi, gecə-gündüz əlləşib, faktlar toplayıb, sitatlar yığıb çıxış yazmaq, məruzə hazırlamaq lazım deyil. Bu işi köməkçilərinin əvəzinə onun özünün fitri istedadı görür.

**2.**

Heydər Əliyevin bir siyasət adamı, dövlət başçısı kimi elə xüsusiyyətləri var ki, onlar bir yerdə onun adı ilə bağlı olan məxsusi, personal bir "siyasi idarəetmə" məktəbi yaradır və mən çox istərdim ki, özüm də daxil olmaqla, vəzifə sahibləri, səlahiyyətli şəxslər bu məktəbdən nəsə əxz etsinlər, götürsünlər, bəlkə gələcəkdə daha da inkişaf etdirsinlər.

Fikrimi bu yazının məhdud çərçivələri daxilində əyaniləşdirmək üçün cəmi ikicə misal gətirmək istəyirəm və miqyas etibarilə bir-birindən fərqli olan bu misallardan biri lokal (amma çox əhəmiyyətli!) səciyyə daşıyırsa, ikincisi, mənim fikrimcə, ümumiyyətlə, siyasət aləmində yeni sözdür və həqiqətən, siyasət dərsliklərinə düşəsi bir epizoddur.

Adətən, Heydər Əliyevdən bəhs edən məqalələrdə, söhbətlərdə onun fenomenal hafizəsindən, yaddaşından bəhs edirlər və bu, həqiqətən, belədir. Amma Heydər Əliyevin başqa bir fenomenal xüsusiyyəti də var: qulaq asmaq bacarığı, dinləmək qabiliyyəti, səbri.

Hərdən Prezident əlaqədar sahənin rəhbərliyi ilə, ayrı-ayrı vəzifə sahibləri ilə kiçik müşavirələr keçirir və mən bu son iki ildə dəfələrlə şahidi olmuşam ki, həmin müşavirələrdə Heydər Əliyev necə böyük bir səbrlə çıxış edənlərə qulaq asır. Nə gizlədim, danışanların, məlumat verənlərin hamısının ağzından dürr tökülmür, bəzən qulaq asdıqca, şəxsən mənim canım sıxılır, hansı bir səviyyəsiz çıxış isə adamı əsəbiləşdirir və bu səviyyəsizliyi, şübhəsiz ki, ilk növbədə, elə Heydər Əliyevin özü görür, amma, hətta belə məqamlarda belə, danışanın sözünü kəsmir, söylənən fikirləri, gətirilən arqumentləri axıracan dinləyir. Bu da bir vergidir və elə bilirəm ki, dövlət başçısı üçün çox vacib vergidir: adamlara öz sözlərini axıra qədər deməyə münbit zəmin yaratmaq...

İkinci misal isə məni fikrən iki il bundan əvvələ – 1993-cü ilin avqustuna aparır. Heydər Əliyev Respublika Ali Sovetinin Sədri, ölkə isə ciddi siyasi böhran içində idi və belə bir vaxtda Bakıda gizli vərəqələr yayırdılar, o vərəqələrdə şəxsən Heydər Əliyevin əleyhinə hədyanlar yazırdılar, xalqı, guya ki, ayağa qaldırmaq istəyirdilər.

Belə bir vəziyyətdə artıq dövlətə başçılıq etməyə başlamış Heydər Əliyev nə elədi? Milli Məclisin canlı yayımla bütün ölkəyə göstərilən iclasında həmin vərəqələrdə yazılanları kamera qarşısında ucadan oxutdurdu və künc-də-bucaqda gizli-gizli üç nəfərin, beş nəfərin arasında yayılan həmin vərəqələrdə yazılanları yeddi milyonluq xalq eşitdi, bununla da o vərəqələri yazanların və yayanların istədiklərinə tamamilə əks bir effekt, həm də çox güclü bir effekt alındı. Bu, çox şey deyən və mənim fikrimdə unudulmaz bir dərs idi.

**3.**

Bir cəhəti qeyd etmək istəyirəm, bilmirəm buna səlahiyyətim çatır, yoxsa yox, amma, hər halda, yazıram, çünki bunu mühüm hesab edirəm. Mən Heydər Əliyevin ailəsinə yaxın adam deyiləm, amma kənardan kənara da olsa, uzun illərin müşahidəsi, ayrı-ayrı, ilk baxışda bəlkə də kiçik görünən detallar içərisində bir həqiqət mənim üçün (və bilirəm ki, yalnız mənim ücün yox!) gün işığı kimi aydındır: bu adam bütün varlığı ilə rəhmətlik həyat yoldaşına, övladlarına, nəvələrinə bağlıdır və belə bir həyat yoldaşı, ata, baba bağlılığı çox mühümdür, ona görə ki, millətə, vətənə bağlılığın da kökü elə oradan başlayır.

Bəşəriliyə gedən yol millidən keçdiyi kimi, millətə, vətənə məhəbbət də ailədən gəlir və qədim Roma imperiyasından bu tərəfə tarix sübut eləyib ki, məhz məişətdə, şəxsi həyatda, şəxsi əxlaqda ciddi və səmimi olan dövlət başçıları öz ölkələri üçün tarixi işlər görməyi bacarıblar, əks təqdirdə, dövlət başdan çürüyüb məhv olub, necə ki, elə həmin qədim Roma imperiyasının özü dağılıb tarixin çevrilmiş səhifəsinə döndü.

Heydər Əliyevin Azərbaycan xalqına bağlılığı, bu xalqın məişətinin ən xırda detallarına belə bələd olması, onun psixologiyasını və xarakterini dərindən duyması, bu xalqın mənəviyyatının folklorda, ümumiyyətlə, sənətdəki bədii-estetik ifadəsini incəliklərə qədər hiss etməsi, Azərbaycan dilini bütün zənginliyi ilə bilməsi mənim üçün həmişə ön planda olub. Həm də elə bilirəm yalnız mənim üçün yox, ümumiyyətlə, Azərbaycan yaradıcı ziyalısı üçün. Və həmişə də milliyə, kökə tərəf səsləyib və sövq edib.

Bu mənada, yetmişinci illərdəki, səksəninci illərin əvvəllərindəki "sosialist əməyi qələbələri"nin, "qızıl bayraqlar"ın arxasında da, ilk növbədə, xalqın milli özünütəsdiqi dayanırdı və bir neçə il bundan əvvəl mən bu barədə yazmışdım. O "əmək qələbələri", "qızıl bayraqlar", respublika bayrağına taxılan o ordenlər böyük və dövrü üçün çox cəsarətlə yaradılmış aysberqin görünən hissəsi idi, mühümü, vacibi, əsası isə, yəni xalqın, hərgah belə demək mümkünsə, gizli özünütəsdiqi isə həmin aysberqin görünməyən, suyun altında qalan hissəsi idi... Vaxt gələcək və bütün bunların hamısı elmi tədqiqat obyekti olacaq, öyrəniləcək, dəqiqləşdiriləcək, çünki ən obyektiv meyarlar bizə yox, əlbəttə, tarixə məxsusdur.

Yadıma gəlir, Füzulinin 500 illiyi münasibətilə Türkiyədə olduğumuz vaxt parlamentin sədri Cindoruq Prezident başda olmaqla Azərbaycan nümayəndə heyəti üzvlərinin şərəfinə qəbul düzəltmişdi və bizim gözəl müğənnimiz Səkinə İsmayılova orada "Küçələrə su səpmişəm"i oxudu. O mahnının Heydər Əliyevə necə dəruni təsir etməsini görmək üçün, xüsusi qabiliyyət yiyəsi olmaq lazım deyildi, həmin mənzərə indi də mənim gözlərimin qabağındadı və o zaman mən Heydər Əliyevə baxa-baxa fikirləşdim ki, bu adam ki Azərbaycan mədəniyyətinə bu dərəcədə bağlıdır, bu mahnı ki onun milli hisslərini bu dərəcədə tərpədir, həyatının səkkiz ilini Moskva mühitinə (özü də kommunist rejimli rəsmi mühitinə!.. bəlkə də mühacirətinə!..) necə dözüb? Bu da, görünür, onun iradəsinin, daxili səliqəsinin, səfərbərlik gücünün bir göstəricisidir...

Xatirə məni 1982-ci ilin sonlarına aparır, o vaxta ki, Brejnev ölmüşdü, Andropovun fərmanı ilə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdi, Sov. İKP MK-nın plenumunda isə Siyasi Büronun üzvü seçilmişdi və Bakıdan Moskvaya köçürdü.

O zaman bir dəstə yazıçı, o cümlədən də mən daxil olmaqla, bir neçə cavan yazıçı da onunla xudahafizləşmək üçün yanına getmişdik və onda onun hansı bir çətinliklə Azərbaycandan ayrılmasının, necə deyərlər, Azərbaycandan qopa bilməməsinin şahidi olduq. O sidqi-ürəkdən kövrəlmişdi və bunu heç cürə gizlədə bilmirdi və yadıma gəlir, onda mən bir heyrət içində fikirləşdim ki, insan xisləti, doğrudan da, sirr-xudadır: bir tərəfdən o cürə Əliyev zəhmi və sərtliyi, hətta bəzən amansızlığı, bir tərəfdən də belə bir hisslər aləmi, belə bir açıqlıq... Bu mənim üçün bir yazıçı kimi, çox maraqlı müşahidə idi və gizlətmək istəmirəm, həmin maraq indiyə kimi davam edir. İndinin özündə də mən bəzən onun şəxsiyyətində elə gözlənilməz cəhətlər müşahidə edirəm ki, elə bil, onu birinci dəfə görürəm, birinci dəfə eşidirəm...

Orasını da yaxşı xatırlayıram ki, həmin görüşdə Heydər Əliyev Azərbaycanın gələcək vahidliyi haqqında danışdı və elə danışdı ki, elə bil, söhbət müstəqil bir dövlətdən gedir. Bunun həmin dövrün kontekstində və Heydər Əliyevin tutduğu vəzifənin səviyyəsində nə demək olduğunu, elə bilirəm ki, izah etməyə ehtiyac yoxdur. O söhbəti mən təfərrüatı ilə qeyd etmişdim, hardasa arxivimdə durur və haçansa, əlbəttə, yazılacaq. Necə deyərlər, niyyət olmasın, qismət olsun...

**4.**

Bəzən Heydər Əliyevin keçirdiyi müşavirələrdə özümdən asılı olmayaraq ətrafa baxıram və ətrafımdakıların üç il, beş il bundan qabaqkı vaxtlarını gözümün qabağına gətirirəm, elə bil ki, cürbəcür müşavirələri, məclisləri, görüşləri təzədən görürəm, bu adamların söhbətlərini, çıxışlarım, hərəkətlərini, şəxsən mənimlə mübahisələrini və dedikləri sözləri xatırlayıram.

Bəli, onların bəziləri zaman dediyimiz məhək daşının sınağından çıxıb və bu gün də Prezidentin gözlərinin içinə baxmağa, Prezidentlə və onun xətt-hərəkəti ilə bağlı söz deməyə, fikir yürütməyə mənəvi haqları var və doğrudan da, dünyanın işləri qəribədi, bu adamlar, adətən, özlərini gözə soxmaq, mənəvi haqlarından sui-istifadə etmək (hərgah belə demək mümkünsə!) həvəsində olan əxlaq sahibləri deyillər.

Ancaq zamanın sınağından çıxmayanlar da, təəssüflər olsun ki, az deyil... Bəlkə bu mənim subyektiv fikrimdir, bəlkə bu adamların hərəsinin öz bəraəti var, ola bilər, amma mən düşündüyümü yazıram və həmin "bəraəti" də sidqi-ürəkdən qəbul edə bilmirəm.

Ən maraqlısı odur ki, bu gün daha artıq gözə girməyə çalışan və canfəşanlıq eləyən də bəzən onlardır. Təbii ki, mən bu adamların heç birinə inanmıram, onların "vəfadarlığını" saxta hesab edirəm, Prezidentin rəhbərliyi ilə Azərbaycan dövlətçiliyinin mənafeyinə xidmət etmələrinə şübhə ilə yanaşıram və eyni zamanda, gizlətmirəm, bir təskinliyim də var ki, bu səpkili "iqtidar bülbülləri" həmişə, bütün dövrlərdə, epoxalarda olub və görünür, həmişə də olacaq.

Bir epizod yadıma düşür. 1991-ci ilin mart ayı idi və biz Müslüm Maqomayev adına Filarmoniyanın binasında Azərbaycan yazıçılarının IX qurultayını keçirirdik. Qurultayın açılışına bir müddət qalmış mən dəhlizdə dayanıb bir nəfərlə söhbət edirdim. Bizdən bir az aralıda o vaxtın yüksək rütbəli yerli partiya məmurları dayanmışdı. Mənim söhbət etdiyim şəxsin üzü filarmoniyanın küçə qapısına tərəf idi və biz nə barədəsə fikir mübadiləsi edirdik. Birdən bu adamın sifəti göz-görəti əyildi və o ağzındakı sözü yarımçıq kəsib sürətlə filarmoniyanın foyesinə tərəf getdi (əslində, qaçdı!). Mən əvvəlcə bir şey başa düşmədim, hətta fikirləşdim ki, bu yazıq birdən-birə sancılandı, ya nə isə ona bir şey oldu. Sonra sövq-təbii filarmoniyanın küçə qapısına tərəf baxdım və gördüm ki, Heydər Əliyev qardaşı ilə birlikdə bir "Jiquli" maşınından düşüb filarmoniyaya girərək bizə sarı gəlir. İndicə mənimlə söhbət edən şəxsin belə bir panika ilə qaçmağının səbəbi də, sən demə, bu imiş, çünki yanımızdakı "anti-əliyevçi" partiya məmurlarının yanında onunla görüşməkdən qorxmuşdu.

Bilmirəm, Heydər Əliyev bu qaçışı gördü, yoxsa yox (hər halda, görmüş olardı, onun xüsusiyyətlərindən biri də o idi ki, ən kiçicik detal belə, gözündən yayınmırdı), mən isə bu hadisə ilə bağlı daxili pərtlik və pərişanlığımı gizlətməyə çalışaraq uzun sürən ayrılıqdan sonra yenidən yazıçılarla görüşməyə gəlmiş Heydər Əliyevə "xoş gəlmisiz" elədim və xeyli müddət insan xislətinin miskinliyindən və dönüklüyündən xəbər verən bu epizodun ağır təəssüratı məni rahat buraxmadı.

Məsələ burasında idi ki, həmin qaçan şəxs vaxtilə bilavasitə Heydər Əliyevin irəli çəkdiyi, vəzifə verdiyi, bəzi günahlarının üstündən keçdiyi bir adam idi, raykomun birinci katibi işləmişdi, sonra nazir olmuşdu... Və mən bu epizodu bir də ona görə xatırlayıram ki, həmin adam indi də yeni vəzifədədir və danışanda ağzına çullu dovşan sığışmır.

Heydər Əliyev müsahibələrində, çıxışlarında bir neçə dəfə deyib ki, onun şəxsi dostları olmayıb, onun üçün dostluq da, yoldaşlıq da iş adamları ilə bağlı olub. Doğrusunu deyim ki, bu etiraf bəzən mənim üçün tragik bir etiraf kimi səslənir, daxili tənhalıqdan, gizli iztirabdan xəbər verir, beşgünlük həyatda özü üçün yaşamağa vaxtı olmayan, amma daxilən zəngin və emosional bir insanın (həm də təbiəti etibarilə yaradıcı bir insanın) hər hansı şəxsi ünsiyyətdən məhrum güzəranından xəbər verir. Bir yazıçı kimi deyə bilərəm ki, bu çox çətin güzərandı... Onsuz da çətin dünyada çətin bir güzəran. Və mən fikirləşirəm ki, belə bir adama qarşı iş yoldaşlarının dönük çıxması, hətta bəzilərinin üzdə gülüb, tərifləyib, arxada hörümçək toru toxuması və yaxud toxunan o hörümçək torunu görüb, ondan xəbər tutub özünü görməzliyə, bilməzliyə vurması yalnız bəndəyə yox, Allaha da xoş gedəsi şey deyil...

Əlbəttə, xəyanət dünyanın ən ağır, ən iyrənc bir hadisəsidir, amma mehrini-məhəbbətini işə və iş yoldaşlarına salmış bir nəfərə qarşı xəyanət ikiqat ağır, ikiqat iyrənc və ikiqat sarsıdıcıdır. Bu cür adamlar barədə fikirləşəndə, onları ətrafda görəndə, onların vəzifə kreslolarındakı narahatlıqlarını müşahidə edəndə fikirləşirsən ki, axı, dəyməz, bu dünyada bu cür şərəfsiz yaşamağa dəyməz!... Ustad Hüseyn Bozalqanlı demişkən:

**Bu qoca dünyanın yoxdu vəfası,**
**Gah boşalıb, gah da dolan görmüşəm...**

Vəzifədən beləcə dördəlli yapışmaqdan nə qalacaq ki, dünyanın özündən də yapışanda heç kimə heç nə qalmayıb. İndi də Aşıq Bilalın bir qoşmasındakı sözlər yadıma düşür:

**Dünyanı dördəlli qamarlayanlar,**
**Əcəl şərbətindən içib, gedəcək...**

Bir halda ki, əvvəl-axır bu "əcəl şərbəti" içilməlidir, olmaz ki, riyanı, ikiüzlülüyü, saxtalığı bir tərəfə atıb insan ömrü yaşayasan?

Əlbəttə, mən bu sözləri yazmaqla yeni bir Amerika kəşf etmirəm, bəlkə də açıq qapını döyəcləyirəm, amma... amma yazmaya da bilmirəm. Mən uzun müddət Yazıçılar İttifaqında işləmişəm və ümumiyyətlə, uşaqlıqdan yazıçıların arasında olmuşam, yazıçılar da mürəkkəb adamlardır. Odur ki, rəhmətlik Əli Vəliyevin bir sözü var idi: "Ən böyük biclik – düzlükdür!".

Nə isə, hərə öz vicdanı və Allahı qarşısında cavabdehdir, yazılan, deyilən sözlə insan xisləti təmizlənsəydi, min illərdi Xeyir müqəddəs kitabların vasitəsilə, böyük dühaların qələmiylə deyir, yazır, amma Şər öz işindən əl çəkibmi?

**5.**

Yadımdadır, 1992-ci ildə Heydər Əliyev haqqında yazdığım oçerkdə mən insanların dönüklüyü kontekstində onu Kral Lirə bənzətmişdim, çünki həmin dönüklüyün və naxələfliyin yaratdığı pərişanlığın miqyasını, həqiqətən, Şekspir qələminə layiq bir səviyyədə hiss edirdim (indi o zamanın televiziya çıxışlarını, qəzet yazılarını, Ali Sovetin məşhur iclaslarını xatırlayanda eyni hissləri keçirirəm!), amma gərdişin hər üzünü görmüş qoca tarix mənim bənzətməmə öz düzəlişini etdi, Honerilya və Reqana dönüklüyünün, naxələfliyinin doğurduğu pərişanlığı məğlub etdi, Kordeliya məhəbbətinin və ehtiramının miqyası qalib çıxdı.

Məhz Kordeliya məhəbbəti və ehtiramı ümumxalq məhəbbətinə və ehtiramına çevrilərək Heydər Əliyevi Naxçıvan ucqarlığından (və sürgünündən!) həmin xalqın Prezident kürsüsünə çəkib gətirdi.

Bu yerdə mən iki kəlmə də müxalifət haqqında demək istəyirəm. Bir neçə il bundan əvvəl mən müxalifətdə idim, bu gün mən iqtidarın nümayəndələrindən biriyəm. Lakin o vaxt çıxışlarımda, yazılarımda söylədiyim bir fikri yenə də təkrar edirəm: iqtidar da, müxalifət də Azərbaycan dövlətçiliyinin mənafeyinə xidmət etməlidir. Arada şəxsi-qərəzlik, düşmənçilik olmamalı, dövlətin marağı əsas götürülməlidir, şəxsi təəssübkeşlik yox, milli təəssübkeşlik lazımdır.

Xüsusən də indiki keçid mərhələsində. "Mən müxalifətdəyəm, ona görə də iqtidarın gördüyü bütün işləri inkar etməliyəm" – prinsipi ilə fəaliyyət göstərmək Azərbaycan dövlətçiliyinə xeyir gətirə bilməz. Mən təsəvvür edə bilmirəm ki, barışmaz müxalifətdə dayanan, eyni zamanda, canı ilə, qanı ilə millətə, vətənə bağlı olan hər hansı bir nəfər, misal üçün, Heydər Əliyevin xarici ölkələrə səfəri zamanı ən nüfuzlu və dünya miqyaslı dövlət xadimləri ilə görüşlərində, ən müxtəlif auditoriyalardakı çıxışlarında, davranışında, hərəkətlərində Azərbaycanı necə böyük ləyaqət və yüksək siyasi-intellektual səviyyədə təmsil etməsinə baxarkən qürur hissi keçirməsin.

Allaha şükür, televiziya bütün dünyanı evimizə gətirib, başqa rəhbərləri, başqa prezidentləri də görürük. Mən müqayisələr aparmaq, nəticə çıxarmaq fikrində deyiləm (bu, qoca tarixin işidir!), ancaq hər şey göz qarşısındadır, necə deyərlər, kor-kor, gör-gör...

Mən Heydər Əliyevin Səudiyyə Ərəbistanının Kralı Fəth ilə, yaxud İran İslam Respublikasının prezidenti Haşimi-Rəfsəncani ilə apardığı rəsmi danışıqların bilavasitə şahidi olmuşam və heç bir konyukturaya varmadan sidqi-ürəkdən deyirəm ki, həmin danışıqlarda Prezidentin hansı bir dəmir prinsipiallıq və eyni zamanda, diplomatik incəliklə Azərbaycanın dövlət mənafelərinin keşiyində durması mənə bir azərbaycanlı kimi, ömrünün otuz beş ilini ədəbiyyata həsr etmiş bir qələm sahibi kimi, sözün əsl mənasında, daxili bir fəxarət gətirib.

"Mən müxalifətdəyəm, ona görə də bütün bunları görə bilmərəm, çünki görməməliyəm, vəssalam!" – əhval-ruhiyyəsi və psixologiyası Azərbaycan dövlətçiliyinə hansı xeyri gətirə bilər?

Təəssüflər olsun ki, başqa bir eybəcər siyasi əxlaq da bizim ücün səciyyəvidir: nə qədər ki, vəzifədəyik, iqtidarı dəstəkləyirik, şəxsən Prezident haqqında da ən yaxşı sözlər deyirik, elə ki, vəzifədən azad edilirik, oluruq müxalif, toyda da, yasda da ağzımıza gələni danışırıq... Bundan miskin və ləyaqətsiz nə ola bilər? Deməli, sən vəzifənin qulusan, sən vəzifədə olanda cınqırını çıxarmırdın, deməli, sənin nəinki Prezidentə hörmətin yalançı idi, sənin millətə məhəbbətin də yalançıdır, dövlətçiliyə xidmətin də yalançıdır.

Yandıran, hətta bəzən bədbinliyə də gətirib çıxaran odur ki, biz niyə belə bir xəstəliyə tutulmuşuq və bu xəstəlik bizdə niyə epidemiyaya çevrilib, bu dərəcədə metastaz verib? Niyə biz bu qədər vəzifə həsrətindəyik və nə üçün vəzifənin daimi bir şey olmadığı ilə heç cürə barışa bilmirik?

Nə isə... Deyiləsi, yazılası söz çoxdur, sağlıq olsun. Mən düz iki ildir yüksək vəzifədəyəm, təcrübəmin, bacarığımın imkanları daxilində öz sahəmdə əlimdən gələni eləməyə çalışıram, amma bir iş var ki, get-gedə "keçmiş yazıçıya" çevrilə blərəm, çünki oturub yazı yazmağa vaxtım yoxdur. Təskinliyi onda tapıram ki, Azərbaycanın öz müstəqilliyi uğrunda mübarizəsinin bu tarixi çağlarında hadisələri də, vəzifə adamlarını da, şəxsən Prezidentin özünü də kənardan yox, bilavasitə içəridən, "nətbəx"dən müşahidə etmək imkanına malikəm, fürsət tapdıqca qeydlər götürürəm və Allah qismət eləsə, bunlar haçansa sənədli bir kitaba çevriləcək. O kitab mənim gördüklərimdən, yəni mənim həqiqətimdən, mənim gələcək nəsillərə demək istədiklərimdən, mənim tarixə kiçicik bir töhfəmdən ibarət olacaq.

Başqaları olsun ki, məndən daha səviyyəli, daha sanballı kitablar yazacaq, amma mənim yazacağımı təbii ki, məndən başqa heç kim yazmayacaq. Yəqin o zaman vaxt da çox olacaq, çünki vəzifə mənim üçün də həmişəlik bir şey deyil...

***ELÇİN,***
***Xalq yazıçısı***
**("Naxçıvan" qəzeti, 13 sentyabr 1995-ci il)**

# Heydər Əliyev – Tanrının Azərbaycan xalqına bəxş etdiyi xilaskar

## “Onun sevinci də, kədəri də mənim qəlbimdən keçmişdir”

### Müsahibimiz Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadədir



**– Arif müəllim, sizinlə əlamətdar bir vaxtda – ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ərəfəsində görüşürük. Sizinlə müsahibəni qəzetin 10 may nömrəsində verməyi planlaşdırmışıq. Gəlin onda söhbətə təqribən 32 il bundan əvvəl redaksiyamızda olan görüşümüzdən başlayaq. Mən bilirəm, lakin oxucuların da bilməsi üçün soruşmaq istəyirəm: “Xalq qəzeti” redaksiyasına niyə gəlmişdiniz?**

– O vaxt mən Ali Sovetin deputatı, həm də yeni yaranmış Milli Məclisdə komissiya sədri idim. Milli Məslisin iclaslarından televiziyada canlı yayımlar, sonradan isə geniş hesabatlar verildiyinə görə, bizi, demək olar ki, hamı tanıyırdı. Redaksiyaya səhər bir qədər ertə gəlmişdim, sizin kabinetin qapısı bağlı idi. İş yoldaşlarınız kabinetlərinə dəvət elədilər. Razılaşmayıb, eyvanda gözləməyi qərara aldım. Az sonra siz gəldiniz, kabinetə keçib söhbətə başladıq...

Hə, redaksiyaya niyə gəlməyimi soruşdunuz. Qoy onda bir qədər ətraflı danışım. Parlament iclaslarından qəzetiniz üçün materialları siz hazırladığınıza görə tez-tez görüşürdük. Üzə demək olmasın, sizin reportaj və hesabatlarınızdakı peşəkarlıq, faktlara düzgün münasibət, obyektivlik diqqətimdən yayınmır və dəfələrlə bunu həm özünüzə, həm də qəzetin mərhum redaktoru, deputat həmkarım, professor Tofiq Rüstəmova da demişdim. O vaxtkı qəzetlərdə– bir çoxu ayrı-ayrı partiyaların orqanı idi – mənafelərinə uyğun gəlməyəndə doğruya yalan, yalana doğru, ağa qara, qaraya ağ deyirdilər. Sizin yazdıqlarınız seçilirdi. Bir neçə dəfə mənim mövqeyimi açıq şəkildə müdafiə etmişdiniz. Mənim mövqeyim deyəndə, bu, həm də həmfikirlərin mövqeyi idi. Onların bir çoxu sadəcə olaraq, fikirlərini açıq deməkdən ehtiyat edirdilər. Çünki siyasi arenada qaydasız mübarizə gedirdi. Respublika rəhbərliyinin ünvanına bir söz deyəndə, nəinki tənqid edəndə, hətta yumşaq tərzdə adi bir irad bildirəndə belə səni necə deyərlər, “ağ yuyub, qara sərirdilər”. Çoxu abır-həyasına görə dillənə bilmirdi.

Mən isə susa bilmirdim, hər kəsin nöqsanını üzə deməyi xoşlayırdım. Buna görə dəfələrlə mənə hücumlar etmiş, hədə-qorxular gəlmişdilər. Onlar hakimiyyəti, demək olar ki, zor gücünə qamarlamışdılar. Nəinki səriştəsiz, hətta dövlət idarəçiliyindən tamam bixəbər idilər. Təsəvvür edin ki, il az qala yarıya çatmışdı, amma dövlət büdcəsi haqqında qanun qəbul olunmamışdı. Ümumiyyətlə, bilmirdilər ki, belə qanun qəbul edilməlidir, ya yox! Verilən məsləhətlərə də qulaq asmırdılar. Hər kəs özü üçün daha çox sahələri, səlahiyyətləri qamarlamaqla məşğul idi. Heç bir-biri ilə də yola getmirdilər. Aralarında ölüm-dirim mübarizəsi gedirdi. Bir çoxunun silahlı dəstələri vardı, bir-birinə meydan oxuyurdular. İqtisadiyyat dağılır, fabrik-zavodlar işləmir, respublikada misli görünməmiş inflyasiya gedirdi. Üstəlik də, ölkənin əmlakı dağıdılıb xaricə daşınırdı. Fürsətdən istifadə edən yağı düşmən – Ermənistan hücuma keçib rayon və şəhərlərimizi bir-birinin ardınca işğal edirdi.

Belə çətin dönəmdə biz – bir qrup deputat Ali Sovetin sessiyasının çağırılmasını təklif etdik. Qəbul etmədilər. İclasların bir çoxunda Prezident Əbülfəz Elçibəy də iştirak edirdi. Belə iclasların bir neçəsində söz alıb ölkədəki dözülməz vəziyyəti, təcili həllini gözləyən problemləri diqqətə çatdırdım. Rəhbərliyə xitabən dedim ki, bəlkə də xalqımızı çox sevirsiniz. Lakin ölkəmizin, Vətənin, xalqın bu acınacaqlı günündə ona bir gün ağlaya bilməyəcəksinizsə, bu sevgi nəyə lazımdır? Siz heç istəsəniz də kömək edə bilməyəcəksiniz. Çünki idarəetmədə naşısınız, təcrübəniz yoxdur. Təcrübəsi olanları isə yaxına buraxmırsınız... Yerlərdən səslər eşidilirdi: Kimi deyirsiz? Kimi yaxına buraxmırıq? Cavab verdim: Heydər Əliyevi! Bu cavabım güllə kimi dəyirdi onlara, od olub yandırırdı bəzilərini...

...Mənim çıxışlarımı AzTV-də yayımlanan parlament xəbərlərindən ya tamam çıxarırdılar, ya xoşlarına gəlməyən hissələrini qayçılayıb atırdılar. “Xalq qəzeti” o vaxt müstəqil çıxırdı, obyektiv materiallar verirdi. Siz də mənim çıxışlarıma geniş yer ayırırdınız. Ona görə də bir neçə dəfə redaksiyada olmuşdum. Həmin gün isə müsahibə vermək üçün gəlmişdim...

**– Bəli, müsahibə verdiniz və ertəsi günü qəzetdə dərc olundu. Həmçinin onu da dediniz ki, iki günə Naxçıvana– Heydər Əliyevin görüşünə gedəcəksiniz...**

– Doğrudur, iki gün sonra təyyarə ilə Naxçıvana uçdum. Ulu öndər məni öz kabinetində çox böyük səmimiyyətlə qarşıladı. Vəziyyətlə, gördüyümüz işlərlə maraqlandı. Məlumat verdim ki, hazırda komissiyada kolxoz və sovxozlarda islahatlarla bağlı layihələr üzərində işləyirik. Dəyərli tövsiyələr verdi...

Söhbətimiz xeyli uzandı. Arada qapını döyüb nəsə soruşanlar da olurdu. Sizin üçün maraqlı olduğuna görə deyirəm. Gedəndə özümlə sizin qəzetin parlamentdən verdiyiniz yazılar dərc olunmuş nömrələrini də aparmışdım. Həmin nömrələri vərəqləyəndə: “Bunları oxumuşam, oxumadığım təkcə sənin son müsahibəndir,”– dedi.

Söhbətin şirin yerində cavan, qaraşın bir oğlan içəri keçib dedi: – Heydər müəllim, qəzetin ilk nömrəsi, demək olar ki, hazırdır, təkcə Sizin xeyir-duanız qalıb.

– Mən sizə nə deyim, ay oğul, siz jurnalistsiniz, qəzet buraxmağı yaxşı bilirsiniz. Amma unutmayın ki, siz Yeni Azərbaycan Partiyasının qəzetini buraxırsınız. Bəzi partiyaların orqanları kimi, yüngülməcazlı yox, bax belə, ağayana qəzet buraxın, – deyib qarşısındakı “Xalq qəzeti”ni göstərdi.

**– Sonradan sizin qismətinizə xeyli müddət ulu öndərlə bir yerdə işləmək, onunla tez-tez təmasda olmaq xoşbəxtliyi düşdü. O, şəxsən sizin üçün kim idi?**

– Onun rəhbərliyi altında işləmək mənim üçün, həqiqətən, böyük şans idi. Heydər Əliyevi mən təkcə dövlətin başçısı, xalqın ümummilli lideri kimi deyil, həm də çox yaxın, doğma, əziz bir insan kimi qəbul etmişəm və indi də – o böyük şəxsiyyətin 20 illik cismani ayrılığından sonra da o cür qəbul edirəm. Uğurları, sevinci, kədəri, ağrı-acısı mənə bilavasitə aid olan bir insan kimi. Onun sevinci də, kədəri də mənim qəlbimdən keçmişdir. Ona bu münasibətim hər hansı bir şəxsi amillərlə bağlı deyildi. O, minlərlə soydaşımıza necə yanaşırdısa, mənə də o cür yanaşırdı: hörmətlə, qayğı ilə və yüksək tələbkarlıqla. Odur ki, Heydər Əliyevin taleyimdəki rolu mənimlə eyni nəsildən olan insanların, bütövlükdə, Azərbaycan xalqının taleyindəki rolu ilə eyni idi. Bu mənada o, məni və xalqımı iki dəfə xilas etmişdi. Birinci dəfə ümidsizlikdən, mənəvi düşkünlükdən, ikinci dəfə isə cismən və mənən məhv olmaqdan.

**– Bu fikrinizi açıqlaya bilərdinizmi?**

– 1969-cu il idi. Əslində, respublikada əmin-amanlıq və sakitlik hökm sürürdü. Lakin bu aldadıcı sabitlik idi. Narazılıq günü-gündən artırdı. Xidmətlər sahəsində nizamsızlıq baş alıb gedir, əhalinin həyat səviyyəsi aşağı düşür, məktəb və xəstəxana təminatına görə Azərbaycan Ümumittifaq göstəricilərindən geri qalır, iqtisadiyyatda böhran vəziyyət yaranır... Bütün bunlar respublika rəhbərliyinə etimadsızlığa səbəb olurdu. Respublika rəhbərlərinin xoşagəlməz əməlləri, rüşvətxorluğu barədə yayılan şayiələr vəziyyəti daha da gərginləşdirirdi. Hər yerdə söhbət gedirdi ki, Azərbaycanın ali rəhbərlərindən biri alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmək naminə Gədəbəy rayonunun ərazisindəki bəzi torpaq sahələrini Ermənistana güzəştə getməyi vəd etmiş və yalnız rayon sakinlərinin qətiyyəti nəticəsində torpaqların verilməsinin qarşısı alınmışdır. Ermənistanın növbəti dəfə ərazi iddiaları irəli sürməsi və Azərbaycan SSR Ali Soveti tərəfindən sərhədlərin dəqiqləşdirilməsinə dair zərərli, güzəştli qərar qəbul edilməsi fonunda bu söhbətlər inandırıcı görünürdü.

1969-cu ilin iyulunda Heydər Əliyev respublikanın rəhbəri seçildi. Bu işə, o, respublika Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsindən gəlmişdi. Dövlət Təhlükəsizliyi Komitəsi Sovet dövlətinin hakimiyyət strukturunda son dərəcə vacib bir qurum idi və çox böyük səlahiyyətlərə malik idi. Heydər Əliyev burada sıravi əməkdaş kimi fəaliyyətə başlamış, 46 yaşında general rütbəsində həmin komitənin rəhbəri olmuşdu. Bu fakt ona görə əlamətdardır ki, o vaxtlar Sovet İttifaqının ideologiyasında beynəlmiləlçilik və xalqların hüquq bərabərliyi bəyan edilsə də, bu vəzifəyə, bir qayda olaraq, milliyəti rus olan şəxslər təyin edilirdi. Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində çalışan ilk azərbaycanlı idi.

**– Respublika rəhbəri kimi xalq onu necə qəbul etdi?**

– Yeni vəzifəyə başladığı andan cəmiyyət tərəfindən prinsipial, qətiyyətli, iradəli və etibarlı bir insan kimi qəbul olundu. O, respublikada vəziyyətə yaxşı bələd idi, qüsurları, ağrılı məqamları aydın təsəvvür edirdi və yeni vəzifədə fəaliyyətinin ilk günlərindən dövlət orqanlarını və ictimaiyyəti mövcud nöqsanların aradan qaldırılmasına, Azərbaycanın sürətli inkişafının təmin olunmasına cəlb edə bildi.

Azərbaycan SSR-in rəhbəri kimi çalışdığı on üç ildən bir qədər artıq müddətdə Heydər Əliyev iqtisadiyyatın inkişafında və insanların həyat səviyyəsinin yüksəldilməsində böyük uğurlara nail oldu. Təkcə xaricdə deyil, SSRİ-də də az tanınan Azərbaycan barəsində dinamik inkişaf edən, cəmiyyətin bir çox problemlərini müvəfəqiyyətlə həll edən qabaqcıl respublika kimi danışmağa başladılar. Bu dəyişikliklərin təşkilatçısı, dünya miqyaslı siyasi xadim kimi Heydər Əliyev barəsində xarici mətbuatda yazılar dərc edilməyə başlandı, Qərb ölkələrinin analitik mərkəzlərində bu barədə söhbətlər getdi. Biz özümüzü daha rahat və inamlı hiss etməyə başladıq, gözümüzdə dəyərimiz daha da yüksəldi.

**– Amma, Heydər Əliyev İttifaq orqanlarında işləməyə keçdikdən sonra respublikada qazanılmış nailiyyətlər, inkişaf hədəfləri və əvvəlki mövqelər bir-bir əldən getməyə başladı.**

– Bəli, insanları narahat edən və cəmiyyətdə qarşıdurmaya gətirib çıxaran kəskin problemləri həll etmək əvəzinə, respublikanın rəhbərləri daha çox özlərinin rifahı qayğısına qalır, vəzifələrini qoruyub saxlamaq üçün hər şeydə İttifaq rəhbərliyinə yarınırdılar.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, daha doğrusu, ilk illərdə ölkənin qara günləri başladı. Xüsusən, 1992-ci ilin mayında Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra iqtisadiyyatda, dövlət idarəçiliyində və siyasətində əsl tənəzzül başlandı. Onların birillik fəaliyyəti respublikanı vətəndaş müharibəsinə sürüklədi, suverenliyin və ərazi bütövlüyünün itirilməsi təhlükəsi, hərc-mərclik və anarxiya ilə üz-üzə qoydu. Azərbaycan dövlətçiliyi üçün bu böhranlı dövrdə xalqın təkidli tələbi və ölkənin o vaxtkı Prezidentinin müraciətləri nəticəsində Heydər Əliyev 1993-cü il iyunun 15-də parlamentin, daha sonra isə respublikanın rəhbəri seçildi.

**– Müəyyən müddət onun ətrafında olmuş bir insan kimi Heydər Əliyevin xarakteri, iş üslubu barədə təəssüratlarınız oxucular üçün maraqlı olardı...**

– Heydər Əliyev güclü, iradəli şəxsiyyət və sərt təbiətli siyasətçi idi. Lakin yüksək mədəniyyəti, dərin biliyi və iti zəkası, ünsiyyət tərzi insanları onun qəbul etdiyi qərarları, verdiyi göstərişləri və tapşırıqları yerinə yetirməyə məcbur etməkdən daha çox, onların doğru və vacib olmasına inandırırdı. Bu və ya digər qərarı qəbul etməzdən əvvəl, o, müxtəlif baxışları öyrənir, işə bağlılığı olan hər kəsin öz fikrini söyləməsinə imkan yaradırdı. Qəbul edilən qərarlar, bir qayda olaraq, müzakirənin məntiqinə uyğun gəlirdi. Lakin elə hallar da olurdu ki, bu qərarlar əksəriyyətin fikri ilə ziddiyyət təçkil edir, Heydər Əliyevin rəyi həlledici olurdu. Lakin, bu, amirlik, tərslik və ya başqalarının fikrinə etinasızlıq kimi qəbul edilmirdi. Mülahizələrini tutarlı dəlillərlə dərindən əsaslandırması və başqalarını inandırmaq bacarığı sayəsində Heydər Əliyevin rəyi ilə son nəticədə hamı razılaşırdı. Əlbəttə, narazı qalanlar da olurdu. Lakin zaman hər şeyi yerinə qoyur, insanlar onun haqlı olduğunu yəqin edirdilər.

**– Fikrinizi bir qədər konkretləşdirə bilərsinizmi?**

– Məsələn, 1995-ci ildə Konstitusiya layihəsinin hazırlanması və müzakirəsi zamanı dövlət dilimizi necə adlandırmaq məsələsi ortaya çıxmışdı. Adamların böyük bir qrupu, o cümlədən, tanınmış alimlər və yazıçılar hesab edirdilər ki, dilimiz türk dilidir. Heydər Əliyevin əsaslandırılmış, qəti mövqeyi diskussiyanın gedişini müəyyən etdi. Konstitusiyada dövlət dilinin Azərbaycan dili olduğu təsbit edildi. İllər keçəndən sonra az adam tapılar ki, bu qərarın düzgünlüyünə şübhə ilə yanaşsın.

İşdə kolegiallığa və demokratikliyə nə qədər böyük əhəmiyyət versə də, Heydər Əliyev qərarların qəbulu üçün məsuliyyətdən heç vaxt özünü kənara çəkmirdi. Şərait tələb etdikdə isə ən məsul qərarları belə təkbaşına qəbul edirdi. Lider, dövlət başçısı üçün son dərəcə zəruri olan bu keyfiyyət, əfsuslar olsun ki, onun sələflərində yox idi.

**– İndi isə Qurtuluş Günü kimi tariximizə düşən hadisəni yada salaq.**

– 1993-cü ilin iyun ayı idi. Milli Məclisin iclasında Heydər Əliyevin parlament sədri seçilməsi məsələsi qoyulmuşdu. O, bütün suallara ətraflı cavab verdi. Müzakirə qurtardı, növbə səsvermə proseduruna çatdı. Elə bu vaxt iclasda olan keçmiş müdafiə naziri Rəhim Qazıyev bəyan etdi ki, Gəncə şəhərindəki vəziyyəti nəzərə almadan (orada onun həmfikiri xeyli sayda hərbi kontingenti özünə tabe etmişdi və hakimiyyəti ələ keçirməyə çalışırdı) və orada olan qüvvələrin tələblərini yerinə yetirmədən bu seçki heç nə verməyəcək və onu keçirmək olmaz. Bu, açıq-aşkar şantaj, Heydər Əliyevə meydan oxumaq idi.

Həmin insanlarla təmasa girmək heç də təhlükəsiz deyildi. Bundan bir qədər əvvəl oxşar vəziyyətdə iqtidar yaxasını kənara çəkməyi üstün tutmuşdu. Heydər Əliyev R. Qazıyevin dediklərinə məhəl qoymaya bilərdi və bu, səsvermənin nəticələrinə heç bir təsir göstərməzdi. Lakin o, dərhal qərar qəbul edərək bildirdi ki, Gəncədə vəziyyətlə tanış olmaq üçün 2 saatdan sonra oraya yola düşür. Kütləvi informasiya vasitələrinin nümayəndələri də onunla birlikdə gedə bilərlər. Bu məqsəd üçün ayrılmış avtobus Milli Məclisin yanında gözləyəcəkdir.

Bu, mərdliklə atılmış müdrik bir addım idi. Bundan əvvəl də, sonrakı illərdə də o, çox mürəkkəb vəziyyətlərdə dəfələrlə cəsarət və qətiyyət göstərmiş, ölkənin rifahı naminə fədakarlığa hazır olduğunu nümayiş etdirmişdi.

**– Onun xarizması barədə də fikriniz maraqlı olardı.**

– Bəli, Heydər Əliyev özünə və ətrafındakılara qarşı tələbkar idi. Qəbul etdiyi qərarların dönmədən yerinə yetirilməsinə çalışırdı. Zabitəli idi, məsuliyyətsizliyə, intizamsızlığa, səhlənkarlığa dözümü yox idi. Amma bağışlamağı da bacarırdı. Özfəaliyyətə yol verməsə də, təşəbbüskarlığı boğmur, mütərəqqi ideyaları və hərəkətləri dəstəkləyir və həvəsləndirirdi. Qüsurlara və çatışmazlıqlara son dərəcə tənqidi yanaşırdı. Amma hər şeyi qara rəngdə görən pessimist də deyildi. Əldə edilmiş yaxşı nə varsa hamısına görə ürəkdən sevinir və onun bu sevinci insanlara da keçir, onları yaradıcı işə səfərbər edirdi.

Heydər Əliyev son dərəcədə tələbkar rəhbər idi. Bunu respublikadakı vəziyyət də tələb edirdi. O, hər bir problemin müvafiq qərar qəbul olunanadək hərtərəfli müzakirəsini təşkil edirdi. Qəbul edilmiş qərar isə mütləq yerinə yetirilməli idi.

Ancaq onun böyüklüyünü etiraf edən tək biz deyildik... Bəzi xarici müşahidəçilər bu mövqeyi diktatura əlaməti sayırdılar. Həmin müşahidəçilərdən biri Mstislav Rastropoviç ilə söhbət zamanı Azərbaycanda diktatura olduğunu söyləyəndə dünya şöhrətli musiqiçi cavab vermişdi ki, elədir, Heydər Əliyev qanunun diktaturasını bərqərar etmişdir. Heydər Əliyev isə müsahibələrindən birində özü haqqında belə demişdi: Mən demokratiyanın tərəfdarıyam, amma liberalizmdən uzağam.

**– Onda xalq üçün qeyri-adi bir əlçatanlıq keyfiyyəti də var idi.**

– Bəli, o, insanlar üçün əlçatan, diqqətli və qayğıkeş idi, yaxşılığı yüksək qiymətləndirir və yadında saxlayırdı. Son dərəcə məşğul olduğuna baxmayaraq, heç vaxt təmasdan qaçmırdı. Bu barədə deyirdi: hətta bilsəm ki, bu insan mənim əleyhimədir, yenə də onunla görüşməkdən imtina etmirəm. Mənim fikrimcə, bu yanaşma tərzi Heydər Əliyevin yuxarıda göstərdiyim keyfiyyətini–öz qərarlarının və hərəkətlərinin düzgünlüyünə inamını, habelə dinləmək və izah etmək bacarığını, hər kəsə səbirli, atalıq münasibətini şərtləndirən əsas amildir.

**– Necə olurdu ki, onun ətrafındakıların sayı gündən-günə artırdı?**

– Heydər Əliyev şəxsiyyətinin çox böyük cazibə qüvvəsi vardı. Demək olar ki, bütün xalq ona məhəbbət bəsləyirdi. Heydər Əliyevin bir müraciəti kifayət idi ki, on minlərcə insan heç bir hazırlıq görmədən və təşkilatlanmadan qəlbinin hökmü ilə küçələrə çıxıb onun siyasətini müdafiə etsin. 1944-cü ilin payızında dövlət çevrilişinə cəhd edildikdə Heydər Əliyevin müraciətinə cavab olaraq on minlərlə Bakı sakini iki saat ərzində Prezident Administrasiyasının binası önünə toplaşaraq, xalqın kimin tərəfində olduğunu qəsdçilərə aşkar şəkildə başa saldı.

Heydər Əliyevin iki dəfə respublikanın rəhbəri olduğu 30 ildən artıq bir dövr Azərbaycanın çoxəsrlik tarixində kiçik bir müddətdir. Lakin bu dövr dövlətçiliyimizin və xalqımızın mənlik şüurunun formalaşmasında tarixi bir mərhələ təşkil etmişdir. Ulu öndərin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsinə, çiçəklənmə, cəmiyyətdə yeni dünyabaxışının formalaşması, insanların öz qüvvə və imkanlarını dərk etməsi dövrünə çevrilmişdir. Biz naqislik kompleksi hissinə yaxın olan bir vəziyyətdən xilas olduq. 1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı yenicə əldə edilmiş müstəqilliyimizi, xarici və daxili amillərin təsiri altında dağılmaqda olan dövlətçiliyimizi, bizim hər birimizin və bütövlükdə, millətin şərəf və ləyaqətini xilas etdi. Bu dövrdə demokratik inkişafın əsasları qoyulmaqla, uğurlu iqtisadi siyasət müəyyən edilib həyata keçirildi.

**– Bu möhtəşəm yubiley ərəfəsində oxucularımıza demək istədikləriniz...**

– Azərbaycanın böyük oğlu Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri və parlaq şəxsiyyəti qədirbilən həmvətənlərinin xatirəsində əbədi yaşayacaqdır.

***Müsahibəni apardı: Qüdrət PİRİYEV, “Xalq qəzeti”***



# Heydər Əliyev ömrünün hər ili bir əsrə bərabərdir

**“Heydər Əliyev xatirələr işığında” layihəsinin növbəti qonağı ictimai-siyasi xadim, istər sovet, istərsə də müstəqil Azərbaycanda ulu öndər Heydər Əliyevin rəhbərliyi altında müxtəlif rəhbər vəzifələrdə çalışmış, YAP Veteranlar Şurasının üzvü Əli Həsənovdur.**

**– Əli müəllim, Sizə elə gəlmirmi ki, Heydər Əliyev fenomenindən uzaqlaşdıqca onun daha uca zirvədə qərarlaşdığını dərk etməyə başlayırıq?**

– Ulu öndər Heydər Əliyev artıq 20 ildir ki, cismən aramızda yoxdur. Amma bu 20 ili biz elə yaşamışıq ki, elə bil hər şey dünən baş verib. Bu da ondan irəli gəlir ki, Heydər Əliyev bu 20 ildə hər gün, hər yerdə ehtiramla anılıb və demək, həm də bizimlə olub, bizdən uzaqlaşmayıb. Bunu bilavasitə öz timsalımda deyirəm. Həyatımda elə bir gün olmayıb ki, onun adını çəkməyim və ruhuna dualar oxumayım. Bunu da bilərəkdən dilə gətirməmişəm, sadəcə hansı məsələ haqqında söhbət olubsa, söz gəlib Heydər Əliyev şəxsiyyətinə çıxıb.

Dünyada tarixi şəxsiyyətlər çox olub, 1000 il, 500 il, 300 il bundan əvvəl də dünyaya dahilər, böyük şəxsiyyətlər gəlib. Onların arasında Heydər Əliyevə bənzər ikinci bir şəxsiyyət yoxdur ki, hər gün onu xatırlasınlar, haqqında xoş fikirlər səsləndirsinlər. Bu da məhz Heydər Əliyev şəxsiyyətinin ucalığından, əzəmətindən, zamanı dəf etməsindən irəli gələn bir məsələdir. Onun həyat və fəaliyyəti o qədər zəngindir ki, 100 il bir epoxa kimi görünür.

Kim təsəvvür edə bilərdi ki, sovet imperiyasında “qırmızı terror”un ziyalılarımıza divan tutduğu bir vaxtda 18 yaşlı bir gənc Naxçıvan Muxtar Respublikasının Xalq Komissarlığında şöbə rəisi vəzifəsində çalışacaq. Artıq bu yaşda belə bir vəzifədə fəaliyyət göstərməsi Heydər Əliyevin böyük gələcəyindən xəbər verirdi.

1941-ci ildə Heydər Əliyev Bakıya gəlir və 1944-cü ildə Dövlət Təhlükəsizlik Komitəsində işə qəbul olunur. Yeganə azərbaycanlıdır ki, 25 il Dövlət Təhlükəsizlik Komitəsində (DTK) işləyib və sıravi əməkdaşdan həmin qurumun rəhbərinə qədər qüsursuz yol keçib. Yeganə şəxsdir ki, DTK-nın ilk azərbaycanlı rəhbəri olub. Ona qədər Azərbaycanda DTK-nın rəhbərlərinin hamısı digər millətin nümayəndələri olublar. Bu dahi insanın karyerasını izlədikcə görürük ki, Heydər Əliyev hər yerdə birinci olub...

Kremlə keçmiş SSRİ respublikaları arasında iqtisadi inkişafına görə, Azərbaycan son yerlərdən çıxa bilmədiyi üçün bu vəziyyəti dəyişə biləcək rəhbər kadr təyinatına zərurət var idi. Təbii ki, bu kadr seçimində Kreml məhz Heydər Əliyevin namizədliyi üzərində dayandı və 1969-cu ildə o, Azərbaycan KP MK-nın birinici katibi vəzifəsinə göndərildi. Sovet ittifaqı dövründə dövlət təhlükəsizlik orqanından respublikaya rəhbər vəzifəyə çox nadir hallarda kadr təyin edilirdi. Heydər Əliyev burada da birinci adam idi ki, DTK rəhbərliyindən Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə irəli çəkilirdi. Çünki Heydər Əliyev Azərbaycana rəhbər seçilənə qədər artıq çalışdığı qurumdakı xidmətlərinə görə, Moskva onu yaxşı tanıyırdı. Heydər Əliyevin 25 ildə keçdiyi yol onu son dərəcə hazırlıqlı bir kadr kimi formalaşdırmışdı.

Respublikada həqiqətən vəziyyət son dərəcə ağır idi. Azərbaycan, sözün əsl mənasında geridə qalmış aqrar bir ölkə idi. Sənayenin inkişafından isə söhbət belə gedə bilməzdi. Az-çox üz ağardan neft sənayesi idi ki, orada da ciddi geriləmə hökm sürürdü.

Beləliklə, 1969-cu il iyulun 14-də Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçldi. Bir aydan sonra yeni birinci katib avqust plenumu çağırdı. Plenumun əsas mövzusu isə korrupsiyaya qarşı mübarizə tədbirləri idi. SSRİ-nin, necə deyərlər, qılıncının arxasının, qabağının kəsən vaxtında, bir ay əvvəl respublikada kommunist partiyasının rəhbəri təyin olunasan və bir aydan sonra SSRİ-yə bəyan edəsən ki, ölkədə korrupsiya baş alıb gedir. Bu, təsadüfi bir addım deyildi. Əslində, bu, partiyaya meydan oxumaq idi...

Digər tərəfdən də, ölkədəki vəziyyət əvvəl çalışdığı qurumdan ona əl içi kimi bəlli idi. Harada nə baş verir, rəhbər kadrlar nə ilə nəfəs alır, kimlərin əli korrupsiyaya bulaşıb, hansı rayonda idarəçilikdə korrupsiya halları baş alıb gedir və sair, hamısını gözəl bilirdi. İndi bu iyrənc halları aradan qaldırmağın və ölkəni bataqlıqdan çəkib çıxartmağın vaxtı çatmışdı.

Avqust plenumundan sonra Heydər Əliyevin adı nəinki SSRİ çevrəsində, Qərb dünyasında da diqqət mərkəzinə düşdü. Diktaturanın hakim olduğu bir ölkədə kiçik bir müsəlman ölkəsinə rəhbər təyin olunan bir türk sovet sistemində korrupsiyanın olduğunu və ona qarşı mübarizəyə başladığını bəyan edir. Beləcə, Qərb ölkələrinin bir çox dairələrində Azərbaycanda 14 illik fəaliyyəti dövründə Heydər Əliyevin fəaliyyəti izlənməyə başlandı və o, populyar bir siyasət adamına çevrildi.

**– Sizcə, Heydər Əliyev nədən ölkəyə rəhbərliyə məhz korrupsiya ilə mübarizədən başladı? Axı deyirsiniz ki, ölkədə sosial-iqdisadi vəziyyət çox ağır idi...**

– Çünki Heydər Əliyev yaxşı bilirdi ki, iqtisadi tənəzzülün kökündə, ilk növbədə, korrupsiya dayanır. Bu bəlaya qarşı mübarizə aparmadan və ona qalib gəlmədən ölkədə islahatların uğur qazanacağına heç bir zəmanət yoxdur. Amma Heydər Əliyev təkcə korrupsiyaya qarşı mübarizə ilə kifayətlənmədi. Dahi öndər ölkədə bütün sahələrdə radikal islahatlara başladı və cəmi iki ildən sonra 15 respublika arasında ən yaxşı halda 13-cü yerdən yuxarı qalxa bilməyən Azərbaycan birinci yerə yüksəldi. Artıq 1971-ci ildə yüksək sosial-iqtisadi göstəricilərinə görə, respublika Keçici Qırmızı Bayraq aldı. 14 illik fəaliyyətində isə Azərbaycan başdan-ayağa qabacıl sənaye və kənd təsərrüfatı respublikasına çevrildi. 14 əvvəl 330 min ton pambıq verən ölkə bir neçə ilə bu rəqəmi 831 min tona çatdırdı. Üzüm istehsalı 1, 8 milyon tona yüksəldi. O zaman ən çox üzüm Moldovada istehsal edilirdi – 1,3 milyon ton. Ölkənin büdcəsi iki dəfə, kənd təsərrüfatı məhsullarının istehsalı 2,7 dəfə, milli gəliri 1,9 dəfə artdı. Azərbaycan 12 il ardıcıl SSRİ Keçici Qırmızı Bayrağı almağa nail oldu. Respublikada sənaye sahələri sürətlə böyüməyə başladı, son texnologiya əsasında 250 yeni fabrik və zavod tikildi və yüksək keyfiyyətli məhsul istehsalına başlandı.

Respublikaya rəhbərlik etdiyi ilk 14 ildə Heydər Əliyev nəhəng neftayırma kompleksi sistemlərinin, müasir səviyyəli neft donanmasının yaradılmasına, keçmiş SSRİ-də analoqu olmayan Bakı Dərin Özüllər zavodunun tikilməsinə nail oldu. Bakı Elektrik Maşınqayırma, Məişət Soyuducuları zavodları, Radiozavod, Elektron Hesablayıcı maşınları, Sumqayıt Kompressorlar, Gəncə Büllur, “Azon”, “Alunit” müəssisələri və digər sənaye obyektləri məhz onun şəxsi təşəbbüsləri və səyləri ilə ölkəımizdə inşa edildi. Heydər Əliyevin rəhbərliyi ilə təkcə yeni zavod və fabriklər tikilməklə kifayətlənilmir, mövcud zavodlarda köhnə avadanlıqlar və texnologiyalar yenisi ilə əvəz edilirdi. Məsələn, “Bakı fəhləsi” zavodu yenidən quruldu. “Yeni Bakı” neftayırma zavodunda yüksək texnologiyaya malik ELOU-AVT qurğusunun, Bakı Kondisionerlər və Sumqayıt Kompressorlar zavodlarının, Sumqayıtda və Naxçıvanda iri trikotaj fabriklərinin, Polimer Tikinti Materialları müəssisəsinin və Evtikmə kombinatlarının inşası yekunlaşdı. Elektrik enerjisi istehsalı 1,5 dəfə artdı. Elmi-tədqiqat institutlarında və ali məktəblərdə 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı, keçmiş SSRİ-nin nüfuzlu ali təhsil məktəblərinə ildə 1400 nəfər, hərbi məktəblərə isə 1000-ə qədər gənc göndərilirdi. Miqyas o qədər böyükdür ki, saymaqla qurtaran deyil.

Korrupsiyaya qarşı mübarizə aparmadan bunlara nail olmaq mümkün olardımı? Əlbəttə, yox. Heydər Əliyev Kremllə yaxın münasibətləri və şəxsi nüfuzu sayəsində Azərbaycana küllü miqdarda sərmayələr yatırılmasına nail oldu. Sadaladığım müəssisələr məhz onun sayəsində gerçəkləşirdi.

Azərbaycanın mədəniyyəti və incəsənəti, elm və təhsili əsl intibah dövrünə qədəm qoydu. Təhsildə elə islahatlar getdi ki, az bir müddətdən sonra bütün sahələrdə milli kadrlar yetişməyə başladı. İslahatların toxunmadığı sahə yox idi. Əlbəttə, ən diqqətçəkən işlərdən və uğurlardan biri Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılması idi. Heydər Əliyev dəfələrlə çıxışlarında bunu vurğulayırdı ki, ermənilər tərəfindən bu məktəbin açılmasına ciddi maneələr yaradılırdı, bunun qarşısını almağa cəhd göstərilirdi. Amma Heydər Əliyevin qətiyyəti qalib gəldi və hərbi məktəb fəaliyyətə başladı. Artıq müstəqillik illərində bizə aydı aydın oldu ki, bu dahi şəxsiyyət 50 il qabağa baxır və hadisələrin axarını görürmüş. 2020-ci ildə 44 günlük müharibədə Ali Baş Komandanın rəhbərliyi altında Zəfər əldə edən ordumuzun generalları məhz bu hərbi məktəbin məzunlarıdır.

**– O dövrün – Heydər Əliyev epoxasının yetirmələrindən biri də Əli Həsənov idi. Ulu öndərlə ilk görüşünüz necə baş verdi və onun diqqətini necə cəlb edə bildiniz?**

– Maraqlı sualdır (gülür). Azərbaycan Neft-Kimya İnstitutunun mexanika fakültəsini əla qiymətlərlə bitirib keçmiş İttifaq tabeliyində olan “Xüsusi tikinti-quraşdırma” trestinə usta vəzifəsinə təyinat aldım. Bu trestdə çalışanların hamısı qeyri-azərbaycanlı idi. Çox az bir müddətdən – iki ildən sonra trestin Sumqayıt idarəsində baş mühəndis vəzifəsinə təyin olundum...

Qismətim onda gətirdi ki, Bakıya Kür çayından su kəmərinin çəkilməsinə qərar verildi. Kür suyu Sabirabadın Talış kəndi yaxınlığından götürülürdü. Kürdən Bakıya Xırdalan qəsəbəsinə qədər 1400 diametrliyində metal borudan iki xətt çəkilməli idi. Onu bizim trestə həvalə etdilər. İşin icrası da bilavasitə mənə tapşırıldı. Yalan olmasın, kəmər tikilən iki ildə Sabirabaddan Xırdalana, bəlkə, min dəfə gedib-gəlmişəm. 1972-ci ildə kəmərin açılışı olacaqdı. Azərbaycan KP MK-nın katibi Həsən Seyidov bilirdi ki, kəmərin quraşdırılması işi mənim rəhbərliyimlə həyata keçirilib. Sabah açılış olacaq, axşam gəlib açılışın hazırlıq vəziyyətini yoxladılar. Çəndən suyu açdılar, kranı açdılar, su gəlir, hər şey normal qaydadadır. Mühafizə idarəsi bütün bunlardan sonra obyekti məndən təhvil aldı.

Səhəri gün saat 10-da hamımız toplaşdıq və gözləyirik ki, Heydər Əliyev gəlib kəmərin təntənəli açılışını edəcək. Həsən Seyidov məni yanına çağırıb dedi: “Əli, sən mənə yaxın ol, birdən lazım olarsan”. Suyun üzərində üzən qurğunu da biz quraşdırmışdıq. Sən demə, mühafizə qrupu səhər gəlib kranları açır, amma çənin kranını açmaq yaddan çıxır. Heydər Əliyev gəldi və Nazirlər Sovetinin sədri Əli İbrahimov başda olmaqla bütün rəhbər heyət də burada idi. Heydər Əliyev lenti kəsdi, alqışladılar, kranı açanda su gəlmədi. Mən də Həsən Seyidovun arxasında dayanmışam, bütün prosesi diqqətlə izləyirəm. Anidən başa düşdüm ki, çənin kranını açmayıblar. Qaçdım çənə tərəf. Heydər Əlyev və bütün bura toplaşanlar hamı mənə baxır ki, bu, hara qaçır? Çənə qədər olan məsafə də, təxminən, 20-25 metr olardı. İnanın, mənim ora qaçıb çatmağım, kranı açmağım və qayıtmağım, bəlkə, heç 30 saniyə çəkmədi. Artıq krandan su gəlir, mən də tez gəlib öz yerimdə durmuşam. Heydər Əliyev çıxış etdi, toplantı iştirakçıları onu sürəkli alqışladılar. Tədbir başa çatdı. Heydər Əliyev yaxınlaşıb, Həsən Seyidovdan soruşdu: “Bu cavan oğlan kimdir?” O da cavab verdi ki, bütün kəmərin quraşdırma işlərini həyata keçirən bu adamdır, baş mühəndisidir”. O da üzünü mənə tutub soruşdu: “Harda işləyirsən?”. Cavab verdim ki, “Speçmontajstroy”da. “Həə, “Xüsusi tikinti quraşdırma” trestində”. Sanki rus dilində cavab verdim deyə, yanlışı düzəltdi.

Beləcə, o tarixi gündən mənim adım Heydər Əliyevin, necə deyərlər, kadrlar siyahısına düşdü.

**– Bu qəfil görüşün və tanışlığın davamı oldumu?**

– Əlbəttə, oldu. 1976-cı ildə artıq Heydər Əliyevin təqdimatı ilə SSRİ Kimya Sənayesi Nazirliyinin Azərbaycandakı Sumqayıt Kimya Birliyində baş direktorun tikinti üzrə müavini vəzifəsində çalışırdım. Birliyimizin Azərbaycanda kimya sənayesi müəssisələrinin tikintisini həyata keçirirdi. Bu müəssisədə çalışanda Heydər Əliyevlə bağlı çox maraqlı hadisələrlə qarşılaşırdım. Məsələn, hər dəfə hər hansı problemin həlli ilə bağlı Moskvaya nazirliyə gedəndə, müraciət edən kimi, deyirdilər Heydər Əliyeviçin tapşırıqlarıdır, tez həll etmək lazımdır. Amma ondan əvvəl Moskvaya yolumuz düşəndə və deyəndə ki, Azərbaycandan gəlmişəm, deyirdilər, ora haradır? Yəni Heydər Əliyevin adı çəkiləndə artıq hamı bilirdi ki, sən Azərbaycandansan.

Artıq 80-ci illərin əvvəllərində Heydər Əliyev haqqında Qərb mətbuatı tez-tez materiallar dərc edirdi. Hətta xarici sosialist ölkələrindən Moskvaya gələn qonaqlardan, hətta dövlət rəhbərlərindən bəzilərini Azərbaycana, Bakıya göndərirdilər. Məsələn, mənim yadımdadır ki, Rumıniyanın prezidenti Çauşevski, Çexoslovakiya, Kuba dövlətlərinin rəhbərliklərinin nümayəndələri Bakıya gəlmişdi... Kimya sənayesi ilə tanış olmaq üçün Sumqayıta səfər edirdilər. Yəni artıq Azərbaycan SSRİ-nin inkişaf modelinin bir göstəricisinə çevrilmişdi və xarici dövlətlərin rəsmi şəxslərinə də belə təqdim edilirdi. Bu da Heydər Əliyevin sayəsində mümkün olmuşdu.

Heydər Əliyev qısa müddət ərzində ölkədə sənaye, kənd təsərrüfatı, energetika sahələrində islahatlar aparıb o sahələrin inkişafına nail oldu. Siyasi, iqtisadi, sosial konsepsiyalar hazırlandı. Tolerantlıq prinsipləri gözlənilməklə, kadrların milliləşmə prosesi başlandı. Gənclər SSRİ-nin ən yaxşı təhsil müəssisələrində oxumağa göndərildi.

O dövrdə çalışdığım sahə ilə bağlı bir misal çəkim. SSRİ Kimya Sənayesi Nazirliyinin xətti ilə Sumqayıtda Yuyucu Tozlar zavodu tikirdik. Sovet İttifaqında üç yerdə belə zavod tikilirdi. Biri Sumqayıtda, biri Leninqrad vilayətinin yaxınlığındakı Tosna şəhərində, biri də Qazaxıstanda. Leninqrad Vilayət Partiya Komitəsinin katibi Romanov, Qazaxstanın birinci katibi Kunayev və Azərbaycanın birinci katibi də Heydər Əliyev idi. Romanov da, Kunayev də Sov.İKP MK Siyasi Bürosunun üzvü idilər. Heydər Əliyev isə Siyasi Büroya namizəd idi. Vəzifə və partiya iyerarxiyasına görə onların ikisi də Heydər Əliyevdən yuxarıda idi. Həmin zavodun da bir əsas qurğusu var, bütün proseslər o qurğunun içində gedir. Paslanmayan xüsusi metaldan hazırlanır. Bu qurğu çox böyük əziyyət hesabına başa gəldiyindən həmin vaxta qədər cəmi ikisi hazırlanmışdı.

SSRİ-də belə bir qayda var idi – İttifaq əhəmiyyətli tikintiləri xüsusi nəzarətə götürürdülər. Bu zavodlar da həmin siyahıda idi. Mərkəzi Komitədə sənayeyə baxan qurum tikinti prosesini izləyirdi. Ona görə də hər üç zavodun tikildiyi respublika və vilayət rəhbərliyini Əliyev, Romanov və Kunayevi Moskvaya çağırırlar və onlara bildirilir ki, 3 belə zavod tikilir, amma qurğulardan hələ ki ikisi hazırlanır. Kim zavodun tikintisini birinci başa çatdırsa, qurğular onlara veriləcək. Heydər Əliyev orada söz verir ki, biz zavodun tikintisini vaxtından əvvəl başa çatdıracağıq. Romanov da, Kunayev də eyni sözü deyirlər.

Həmin vaxtlar Kamran Bağırov Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi idi. Heydər Əliyev Moskvadan qayıdan kimi Mərkəzi Komitənin bürosunu çağırdı və bizi də dəvət etdi. Tikintiyə Azərbaycan Kommunist Partiyası tərəfindən katib Həsən Seyidov nəzarət edirdi. Heydər Əliyev onu Şmidt adına maşınqayırma zavodunun direktoru vəzifəsindən MK-ya katib gətirmişdi.

Sumqayıtdakı zavodun tikintisi də mənim rəhbərliyim altında gedirdi. Gənc idim, 28 yaşım vardı. Qarşıya qoyulan vəzifəni deyilən vaxtdan da tez yerinə yetirdik və iki qurğudan biri Azərbaycana gətirildi...

1982-ci ildə Heydər Əliyevi Moskvaya apardılar. Sizcə türk-müsəlman övladını nəhəng bir dövlətin rəhbərliyinə gətirmək təsadüf idi? Əlbəttə, yox.

**– Əli müəllim, Heydər Əliyevin fəaliyyəti və irsindən söz düşəndə daha çox onun Azərbaycandakı fəaliyyəti haqqında bəhs edirlər. Heydər Əliyevin fəaliyyətinin Moskva dövrü barədə nə deyə bilərsiniz?**

– Sizinlə tam razıyam. Çünki Heydər Əliyevin dünyada daha böyük nüfuz qazanmasında onun Moskva dövrü, Kremldəki fəaliyyəti xüsusi rol oynayıb. Onu da deyim ki, Heydər Əliyevin “Moskva dövrü” fəaliyyəti həm də son dərəcə maraqlı olub. Nazirlər Soveti sədrinin birinci müavini təyin edilən gündən az bir müddət sonra SSRİ-nin 12 nazirliyi və 20-ə yaxın komitəsi onun nəzarətinə verilib: maşınqayırma, ticarət, yüngül sənaye, bütün növ nəqliyyat, rabitə, hətta mədəni-maarif sahələrinə rəhbərlik ona tapşırılmışdı. Çünki bu sahələrdə çox ciddi problemlər yaşanırdı. Təkcə yüngül sənaye sahəsində 3 milyona qədər insan işləyirdi, 3700-ə yaxın müəssisə var idi. 1984-cü ildən Heydər Əliyev sovet məktəbinin islahatı komissiyasına, 1986-cı ildə SSRİ Nazirlər Sovetinin Sosial İnkişaf üzrə Büronun sədri vəzifəsini təyin edilmişdi. O, öz sahəsi olmayan müvafiq məsələlər üzrə bir sıra əsas layihələrdə iştirak edidi.

Moskva dövrü fəaliyyətində SSRİ Nazirlər Sovetinin və Siyasi Bürosunun onlarla ən mühüm qərarlarının altında Heydər Əliyevin imzasına rast gəlmək olardı. Məsələn, Heydər Əliyev Nazirlər Sovetinin Operativ Məsələləri Komissiyasına rəhbərlik edirdi. Bu kommisiyanın tərkibinə Baş nazirin müavinləri və bir sıra nazirlər daxil idi. Heydər Əliyevin Kremlə gəlişi ilə hər bazar ertəsi iclası keçirilən komissiya praktik olaraq Nazirlər Sovetinin rəhbər orqanına çevrilmişdi. Sovet İttifaqının təsərrüfat idarəçiliyinin bir çox aktual məsələlərini onun rəhbərlik etdiyi bu komissiya həll edir, sənaye rəhbərləri bura məruzəyə dəvət olunur və qarşılarında konkret vəzifə və tapşırıqlar qoyulurdu. Təsadüfi deyildi ki, Kremlin özündə belə Heydər Əliyevin rəhbəri olduğu bu komissiyanı “ikinci Siyasi Büro” adlandırırdılar. Bundan əlavə, Heydər Əliyev xarici iqtisadi əlaqələr sistemində də fəal iştirak edən əsas rəhbərlərdən biri idi, SSRİ-nin Asiya və Yaxın Şərqdə beynəlxalq əlaqələrində mühüm rol oynayırdı.

Onun sosial sahədə və səhiyyədə apardığı islahatlar bir-birindən fərqlənirdi. Heydər Əliyevin təşəbbüsü ilə SSRİ-də ilk kompleks diaqnostika mərkəzləri yaradıldı. Onun dəstəyi sayəsində sovet cərrahlarına ilk açıq ürək əməliyyatları etməyə icazə verildi. Rusiyada indi də deyirlər ki, Heydər Əliyev Svyatoslav Fyodorov Göz Mikrocərrahiyyə Mərkəzini işə saldı və onun üçün Volqa boyunca gəzən çay gəmisində səyyar laboratoriyanın yaradılmasına himayədarlıq etdi. 1987-ci ilin avqustunda Sov.İKP MK-nın “SSRİ-də 2000-ci ilə qədər olan dövr üçün səhiyyənin inkişafının və yenidən qurulmasının əsas istiqamətləri” layihəsi dərc olunmuşdu. Mütəxəssislərin fikrincə, bu, tibbin vəziyyətinə müsbət təsir göstərən, maddi-texniki bazanın yenilənməsinə imkan verən “erkən” yenidənqurmanın ən diqqətəlayiq sənədlərindən biri idi. Bir çox cəhətdən Rusiyada tibb texnologiyasının son illərə qədərki vəziyyəti və tibb elminin maddi bazası SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin həmin “ehtiyatından” istifadə edirdi.

**(ardı var)**

***Söhbəti qələmə aldı:***
***İ.RÜSTƏM, “Xalq qəzeti”***

# Heydər Əliyevin həyat və fəaliyyəti əsl dövlətçilik məktəbidir



**Azərbaycan xalqı və beynəlxalq ictimaiyyət ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünü böyük ruh yüksəkliyi ilə qeyd edir. Dünya siyasətinin nəhənglərindən olan Heydər Əliyev Tanrının Azərbaycan xalqına bəxş etdiyi nadir şəxsiyyətlərdən biridir. Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində ulu öndərin şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. O, əbədi olaraq Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, ümummilli lider kimi qalmışdır.**

Dövlət quruculuğu və dövlətçilikdən danışarkən, heç şübhəsiz, ilk növbədə, Heydər Əliyevin bu sahədəki danılmaz fəaliyyəti və əsasını qoyduğu siyasi xətt yada düşür. Çünki möhkəm təməllər üzərində formalaşan müstəqil Azərbaycan dövləti məhz Heydər Əliyevin milli dövlətçilik amallarına bağlı ideologiya sayəsində bərqərar olmuşdur. Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövrü ərzində respublikamıza rəhbərlik etmiş Heydər Əliyevin dövlətçilik təfəkkürü elə bir tükənməz irs yaratmışdır ki, bununla bağlı onun strateji düşüncələrinin və fəaliyyətinin bütün tərəflərini əsrlər boyu öyrənməyə, təhlil və təbliğ etməyə ehtiyac olacaqdır. Bu günün yeni reallıqları fonunda onun böyük dövlətçilik salnaməsinin məzmunu və mahiyyəti daha aydın və dolğun görünür.

## Qurucu lider

Bu zirvədən Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurucusu kimi müstəsna tarixi roluna nəzər yetirmək, fəaliyyətini araşdırmaq həm siyasi, həm də elmi-tarixi, nəzəri və praktik baxımdan aktualdır. Bunun üçün, düşünürəm ki, ölkəmizin son yüzillik tarixinə ekskurs etmək və bu dövrdəki siyasi proseslərin necə cərəyan etməsinə diqqət yetirmək kifayətdir. Azərbaycan xalqı 1918-ci ilin may ayında bir ilkə imza atdı – müsəlman Şərqinə respublika məfkurəsini gətirdi, Azərbaycan Cümhuriyyətini, respublika idarə-üsulunu qurdu. Lakin cəmi 23 aydan sonra – 1920-ci ilin aprelində Azərbaycan Demokratik Respublikası süquta uğradı. Azərbaycan SSR yaradıldı. XX əsrin 20, 30 və 40-cı illəri sovet dövlət quruculuğu adı altında müstəqil dövlətçilik atributlarının zəifləməsi, Azərbaycanın mərkəzə daha çox bağlanması, milli ədəbiyyatın, milli ruhlu ziyalıların təqib və repressiyalara məruz qalması ilə yadda qaldı.

Bütün bunlara baxmayaraq, Heydər Əliyev o dövrü yalnız qara rəngə boyamaq istəyənlərlə heç də tam razılaşmayaraq ədalət naminə həmin illərin müsbət meyillərindən faydalanmaq imkanlarının da olduğuna diqqətə çatdırırdı. Ulu öndər deyirdi: "Ötən 70 ildə Azərbaycanın elmi potensialı yaranıb, respublikanın böyük iqtisadi potensialı yaranıb. Azərbaycan qurulub, yaşayıb, yəni Azərbaycan xalqı bu rejimi qəlbən qəbul etməsə də, bu rejimin içərisində öz işini görüb, irəliyə gedib, inkişaf edib".

Bununla Heydər Əliyev, ilk növbədə, istənilən şəraitdə hər bir rəhbərin öz xalqının inkişafı üçün bütün səy və bacarığını səfərbər etmək qabiliyyətini gələcəyə praqmatik baxışların formalaşmasına təsir göstərən ciddi amil kimi dəyərləndirirdi. Tarixdən məlum olduğu kimi, həmin dövrdə dövlət idarəetməsi ilə bağlı bütün məsələlər "kadrlar hər şeyi həll edirlər" məntiqinə əsaslanırdı. Bu o anlama gəlir ki, Sovet İttifaqına daxil olan müttəfiq respublikaların inkişaf səviyyəsi onlara rəhbərlik edən rəhbərlərin şəxsi keyfiyyətlərindən bilavasitə asılı olmuşdur. Bu səbəbdən də respublikaların hamısı heç də bərabər səviyyəli göstəricilərə malik deyildilər. Azərbaycan isə böyük enerji və aqrar imkanlara malik olmasına baxmayaraq, ötən əsrin 60-cı illərinin sonlarınadək onların sırasında ən geridə qalanlardan biri idi.

1969-cu ildə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçildikdən sonra respublikada şərait tədricən müsbət istiqamətdə dəyişməyə başladı. Artıq həmin dövrdən etibarən digər sahələrdə olduğu kimi, respublikada əsl dövlətçilik ənənələrinin inkişafına təkan verildi, dövlət idarəçiliyində yeni, mükəmməl və səmərəli metodlar tətbiq edildi. Bu siyasi kursun əsas qayəsi, ilk növbədə, Azərbaycanın iqtisadi imkanlarının əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilməsi, onun elmi potensialının artırılması, ölkəmizi inkişaf edən qabaqcıl respublika kimi tanıdılması idi. Bunun üçün Heydər Əliyev bütün çətinliklərə və maneələrə sinə gərərək şəxsi nüfuzu sayəsində Mərkəzin müttəfiq respublikalar üçün nəzərdə tutduğu bölgüdə Azərbaycanın payının mümkün qədər artırmağa nail olurdu.

Beləliklə, Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər ərzində Heydər Əliyevin titanik səyləri nəticəsində Azərbaycan geridə qalmış aqrar ölkədən inkişaf etmiş, müasir və SSRİ məkanında özünü təmin edən iki respublikadan birinə çevrildi. Ümummilli liderimizin 1969–1982-ci illərdəki əvəzsiz xidmətlərinə nəzər salanda bir daha aydın olur ki, Heydər Əliyev hələ o dövrdə ölkəmizdə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin inşasına nail olmaqla, hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetirməklə və Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş İttifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etməklə, müstəqilliyimizə zəmin yaradan uzaqgörən fundamental addımlar atmışdır. O, dövlət müstəqilliyimizin bərpası ilə bağlı düşüncələrin məhz həmin illərdə formalaşdığına diqqət çəkmişdir: "22 il bundan öncə biz bilmirdik ki, Azərbaycan müstəqil dövlət olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım".

1970-1980-ci illərdə şəxsi təşəbbüsü və qayğısı sayəsində keçmiş SSRİ-nin böyük şəhərlərində fəaliyyət göstərən aparıcı nüfuzlu ali məktəbində minlərlə azərbaycanlı gəncin yüksək savadlı mütəxəssislər kimi hazırlanması üçün geniş imkan yaratmaqla Heydər Əliyev Azərbaycanda kadr potensialının inkişafına müstəsna töhfə vermişdir. Bu addımlar səciyyə etibarilə strateji məzmun kəsb edirdi. Daha dəqiq desək, bir tərəfdən Azərbaycanın yüksək ixtisaslı kadrlara olan ehtiyacı təmin edilirdi, digər tərəfdən potensial Azərbaycan diasporunun formalaşması prosesinin konturları cızılırdı.

İti siyasi fəhmi hesabına perspektivdə ölkəmizin müstəqilliyini proqnozlaşdıran Heydər Əliyevin hələ sovet dövründə respublikamızda hərbi quruculuq məsələlərinə son dərəcə böyük əhəmiyyət verməsinin izahıdır. Onun milli hərbi kadrların hazırlanması sahəsində atdığı uzaqgörən addımların 2020-ci ildə Vətən müharibəsində əldə olunmuş tarixi Qələbəyə necə böyük töhfə verdiyinin bir daha şahidi olduq. Ötən əsrin 70-ci illərində böyük səylər nəticəsində yaradılmış Cəmşid Naxçıvanski adına məktəbin müdavimləri olan zabitlər artıq bu gün müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin komandirləri, generallarıdırlar. Ulu öndər Kremldəki yüksək nüfuzundan məharətlə istifadə edərək, respublikanın xalq təsərrüfatının inkişafını təmin etmək üçün Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin mühüm qərarlarının qəbul edilməsinə nail olmuş və Azərbaycanın mərkəzi büdcədən asılılığını minimuma endirərək, demək olar ki, müstəqil fəaliyyətini təmin etmişdir. Bu, hər zaman öz xalqını azad və məğrur görmək istəyən Heydər Əliyevin siyasi uzaqgörənliyinin bariz nümunəsi kimi dəyərləndirilməlidir.

Yuxarıda göstərilən tarixi reallıqlar Heydər Əliyevin 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə xalqa müraciətində gəldiyi aşağıdakı konkret elmi-nəzəri nəticənin də inkarolunmaz həqiqət olduğunu bir daha sübut edir: "Azərbaycanın Sovet dövründə inkişafının ən barız nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır".

## Kreml zirvəsində

Heydər Əliyev Moskvada çalışdığı 1982–1987-ci illərdə də respublikanın inkişafı üçün əhəmiyyətli addımlar atırdı. Lakin ondan sonra respublikaya rəhbərlik etmiş şəxslərin kölə psixologiyası, prinsipsizliyi, qətiyyətsizliyi və düşünülməmiş kor-koranə addımları Azərbaycanı getdikcə tənəzzülə yuvarlayırdı. Respublika dərin iqtisadi və siyasi böhrana doğru gedirdi.

Erməni millətçilərinin təsiri altına düşmüş Mixail Qorbaçov Sov.İKP MK-nin Baş katibi seçildikdən sonra artıq dünya miqyasında yüksək nüfuz qazanmış və əsl liderlik xüsusiyyətləri seçilən Heydər Əliyevin şəxsiyyətinə qısqanclıqla yanaşır və onu hakimiyyət dəhlizlərindən uzaqlaşdırmaq üçün fürsət axtarırdı. 1987-ci ildə Heydər Əliyevin Moskvada siyasi fəaliyyətdən təcrid olunmasından dərhal sonra keçmiş ittifaqın ermənipərəst rəhbərləri Dağlıq Qarabağda separatçı hərəkatlərə rəvac verdilər. Bu, həm də 1988-ci ildə 300 mindən artıq soydaşımızın Ermənistandan kütləvi deportasiyasını sürətləndirdi.

Həmin dövrdə Azərbaycanda dərinləşməkdə olan içtimai-siyasi böhran, hakimiyyətdə olanların qorxaqlığı və həmçinin cəbhəçilərin təxribatçı davranışları Sovet qoşunlarının Bakıya yeridilməsi və 1990-cı il qanlı 20 Yanvar faciəsi ilə nəticələndi. Bu hadisəyə, ilk olaraq, kəskin etirazını bildirən və ən cəsarətli, dəqiq və obyektiv siyasi qiyməti verən də Heydər Əliyev oldu. O, həyatı üçün real təhlükələrdən çəkinmədən Moskvadakı Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək oradan beynəlxalq aləmə tarixi bəyanat ünvanladı. Bu cəsarətli çıxışdan ruhlanmış Azərbaycan xalqının milli azadlıq hərəkatı daha geniş vüsət aldı.

## Siyasi iradə nümunəsi

1990-cı ildə məlum səbəblər üzündən Vətənə döndükdən sonra Bakıda qala bilməyən Heydər Əliyev Naxçıvana üz tutdu. 1991-ci ilin sentyabrında Muxtar Respublikanın Ali Məclisinin Sədri seçildikdən sonra blokada vəziyyətinə düşmüş Naxçıvanın ağır problemləri ilə məşğul olmağa başladı. Heydər Əliyev fəaliyyətinin bu dönəmində dünya miqyasında ən çətin məqamlarda əsl liderlərə məxsus fövqəladə və bənzərsiz üstün keyfiyyətlərini ortaya qoyaraq, yüksək səviyyəli dövlətçilik və idarəçilik nümunələri ilə böyük dövlətlərin diqqətini Naxçıvanın problemlərinə cəlb etməyə nail oldu. Heydər Əliyev ilk gündən idarəetmədə dövlətçilik prinsiplərinin dominantlığını təmin etdi.

1991-ci ilin avqustunda Moskvada dövlət çevrilişinə cəhddən sonra SSRİ-nın parçalanması prosesi daha da gücləndi. Azərbaycanda, o cümlədən, Naxçıvan Muxtar Respublikasında da hərbi-siyasi vəziyyət daha da mürəkkəbləşdi. Həmin məqamlarda Heydər Əliyevin Naxçıvanı işğal təhlükəsindən xilas etmək üçün atdığı siyasi və diplomatik addımların çox mühüm əhəmiyyəti oldu .

Ordu quruculuğu məsələsinə xüsusi həssaslıqla yanaşan Heydər Əliyev bu məqamda Azərbaycan rəhbərliyinin nümayiş etdirdiyi süstlüyü və qətiyyətsizliyi yolverilməz hal sayırdı. Heydər Əliyevin güclü siyasi iradəsi sayəsində Ali Məclisin 1992-ci il iyul ayının 25-də razılaşdırılmış xüsusi qərarı əsasında bu ərazidəki sovet qoşun hissələrinin əmlakının dinc şəkildə və bütünlüklə Azərbaycan tərəfinə təhvil verilməsi böyük tarixi hadisə idi.

O dövrdə respublikanın ərazi bütövlüyü mərkəzi hakimiyyət orqanları tərəfindən təmin edilməli olduğu halda, Bakıda hakimiyyətsizlik yaranmış və siyasi qüvvələrin də başı hakimiyyət uğunda mübarizəyə qarışmışdı. Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili isə bütünlüklə Heydər Əliyevin üzərinə düşmüşdü. Ulu öndər Naxçıvan Muxtar Republikasının əhalisini və potensialını öz ətrafında birləşdirərək dövlətçilik təcrübəsini və istedadını yenidən ortaya qoyaraq, erməni təcavüzünün genişlənməsinin, habelə dövlətə qarşı xain cəhdlərin qarşısını almağa müvəffəq oldu.

## YAP ideoloji mübarizənin ön cərgəsində

Olduqca gərgin, bütün sahələrdə tənəzzül və böhranın hökm sürdüyü həmin vəziyyətdə Yeni Azərbaycan Partiyasının yaradılması, heç şübhəsiz, ümummilli liderin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri oldu. Çünki siyasi-ideoloji sahədə də boşluğun aradan qaldırılması, milli maraqlar naminə siyasi təşəbbüslərin səfərbər olunması, həmçinin sabitliyin, siyasi sistemin inkişafının, eləcə də siyasi mədəniyyətin təşəkkülünün təmin edilməsi üçün məqsədyönlü addımlar atılmalı idi. 1992-ci il noyabrın 21-də Naxçıvanda YAP-ın təsis konfransı keçirildi və Heydər Əliyev partiyanın sədri seçildi. Müxalifət partiyası kimi siyasi səhnəyə çıxmış YAP qısa müddət ərzində ümumxalq partiyasına çevrilərək Azərbaycanın inkişafinin ideoloji sütununa çevrildi. Azərbaycanda mütərəqqi siyasi sistemin və siyasi mədəniyyətin rüşeymlərinin formalaşması da məhz bu tarixi hadisədən qaynaqlanır.

## Müstəqilliyi qorumaq daha çətindir

1991-ci ilin oktyabrında formal olaraq müstəqillik aktına imza atmış Azərbaycan bu tarixi nailiyyəti itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə ki, o dövrdə ölkə daxilindəki vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurmalar nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə almışdı. Digər tərəfdən də təcavüzkar Ermənistanın ölkəmizə qarşı torpaq iddiaları ilə müşayiət olunan Dağlıq Qarabağ problemi ağır yük kimi Azərbaycanın başı üzərində dururdu. Azərbaycanın o dövrdəki iqtidarının qorxaqlığı, siyasi səbatsızlığı bir tərəfdən, AXC-Müsavat cütlüyündə birləşmiş xəyanətkar ünsürlərin antimilli mövqeyi isə digər tərəfdən erməni işğalını sürətlənməsinə şərait yaradırdı, rayonlar bir-birinin ardınca düşmənin nəzarətinə keçirdi. Günü-gündən şiddətlənən məcburi köçkünlər problemi ictimai- siyasi xaosun yaranması üçün əsas səbəblərdən birinə çevrilmişdi.

1992-ci ilin yaz aylarından başlanan daxili hərc-mərclik, siyasi qüvvələrin çəkişməsi cəbhə bölgəsinin nəzarətdən kənar qalmasına və Qarabağ savaşında ermənilərin üstünlüyü ələ almasına gətirib çıxardı. AXC-Müsavat cütlüyü Qarabağ kartından istifadə etməklə meydan hərakatının dalğası üzərində hakimiyyəti faktiki olaraq zəbt etdi. Bundan sonra cəmi bir il ərzində daxili və xarici siyasətdə buraxılan bağışlanılmaz səhvlər məntiqi nəticə kimi sonda Elçibəy hakimiyyətinin süqutunu şərtləndirdi.

## Azərbaycanın nicat ünvanı

1993-cü ilin iyununda Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı tarixi zərurət idi. Xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev Bakıda hakimiyyət davasının getdiyi bir vaxtda Gəncəyə gedərək, diplomatik məharəti və şəxsi nüfuzu hesabına qardaş qırğınının qarşısını aldı.

Gəncə hadisələri ağıllı siyasi gedişlər və böyük şəxsi nüfuz hesabına sülh yolu ilə yatırıldıqdan sonra 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildiyi zaman problemlərin həlli üçün ilk növbədə ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin son dərəcə vacib olduğu barədə qənaətini açıqladı:"Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Azərbaycanda dövlət orqanlarının fəaliyyətini və dövlətçiliyi bərpa etmək məqsədilə 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkiləri nəticəsində xalqın dərin etimadı ilə Azərbaycan Prezidenti seçilən Heydər Əliyev dövrün xüsusiyyətlərinə və zamanın tələblərinə müvafiq olaraq növbəti mərhələ üçün ölkəmizin inkişaf paradiqmalarını dəqiq müəyyənləşdirdi. 1993-cü il oktyabrın 10-da keçirilmiş andiçmə mərasimində o, həyatının qalan hissəsini də Azərbaycan xalqının xoşbəxliyi naminə sərf edəcəyini bəyan etdi: "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm".

## Əsrə bərabər 10 il

Heydər Əliyev dövlət başçısı kimi dövlətin müstəqilliyinin qorunub saxlanmasını və onun ərazi bütövlüyünün təmin edilməsini özünün ən ümdə vəzifələrindən biri hesab edirdi və bütün fəaliyyətini bu məqsədlər ətrafında nizamlayırdı. Ulu öndər o zaman işğal altında olan torpaqlarımızın azad olunması istiqamətində sistemli və məqsədyönlü fəaliyyətin əsasını qoydu, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda ardıcıl işlərə başlanıldı. Hakimiyyətə gəldikdən sonra o, ilk növbədə, Azərbaycanın ən ağır problemi olan keçmiş Dağlıq Qarabağ probleminin həlli üçün təsirli tədbirlər görməyə başladı. Bişkek protokolunu imzalatmaqla Ermənistanı atəşkəsə məcbur edən ulu öndər bundan sonra ölkə daxilində ictimai-siyasi vəziyyətin sabitləşdirilməsinə, separatçı qüvvələrin neytrallaşdırılmasına nail oldu.

Keçid dövründə mütərəqqi iqtisadi inkişaf strategiyası hazırlandı və uğurla tətbiq olundu. Bu baxımdan düşünülmüş neft strategiyasına start verilməsi, "Əsrin müqaviləsi" bu müstəvisində beynəlxalq əməkdaşlıq platformasının yaradılması, xarici tərəfdaşlarla iqtisadi-ticari münasibətlərin təməlinin atılması və digər addımlar Azərbaycanın iqtisadi və bütövlükdə, milli gücünü artıran faktor kimi müstəsna əhəmiyyətə malikdir.

Ulu öndərin qarşıya qoyduğu vəzifələr içində hüquqi təməl və ümumilikdə, hüquq anlayışı əsas prioritetlərdən birini təşkil edirdi. Bu məsələyə münasibətdə Heydər Əliyevin mövqeyi belə ifadə olunur: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir". Eyni zamanda, ulu öndər deyirdi: "Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüquqi aliliyin təmin olunması əsas vəzifəmizdir".

1995-ci il noyabrın 12-də bilavasitə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu və dinc quruculuq işləri yeni keyfiyyətdə davam etdirilməyə başlandı.

Ulu öndərin rəhbərliyi ilə dövlətimizin qüdrətinin artırılması istiqamətində görülən və xüsusi əhəmiyyət kəsb edən işlərdən biri uğurlu ordu quruculuğunun əsasının qoyulması oldu və bu istiqamət dövlətin əsas prioritetlərindən birinə çevrildi. Həmin dövr həm də milli qanunvericiliyin sürətlə formalaşması və təkmilləşdirilməsi ilə müşayiət olunur. Bu illər Azərbaycanda qanunun aliliyinin təmin olunması, demokratiya və söz azadlığı üçün geniş şəraitin yaradılması ilə səciyyələnir. Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kursun mühüm strateji vektorlarından digəri isə Şərq dəyərlərini qorumaqla yanaşı, Qərbə sürətlə inteqrasiya olunmasını təmin edən bir çox beynəlxalq konvensiyaların ratifikasiyası ilə bağlıdır.

Ulu öndərin ən vacib saydığı məsələ isə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi olmuşdur. Heydər Əliyev problemin həlli ilə bağlı proseslərin gedişində heç vaxt təşəbbüsü əldən verməyərək dünya dövlətləri, o cümlədən, aparıcı ölkələrlə, habelə BMT, ATƏT və onun Minsk qrupu, digər nüfuzlu beynəlxalq təşkilatlar səviyyəsində bu mövzuda danışıqlar apararaq, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın işğalçılıq siyasətini pisləyən qətnamələrin və bəyanatların qəbuluna nail oldu.

Prezident İlham Əliyev ulu öndərin Azərbaycanın müstəqilliyi və inkişafı naminə göstərdiyi fəaliyyətə siyasi qiymət verərkən demişdir: "1993-cü ildən başlayaraq, Azərbaycan bu günə qədər uğurlu inkişaf yolu ilə gedir... Ondan sonra Azərbaycanda sabitlik dövrü başlamışdır və bu dövr bu gün də davam edir. Ölkəmiz üçün çox önəmli qərarlar qəbul edilmişdir, siyasi islahatlara start verilmişdir. Məhz o illərdə bizim inkişafımızla bağlı strateji seçimlər edilmişdir ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etsin".

## Siyasi varislik və davamlı islahatlar

Heydər Əliyev irsini araşdıran tədqiqatçıların ifadə etdikləri mühüm qənaətlərdən biri budur ki, onun xalqın firavan gələcəyi və dövlətin parlaq perspektivləri üçün ən böyük miraslarından biri siyasi varisliyin təmin olunmasıdır. O, özündən sonra Azərbaycan dövlətini müstəqil, milli maraqlara və milli-mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasət həyata keçirməklə zirvələrə daşıyacaq lider – şəxsiyyət yetişdirməklə dövlətçilik tariximizin ən böyük xidmətlərindən birini göstərdi. Ulu öndərin inamı, xalqın böyük etimadı özünü tam doğrultdu. İlham Əliyev xalqın iradəsi ilə Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni bir mərhələnin əsası qoyuldu.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 20 ilə yaxın müddət ərzində bütün sahələrdə möhtəşəm və tarixi əhəmiyyətə malik nailiyyətlər əldə olunub. Bir zamanlar xəyal kimi görünən nəhəng enerji-nəqliyyat və infrastruktur layihələri dövlətimizin təşəbbüsü və liderliyi ilə reallaşdırılmış, Azərbaycan regional güc mərkəzinə və Cənubi Qafqaz bölgəsinin aparıcı dövlətinə çevrilmişdir. Prezident İlham Əliyevin müəllifi olduğu milli inkişaf modelinin uğurla tətbiq olunması nəticəsində Azərbaycanda dayanıqlı iqtisadi sistem formalaşmış, bölgələrin davamlı və tarazlı sosial-iqtisadi inkişafı təmin edilmişdir. Onun rəhbərliyi ilə ölkəmizdə siyasi sistemin və ictimai-siyasi münasibətlərin inkişafına xidmət edən kompleks xarakterli islahatlar kursuna start verilmişdir. Yeni siyasi konfiqurasiyanın formalaşdırılması, siyasi dialoq prosesinin dərinləşdirilməsi, yeni siyasi partiyaların qeydiyyatdan keçməsi, vətəndaş cəmiyyəti təsisatının inkişafına xidmət edən addımların atılması həm Azərbaycanın demokratik inkişaf yolunda inamla irəliləməsinə, həm də milli həmrəyliyin gücləndirilməsinə təkan vermişdir. Qırx dörd günlük Vətən müharibəsində qazandığımız möhtəşəm zəfər milli dövlətçilik tariximizin şərəfli qürur səhifəsinə çevrilmişdir.

Tarixi paralellər aparsaq, görərik ki, əgər Heydər Əliyev Azərbaycanı bir dövlət kimi müstəqilliyini itirmək təhlükəsindən xilas etmişdisə, Prezident İlham Əliyev ölkəni ulu öndərin vəsiyyətinə əməl edərək ərazi bütövlüyümüzün itirilməsi təhlükəsindən qurtardı. Bunların hər ikisi – müstəqillik və ərazi bütövlüyü tarixi xilaskarlıq missiyasının bir-birini tamamlayan qoşa qanadlarıdır. Çünki dövlətin mövcudluğu baxımından vəhdətdə olmalı bu iki şərtin birini digərsiz təsəvvür etmək mümkün deyil. Bu, siyasi varisliyin ən bariz nümunəsidir.

***Əli HÜSEYNLİ,***
***Milli Məclis Sədrinin birinci müavini,***
***Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri***

# Heydər Əliyev: Mən elə bir qərar verməmişəm

**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ərəfəsində redaksiyamızın hörmətli qonaqlarından biri də Bakı Dövlət Universitetinin sabiq rektoru, respublikanın keçmiş təhsil naziri Misir Mərdanov oldu. Oxuduqlarımızdan və eşitdiklərimizdən, təbii ki, fəaliyyəti dövrü gözümüz önündə keçdiyindən bilirik ki, Misir müəllim Heydər Əliyev məktəbinin yetirməsi və ulu öndərin irsinə son dərəcə sədaqətli şəxslərdən biridir. Heydər Əliyev komandasının diqqət mərkəzində olan nazirlərindən biri kimi Misir müəllimin ulu öndərlə bağlı çox zəngin və son dərəcə maraqlı xatirələri var. Onunla söhbətimizin əsas mövzusu da məhz həmin xatirələrlə bağlıdır.**



**– Misir müəllim, redaksiyamıza xoş gəlmisiniz. Heydər Əliyevin sərəncamı ilə Bakı Dövlət Universitetinin rektoru, sonra isə müstəqil Azərbaycanın təhsil naziri olmuş Misir Mərdanovun ulu öndərlə ilk tanışlığı, yəqin ki, bu təyinatlardan çox-çox əvvəllər başlayıb?**

– Bəli. 1975-ci ilin avqust ayı idi. O zaman Bakı Dövlət Universitetində dosent vəzifəsində işləyirdim. Ali məktəblərə qəbul imtahanlarının qızğın vaxtı idi. Bir gün əvvəl bizə bildirdilər ki, sabah Heydər Əliyev qəbul imtahanlarının gedişini izləmək üçün universitetə gələcək.

Həmin gün saat 12-də mən və qəbul imtahanında iştirak etməyən digər müəllimlər auditoriyada oturub abituriyentlərin yazı işlərini yoxlayırdıq. Dəhlizdə mühafizə xidməti görünəndə başa düşdük ki, Heydər Əliyev gəlir. Bir azdan Heydər Əliyev otağa daxil oldu. Onu MK katibləri, təhsil naziri, rektor, prorektorlar və başqa şəxslər müşayiət edirdilər. İlk dəfə idi ki, Heydər Əliyevi belə yaxından görürdüm. Ulu öndər gözləmədiyimiz bir şəkildə təhsil sistemində mövcud olan problemlər, ali məktəblərdəki vəziyyət, qəbul imtahanlarının ədalətli götürülməsi, müəllimlərin vicdanlı olması, aspirantura haqqında açıq söhbət etməyə başladı. Xeyli danışandan sonra düşünürdük ki, elə bu cür də çıxıb başqa auditoriyalara gedəcək. Amma belə olmadı. Sözünü bitirər-bitirməz, dedi ki, bəlkə kiminsə sözü var? Belə vəziyyətdə sual vermək cəsarət tələb edirdi və heç kəs gözləmirdi ki, kimsə haqqında əfsanələr gəzən Heydər Əliyevə sual vermək fikrinə düşər. Amma belə olmadı. Heydər Əliyev artıq səmimi söhbəti ilə auditoriyadakı gərginliyi aradan qaldırmışdı və bizimlə açıq dialoq üçün imkan yaratmışdı. Amma Heydər Əliyevi müşayiət edənlərin əksəriyyətinin üzündən aydın oxunurdu ki, onlar bizim ulu öndərə sual verməyimizi istəmirlər. Buna baxmayaraq, fürsətdən istifadə edən gənc professor Valeri Salayev daha cəsarətli tərpənib dedi: “Yoldaş Əliyev, mənim sualım var”. Dedi: “Buyur, eşidirəm, Professor dedi: “Sizin adınızdan göstəriş gəlib ki, məzunlar aspiranturaya qəbul olmamışdan əvvəl mütləq, ən azı, iki illik iş stajına malik olmalıdırlar. Amma bu halda biz yüksək elmi potensiala malik kadrları itiririk. Oğlanların çoxu iki illiyə hərbi xidmətə gedir və təhsildən uzaq düşür. Onlar gərək öz ixtisasları üzrə fasiləsiz məşğul olsunlar. Məsələn, mən ixtisasca riyaziyyatçıyam”.

Təhsil naziri, rektor, partkom narahat görkəmdə Valeriyə, sonra da Heydər Əliyevə baxdılar. Hamı birinci katibin bu qəfil suala necə reaksiya verəcəyini gözləyirdi. Heydər Əliyevin cavabı isə vəziyyəti xeyli yumşaltdı.

Ümummilli lider dedi: “Mən elə bir qərar verməmişəm. Mənim dediklərim humanitar sahələrə, xüsusilə hüquqşünaslara aiddir. Siz düz deyirsiniz, fundamental elm sahələrində, o cümlədən fizikada, riyaziyyatda gərək məzunlar qarşısında belə tələb qoyulmasın”. Yanındakılara üzünü tutub dedi, bu məsələni qaydaya salın. Bu gənc professor haqlıdır. Başqa kimin sualı var?” Buradaca qeyd edim ki, professorun qaldırdığı məsələ bununla da öz həllini tapdı və fundamental elm sahələrində aspirantura təhsili almaq istəyən gənclərdən daha minimum iş stajı tələb olunmadı.

Heydər Əliyevin gənc professorun sualına reaksiyası, başqalarını da cəsarətləndirdi. Bu dəfə elmlər namizədi Binəli Musayev əlini qaldırdı və Heydər Əliyevin işarəsindən sonra dedi: “Yoldaş Əliyev, mənim 32 yaşım var. Ailəliyəm, 3 övladım var. Amma hələ də mənzilim yoxdur. Kirayədə yaşayıram. Belə şəraitdə elmlə məşğul olmaq çox çətindir. Xahiş edirəm, mənzil problemimin həllində kömək göstərəsiniz”. Bu sual Heydər Əliyevlə gələnlərin qətiyyən ürəyincə olmadı və çox narahat baxışlarla respublika rəhbərinin cavabına diqqət kəsildilər. Məhz bu suala cavabından sonra Heydər Əliyevin bir daha nə qədər böyük şəxsiyyət olduğuna heyran oldum. Ulu öndər gülümsünüb dayanmadan Nyuton, Eynşteyn və ona yaxın dünyalarca məşhur alimin adını çəkdi və onların normal məişət şəraitləri olmadan elmdə əldə etdikləri yüksək nailiyyətləri sadaladı. Sonra isə dedi: “Müəllim, siz bilirsinizmi, bu alimlərin əksəriyyəti öz elmi əsərlərini rahat şəraitləri olmadan, əsasən, kitabxanalarda yaradıblar?! Hətta döşəmədə əsərlər yazan alimlər də olub. Ona görə də alimin kəşflər etməsi üçün evin olması əsas şərt deyil. Əlbəttə, ev olsa, yaxşıdır. Mən həmişə çalışıram ki, nəinki alimlərimiz, hər bir vətəndaşımız normal şəraitdə yaşasın. Sizə də imkan daxilində kömək göstəriləcəkdir”. Ümummilli lider, hətta onu da dedi ki, sizə ev verərik, amma sizin həyat yoldaşınız deyəcək, evə büllur çilçıraq, mebel və başqa əşyalar da lazımdır. Sənin maaşın da buna çatmayacaq və məcbur olub başqa işlərlə məşğul olacaqsan”. Binəli müəllimə, həqiqətən də, müəyyən vaxtdan sonra ev verdilər. İlk görüş məndə belə xoş təəssürat yaratdı.

**– Misir müəllim, azərbaycanlı tələbələrin İttifaqın tanınmış ali məktəblərinə təhsil almağa göndərilməsi ideyası bilavasitə Heydər Əliyevin ideyası idimi?**

– Azərbaycanda belə tədbirlər ötən əsrin 20-ci, sonra 30-cu illərində olub. Xalq Cümhuriyyəti dövründə hər il 100 azərbaycanlı tələbənin xaricdə təhsil almağa göndərilməsi halları olub. Amma sonralar bunu layiqincə həyata keçirməyiblər və az bir vaxtdan sonra unudulub. Lakin 1969-cu ildən respublikamıza rəhbərlik edən Heydər Əliyev bu məsələ ilə ciddi maraqlanmağa başlayıb. Təhsil məsələləri üzrə nazirliklərin və müvafiq orqanların rəhbərlərini çağıraraq məsələni dərindən araşdırıb. Məsələn, soruşub neçə tələbə göndərmisiniz? Deyiblər, 50. Siyahını alıb baxıb, görüb ki, onların 45 nəfəri qeyri-millətdən olan tələbələrdir. Mərkəzi Komitənin katibini, təhsil nazirini danlayıb ki, bu yerlər azərbaycanlı tələbələrə ayrılıb. Niyə bura başqa millətlərin nümayəndələrini göndərirsiniz? O, bəzən bunu toplantılarda açıq söyləyirdi. Heydər Əliyev ilk vaxtdan bu məsələyə çox ciddi yanaşdı. Nəticədə, SSRİ-nin ayrı-ayrı tanınmış və nüfuzlu ali məktəblərinə göndərilən azərbaycanlı tələbələrin sayı ildən-ilə artmağa başladı. Sonralar isə 800, bəzən min nəfər tələbəni respublikadan kənar ali məktəblərə oxumağa göndərirdik. Bu elə də sadə bir iş deyildi. Bir tərəfdən, mərkəzdən yerlər almaq lazım idi. Digər tərəfdən, o institutlar tələb edirdilər ki, abituriyentlər gəlib qəbul imtahalarını daxil olacaqları ali məktəblərdə versinlər. Heydər Əliyev deyirdi, yox, bizim uşaqlar rus dilini zəif bilirlər, imtahanları burada verəcəklər, orada isə gəlib təhsil müddətində rus dilini öyrənəcəklər.

Həmin illərdə Bakı Dövlət Universitetində bu işlərə mən baxırdım. Əvvəlcə universitetə 200 yer verilirdi. Məsələn, bir il əvvəl bilirdik ki, Moskva, Leninqrad, Rostov və s. dövlət universitetlərinə nə qədər yer ayrılıb. Heydər Əliyev məsələni elə qoymuşdu ki, periferiya ali məktəbləri olmasın, mərkəzi şəhərlərin nüfuzlu universitetləri olsun. Tələb edirdi ki, göndərilən tələbələr arasında azərbaycanlılar əksəriyyət təşkil etsin.

Ulu öndərin bu məsələyə xüsusi diqqət yetirməsini və bu işi sevə-sevə həyata keçirməsini təsdiq edən faktlardan biri də bu idi ki, o hər il tələbələrin SSRİ-nin ali məktəblərinə yola salınması mərasimlərində şəxsən iştirak edir, onların Moskvaya və başqa şəhərlərə aparılması üçün xüsusi təyyarələr ayrılırdı, yol xərci verilirdi. Eyni zamanda, o, tələbələrimizin oradakı yaşayış şəraitinin təmin olunmasını daim diqqətdə saxlayırdı. Bundan əlavə, Heydər Əliyev hansı şəhərə gedirdisə, orada ilk görüşdüyü ali məktəbdə təhsil alan azərbaycanlı tələbələr olurdu. Onların təhsil aldığı ali məktəblərin rəhbərləri ilə görüşürdü, tələbələrimizin təhsili ilə maraqlanırdı, problemlərinin olub-olmamasını aydınlaşdırır və onların həllinə kömək edirdi. Çox vaxt belə səfərlər zamanı Azərbaycanın ali və orta təhsil naziri onu müşayiət edirdi.

Heydər Əliyev qısa müddətdə 15 min azərbaycanlı gənci SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərib. Yeri gəlmişkən, 1998-ci il martın 25-də məni Azərbaycan Respublikasının təhsil naziri təyin edəndə qəbul etdi və 2 saata qədər mənimlə söhbət etdi, bir çox məslələrdən danışdı. Sonra dedi: “Sən bilirsənmi o zaman mən SSRİ-nin tanınmış ali məktəblərinə minlərlə azərbaycanlı tələbə göndərmişəm təhsil almağa?” Mən də ona ətraflı məlumat verdim. Dedi: “Bu çox yaxşı oldu. İndi sən mənim o adamlarla görüşümü təşkil edə bilərsənmi?” Cavab verdim ki, bəli. Dərhal hazırlıqlara başladıq və 1998-ci il avqustun 31-də indiki Heydər Əliyev Sarayında onun həmin dövrün məzunları ilə təntənəli görüşünü keçirdik. Bildiyiniz kimi, bir neçə gün bundan əvvəl Azərbaycanın Nazirlər Kabineti Heydər Əliyevin 100 illiyi münasibətilə yenə həmin salonda “inaqarodnik” adı ilə məşhur olan həmin məzunlarla görüş keçirdi.

Yeri gəlmişkən, bununla bağlı bir xatirəmi danışmaq istəyirəm. Mən təhsil naziri vəzifəsinə təyin olunandan bir müddət sonra günlərin birində Azərbaycanın keçmiş ali və orta ixtisas təhsili naziri Qurban Əliyev qəbuluma gəldi və görüşdük. O, Heydər Əliyevin müttəfiq respublikaların ali məktəblərinə tələbə göndərməsi haqqında çox maraqlı bir məqamı xatırladı və dedi: “Nazir vəzifəsində işlədiyim vaxtlarda hər il iyul ayının ikinci yarısında Heydər Əliyev məni Moskvaya–SSRİ-nin ali və orta ixtisas təhsil naziri Yelyutinin qəbuluna göndərirdi. Deyirdi, “Get, otur Yelyutinin yanında, ona danışmışam, əgər ali məktəblərdə başqa respublikalar üçün nəzərdə tutulmuş yerlərdən boş qalanları varsa, o, həmin yerləri Azərbaycana verəcək. Get, onunla bu məsələləri müzakirə et! Hər il gedirdim və Yelyutin məni çox hörmətlə qəbul edirdi və deyirdi, Heydər Əliyeviç mənimlə danışıb. Hər gələndə 100-200 yer gətirirdim ki, azərbaycanlılar qəbul olunub gedib oxusunlar.”

Daha bir vacib məsələ də Heydər Əliyevin hərbi kadrlar hazırlanmasına xüsusi əhəmiyyət verməsi idi. O bilirdi ki, azərbaycanlı gəncləri tikinti hərbi hissələrinə xidmətə aparırlar və onlara hərbi peşələri öyrənməyə imkan vermirlər. Ümummilli lider o zaman məsələ qoydu ki, hər il SSRİ-nin hərbi məktəblərinə 200-300 azərbaycanlı gənc qəbul edilməlidir. Buna da nail oldu.

Heydər Əliyevin bundan da vacib və son dərəcə əhəmiyyətli xidmətlərindən biri də məhz onun ciddi səyləri nəticəsində Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması oldu. Bu da çox böyük çətinliklə yaradıldı. Çünki o zaman SSRİ-nin iki şəhərində belə məktəb var idi. Heydər Əliyev Moskvanı çox incə bir siyasi gedişlə razı saldı ki, Azərbaycanda da belə məktəb açılsın və onun açılışını Oktyabr inqilabı gününə saldı ki, buna başqa don geyindirməsinlər. İndi bu məktəbin yüzlərlə zabiti müstəqil Azərbaycanımızın Silahlı Qüvvələrinin əsas general və zabit korpusunu təşkil edir.

**– Misir müəllim, bildiyimə görə, Moskva Heydər Əliyevə müstəqil hərbi məktəb deyil, Naximov və ya Suvorov adına hərbi məktəblərin filiallarının açılmasını təklif edib. Amma Heydər Əliyev bu təklifi qəbul etməyib...**

– Bəli, düz deyirsiniz. Mən bir qədər bu məsələnin tarixçəsini öyrənib kitabımda da qeyd etmişəm. Heydər Əliyev bu məsələdə çox diplomatik bir gediş edib. O zaman bu tədris ocağına hərbi məktəb adı qoymadı, çünki Kremldə buna imkan verməzdilər. Heydər Əliyev həmin illərdə Azərbaycanın təhsil naziri olan Mehdi Mehdizadəyə tapşırıb ki, Maarif Nazirliyinin kollegiya iclasını çağırsın və orada internat məktəblərinin vəziyyətini müzakirə etsin. O vaxt Bakıda bu tipdə riyaziyyat və kimya təmayüllü internat məktəbləri var idi. Mehdi müəllimə tapşırır ki, məsələ qaldırın ki, Azərbaycanda hərbi təmayüllü məktəbin açılmasına ehtiyac var. Maarif Nazirliyi də onun dediyi kimi kollegiyada belə bir qərar çıxarıb Azərbaycan KP MK-ya göndərir. Heydər Əliyev onu müzakirə edir və Moskvaya deyir ki, biz hərbi təmayüllü internat məktəbi açırıq.

Onu da deyim ki, Heydər Əliyev sanki o məktəblə nəfəs alırdı. Mən şəxsən buna şahidəm. Nazir kimi fəaliyyətə başlayandan sonra hər il mayın 10-da, Heydər Əliyevin ad günündə bütün dövlət adamları, nazirlər gedib Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kənarında düzülürdük. Heydər Əliyev gəlib orada çıxış edir, müdavimləri və müəllimləri təbrik edirdi. Ümummilli liderin 2002-ci ildə hərbçi gənclər qarşısındakı o heyrətamiz çıxışını, yəqin ki, xatırlayırsınız. Biz zalda oturmuşduq. Heydər Əliyev tribunada çıxış edəndə qəfildən dedi, “məni vurdular” və yıxıldı. Bütün salon lərzəyə gəldi. Hamı dəhşət içində idi. Mühafizəçilər apardılar və 20 dəqiqəlik fasilə elan olundu. Düşünürdük ki, o qayıtmayacaq. Bir də baxdıq ki, Heydər Əliyev yenə həmin əzəmətlə gəldi. Tribunada çıxışını davam etdirdi və bir də yıxıldı. Sonralar dedilər ki, ikinci dəfə yıxılanda onun yeddi qabırğası sınıbmış. Həkimlər, mühafizəçilər, qohum-əqrəba yalvarıb ki, olmaz, sən xəstəxanaya getməlisən. Deyib: “Yox, mən nitqimi bitirməliyəm”. O, üçüncü dəfə salona gəldi, çıxış etdi və salonu mətin addımlarla tərk etdi.

Bu gəlişi ilə Heydər Əliyev sübut etdi ki, o, Ali Baş Komandandır. Ali Baş Komandan zabit və müdavimlərin qarşısında salonu ayaq üstə tərk etməlidir. Belə bir insanın iradəsinə, dözümünə, qətiyyətinə necə heyran olmamaq olar?! Heydər Əliyev birinci dəfə yıxıldıqdan sonra getsəydi, o, Heydər Əliyev olmazdı. Heydər Əliyev salonu yıxılmış vəziyyətdə tərk etsəydi, 44 günlük Vətən müharibəsində qələbəmiz olmayacaqdı. Məhz həmin gün o salonda böyük qələbəmizin əsası qoyuldu.

**– Heydər Əliyev sizin həyatınızda, yaddaşınızda daha necə və nə ilə qalıb?**

– Mən Qərbi azərbaycanlıyam və orta məktəbi də orada bitirmişəm. Atam Qərbi Azərbaycanda müxtəlif vəzifələrdə işləyib. Ona görə də yüksək vəzifəli ermənilərlə münasibəti olub. Mən 1969-cu ildə universiteti bitirəndən sonra Bakıda işləməyə başladım. Atam hərdən Bakıya, yanıma gələrdi və deyərdi: “Ermənilər danışır ki, Azərbaycana təzə bir rəhbər gəlib, Heydər Əliyev. O, çox böyük adam olacaq. Ondan çox qorxurdular və ehtiyat edirdilər”. O adam da Ermənistan KP MK-nın katibi olub və deyib: “Cumayil, o (Heydər Əliyev) çox qabiliyyətli və istedadlı bir adamdır”. Qorxa-qorxa danışmaqlarının da səbəbi o olub ki, çirkin niyyətlərinin qarşısını kəsəcək bir adamın hakimiyyətə gəldiyini başa düşüblər.

Həyat tarixçəmdə Heydər Əliyevin imzası, məni heç bir adamım olmaya-olmaya Bakı Dövlət Universitetinə rektor təyin etməsidir. İl yarım orada işləyəndən sonra məni Azərbaycan Respublikasının təhsil naziri təyin edib. Mənə Əməkdar elm xadimi fəxri adı verib. Bundan artıq və bundan böyük nə ola bilərdi həyatımda? Əgər o mənə etimad göstəribsə, demək məni layiq bilib, etibar edib.

**– Misir müəllim, Heydər Əliyevin qovluq məsələsi ilə bağlı dolaşan söhbət xalq yaradıcılığıdır, yoxsa, həqiqətən, siz belə bir qovluğu ona vermisiniz?**

– Burada xalq yaradıcılığından söhbət gedə bilməz. Çünki bu qovluq məsələsinin əsas icraçısı mənəm. Hadisə belə olub: 1992-ci ilin sonlarında BDU-nun prorektoru işləyirdim. Bir gün köməkçim dedi ki, universitetin arxiv müdiri gəlib sizinlə görüşmək istəyir. Qəbul elədim. O dedi: “Misir müəllim, bilirik ki, siz Heydər Əliyevin tərəfdarısınız. Cəbhəçilər gəlib, arxivdə Heydər Əliyevin qovluğunu axtarırlar”. Dedim: “Heydər Əliyevin nə qovluğu ola bilər arxivdə?” Həqiqətən, Heydər Əliyevlə bağlı bir qovluq var imiş və AXC hakimiyyətinin təmsilçiləri də məhz o qovluğu axtarırmışlar. Qadın da Heydər Əliyevə sevgisindən qovluğu heç kimə verməyib və seyfdə gizlətmişdi. Sürücümü çağırıb dedim ki, dərhal arxivə gedib həmin qovluğu gətirsin. Düzü, özüm də ehtiyat edirdim ki, görəsən, orada hansı sənədlər ola bilər. Amma onu axtaranların da xoş niyyət güdmədikləri bəri başdan məlum idi. Çünki ölkədə Heydər Əliyev tərəfdarlarının sayı getdikcə artırdı. AXC hakimiyyəti ulu öndərin hakimiyyətə doğru yolunu müxtəlif vasitələrlə əngəlləməyə çalışırdı. Ola bilsin, həmin qovluqdan Heydər Əliyevə qarşı istifadə edə biləcəkləri hansısa sənədin çıxacağına ümid edirdilər. Bir azdan qovluq artıq məndə idi. Axşam onu özümlə evə apardım. Baxdım, ilahi nələr var burda. Heydər Əliyevin Naxçıvan Pedaqoji Məktəbini bitirməsi haqqında attestat, universitetə qəbulla bağlı rektorun adına yazdığı ərizə, bütün yazı işləri və imtahanlardan aldığı qiymətlər haqqında sənədlər. Başqa bir maraqlı sənəd isə Heydər Əliyevin apellyasiya imtahanı tələbi idi. O, universitetin tarix fakültəsinə qəbul zamanı bütün fənlərdən “əla” qiymət alır. Yalnız rus dilindən yazdığı inşaya “yaxşı” qiymət verdiklərinə görə etirazını bildirir. O zaman Heydər Əliyev artıq DTK-nın mayoru idi, görkəmli ədəbiyyatşünas alim Cəfər Xəndan isə universitetin rektoru vəzifəsində çalışırdı. Məsələ rektora da çatır. Cəfər Xəndan onu qəbul edir, məsələni aydınlaşdırmaq üçün qəbul komissiyasının məsul katibini yanına çağırır. Rektor öyrənir ki, Heydər Əliyev artıq universitetə qəbul olunub. Yəni, qiymətin “əla” və ya “yaxşı” olmasının nəticəyə heç bir təsiri yoxdur. Bunu görəndə Heydər Əliyevin apellyasiya tələbinə təəccüblənir. Amma Heydər Əliyev xahiş edir ki, apellyasiyaya şərait yaradılsın. Nəhayət, apellyasiya nəticəsində onun yazı işinin “əla” qiymətə layiq olduğu aydınlaşır.

Heydər Əliyev ömrü boyu hər işdə mükəmməlliyə, ən yüksək səviyyəyə nail olmağa çalışan nadir bir şəxsiyyət idi. Qovluqdakı sənədləri vərəqlədikcə bunun şahid olurdum. Bunu mən rəhmətlik Cəlal müəllimə dedim. O dedi ki, özündə saxla, görüşəndə verərsən.

1997-ci il fevralın 16-da Prezident Aparatından mənə zəng vurdular. Murtuz Ələsgərov artıq Milli Məclisin sədri idi. Mən isə prorektor kimi onu əvəz edirdim. Bilirdim, artıq nə məsələdir – rektor vəzifəsinə təsdiq edilmək üçün Prezidentin qəbuluna dəvət edirdilər. Qovluğu ulu öndərə təqdim etdim. Açdı, elə birinci Naxçıvan Pedaqoji Məktəbini bitirməsi haqqında attestatı götürüb baxdı və dedi: “Necə olub ki, bu sənədləri qoruyub saxlaya bilmisiniz? Mən onları neçə illər axtarmışam. Xüsusən, Naxçıvanda aldığım attestatın bu qovluqda olması məni çox sevindirdi”... Attestatda bütün qiymətlər əla idi. Onda da ki Heydər Əliyev Mərkəzi Komitənin birinci katibi deyildi ki, ona əla yazsınlar. Həmin qovluqdakı sənədlər əsasında sonralar biz professor Əli Əhmədovla “Heydər Əliyev və Bakı Dövlət Universiteti” kitabını nəşr etdirdik. Heydər Əliyev haqqında yazdığım kitab üzərində işləyərkən başa düşdüm ki, ulu öndərin irsini hələ tam dolğunluğu ilə Azərbaycan cəmiyyətinə çatdıra bilməmişik. Çoxları elə bilir ki, Heydər Əliyev hakimiyyətdə olub, elə bir çətinlik görməyib. Amma bu, yanlış təsəvvürdür. Heydər Əliyevin həyatında elə çətin, mürəkkəb, ağla sığmayan çətinliklər olub ki, eşidəndə heyrət edirsən ki, yəni Heydər Əliyevə qarşı da belə ədalətsizlik etmək olarmı?

Birini danışım, qoy oxucularınız da agah olsun. Təsəvvür edin, Heydər Əliyev 25 il milli təhlükəsizlik sistemində çalışıb. Bu qurumu təşkil edib, milliləşdirib, savadlı, ağıllı kadrlar yetişdirib. 1969-cu il iyulun 14-də Azərbaycana rəhbərlik etməyə başlayıb. 14 il Azərbaycanı qurub, xarüqələr yaradıb, misilsiz xidmətlər göstərib və bu ölkəni ən yüksək səviyyəyə qaldırıb. Moskvaya gedəndə yaşadığı evin açarını qardaşı Cəlala verib ki, al, bu, səndə qalsın. Rəhmətlik Cəlal müəllim danışırdı: “1989–1990-cı illər idi. Günlərin bir günü Mərkəzi Komitədən mənə zəng etdilər ki, o evi boşaltmaq lazımdır. Soruşdum, niyə? Dedilər, ora birinci katiblər üçündür, Heydər Əliyev üçün deyil ki”. O binada yaşayan bir nəfər mənə danışırdı ki, səhər balkona çıxdım və gördüm, Cəlal Əliyev balkonda əsəbi halda gəzişir. Bu məqamda binamızın həyətinə iki mebel maşını gəldi və arxalarını verdilər bloka. Qalxdılar Heydər Əliyevin evi olan mərtəbəyə. Qapını açıb, bütün əşyaları çıxarıb maşına yüklədilər, qapını bağlayıb və açarı götürüb çıxıb getdilər”.

Təsəvvür edin, Bakını tikən, bütün Azərbaycanı bəzəyən kişi paytaxta gəlir və yaşamağa yeri yoxdur. Üç gün Cəlal Əliyevin iki otaqlı evində qalır. Kim buna dözər? Heydər Əliyev dözür. Bu da bir yana. Heydər Əliyev qardaşı Cəlalla yük təyyarəsində Naxçıvana gedir. Təyyarədən düşəndə naxçıvanlı kişi onları görür və deyir: “Ay gidi dünya, gör, nələr baş verir. Vaxtı ilə sən bura gələndə pişvazına rəhbərlər çıxardı, pionerlər qarşılayardı, limuzinlər yan-yana düzülərdi. İndi köhnə bir “Jiquli”də aparırlar səni”. Bütün bunlardan sonra yenidən siyasətə qayıtmaq, öz yerini tutmaq... Yox, bu, hər kişinin işi deyil. Bunu ancaq Heydər Əliyev bacarardı və bacardı da.

**(ardı var)**

***Söhbəti qələmə aldı,***
***İlqar RÜSTƏMOV,***
***“Xalq qəzeti”***

# “Jak Şirak Heydər Əliyevin sərt iradına cavab tapmadı”

**Müsahibimiz 1999–2004-cü illərdə Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsində işləmiş və hazırda ölkəmizin Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevdir.**



## II söhbət

**– 2001-ci il yanvarın 25-də Prezident Heydər Əliyevin iştirakı ilə Strasburqda Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilib və qurumun binasının qarşısında dövlətimizin bayrağı ucaldılıb. Həmin tədbir zamanı Heydər Əliyev Ermənistanın prezidenti Köçəryanla qarşılaşmışdı. Ulu öndər belə məclislərdə işğalçı dövlətin rəhbəri ilə görüşləri hansı əhval-ruhiyyə ilə keçirirdi? Bu görüşlərdən sonra sizinlə nəsə danışırdımı?**

– Əvvəla onu deyim ki, Robert Köçəryan tipik erməni xislətinə və anadangəlmə həyasızlığına baxmayaraq Heydər Əliyevin qarşısında çox əl-qol aça bilmirdi. Xüsusən, 1969-cu ildən sonra Qarabağın dağlıq hissəsinin sosial-iqtisadi inkişafı baxımından Azərbaycan rəhbərliyinin gördüyü genişmiqyaslı quruculuq işlərindən söhbət düşəndə həmin dövrdə keçmiş Stepanakert (Xankəndi) elektromexanika zavodunun sıravi mühəndisi olan “Robik” deməyə söz tapmırdı. Çünki separatçıların hakimiyyəti qəsb etdikləri bir neçə il ərzində Qarabağın orta statistik erməniləri üçün həyat nəinki yaxşılaşmış, əksinə, əvvəlkindən də qat-qat çətin və ümidsiz olmuşdu.

Bir dəfə o, “Siz muxtar vilayətin milli tərkibini dəyişirdiniz” – deyə etirazını bildirməyə çalışdı. Heydər Əliyev sərt səslə “Respublikanın başçısı mən idim. Harada nə etmək lazım olduğunu mən bilirdim. Buna görə məsuliyyət daşıyırdım” – dedi. Sonra güclə sezilən istehza ilə gülüb: “Yaxşı, necə bilirsiniz, ermənilər Gəncədə, Şamaxıda, Qubada yaşaya bilərdilər, amma azərbaycanlılar öz torpaqları olan Hadrutda, Martunidə yaşaya bilməzdilər?” – deyə soruşdu. Təbii ki, qarşı tərəfin cavab üçün heç bir arqumenti yox idi.

Başqa bir dəfə isə Heydər Əliyev nəqliyyat blokadasının aradan qaldırılması ilə bağlı Ermənistanın mövqeyi ilə maraqlandı. Məsələn, dəmir yolunun açılacağı təqdirdə təkcə Naxçıvanın deyil, Ermənistanın da vəziyyətinin müsbətə doğru dəyişəcəyini dedi. Köçəryan iddialı şəkildə:

– Biz artıq iqtisadiyyatı ənənəvi relslərdən çıxarmışıq. Ölkəyə milyonlarla dollar qazanc gətirmək üçün keçmişdəki kimi dəmiryol eşelonlarına ehtiyac yoxdur. Sadəcə, təyyarədə bir sərnişin yeri və diplomat dolu mal milyonlarla dollar gəlir əldə etməyə imkan verir, – dedi.

Həmin dövrdə almaz cilalanması sahəsində Ermənistanın ingilis-amerikan mənşəli “De Beers” korporasiyası ilə əslində daha çox baş separatçının ailə biznesi kimi tanınan şübhəli işbirliyi vardı. Köçəryan da yəqin ki, eşelonlarla maldan çox qazanc gətirməyə imkan verən qeyri-ənənəvi iqtisadiyyat deyəndə bunu nəzərdə tuturdu.

Heydər Əliyev xəfif istehza ilə gülümsəyərək:

– Pulları da geri diplomatlarla daşıyırsınız? – deyə soruşdu.

Görünür, Köçəryan deməyə söz tapmadığından özünü eşitməzliyə vurdu...

Avropa Şurası ilə bağlı məsələyə gəldikdə isə Azərbaycan və Ermənistan bu qurumun üzvlüyünə qəbul olunandan dərhal sonra Strasburqda iki ölkənin prezidentləri arasında əslində formal xarakter daşıyan bir görüş keçirildi. Görüş başa çatanda protokol qaydasında əvvəlcədən razılaşdırıldığı kimi, binadan birinci ermənilər, ikinci isə biz çıxmalı idik. Hamı ümumi girişə tərəf getdi. Qapıya bir neçə addım qalmış Köçəryan ayaq saxlayıb Heydər Əliyevlə vidalaşdı. Prezident “Bir dəqiqə”- deyə onu dayandırdı.

– Çoxdan soruşmaq istəyirdim, – dedi. – Mənim vaxtımda – 1982-ci ildə Şuşada Vaqifin məzarı üzərində məqbərə tikilmişdi. Yəqin ki, vilayət komsomol komitəsinin məsul işçisi kimi təntənəli açılış mərasimində siz də iştirak etmişdiniz. Vaqif bizim böyük şairimizdir. Həm də görkəmli dövlət xadimidir. Qarabağ xanının veziri olub. İndi məqbərə nə vəziyyətdədir? Yoxsa onu da uçurmusunuz?”

Köçəryan üzünə saxta diqqətcillik ifadəsi verməyə çalışaraq:

– Bizim başımız açılana qədər mərmər plitələri sökmüşdülər, alüminium şəbəkələri qoparıb aparmışdılar. Amma gövdəsi bütünlükdə qalır – dedi.

Heydər Əliyev çox güman ki, düşünülmüş şəkildə diplomatik etiketi pozub daha ehtiramlı səslənən “siz”dən “sən”ə keçdi:

– Ümid edirəm ki, özün bu işə əl bulamamısan” – sözləri ilə söhbətə yekun vurdu.

– Nə danışırsınız, Heydər Əliyeviç, nə danışırsınız? – Köçəryan bu sözləri deyib arxasına baxmadan uzaqlaşdı.

Maşınların verilməsini gözləyirdik. Prezident heç kimə müraciət etmədən, sanki öz-özü ilə danışırmış kimi dilləndi:

– Gözünün içinə kimi yalan danışır. Quldurbaşının böyüyü özüdür.

Həmin anda Heydər Əliyevin sifətində ən müxtəlif hisslərin qammasını görmək mümkün idi. Burada həm qurduğunu uçurub xaraba qoyan barbarlara nifrət, həm əzilib-büzülən erməni liderindən iyrənmək, həm onun və bandasının günün birində törətdikləri bütün cinayətlərə görə Azərbaycan xalqı qarşısında cavab verəcəkləri ilə bağlı bir qətiyyət vardı.

**– 2001-ci ildə Parisə rəsmi səfər və Jak Şirakla görüşü zamanı Heydər Əliyevin “erməni soyqırımı”nı inkara görə cinayət məsuliyyətinə cəlbetmə haqda Fransa Senatının müzakirəsinə çıxarılan qanun layihəsini sərt şəkildə qınaması ermənipərəst ölkənin rəhbərliyi tərəfindən necə qarşılandı?**

– Fransa Prezidenti Jak Şirakın işğala məruz qalmış Azərbaycanla işğalçı Ermənistan arasında sülhyaratma təşəbbüsləri fonunda qəbul olunan bu qanun layihəsi Qərbin, xüsusən də ən çığırğan ermənipərəstlik mövqeyində dayanan Fransanın ədalət prinsipindən nə qədər uzaq olması, ikili standartlara üstünlük verməsi haqda aydın təsəvvür yaradır.

Ədalət naminə deməliyəm ki, Heydər Əliyevə şəxsiyyət və dövlət başçısı kimi böyük önəm verən dünya liderləri arasında Jak Şirakın da yeri var. Parisin məşhur Yelisey Sarayında, iki dəfə, rəsmi təmaslar zamanı və nahar masası arxasında onların maraqlı söhbətlərinin dinləyicisi olmuşam. Tərcüməçi vasitəsi ilə danışan iki dünyagörmüş insan və siyasətçi arasında əslində bəzən dilə və sözə ehtiyac duyulmayan anlaşma, ünsiyyət, fikir ümumiliyi yarandığını gözümlə görmüşəm. Ölkəmiz böyük liderini itirdiyi günlərdə Jak Şirak demişdi: “Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirirdim”.

Maraqlıdır ki, Prezident Heydər Əliyev Jak Şirakla 2001-ci ilin yanvar ayında baş tutan ilk görüşündə onu müəyyən dərəcədə təəccübləndirdi. Yəni səfərinin əsas məqsədinə – ölkəsi ilə bağlı məsələlərin müzakirəsinə keçməzdən əvvəl “erməni soyqırımını” inkara görə cinayət məsuliyyətinə cəlb etmə haqda Fransa Senatının gündəliyinə çıxarılan birtərəfli qanun layihəsini sərt şəkildə qınadı. Bunun fikir azadlığı və sərbəst özünüifadə ilə bir araya sığmadığını bildirdi və dünya miqyasında Fransanın demokratik imicinə ziyan vuracaq yanlış addım kimi dəyərləndirdi. Jak Şirak özünü elə itirmişdi ki, əvvəlcə deməyə bir söz tapmadı. Sonra isə Fransadakı erməni diasporunun gücündən və geniş əlaqələrindən danışmağa başladı. Azərbaycan Prezidentinin Yelisey Sarayındakı cəsarətli çıxışı beynəlxalq miqyasda Türkiyənin müdafiəsinə göstərilən ilk təşəbbüs idi. Həm də Azərbaycan–Türkiyə qardaşlığının nümayişi idi.

Heydər Əliyevin Türk dünyası adına cəsarətli çıxışı Ankarada güclü təəssürat buraxmışdı. Biz Parisdən qayıdandan bir neçə gün sonra Türkiyə səfiri Qədri Ecvet Tezcan Heydər Əliyevi ziyarət edib prinsipial mövqeyinə görə dövlət başçısı Əhməd Necdət Sezerin təşəkkürünü çatdırmışdı.

Parisdə aparılan danışıqlara qayıdaq. Görünür, Şak Şirak qonaqdan belə sərt irad gözləmirdi. Ona görə bir xeyli susdu. Sonra isə Fransanın 800 min nəfərlik türk icmasının 500 min nəfərlik erməni icması ilə müqayisədə ölkənin ictimai-siyasi həyatına az nüfuz etdiyini, fransız cəmiyyətinə inteqrasiya olunmadığını, baş verən proseslərlə maraqlanmadığını, Parisdə “petit Turkiyə” (“kiçik Türkiyə”) yaradıb ənənəvi, hətta qapalı həyatlarını yaşadığını deməklə qərara haqq qazandırmağa çalışdı. Amma Heydər Əliyevi inandıra bilmədi.

**– 2002-ci il aprelin 23-24-də Aşqabadda Xəzərin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı Xəzəryanı dövlət başçılarının sammitində Heydər Əliyevlə Türkmənistan Prezidenti Saparmurad Niyazov arasında mübahisə baş vermişdi. 20 il sonra o barədə bir açıqlama vermək mümkündürmü?**

– Toxunduğunuz məsələ haqda xalq yazıçısı Elmira Axundovanın “Heydər Əliyev: Şəxsiyyət və zaman” kitabında mənim qeydlərim əsasında ətraflı söz açılıb. 2002-ci ilin aprel ayında Xəzəryanı dövlət başçılarının ilk Zirvə görüşünün təşkilatçılığını üzərinə götürən o zamankı Prezident Saparmurad Niyazov-Türkmənbaşı Azərbaycana münasibətdə özünü heç də qonaqpərvər ev sahibi kimi aparmırdı. Hətta bir ara ölçü hissini tamam itirərək dəniz akvatoriyasında türkmən tərəfinin mübahisəli saydığı, əslində isə Azərbaycana aid olan və indi istismar etdiyimiz yataqlarla bağlı “Xəzərdən qan qoxusu gəlir” kimi məsuliyyətsiz ifadəni də dilinə gətirmişdi.

Sammit günlərində çox iddialı davranır, necə deyərlər, “parada komandanlıq etdiyini” hər vasitə ilə nəzərə çarpdırmağa çalışırdı. Hamı “dress koda”– geyim formasına ciddi əməl etdiyi halda iclasa, görüşlərə, ziyafətə qalstuksuz, qolsuz köynəkdə gəlirdi. Xəzəryanı dövlət başçılarının – Putin, Nazarbayev və Xatəminin yaşına, həyat təcrübəsinə görə böyük ehtiramla yanaşdıqları Heydər Əliyevə “sən” – deyə müraciət etmək kimi etika, etiket və protokola sığışmayan hərəkətə yol verirdi.

Prezidentin yanında oturmuşdum. Türkmənbaşının iddialı çıxışından sonra başını bulayıb dedi: „Mən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olanda bu adam Mərkəzi Komitənin təlimatçısı idi. Tədbirlərdə, iclaslarda bir yol tapıb gözümə görünmək, salam vermək üçün fürsət axtarırdı. Bəzən səhərlər gəlib qəbul otağımda dayanırdı ki, işə gələndə onu görüm, salamlaşım. İndi gör vəzifə bunun ağlını necə çaşdırıb, beynini necə dumanlandırıb!”

Nahar masası arxasında söylədiyi nitqdə Heydər Əliyev türkmən liderin bütün irad və iddialarını diplomatik etiket çərçivəsində, nəzakətlə, amma etiraza yer qoymayan məntiq və inandırıcılıqla puça çıxardı.

Ertəsi gün Türkmənbaşı yüksək qonaqları cins Axaltəkə atlarına baxmağa dəvət etmişdi. Amma yalnız Putin razılıq vermişdi. Ev sahibi Heydər Əliyevin də iştirakını çox istəyirdi. Hətta təkid edirdi. Prezident zarafatyana, amma böyük sətiraltı mənası olan bir tərzdə boyun qaçırdı:

– Sapar Atayeviç, – dedi, – mən burada sənin özünlə dil tapa bilmirəm, gedib orada atlarınla necə danışacağam?..

**– Torpaqlarımızın Ermənistan tərəfindən işğal olunmasından, münaqişənin həll olunmamasının və bunun da nəticəsində işğalın uzanmasından elə bilirəm ki, Heydər Əliyev qədər nigarançılıq keçirən, xiffət çəkən, acı yaşayan ikinci adam az olar. Bütün bu hisslər onun Ermənistan prezidenti, Minsk qrupunun üzvləri və başqa beynəlxalq qurumun nümayəndələri ilə danışıqlarında özünü necə büruzə verirdi?**

– Şübhəsiz, müstəqil Azərbaycanın dövlət başçısı kimi on illik gərgin fəaliyyəti dövründə erməni işğalının acı nəticələrinin aradan qaldırılması Heydər Əliyev üçün ən ümdə vəzifə olaraq qalırdı. Milli Məclisin Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yollarına həsr edilmiş 23 fevral 2001-ci il tarixli xüsusi iclasındakı yekun sözündə bu məsələnin gündəlik fəaliyyətində tutduğu yerə toxunaraq demişdi: “Vilayət Quliyev burada məlumat verdi. Ancaq mən də bir neçə rəqəm demək istəyirəm. Bilirsiniz, 1993-cü ildən indiyə qədər mən 68 ölkənin dövlət başçısı, prezidenti ilə 485 görüş keçirmişəm. ABŞ prezidenti, dövlət katibi ilə 18 dəfə bu məsələni müzakirə etmişəm. Fransanınkı ilə 16 dəfə, Rusiyanınkı ilə 28 dəfə. Türkiyə rəhbərliyinin hamısı ilə dəfələrlə – 78 dəfə”.

Münaqişənin nəticələrini az itki ilə aradan qaldırmaq, Azərbaycanın ərazi bütünlüyünü qorumaq, qaçqın və köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq, dünya birliyini xalqımızın üzləşdiyi haqsızlıqla yaxından tanış etmək – Heydər Əliyevin daxili və xarici siyasət kursunda daim diqqət mərkəzində saxladığı məsələlər idi. Bir dəfə Təhlükəsizlik Şurasının iclasında səmimi şəkildə etiraf etmişdi ki, bəzən təxirəsalınmaz, həllini gözləyən bütün bu problemlərin ağırlığı altında səhərə qədər gözünə yuxu getmir.

Tərəf-müqabillərin münaqişənin tarixinə və mahiyyətinə bələdliyindən, həlledici söz demək imkan və səlahiyyətlərindən asılı olaraq danışıqlar fərqli mövqedən aparılırdı. Köçəryanla daha çox mümkün qarşılıqlı güzəşt və şərtlərin spektri nəzərdən keçirilirdi. Azərbaycana ilk dəfə səfər edən dövlət və hökumət başçıları, xarici işlər nazirləri, müxtəlif beynəlxalq qurumların rəhbərləri ilə görüş zamanı Heydər Əliyev səbirlə münaqişəni doğuran saxta səbəblər, Ermənistanın haqsız ərazi iddiaları, dinc insanlara qarşı törədilmiş hərbi cinayətlər haqqında məlumat verir, çox zaman xəritənin köməyi ilə işğalın miqyasını göstərirdi. Minsk qrupunun həmsədrləri ilə söhbət əsasən sərt və tələbkar tonda aparılırdı. Prezident, bir qayda olaraq, onlardan regiona son səfərlərindən sonra gördükləri işlər haqqında hesabat və Ermənistan tərəfinə göndərdiyi mesajların cavabını tələb edirdi. Ümumi sözlərlə kifayətlənmirdi, qaldırdığımız məsələlərin həlli istiqamətində gördükləri işlər barəsində konkret məlumat vermələrini istəyirdi. Təmsil etdikləri dövlətlərə və şəxslərə bəslədikləri hörmətə baxmayaraq bəzən missiyalarının vaxt uzatmaq və baş aldatmaq olduğunu üzlərinə deyirdi.

Amma Heydər Əliyev ən çətin məqamlarda da Azərbaycanın haqq işinin qalib gələcəyinə, torpaqlarımızın mütləq azad ediləcəyinə inanırdı. 2000-ci ilin may ayında, Prezidentin doğum günü ərəfəsində Minsk qrupu həmsədrləri işğal altındakı Qarabağdan keçib Bakıya gəlmişdilər. Amerikalı həmsədr Kerri Kavano ad günü hədiyyəsi kimi Ağdam məscidinin divarından qopmuş kaşı parçası gətirmişdi. Prezident qəribə hədiyyəni qəbul edərkən bir anlığa gözlərində yaş parladı, sonra isə polad kimi cingiltili səsi eşidildi.

– Hamı bilsin, ilk növbədə isə siz bilin, – deyə başı ilə həmsədrlərə işarə etdi. – Biz mütləq torpaqlarımızı azad edəcəyik. Ağdama, Şuşaya, işğal altındakı digər ərazilərə qayıdacağıq. Qoy heç kəsin zərrəcə şübhəsi olmasın.

Bu, həm də Azərbaycan Ordusuna verilən mesaj, əsgərlərimizin qarşısına qoyulan müqəddəs vəzifə idi. Ordumuz günbəgün gücünü, iradəsini, mətinliyini artıraraq 20 il sonra Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şərəf borcu olan bu tarixi vəzifənin öhdəsindən gəldi.

**– Heydər Əliyev rəhbərlərindən biri olduğu keçmiş Sovet İttifaqınını dağılmasına təəssüflənirdimi? “Ötən günləri” nostalgiya ilə xatırladığı vaxtlar olurdumu? Belə hallar baş verirdisə, özünü nədə göstərirdi?**

– Gizlin deyil ki, Heydər Əliyevin həyatının və siyasi bioqrafiyasının böyük bir dövrü keçmiş SSRİ ilə bağlı olmuşdu. O, Siyasi Büro üzvü seçilən, Sovet İttifaqının ali rəhbəliyində – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini (həmin dövrdə əslində hökumət başçısı kimi fəaliyyət göstərirdi) vəzifəsini tutan ilk azərbaycanlı idi. Keçmiş həmkarlarından bir çoxunun nankorluğu, laqeydliyi ilə üzləşməsəydi, dövlət və xalq üçün daha böyük işlər görərdi.

İnanıram ki, Heydər Əliyev həm sovet Azərbaycanına, həm də Sovet İttifaqına ürəkdən, sədaqətlə xidmət etmişdi. Eyni zamanda, SSRİ-nin imkan və potensialından yararlanıb “kiçik vətəni” üçün mümkün qədər çox iş görməyə, əslində, xalqını gələcək müstəqilliyə hazırlamağa can atan azsaylı milli liderlərdən olmuşdu. Lakin sonda sovet imperiyası, xüsusən də Qorbaçov kimi məkrli siyasətbazlar Heydər Əliyevin şəxsinə və mənsub olduğu xalqa münasibətdə xəyanət, qərəz və düşmənçilik yolunu tutmuşdular. Təsadüfi deyil ki, Azərbaycana böyük fəlakətlər gətirən Qarabağ münaqişəsi də ermənilərin əlində oyuncağa çevrilmiş Qorbaçovun təşəbbüsü ilə məhz azərbaycanlı liderin Siyasi Bürodan uzaqlaşdırılmasından sonra başlanmışdı. Ətrafında cərəyan edən hadisələrin pərdə arxasını hamıdan yaxşı bilən Heydər Əliyev Moskvada keçirdiyi son illərdən söhbət düşəndə həmişə hiddətlənirdi. Dəfələrlə onun öz dilindən 1985-ci ildən sonra sovet rəhbərliyinin azərbaycanlılara digər xalqlar, ilk növbədə isə ermənilərlə müqayisədə ögey, hətta düşmən münasibət bəsləməsi haqqında kədər və qəzəb dolu sözlər eşitmişdim.

Aydın məsələdir ki, ali sovet rəhbərliyində təmsil olunduğu dövrdə Heydər Əliyev SSRİ-nin dağılmasına yox, qüdrətlənməsinə, zəngin yeraltı və yerüstü sərvətlərə malik ucsuz-bucaqsız ölkədə siyasi və iqtisadi islahatlar aparılmasına çalışırdı. Və bu barədə açıq danışmaqdan çəkinmirdi. Amma ömrünü uzatmaq üçün qan tökməkdən çəkinməyən imperiya içərisindən dağılmağa, Kommunist Partiyası iflasa uğramağa başlayandan sonra Heydər Əliyevin təəssüflənməyə, keçmişi düşünüb nostalgiyaya qapılmağa nə vaxtı, nə də həvəsi vardı. Tale onun üzərinə Vətəninin xilaskarı olmaq, müstəqil Azərbaycan dövlətçiliyinin möhkəm təməllərini atmaq kimi çətin və şərəfli vəzifə qoymuşdu. Son dərəcə mürəkkəb dövrdə həmin tarixi missiyanın öhdəsindən yalnız Heydər Əliyev gələ bilərdi. Bu mənada, Azərbaycan Prezidenti siyasətin, sadəcə, mümkünü olanını həyata keçirmək sənəti olduğunu hamıdan yaxşı bilirdi və yersiz illüziyalara qapılıb keçmişin həsrəti ilə yaşamaqdansa, mövcud reallığın imkanlarından xalq və dövlətçilik naminə maksimum yararlanmağa çalışırdı.

Amma təbii ki, istisnalar da olurdu. Ümumiyyətlə, heç bir insan hətta istəsə də tam mənada dünənə qayıdışdan, nostalgiyadan uzaqlaşa bilməz. Xüsusilə, Rusiya paytaxtına səfərlər zamanı Heydər Əliyevin fikrən keçmişə döndüyünü, xatirələrə baş vurduğunu dəfələrlə müşahidə etmişdim. Bu da təbii idi. Çünki həyatının yorulmaz iş, quruculuq və fəaliyyət dolu beş ilini burada yaşamışdı. Daim böyük sevgi hissi ilə xatırladığı xanımı, tanıyanların yaddaşında nəcib insan kimi qalmış Zərifə Əliyevanı burada itirmişdi. Ən yaxşı illərini verdiyi partiyanın, sovet quruluşunun riyakarlığını, dəbdə olan ifadə ilə desəm, soysuzluğunu burada hiss etmiş, gələcək həyatının mühüm qərarlarını burada vermişdi. Hətta istəməsə də Moskva onu acılı-şirinli xatirələrə çəkib aparırdı.

Bəlli nostalgiya hissini gəncliyinin yaddaqalan dövrünün – SSRİ DTK məktəbindəki təhsil həyatının (1949-1950-ci illər) bağlı olduğu Leninqrad (indiki Sankt-Peterburq) səfəri zamanı da sezmək mümkün idi. Yeri gəlmişkən, bu səfər bir sıra əlamətdar hadisələrlə yadda qaldı. Sankt-Peterburqda Rusiya Prezidenti V.V.Putinin iştirakı ilə dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin, vaxtı ilə DTK məktəbinin yerləşdiyi Qoroxov küçəsi, 6 ünvanda isə keçmiş məzun Heydər Əliyevin xatirə lövhəsinin açılışı oldu. Açılış mərasimində, xüsusilə də Rusiya mədəniyyət naziri Mixail Şvıdkoyun müşayiəti ilə Neva çayında kater gəzintisi zamanı Prezident gənclik illərinin maraqlı xatirələrini bölüşdü.

2000-ci ildən sonra Moskva səfərləri zamanı Rusiya rəhbərliyi həssaslıq nümayiş etdirib Heydər Əliyevin Kremldəki iş otağını Azərbaycan nümayəndə heyətinin sərəncamına verirdi. Şübhəsiz, beş il çalışdığı kabinet, onun divarları arasında cərəyan edən hadisələr Heydər Əliyevi fikrən keçmişə, dünənə qaytarmaya bilməzdi. Təbii ki, təsəvvüründə müsbət və mənfi cəhətləri ilə müxtəlif insanlar, şirinliyi və acılığı ilə fərqli hadisələr canlanırdı. Keçmiş kabinetində Prezidentin biri-birindən maraqlı, ibrətamiz söhbətlərini, xatirələrini dinləmişik. Gizlətmirəm: o Brejnev, Andropov kimi sovet rəhbərlərindən müəyyən rəğbətlə söz açırdı. Xüsusən Brejnevin sadəliyini, ölkəmizə xoş münasibətini, Andropovun isə prinsipiallıq və qətiyyətini yüksək qiymətləndirirdi.

Mətbuatda da yazıldığı kimi, ötən əsrin 90-cı illərində ucsuz-bucaqsız Rusiyanın dərinliklərindən ədalət və həqiqət axtaran sadə adamların şikayət ərizələrini “Kremlə, yoldaş Əliyevə” ünvanlamaları ilə bağlı maraqlı faktlar mövcuddur. Təbii ki, bütün bunlar keçmiş dövr üçün müəyyən nostalgiya yaratmağa, ən azı riqqətləndirməyə və təsirləndirməyə yetərli idi.

**– Diplomatiya demokratiyanı sevməz. Amma zamanla qapalı qalmış müəyyən məsələlərə aydınlıq gətirmək mümkündür. Heydər Əliyevin xarici siyasətdə, xüsusilə Ermənistanla münaqişənin nizamlanması ilə bağlı etdiyi gedişlərdən ictimaiyyətə bəlli olmayan, amma bu gün açıqlaması mümkün olan hansısa hadisə barədə danışa bilərsinizmi?**

– Yuxarıda qeyd etdiyim kimi, Elmira Axundovanın “Heydər Əliyev. Şəxsiyyət və zaman” çoxcildliyində xüsusi olaraq bu nəşr üçün yazdığım qeydlərdə şahidi olduğum hadisələrə, proseslərə ətraflı yer verilib. Bu günlərdə isə “Teass PRESS” nəşriyyatında “Heydər Əliyev: Böyük insan haqqında xatirələr” adlı kitabım çapdan çıxıb. Son bir neçə ildə dövrü nəşrlərdə 20-dən çox məqalə və müsahibəm nəşr olunub. Yəni hesab edirəm ki, deyilməsi mümkün olan nə varsa, hamısı deyilib, yazılıb.

Sirr olanlar isə yəqin ki, həmişəlik sirr kimi qalmalıdır....

*Söhbəti qələmə aldı,*
***R.İLQAR,***
*“Xalq qəzeti”*

# Qüdrətli və müzəffər Azərbaycanın baş memarı – Heydər Əliyev



**Hər bir xalqın tarixi taleyində müstəsna rol oynamış və xilaskarlıq missiiyasını öz üzərinə götürmüş liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən, onların mənsub olduqları xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər xalqlarının əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar.**

XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan ümummilli lider Heydər Əliyevin siyasi portreti də Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür. Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini araşdırdıqca, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bugününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir.

Heydər Əliyev siyasi dühası, idarəçilik qabiliyyəti sovet dövründə belə bütün İttifaq səviyyəsində qəbul olunurdu. O, 1967-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinin sədri kimi tariximizdə ilk azərbaycanlı idi ki, bu vəzifə ona etibar edildi. Sovet bolşevizminin siyasi xətti belə idi ki, müsəlmana etibar etmək olmaz. Heydər Əliyevin şəxsi nüfuzu, zəkası o qədər qüdrətli idi ki, ona etibar edildi. Xalqın taleyi məhz Dövlət Təhlükəszilik Komitəsinin divarları arasında həll olunur, məsələlər sonra Kommunist Partiyasına ötürülürdü. Kommunist Partiyası ancaq siyasi qərarlar verirdi.

Heydər Əliyev “Müsəlmana etibar etmək olmaz!” şüarını rədd etdi, o sipəri qırdı və ilk dəfə olaraq millətinin taleyini öz imzası ilə həll etmək imkanına malik oldu. Bu hadisə nə qədər insanın taleyinə təsir göstərdi. 1969-cu ildə isə Azərbaycan KP MK-nın birinci katibi seçilməklə, demək olar ki, respublikamız keçmiş İttifaq respublikaları içərisində əsas yerlərdən birini tutdu. Azərbaycan o vaxtadək adının düzgün deyilmədiyi bir məmləkətdən İttifaq miqyasında öndə gedən bir məmləkətə çevrildi. Bu da ulu öndərin ikinci əsas addımlarından biri idi.

Növbəti böyük uğur sovet rəhbərliyində təmsil olunmaqla bağlı idi. Belə ki, Stalinin ölümündən sonra Siyasi Büroda qeyri-leqal qərar qəbul edilmişdi. Qafqaz xalqlarından və türkmənşəli insanları Siyasi Büroya gətirmək olmazdı. Bundan sonra Siyasi Büroda, ancaq slavyanmənşəli şəxslər yerləşdirilirdi. Heydər Əliyev Siyasi Büroya üzv seçilməklə bu siyasi xətti də darmadağın etdi. Heydər Əliyev təkcə Siyasi Büronun üzvü deyildi, həm də SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini idi, yəni hökumətdə ikinci adam idi.

Məhz 1969-cu ilin tarixi iyul plenumunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın tarixində sürətli inkişaf dövrü başlayıb. Qısa vaxt ərzində onun təşəbbüsü ilə mühüm sənaye müəssisələri Azərbaycanın şəhərlərində inşa edilib, təsərrüfat, elm və təhsil sahələrində qətiyyətli islahatlar həyata keçirilib. Həmin illərdə yaşamış dövlət və sənət xadimləri, təsərrüfat adamları, ziyalılar daim ulu öndərimizlə bağlı xatirələrində belə görkəmli şəxsiyyətin müasiri olmaqdan qürurlandıqlarını bildirir və qeyd edirlər ki, onun Azərbaycana rəhbərliyi ölkəmizin tarixində əsaslı dönüş nöqtəsi olub.

O vaxta kimi Azərbaycan adlı respublika nəinki dünya, hətta İttifaq miqyasında o qədər də tanınmırdı. Halbuki, respublikamız İttifaqda zəngin yerüstü, yeraltı sərvətləri ilə seçilib. Amma respublikamızın adı ucqar milli əyalətlərdən biri kimi çəkilirdi. Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik əldə edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur.

Altımışıncı illərədək Azərbaycan aqrar ölkə kimi tanınırdı. Onun əsas sənaye mənbəyi neft idi. Lakin məhz Heydər Əliyev hakimiyyətinin ilk illərindən qəti addımlar atmaqla respublikaya olan bu münasibəti dəyişməyə nail oldu. Belə ki, qısa müddət ərzində həm yüngül, həm də ağır sənaye inkişaf etdi, bir sıra zavod və fabriklər istifadəyə verildi. Yaradılmış yeni iş yerləri əsasında insanların rifah halı daha da yaxşılaşdı.

Heydər Əliyev o illərdə respublikanı nəhəng tikinti meydançasına çevirməklə, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verməklə yanaşı, bir sıra yeni təhsil ocaqları, o cümlədən Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmışdı. Bu hadisə azərbaycanlıların döyüş ruhunun inkişaf etdirilməsində mühüm rol oynamışdır. Ordu quruculuğunda bu məktəbin rolu böyükdür. Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olmuşlar. Qarabağ döyüşlərində vuruşan Azərbaycan zabitlərinin 70 faizdən çoxu hərbi liseyin yetirmələridir.

İndi dünya analitiklərinin böyük önəm verdiyi milli mədəniyyətin yayılması siyasətini Heydər Əliyev hələ sovet dövründə özünəməxsus tərzdə həyata keçirirdi. Çünki ulu öndər Azərbaycanı dünyada məhz milli dəyərləri, tarixi, mədəniyyət özəlliyi ilə tanıdırdı. Məhz onun təşəbbüsü ilə ölkənin tanınmış musiqiçiləri, şairləri, yazıçıları, müğənniləri, bəstəkarları, artistləri dünyanın ayrı-ayrı ölkələrində çıxış edirdilər. Əlbəttə ki, burada siyasi məqam da var idi, o da Azərbaycanı tanıtmaq idi. Bütün bunlar həm də onu göstərir ki, ümummilli liderin hələ sovet dönəmində başladığı iqtisadi, siyasi, mədəni yüksəliş siyasəti, əslində, müstəqil Azərbaycan dövlətinin əsasını təşkil edirdi.

Azərbaycan xalqının xilaskar oğlu kimi özü bir tarix yazan ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə döndüyü zaman ölkədə hakimiyyətsizlik, hərc-mərclik baş alıb gedirdi. Məhz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan xalqında ruh yüksəkliyi, öz gələcəyinə inam yarandı. Ulu öndər respublikada milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni stimul verdi, zaman-zaman Azərbaycanın başı üstündə dolaşan qara buludlar dağılmağa başladı, parçalanma təhlükəsindən xilas oldu. Nəzərə alsaq ki, milli azadlığa gedən yol məhz milli oyanışdan, milli dirçəlişdən, milli ruhun canlanmasından keçir, onda Heydər Əliyevin gəlişinin nə demək olduğunu açıqlamağa ehtiyac qalmır.

Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə xalqımız üçün misilsiz xidmətlər göstərib. Ümummilli lider 1993-cü ildə hakimiyyətə qayıdışı, ilk atdığı addımı ilə Azərbaycanda ayrı-ayrı hərbi qrupların, qarşıdurmaların qarşısını aldı. Vətəndaş müharibəsinə son qoyularaq, ölkədə sabitliyin yaradılmasına doğru addımlar atıldı. Hərbi qüvvələri səfərbər etmək, hərbi qüdrətimizi artırmaq üçün atəşkəs rejimi bağlandı.

Ümummilli lider “Əsrin müqaviləsi”ni imzalamaqla ölkəmizin iqtisadi qüdrətinə təkan verdi, dünyaya yeni libasla təqdim olunan Azərbaycan məhz həmin müqavilə hesabına inkişaf edərək dünya dövlətlərinin diqqətini cəlb etdi. Heydər Əliyevin prezidentliyi zamanında milli ordu quruculuğunda ciddi dəyişikliklər başladı. Təcavüzkar silahlı qüvvələrin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbələr endirildi və 1994-cü ilin mayında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu.

1995-ci ilin noyabrında referendum yolu ilə Azərbaycan Respublikasının ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyasının qəbul edilməsi, 1995 və 2000-ci illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya məhkəməsinin fəaliyyətə başlaması, Azərbaycanda ölüm cəzasının ləğv olunması, “Bələdiyyə seçkiləri haqqında” Qanunun və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Azərbaycan xalqının ümummilli lideri 2003-cü ilin prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq versə də, səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmiş və öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürmüşdü. Ulu öndər Heydər Əliyev cənab Prezident İlham Əliyevə böyük ümidlər bəsləyərək demişdir: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Uzaqgörən siyasətçi bu fikirlərində də yanılmamışdı. Prezident İlham Əliyev ulu öndərin ümidlərini doğrultdu və ata vəsiyyətini yerinə yetirdi. Əgər bu gün Azərbaycan qalib ölkə olaraq dünyadakı nüfuzunu daha da artırıbsa, 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalan torpaqları düşmən tapdağından azad edibsə, bütün uğurların təməlində Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır. Bu əsaslar Azərbaycanı ötən onilliklərdə güclənməsinə, iqtisadi, diplomatik, hərbi sahədə irəliləməsinə şərait yaratdı və əlbəttə ki, ulu öndərin siyasət mücəssəməsi məhz bu günlər yaşadığımız zəfər tariximizə hesablanmış uzun, çətin bir yolun keçidi idi.

Bu gün Azərbaycan xalqı 200 illik tarixini ulu öndər Heydər Əliyevin siyasi və layiqli varisi, müzəffər Ali Baş Komandan, Prezident İlham Heydər oğlu Əliyevin qətiyyəti, dönməz iradəsi, liderliyi və sərkərdəliyi sayəsində bərqərar edib. Bəli, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev məktəbinin, irsinin müdavimi olan Ali Baş Komandanımız İlham Əliyevin “Qarabağ Azərbaycandır!” kəlamı və onun “dəmir yumruğ”u hesabına yağı düşmənin başı əzildi. Azərbaycan Ordusu bütün dünyaya nümayiş etdirdiyi Qarabağ Zəfəri ilə yeni hərb tarixini də yazmış oldu. Yeni hərb tarixinin yazılması isə çox çətin, hətta deyərdim ki, ağır işlərin, zəhmətlərin sayəsində əldə edilib. Cəmi 44 gün ərzində qazanılan qalibiyyət yürüşü enişli-yoxuşlu yolların aşılmasından sonra baş tutdu. Mənfur düşmən üzərində 2016-cı ildə qazanılmış Aprel zəfəri, eləcə də 2018-ci ildəki Günnüt qalibiyyəti, məhz 2020-ci ilin 10 noyabr qalibiyyətinə doğru aparan şərəf yolu olaraq tariximizə yazılıb. Bu, eyni zamanda, Xalq–Dövlət–Ali Baş Komandan gerçəkliyinin məntiqi nəticəsi idi. Bu gün Azərbaycan əsası ulu öndər Heydər Əliyevin təməlini qoyduğu syasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dünyada iqtisadi, hərbi cəhətdən güclü dövlət kimi qəbul edilir.

Ulu öndərin əbədiləşən ömür yolunu düşünəndə belə qənaətə gəlirik ki, ömrünü xalqına həsr edən, milləti, dövləti üçün misilsiz xidmətlər göstərən rəhbərlər heç zaman unudula bilməz.

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclis Sədrinin müavini***

# Heydər Əliyev xalqın sevgisini qazanmışdı...



**Ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələndən sonra aqrar sahənin inkişafına xüsusi diqqət yetirdi. 1969–1982-ci illərdə həyata keçirilən aqrar siyasət nəticəsində pambıqçılıq sahəsində böyük aqrar potensial yaradıldı. Torpaqlarda su resurslarından səmərəli istifadə edilməsi, aqrotexniki tədbirlərin vaxtında və düzgün yerinə yetirilməsi, mineral gübrələrdən səmərəli istifadə olunması, zərərvericilərə qarşı mübarizə tədbirlərinin vaxtında həyata keçirilməsi nəticəsində 1981-ci ildə respublika üzrə pambıq istehsalı rekord həddə – 1 milyon tona çatdırıldı. 1969-cu ildən əvvəl isə Azərbaycanda pambıq istehsalı cəmi 300 min ton idi.**

Pambıq istehsalının artımını Ağcabədi rayonunun timsalında da aydın görmək olar. Belə ki, əvvəllər cəmi 10-15 min ton pambıq istehsal edən rayonda məhsul istehsalı yüz min tonu keçdi. Ağcabədi bu göstəriciyə görə respublikanın 3 rayonundan biri oldu.

Dahi şəxsiyyət o illərdə Ağcabədiyə 4 dəfə –1970, 1974, 1978 və 1982-ci illərdə səfər etmişdir. Bu səfərlər zamanı pambıq tarlalarında, tarla düşərgələrində olmuş, zəhmətkeşlərlə görüşüb onların problemləri, qayğıları ilə maraqlanmışdı. Həmin görüşlərdən çoxsaylı yazılı xatirələr qalıb. Bu cür xoş dəqiqələri yaşamış insanlar öz təəssüratlarını gələcək nəsillərə ötürməklə qürur duyurlar. Onlar bu həyatdan köçür, həmin xatirələr isə əbədi olaraq qalır. Bu xatirələrin bəzilərini oxucuların diqqətinə çatdırırıq.

***Rəncbər kənd sakini İbrahim Hacıyevin xatirələrində qeyd edilir:***

– 1982-ci ilin iyul ayının əvvələrində Heydər Əliyev çalışdığım Əlinağı Bünyadov adına kolxoza gəlmişdi. Kolxozçularla görüşdü, söhbət etdi. Danışdıqca bir-bir insanları süzür, sanki onların qəlbindən keçənləri duyur və fikirlərini oxuyurdu. Heydər Əliyevlə üzbəüz olan hər bir adam onun nüfuzedici baxışlarının və aydın, məntiqli sözlərinin sehrinə düşürdü. Onun nəzərindən heç kim və heç nə yayına bilməzdi. Heyranlıqla qulaq asdığımız yerdə, birdən sol tərəfdə – pambıq tarlasının kənarında səliqə ilə düzəldilmiş və gözəl rənglərlə yazılmış dəmir lövhəni göstərərək gülə-gülə əlavə etdi:

– Bax orada, o dəmir lövhədə yazılıb ki, pambıqçılar bu il 5224 ton pambıq toplayıb dövlətə təhvil verəcəklər. Elə bil, aptekə girib, aptek tərəzisi ilə pambıq çəkib alacaqlar. Belə dəqiqliklə necə demək olar?!. Rəqəmlərə bir az ağılla yanaşmaq lazımdır. Hissiyyata qapılmaq lazım deyil...

...Yayın istisi, elə bil, Heydər Əliyevə təsir etmirdi. Üzündə-gözündə heç bir yorğunluq hiss olunmuru, adamları dinləməkdən, ehtiyaclarını öyrənməkdən, onlara kömək etmək üçün lazımi şəxslərə göstərişlər verməkdən zövq alırdı.

***Boyat kəndindən olan əmək veteranı Humay Həsənova xatirələrində bildirir ki, Heydər Əliyev zəhmətkeşlərin əməyinə yüksək qiymət verirdi:***

– Mən işimdən həmişə zövq almışam və zəhmətkeşliyim o böyük insanın diqqətindən yayınmamışdı. O vaxtlar fəallığıma görə tez-tez televiziya ekranlarında adım çəkilirdi. Heydər Əliyev hər zaman mənə deyərdi:

– Sən mənim qızımsan. Əl ilə 17-18 ton pambıq toplayırsan, sənin kimilərini mən qızım hesab edirəm.

“Pambıq ustası” adını alanda Heydər Əliyev mənə 4 xalça, çay dəsti, müxtəlif ev əşyaları və s. mükafat vermişdi. Yaşadığım evin tikinti materiallarını da Heydər Əliyevin göstərişi ilə yardım kimi vermişdilər.

Bütün bunlar biz zəhmətkeşləri daha da həvəsləndirirdi. Heydər Əliyev həm əvəzsiz, həm müdrik ağsaqqal kimi hər bir azərbaycanlının sonsuz sevgisini qazanmışdı. Azərbaycanda pambıqçılığın inkişafı onun adı ilə bağlıdır.

***Aqil Muradovun Heydər Əliyevlə görüşü isə belə xatırlanır:***

– 1982-ci il iyul ayının 12-də Heydər Əliyev Ağcabədi rayonuna səfər edəndə mən Lenin adına kolxozda sədr işləyirdim. Səhər saat 11-də ulu öndər təsərrüfatımza gəldi və görülən işlərlə yaxından maraqlandı. Kolxozun fəaliyyəti haqqında məlumat verdim. Sonra pambıq sahəsini gəzdi, kolxozçularla söhbətində işlərin gedişi ilə maraqlandı, tövsiyələrini verdi. Söhbət əsnasında bir qadın Heydər Əliyevə şəxsi həyatı ilə əlaqədar ərizə təqdim etdi. Ümummilli lider məndən həmin qadının nə problemi olduğunu soruşdu. Cavab verdim ki, həyat yoldaşı Rusiyada yaşayır və bir neçə ildir ki, ondan xəbər-ətər yoxdur.

O, gülümsəyərək dedi:

–Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır.

1999-cu il iyun ayının 14-də Bakıda tədbirə dəvət olunmuşdum. Fasilə zamanı Heydər Əliyev foyedə bir qrup tədbir iştirakçısı ilə söhbət etdi. Mən də iştirakçılar arasında idim, dərhal tanıdı.

– Siz Ağcabədidənsiniz?

Cavab verdim ki, bəli.

Gülümsəyərək dedi:

– O vaxt mənə müraciət edən qadının məsələsi həll olundumu?

Cavab verdim:

– Bəli, cənab Prezident, həll olundu.

Və mən onun yaddaşına heyran qaldım. On yeddi il əvvəl olmuş bir hadisə yaddaşında necə də dəqiq qalmışdı. Bir dəfə ünsiyyətdə olduğu adamı həmişəlik yadında saxlayırdı.

***Ağcabədi Rayon İcra Hakimiyyətinin sabiq başçısı Şamil Həsənovun xatirələrindən:***

– Heydər Əliyev təkcə məhsul yığımı ilə deyil, eyni zamanda, kolxozçuların şəxsi problemlərinin həlli ilə də maraqlanırdı. O vaxtlar Kəhrizlidə kolxoz sədri işləyirdim. Rəhbərlik etdiyim kolxoz bir neçə kəndi əhatə edirdi. Ümummilli lider bizim kəndə gələndə pambıq sahələrini gəzdi, zəhmət adamları ilə görüşüb söhbət etdi. Heydər Əliyev adamlara qarşı tələbkar olduğu kimi, həm də həssas, mehriban və qayğıkeş idi. Görüşdüyü hər bir insanın sosial şəraiti ilə maraqlanır, ehtiyacını öyrənir və qaldırılan məsələlər barədə tez də tədbirlər görürdü.

Yaxşı yadımdadır, dahi rəhbər maşına əyləşmək istəyərkən dayandı, pambıq sahəsinin kənarında duran kolxozçulara sarı addımlayıb onlarla salamlaşdı. Sonra “Sizdən razı gedirəm, nə tələbiniz var”,– deyə onlara müraciət etdi.

Pambıqçı Sitarə “Bizə ağ un dəyirmanı tikdir”, – deyə Heydər Əliyevə müraciət etdi. Çox çəkmədi ki, Kəhrizlidə çörək zavodu tikildi.

Heydər Əliyev 1978 və 1982-ci illərdə də Kəhrizlidə olub. Deyim ki, onun hər gəlişi rayon rəhbərliyində böyük məsuliyyət hissi yaratmaqla, həm də bizə yaxşı işləmək üçün mənəvi stimul verirdi. Ulu öndərin səfərləri kəndlərdə yeni istehsal sahələrinin yaradılmasına, yolların çəkilməsinə, təsərrüfatların inkişafına səbəb olurdu.

Bir xatirə haqqında da danışmaq istəyirəm. Heydər Əliyev Ağcabədi rayonuna növbəti səfərləri zamanı keçmiş Çkalov adına kolxozda da olub. Dahi şəxsiyyət tarlaya gəlib pambıqçılarla görüşən zaman diqqəti başına qırmızı yaylıq bağlamış cavan bir qıza yönəlib. Soruşdu ki, niyə başına qırmızı yaylıq bağlayıb. Dedilər ki, dünən qızın nişanı olub. Soruşdu ki, cehizin varmı, özünə mebel almısanmı? Qız dedi ki, hələ yox. Dərhal kolxoz sədrinə göstəriş verdi ki, ona bir dəst yaxşı mebel alınsın. O dövrdə də dəst mebel almaq çətin məsələ idi…

Xatirələrdən də aydın olur ki, Heydər Əliyev xalqın sevgisini qazanmışdı. Ulu öndər öz əməli ilə, şəxsiyyətinin ucalığı ilə, gördüyü işlərin milli mahiyyəti, xalqa bağlılığı ilə bu sevgini qazanmışdı. Onun sadə insanlarla, kolxozçularla görüşü, bölgələrə səfərləri zamanı bu sevgini açıq-aydın görmək olurdu.

***Pünhan ƏFƏNDİYEV,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***

# Xalqımızın tarixi arzularını gerçəkləşdirmiş lider



**Bugünlərdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi respublikamızın şəhər və rayonlarında, müəssisə və təşkilatlarında, elm, təhsil və mədəniyyət ocaqlarında, o cümlədən dünya azərbaycanlılarının iştirakı ilə xarici ölkələrdə təntənəli şəkildə qeyd edilir, dahi şəxsiyyətin əziz xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilir.**

Bu gün qədirbilən xalqımız onu ağır sınaqlardan siyasi müdrikliklə və məharətlə, əzmi və iradəsi, dühasının və idrakının yenilməz gücü ilə çıxarmış, dövlət müstəqilliyinə və tərəqqiyə qovuşdurmuş ulu öndər Heydər Əliyevi dərin minnətdarlıq hissi ilə, böyük sevgi və ehtiramla yad edir. Əziz və unudulmaz xatirəsi hər zaman bizimlə olan ümummilli liderimizin heç vaxt bitməyəcək, əsrlər boyu yaşayacaq mənəvi ömrünün 100-cü zirvəsindən yaşanmış dövrə baxdıqca xalqımızın və dövlətimizin ötən əsrin 70-ci illərindən başlayaraq əldə etdiyi bütün uğurların təməlində Heydər Əliyevin dövlət siyasətinin, bu fenomenal şəxsiyyətin nurlu əməllərinin və parlaq simasının dayandığının bir daha şahid oluruq.

Həyatının əsas məqsədi, başlıca amalı Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi olan ulu öndər bütün mənalı ömrünü bu məqsədə nail olunmasına həsr etmiş, milli-mənəvi dəyərlərimizə söykənərək, dövlətimizin möhkəmlənməsində, xalqımızın rifahının yüksəldilməsində misilsiz xidmətlər göstərmiş, bu müqəddəs missiyanı şərəflə və uğurla, mərdliklə və müdrikliklə yerinə yetirmişdir.

1982-ci ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilərək ali idarəçilik postuna – SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə irəli çəkilən Heydər Əliyev SSRİ-nin 5 il ərzində ilk və yeganə müsəlman əsilli rəhbərlərindən biri olmuşdur. Ulu öndər bu illər ərzində də tutduğu vəzifənin ona verdiyi imkanları doğma xalqının rifahı və tərəqqisinə yönəltmişdir. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1987-ci ildə Sovet İttifaqı rəhbərliyinin və şəxsən M.Qorbaçovun yürütdüyü siyasi xəttə etiraz əlaməti olaraq ulu öndər tutduğu bütün vəzifələrdən istefa vermişdir. Bununla da Azərbaycanın ağır, məşəqqətli günləri başlamışdır.

Ölkənin siyasi rəhbərlərinin səriştəsizliyi, vəzifə davası, sonralar isə AXC–Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti nəticəsində Qanlı 20 Yanvar, Xocalı, Sumqayıt faciələri törədildi, əzəli torpaqlarımız işğal olundu, ölkədə anarxiya, xaos, aclıq, səfalət tüğyan etməyə başladı. Əhalinin yaşayış səviyyəsi kəskin şəkildə aşağı düşdü, maddi vəziyyəti pisləşdi, insanların sabaha inamı itdi. 1993-cü ilin ortalarında isə ölkədə vətəndaş müharibəsinin baş verməsi, dövlətçiliyin itirilməsi və Azərbaycan Respublikasının bir ölkə kimi dünya xəritəsindən silinməsi təhlükəsi ilə üzləşdik.

Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatının ən çətin dövrlərində Heydər Əliyev özünün xilaskarlıq missiyası ilə doğma xalqının yanında olmuş, ona yüksək diqqət və qayğı ilə yanaşmış, insanların köməyinə çatmışdır. Dərin bilik və bacarıqlarından, zəngin təcrübəsindən və şəxsi keyfiyyətlərindən qaynaqlanan möhtəşəm fəaliyyəti sayəsində müstəqil və demokratik Azərbaycan dövlətinin memarı və qurucusu olan ümummilli lider Heydər Əliyev xalqımızın yaddaşında əbədi həkk olmuş, insanların qəlbində özünə qarşı sonsuz məhəbbət və sevgi qazanmışdır.

Ölkəmiz üçün olduqca çətin və mürəkkəb, xalqımız üçün ağrılı olan belə bir dövrdə ulu öndər Heydər Əliyev yenidən xalqımızın nicatı oldu, xalqın çağırışı ilə yenidən və bu dəfə daha böyük əzm və inamla Azərbaycana rəhbərliyə qayıdaraq xilaskarlıq missiyasını davam etdirdi. 1993-cü ilin 15 iyun tarixi, müdrik xalqımız tərəfindən haqlı olaraq Milli Qurtuluş Günü adlandırılan bu əlamətdar tarix xalqımızın və dövlətimizin taleyində ciddi dönüş nöqtəsi oldu. Ulu öndər tərəfindən qısa bir zamanda müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan dövlətinin inkişaf strategiyası müəyyən edildi. Bu strategiyanın siyasi, iqtisadi, hərbi, sosial sferalarda uğurla gerçəkləşdirilməsi üçün ümummilli lider tərəfindən qətiyyətli addımlar atıldı, nəhəng layihələr həyata keçirildi. 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiyasının və enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu.

Qardaş Türkiyənin, dost və tərəfdaş ölkələrin dəstəyi ilə haqq səsimiz dünyada eşidilməyə başladı. Azərbaycan dünya birliyində etibarlı tərəfdaş kimi qəbul olundu. Ölkəyə yatırılan investisiyalar, prioritet sahələrdə həyata keçirilən beynəlxalq layihələr, ulu öndər Heydər Əliyevin misilsiz neft strategiyası dövlətimizin qüdrətini artırdı, beynəlxalq aləmdə nüfuzunu yüksəltdi. Nəticədə illər sonra möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılacaq tarixi qələbənin təməli qoyulmuş oldu.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə ölkəyə rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqil Azərbaycanın tarixinə qızıl dövr kimi yazılmışdır. İqtisadiyyatına milyardlarla dollar investisiya qoyulan Azərbaycanda ümumi daxili məhsul dəfələrlə artdı, ölkəmiz sosial-iqtisadi inkişafa nail oldu, müstəqil dövlətin hüquqi-siyasi əsasları formalaşdırıldı, ordu quruculuğu sahəsində mühüm addımlar atıldı. Xalqımızın qədim və zəngin milli-mənəvi dəyərləri qorunub saxlanıldı, azərbaycançılıq məfkurəsi milli ideologiya səviyyəsinə yüksəldi. Ölkəmizin beynəlxalq nüfuzu, iqtisadi və hərbi qüdrəti yüksək mərhələyə qədəm qoydu.

Azərbaycanın bir dövlət kimi prioritetlərini, dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyasını müəyyənləşdirən ulu öndər Heydər Əliyevin xalqımıza ən böyük töhfəsi isə heç şübhəsiz ki, bu gün dünya siyasətinin fenomeni olan cənab İlham Əliyev kimi siyasi varisini yetişdirməsi oldu. 2003-cü ildə xalqımızın birmənalı dəstəyi ilə Prezident seçilən cənab İlham Əliyev ötən illər ərzində sarsılmaz təməlləri ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik siyasətini əzmlə və qətiyyətlə həyata keçirərək ölkəmizi dünyanın qüdrətli dövlətlərindən birinə çevirdi.

Ulu öndərimizin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" kəlamında əksini tapmış arzuları həyata keçirildi. Cənab İlham Əliyev ata vəsiyyətini, onun xalqımızın işğal olunmuş ərazilərimizin azad edilməsi ilə bağlı ən ülvi, ən müqəddəs arzusunu şərəflə yerinə yetirdi. 2020-ci ildə qardaş Türkiyənin siyasi dəstəyi, müdrik xalqımızın sarsılmaz birliyi, şəhidlərimizin canı, qazilərimizin qanı, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin hərbi, siyasi və informasiya cəbhələrindəki mahir sərkərdəliyi, iradəsi və qətiyyəti sayəsində cəmi 44 gün ərzində 30 illik işğal bitdi, ən azı iki yüz illik problem tarixin arxivinə çökmüş oldu.

Müzəffər xalq olduğunu bütün dünyaya sübut etmiş xalqımız ulu öndər Heydər Əliyevin 100 illik yubileyini ona olan sonsuz sevgi və ehtiram hissi ilə yanaşı, böyük qürur, fəxarət və ölkə rəhbərinə dərin minnətdarlıq hissləri ilə qarşılayır. Bu gün dahi şəxsiyyətin savab əməllərini onun adını daşıyan fond özünün xeyriyyəçilik fəaliyyəti ilə layiqincə yaşadır. Xalqımız ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi, yaradılmasının 20 illik yubileyini qeyd edəcəyimiz Heydər Əliyev Fondunun Azərbaycan xalqının qədim tarixi və zəngin mədəniyyətinin dünyada tanıdılması, ulu öndərin tükənməz irsinin tədqiqi və təbliği istiqamətində əvəzsiz xidmətlərini yüksək dəyərləndirir.

Böyük qürur hissi ilə qeyd etmək istərdim ki, ulu öndərin hər zaman sonsuz diqqət və qayğı ilə yanaşdığı, "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, xalqımızın və dövlətimizin milli sərvəti və milli iftixarı adlandırdığı Bakı Dövlət Universitetinin kollektivi də bütün azərbaycanlılar kimi 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında sərəncamı rəğbətlə qarşılamışdır və həmişə olduğu kimi bu yubiley günlərində də ulu öndərin əziz xatirəsini dərin hörmət və böyük ehtiramla yad edir. Bu qocaman təhsil ocağında çalışan hər bir alim, tədqiqatçı və müəllim, elmi biliklərə yiyələnən hər bir tələbə əbədiyaşar Heydər Əliyevin zəngin və tükənməz irsinin tədqiqi və təbliğini özünün ən ali məqsədlərindən biri hesab edir.

Biz fəxr edirik ki, 104 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis edilmiş və ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə intibah dövrünə qədəm qoymuş Bakı Dövlət Universitetinin inkişafının son 20 ildəki yeni mərhələsi dahi şəxsiyyətin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Elm və təhsil əsri adlandırılan XXI əsrdə müstəqil Azərbaycan Respublikasının hərtərəfli inkişafını elm və təhsildə, bilikli insan kapitalının formalaşdırılmasında görən dövlət başçısı BDU-nun cəmiyyətdəki yeri və rolunu, ictimai əhəmiyyətini daim yüksək dəyərləndirir, onun davamlı yüksəlişi, tərəqqisi naminə bütün zəruri tədbirləri uğurla həyata keçirir.

Fikirlərimi 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında sərəncamda yer almış aşağıdakı fikirlə bitirmək istərdim: "Müstəqil Azərbaycan ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir". Bu gün hər birimiz səylə çalışmalı, bu şərəfli vəzifənin layiqincə yerinə yetirilməsinə öz töhfəmizi verməliyik.

***Elçin BABAYEV,***
***Bakı Dövlət Universitetinin rektoru***

# Yeni mədəniyyət siyasətinin yaradıcısı

**Azərbaycan xalqı bəşər tarixinə qüdrətli şəxsiyyətlər bəxş etmişdir. O, nadir tarixi simalar sırasında böyük əzəməti, tükənməz qətiyyəti, dərin fəlsəfi təfəkkürü, ensiklopedik biliyi ilə seçilən müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xüsusi yeri vardır.**

Danılmaz bir həqiqətdir ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin şərəfli adı, möhtəşəm və alovlu fəaliyyəti ilə birbaşa bağlıdır. Çünki bu dövrün özünü məhz Heydər Əliyev yaratmışdır. O, var qüvvəsini Azərbaycanın yüksəlişinə həsr etmiş, respublikamızın hər yerində nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Bütün digər sahələrdəki kimi, onun dahiyanə uzaqgörənliyi, mükəmməl bilik və bacarığı mədəniyyət sahəsində də dərin və silinməz iz qoymuşdur. Mübaliğəsiz demək olar ki, ümummilli lider yeni mədəniyyət siyasətimizin banisidir. Çox səmərəli təcrübə sübut edir ki, Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil Azərbaycanın mədəniyyəti ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək yeni dövr üçün zənginləşdirilir və inkişaf etdirilir.

Əvvəlcə mədəniyyət siyasəti anlayışına və fenomeninə diqqət yetirək. Yaxşı bəllidir ki, Azərbaycanda yeni müstəqil dövlətin qurulması siyasi, sosial-iqtisadi va hüquqi səbəblərdən baş verən çox ciddi, irimiqyaslı islahatlarla müşahidə olunurdu. Baxmayaraq ki, mədəniyyət rəsmi olaraq islahat sahəsi elan olunmamışdı, burada da bir çox dəyişikliklər baş verirdi. Əgər yaxın keçmişdəki, yəni SSRİ dövründəki və indiki mədəniyyət siyasətinin məqsəd, prinsip və əsas xüsusiyyətlərini müqayisə etsək, göz önündə olduqca maraqlı və çox ziddiyyətli bir mənzərə yaranar. Hamının yaxşı yadındadır ki, Sovet İttifaqında, hər bir totalitar dövlətdə olduğu kimi, mədəniyyət, əsasən, hakim partiya – dövlət dəyərlərinin insanların şüuruna yeridilmə aləti kimi başa düşülürdü. Onun köməyi ilə mövcud ictimai-siyasi quruluş möhkəmləndirilirdi. Bu cür münasibət isə kommunist-ideoloji yönümlülük, mədəni və bədii dəyərlərə sinfi yanaşma, yaradıcılıq prosesinə bilavasitə müdaxilə, mədəniyyət siyasətinin məqsədlərinin inzibati-amiranə, yəni məcburi metodlarla həyata keçirilməsi ilə fərqlənən bir mədəniyyət siyasətinin möhkənlənməsinə səbəb olurdu. Müstəqilliyimizin ilk çağlarında ölkəmizin mədəni həyatında dəyişikliklər hələ ki, çox az idi. Bir qədər sonra digər sahələrdə olduğu kimi, mədəniyyətdə da qatma-qarışıqlıq, qeyri-müəyyənlik, bir çox mənfi meyillər müşahidə olunur və baş alıb gedirdi. Bir tərəfdən anarxiya kimi başadüşülən azadlıq, digər tərəfdən qeyri-peşəkar rəhbər şəxslərin mədəniyyətə çox qəribə, hətta primitiv yanaşması, məsələn, onlar tərəfindən Qərb mədəniyyətinin, incəsənətinin bizə, guya, tamamilə yad olması və lazımsızlığının bəyan edilməsi, bu sahənin normal inkişafının qarşısını alır, çağdaş Azərbaycan mədəniyyətini ümumsivil məcradan təcrid edərək ona böyük zərbələr vururdu, bununla da rəqabət bacarığını azaldırdı.

Ümumiyyətlə, demək olar ki, o mərhələdə düşünülmüş mədəniyyət siyasəti yox dərəcəsində idi. Nəhayət, 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi rəhbərliyə qayıtması ilə bağlı olaraq, vəziyyət köklü şəkildə dəyişdi. Sürətlə başlanan demokratikləşmə prosesləri, cəmiyyətin düzgün istiqamətdə inkişafı mədəniyyətin yeniləşməsini qaçılmaz edən amillərə çevirir. Məhz demokratik, dünyəvi va hüquqi dövlətin formalaşması şəraitində yeni mədəniyyət siyasətinin təşəkkül tapması, onun məqsəd və prinsiplərinin dəqiqləşməsi, müasir tələblərə cavab verməsi çox vacib va təxirəsalınmaz problemlər sırasına daxil edilir. Xususilə qeyd edək ki, Azərbaycanın əbədi lideri Heydər Əliyevin mədəniyyət məsələlərinə müstəsna əhəmiyyt verməsi məmləkətimizin ən sivil ölkələr sırasına qatılmasının əsas səbəbləri kimi qiymətləndirilməlidir. Şübhəsiz, müasir dünyanın heç bir dövlət başçısı bu nəhəng şəxsiyyət qədər mədəniyyətə, incəsənətə qayğı, diqqət və maraq göstərməmişdir. Onun bu sahəylə bağlı düşünülmüş, ardıcıl, gərgin fəaliyyəti, doğma mədəniyyətə xidməti heç vaxt unudulmayacaq.

Çox önəmlidir ki, elmi cəhətdən əsaslandırılmış mədəniyyət siyasəti mədəni inkişafın ardıcıllıq, varislik, millilik, orijinallıq, Azərbaycan xalqının təkrarsız mədəniyyət genofondunun saxlanılması, eyni zamanda, açıqlıq və demokratiklik ideyalarını təbliğ edir və fəal şəkildə həyata keçirir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə müasir dünya elmində və praktikasında mövcud olan bir sıra modellər sırasından mədəniyyətlərin dialoqu modeli seçilərək ölkəmizdə qəbul edilir. Həmin model Azərbaycanın tərəf-müqabili qismində ümumdünya mədəni prosesdə iştirakına əsaslanır və respublikamızda optimal sosiomədəni dinamikanın dəstəklənməsinə imkan yaradır.

1993-2003-cü illər ərzində yeni mədəniyyət siyasətinə uyğun olaraq, dövlət tərəfindən çoxsaylı və mühüm əhəmiyyətli işlər görülmüşdür. O cümlədən, dahi Füzulinin 500 illiyinin, "Kitabi -Dədə Qorqud"un 1300 illiyinin, Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin yubileylərinin təntənəli qeyd edilməsi, Ümumdünya İnkişaf Bankı tərəfindən Azərbaycana üç unikal milli abidəmizin – Şirvanşahlar sarayının, Şəki xan sarayının, Möminaxatın türbəsinin rekonstruksiyası üçün böyük məbləğdə pul vəsaitinin ayrılması, vaxtilə bütün müsəlman Şərqində müqəddəs ziyarətgah kimi tanınan Bibiheybət məsçidinin yenidən tikilməsi, gözəl filarmoniyamızın bərpası, vokalçıların Bülbül adına beynəlxalq müsabiqələrinin və kinofestivalların keçirilməsi, dünyanın ən məşhur musiqiçilərinin konsertlərinin təşkil edilməsi, ənənəvi milli bayramlarımızın elliklə qeyd olunması, Bakı şəhərinə onun sivil simasının qaytarılması, əlbəttə, bu siyahını davam etmək mümkündür, mədəniyyətə dövlət tərəfindən diqqətin dəfələrlə artırılmasının parlaq təzahürüdür və ilk əvvəl dahi Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır.

Bu və digər faktları nəzərə alaraq, tam qətiyyətlə demək olar ki, suveren Azərbaycan Respublikasında mədəniyyət siyasətinin özül prinsipləri məhz onun rəhbərliyi ilə müəyyənləşib. Yeni elmi əsaslandırılmış həmin siyasət açıq demokratik cəmiyyət ideyasını təbliğ edir və fəal həyata keçirilir. Dövlətimizin mədəniyyət siyasətinin işlənib hazırlanmasında çox nüfuzlu beynəlxalq təşkilatlar olan UNESCO va Avropa Şurası tərəfindən bəyan olunan və inkişaf etmiş ölkələr tərəfindən artıq uzun illər ərzində həyata keçirilən mədəniyyət siyasətinin məqsədləri və prinsipləri əsas istiqamət kimi götürülür.

Dövlətin tam, bütöv rəsmi siyasəti və onun konkret bir qolu olan mədəniyyət siyasəti arasında həmişə müəyyən bağlılıq var. Demokratik dövlətdə isə mərkəzi hakimiyyət "Cəmiyyətin inkişafi nəticəsində yaranan mədəni tələbatların formalaşdırılması və təmin edilməsinə, həm də dövlətin mədəniyyət siyasətinin həyata keçirilməsinə cavabdehdir. O, bu səmtdə qarşıya qoyulan son məqsədləri müəyyən etməli və mövcud vəsaiti bölüşdürməlidir. Onun vəzifəsi ictimai tələbatların üzəçıxarma mexanizmini yaratmaq, həmin sahəyə aid olan bu və digər görülən işlərin nəticələrini yoxlamaq, mədəniyyətin yeni sahələrində eksperimentləri müdafiə etmək, nəhayət, ümumi təkamül üçün çox əhəmiyyətli olan beynəlxalq kooperasiyanı dəstəkləməkdir". Demokratik va inkişaf etmiş ölkələrə inteqrasiya olmaq yolunda addımlayan Azərbaycan da özünə bu istiqaməti seçərək, həmin ölkələrdə artıq çoxdan dövlət tərəfindən mədəniyyətin inkişafına tətbiq edilən prinsipləri qəbul edib. Şübhəsiz, müxtəlif sivil ölkələrdə mədəniyyət siyasətinin modelləri başqa-başqadır. Çünki hər bir dövlət öz ənənələrinə, dəyərlərinə münasib olan, üstün tutulan mənəvi, estetik və bədii normalardan irəli gələn bir strategiya müəyyənləşdirir. Lakin bütün demokratik ölkələrdə vahid, universal mədəniyyət siyasətinin olmamasına baxmayaraq, onlar üçün UNESCO-nun keçirdiyi bütün müşavirə və konfranslarda daim bəyənilən, qəbul edilən və dəstəklənən ümumi məqsəd və prinsiplər mövcuddur. Məhz bu məqsəd va prinsiplər Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında gerçəkləşdirilən yeni mədəniyyət siyasətinin özülünü təşkil edərək, qloballaşma şəraitində milli mədəniyyətin bir tərəfdən eyniyyətinin saxlanılmasını, digər tərəfdən isə onun dünya mədəniyyətləri ilə qarsılıqlı əlaqəsini təmin edir.

Əlbəttə, mədəniyyət siyasətinin prinsip və məqsədlərini effektiv reallaşdırmaq üçün ilk növbədə, düşünülmüş, hüquqi baxımdan mükəmməl və müasir tələblərə cavab verən qanunvericilik tələb olunur. Çox önəmlidir ki, ulu öndər Heydər Əliyevin prezidentliyi dövründə bu sahədə səmərəli iş aparılıb və nəticədə 17 qanun qəbul edilib. Fərəhli haldır ki, bunlardan qüvvədə olan 15 ən mühüm qanun 1995-2000-ci illər ərzində, yəni I çağırış Milli Məclisin fəaliyyəti dövründə parlamentin mədəniyyət məsələləri daimi komissiyası tərəfindən hazırlanıb, qəbul edilib və ölkə Prezidenti tərəfindən imzalanıb. Məsələn, 1998-ci ildə "Mədəniyyət haqqında" , "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "İnformasiya azadlığı haqqında", "Şəhərsalma haqqında" , 1999-cu ildə "Milli arxiv fondu haqqında" , "Muzeylər haqqında" , 2000-ci ildə "Nəşriyyat işi haqqında" qanunlar qəbul edilib.

II çağırış Milli Məclisin fəaliyyyətində isə "Azərbaycan Respublikasının dövlət dili haqqında" və "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" qanunlar qəbul olundu. Həmin qanunları hazırlayarkən, onların inkişaf etmiş ölkələrin standartlarına və təcrübəsinə, eyni zamanda, Azərbaycanın gerçəkliyinə, müvafiq reallıqlarına və xüsusiyyətlərinə uyğunluğu məsələsi əsas şərt kimi götürülüb.

Mədəniyyət siyasətinin ən prioritet hissəsi olan milli özünəməxsusluq probleminə gəldikdə isə söhbət, ilk növbədə, milli irsin mühafizəsi haqqında getməli va burada da bir çox pozitiv dəyişikliklərin, ciddi irəliləyişlərin mövcudluğu xüsusi vurğulanmalıdır.

O dövrdə Azərbaycan 5 mühüm beynəlxalq konvensiyaya qoşulub və onlar Milli Məclisdə ratifikasiya olunub. Həmin konvensiyalar aşağıdakılardır: "Silahlı münaqişələr zamanı tarix va mədəniyyət abidələrinin qorunması haqqında" "Ümumdünya mədəniyyət və təbiət irsinin mühafizəsi haqqında", "Mədəni dəyərlərin qeyri-qanuni aparılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilən tədbirlər haqqında", "Oğurlanmış və qeyri-qanuni aparılmış mədəni dəyərlər haqqında" və "Mədəniyyət haqqında" Avropa konvensiyalarıdır. Azərbaycan bu konvensiyalara heç də formal olaraq qoşulmayıb. Dövlətimizin bu məsələlərlə bağlı siyasəti məhz beynəlxalq konvensiyaların normativlərinə söykənir. Məsələn həmin konvensiyaların müddəaları müvafiq qanunlarda, konkret olaraq "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunda əks olunur.

Yeni mədəniyyət siyasəti modelinə görə, Azərbaycan cəmiyyətinin bütün təbəqə və qruplarının mədəni tələbatlarının, yaradıcı imkanlarının ən geniş spektrının əks olunması artıq mümkündür. Bunu Azərbaycanda "üçüncü sektorun" fəal formalaşması və əhəmiyyətli dərəcədə mədəniyyət sahəsini zənginləşdirməsi sübuta yetirir. Çox yaxşı haldır ki, 1993-2003- cü illərdə ölkəmizdə 70-dən artıq mədəniyyət problemləriylə məşğul olan qeyri-hökumət təşkilatı, müəssisə və assosiasiyası qeydiyyatdan keçərək, qanuni şəkildə fəaliyyət göstərirdi. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında da son dərəcə aktual olan bu problemə böyük diqqət yetirilir. Burada həmin problemlə bağlı bütün lazımi informasiya, ən yeni məlumat toplanır, təhlil olunur. Onların əsasında məqalələr, kitabçalar, sanballı monoqrafiyalar hazırlanır, proqramlar tərtib edilir, ixtisasartırma kurslarında mühazirələr oxunur. Heç bir şübhə yoxdur ki, DİA-nın suveren Azərbaycanın mədəniyyət siyasətinin formalaşmasında və həyata keçirilməsində əhəmiyyətli payı var.

Yuxarıda göstərilən fakt və məlumatlar bir daha təsdiqləyir ki, 1993-2003-cü illərdə Azərbaycanın milli mədəniyyət siyasətinin yeni modelinin formalaşması və gerçəkləşməsi yalnız ulu öndər Heydər Əliyevin rəhbərliyi altında müəyyənləşdirilmiş, mədəniyyətlərarası qarşılıqlı təsirlərin gedişində müsbət innovasiyaların qəbul edilməsinə, eyni zamanda, qloballaşma şəraitində Qərbin mədəni ekspansiyasına düşünülmüş əks-təsirin göstərilməsinə, mədəniyyətimizin intensiv inkişafına və onun təkrarsız simasının itirilməməsinə yönəldilmişdir. Azərbaycanın "yumşaq gücü"nün əsasını və qeyri-maddi mənbəyini təşkil edən həmin mədəniyyətin yüksək səviyyəyə çatdırılmasının başlıca şərti olan, düzgün, müasir tələblərə cavab verən mədəniyyət siyasətinin sütunları ölkə Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən daha da möhkəmləndirilərək milli identikliyimizi qorumaq şərti ilə dünya mədəni birliyinə inteqrasiya olunmağımızda məxsusi rol oynayır və ölkənin cəlbediciliyinin artırılmasında, müsbət imicinin möhkəmləndirilməsində mühüm əhəmiyyətli vasitə qismində çıxış edir.

***Nigar ƏLƏKBƏROVA,***
***Azərbaycan Respublikasının***
***Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyasının***
***kafedra müdiri, professor***

# Heydər Əliyevin siyasi obrazında təzahür edən azərbaycançılıq



**Akademik Nizami Cəfərov “Azərbaycanşünaslığa giriş” adlı qiymətli tədqiqatının “Yeni dövrdən ən yeni dövrə... Etnokulturoloji özünüdərkdən milli-siyasi özünütəsdiqə” adlı IV bölümünün “Azərbaycanda milli dövlətçilik təfəkkürünün formalaşması” adlı yarımbaşlığını Heydər Əliyev dühasına həsr edib: “Müstəqil Azərbaycan dövlətinin qurucusu, Prezident Heydər Əliyev Dünya azərbaycanlılarının şəksiz lideridir”.**

Azərbaycanşünas alim ümummilli lider Heydər Əliyevin siyasi obrazını oxucuya “Azərbaycan xalqının etnik, sosial-siyasi mütəşəkkillik səviyyəsinin yüksəlişi sahəsində görülmüş böyük işlər”in əhatəsində təqdim edib. Müəllif göstərir ki, ulu öndərin respublika rəhbərliyinə gəlişi müstəqil düşüncə hadisəsi olub: “1970–1980-ci illərdə Azərbaycanda gedən milli oyanış, siyasi-ideoloji dirçəliş prosesinin nəticələri özünü 80-ci illərin sonu, 90-cı illərin əvvəllərindəki xalq hərəkatında göstərib.

Alim Heydər Əliyev obrazının bir səciyyəvi məqamını da yığcam və aydın təqdim edib: “Əgər müqayisə aparsaq, etiraf etməli olarıq ki, Azərbaycanın dövlət rəhbərləri içərisində Heydər Əliyev qədər böyük idarəçilik təcrübəsinə malik ikinci bir şəxs olmamışdır”. Nizami Cəfərov bu baxımdan 1970–1980-ci illərin Azərbaycanını “Heydər Əliyevin Azərbaycanı” adlandırıb və göstərib ki, ümummilli liderin ikinci dəfə hakimiyyətə gəlişi “90-cı illərin ilk aylarından artıq reallıq idi. Bir-birinin ardınca baş verən hadisələr, get-gedə güclənən “xaos” “ölkənin sahibini” tələb edirdi... H.Əliyevin yaratdıqları xalqın gözləri qarşısında dağıldıqca, böyük dövlət qurucusuna, ictimai harmoniya ustasına meyil də güclənirdi”.

Heydər Əliyev Azərbaycana Tarix kimi də lazım idi, – deyən Nizami Cəfərov bu tezisini belə əsaslandırır: “Həmin tarixin xronologiyası Azərbaycan Xalq Cümhuriyyətindən başlasa da, cümhuriyyətin “praktika”dan deyil, “nəzəriyyədən” ibarət olması ona əsaslanmağa imkan vermirdi”. Müəllif analitik təhlillərini inkişaf etdirərək qənaətini qətiləşdirir: “Azərbaycanı Heydər Əliyev xilas etdi”. “Heydər Əliyevin Azərbaycanın xilası üçün gördüyü işlərin miqyasını müəyyənləşdirmək yox, ancaq təsəvvür etmək mümkündür. Bu, epik bir miqyasdır – bu fəaliyyət xalqın yalnız bu gününü müəyyən etmir, onun gələcəyinə əhəmiyyətli təsir göstərir ki, bu mənada Azərbaycanın qurtuluşu bu günlə məhdudlaşmayan, gələcəyə getdikcə tarixi məzmunu daha yaxşı dəyərləndirəcək bir hadisədir.

Akademikin daha bir tezisi əsaslı və inandırıcıdır: “Azərbaycan qurtuluşunun yekunu, yaxud nəticəsi qurtuluşun Azərbaycanıdır”. Nizami Cəfərov Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin 15 iyun 1993-cü il tarixli iclasındakı çıxışından misal gətirib: “Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm”. Akademikin tezislərindən birinin müddəası da dəqiqdir: “Heydər Əliyevin şəxsiyyətində təzahür edən milli iradə, möhtəşəm xalq ruhudur ki, Azərbaycanı hər cür iqtisadi, sosial-siyasi problemlərdən çıxararaq gələcəyə – əbədi müstəqilliyə aparır.

Türkoloq alim Heydər Əliyevi həm də türk qövmləri məcrasında təqdim edib. Bu tarixi obrazda azərbaycançılıqla bərabər, türkçülük məfkurəsi də birləşib: “Türk dünyasının fəxri olan Heydər Əliyev zəmanəmizin yetirdiyi böyük türklərdən biri, bəlkə də birincisidir”. Nizami Cəfərov xatırladır: “Azərbaycanın müasir tarixində Heydər Əliyevə qədər 3 görkəmli ictimai-siyasi xadimin (türkün) adı çəkilir: M.Ə.Rəsulzadə, N.Nərimanov və M.C.Bağırov. Xalq maraqlarına dərindən bağlılıq və məqsədlərinə çatmaq məharəti baxımından onları Heydər Əliyevlə müqayisəyə gətirmək mümkün deyil: “Çünki onların heç biri bu sahədə böyük istedada malik olmamış, bir sıra hallarda isə şəraitin birbaşa əsirinə çevrilmişdir. Və bu isə o deməkdir ki, həmin görkəmli şəxsiyyətlərin rəhbərlik təcrübəsi tamamilə başqa tipli bir rəhbər olan Heydər Əliyevə çox az şey vermişdir”.

Müəllif daha sonra Heydər Əliyevin böyük dövlətçilik, idarəetmə məharətinin əsasları üzərində dayanıb: “Heydər Əliyevin qısa bir zamanda qazandığı müqayisəyəgəlməz ictimai-siyasi uğurların ən mühüm şərti, heç şübhəsiz, onun qorxmazlığı, cəsarəti, qranit kimi möhkəm iradəyə malik olmasıdır”. Heydər Əliyevlə bağlı əfsanələrin mahiyyətində isə bu dayanıb: “Əlbəttə, məsələ bu əfsanələrin reallığı nə dərəcədə yaxın olub-olmamasında deyil, məsələ ondadır ki, cəmiyyət, ictimai şüur Heydər Əliyevi əfsanəvi şəxsiyyət kimi tanıyır... Özündən əvvəlki respublika rəhbərliyinin liberallığına, mərkəzdən (Moskvadan) asılılığına, şəxsi rahatlığına meyilli olmalarına qarşı Heydər Əliyev əsil milli rəhbər obrazını qoymuş, bütün kəskinliyi ilə təsdiq etmişdir”.

Akademik Nizami Cəfərov ulu öndər Heydər Əliyev fenomenine 1920–1930-cu illərin reallıqlarından gələrək vəziyyəti ifadə edib, “türk” sözünün işləkliyindən və qadağalarından, Heydər Əliyev yeniyetməliyinin 1930-cu illərlə bağlı gələnəklərindən danışıb. “1930-cu illərdə (xüsusilə həmin onilliyin birinci yarısında) Azərbaycanın orta məktəblərində ana dili, ədəbiyyat, tarix fənləri türkçülükdən heç də tamamilə “xilas olmamışdı”. Alim qeyd edir ki,Türkiyə ilə müqavilə əsasında Azərbaycana gəlmiş türkiyəli mütəxəssislərin 1920-ci illərdə tərtib etdikləri proqramlar, dərsliklər hələ bu və ya digər dərəcədə qüvvədə idi. Vətənini sevən müəllimlər də vardı.

1930-cu illərin ictimai-siyasi coşğunluğu, mədəni-ideoloji tələtümləri məktəblərdə istər-istəməz milli hisslərlə kompromisə girməli olurdu. Gələcəyin milli lideri təhsilini belə bir məktəbdə almış, 30-cu illərin təbəddülatlı ideyalar mühitində böyümüşdü: “Heydər Əliyevdə türkçülük duyğuları gənc yaşlarında orta məktəb şagirdi ikən oyanmışdı. O zaman türkçülüyü, əsasən, Türkiyəyə – yeganə müstəqil türk dövlətinə maraq müəyyən edirdi”.

Nizami Cəfərov Heydər Əliyev və türkçülük məfkurəsinin tarixi zəmininə və əsaslarına nüfuz edib: “Böyük türkçü sonralar xatırlayırdı ki, “cocuq ikən gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm, türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki, müəllimim də var idi, bir müddət – iki-üç il mənə türk dili öyrətdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim”. Heydər Əliyev Türkiyənin ədəbiyyat xadimlərini də xatırladıb: “Biz o vaxtlar Türkiyənin böyük şairlərini, yazıçılarını öyrənirdik. Ədülhəq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərslərimizə daxil idi. Ədəbiyyat dərsliklərində Türkiyənin bu böyük yazıçılarının, şairlərinin əsərləri indi də gözümün qabağındadır. Türkiyəyə böyük maraqla, heyranlıqla baxırdım”.

Beləcə gənc Heydər Əliyev taleyin onun üçün ayrılan yerini axtarmaqda idi: “İlk tapıntılar dövlət təhlükəsizliyi orqanlarından başladı. Dövlət təhlükəsizliyi orqanlarındakı işi gələcəyin böyük ictimai-siyasi və dövlət xadiminin möhkəm xarakterini, sərt məntiqini daha da cilalayırdı”. 1950-1960-cı illər isə Heydər Əliyevin “sovet dövlətçiliyinin həm məzmunu, həm də praktikasına dərindən bələd olduğu” illər olub. Bu illər Heydər Əliyevə “kifayət qədər mürəkkəb sosial-siyasi mühitdə fəaliyyətinin strategiyası ilə taktikasını düzgün əlaqələndirmək məharəti qazandırıb”.

1980-ci illərdə Heydər Əliyev sovet dövləti rəhbərliyində işləməyə aparılan yeganə türk idi. Azərbaycan rəhbərliyində də belə idi. N.Cəfərov bunu belə əsaslandırır: “Rus sovet dövlətçiliyinin tarixi əsasında qədim türk dövlətçiliyinin əsrlər boyu qazandığı təcrübə dayanmışdı... Hansı qiyafədə təzahür edirsə-etsin, mahiyyət etibarilə bir türk dövləti olan Rusiya – SSRİ dövlətçilik təfəkkürü zəif rus-slavyan xadimləri tərəfindən heç zaman normal idarə edilə bilməyibdir”. Türklər isə XVII əsrdən yüksək idarəçiliyə, demək olar ki, buraxılmayıblar. Heydər Əliyev Azərbaycanı müsəlman-türk respublikasına çevirmişdi. Bu iqtisadi, mədəni, mənəvi yüksəlişi digər görkəmli türklər D.Ə.Kunayev və Ş.R.Rəşidov edə bilməmişdi,– akademik Nizami Cəfərov belə qənaətə gəlir.

Heydər Əliyev milli tarixi təfəkkürün oyanışına xüsusi əhəmiyyət verib. Özü də tarixçi kimi: “Azərbaycan xalqının mənşəyi, formalaşması, Azərbaycan millətinin təşəkkülü kimi mühüm tarixşünaslıq problemləri məhz 70-ci illərdə bütün elmi-ideoloji kəskinliyi ilə qoyulurdu: “Heydər Əliyev milli dil, ədəbiyyat, mədəniyyət və s. tarixinin problemləri ilə də maraqlanır, mütəxəssisləri səfərbər edirdi”.

Sov.İKP MK-nın Siyasi Bürosunda o zaman (1980-ci illərin əvvəllərində) üç türk var idi: Dinmühəmməd Kunayev (qazax), Şəraf Rəşidov (özbək) və Heydər Əliyev (türk-Azərbaycan)! Zaman Heydər Əliyevi ruslarla təkbaşına mübarizə mövqeyinə çıxarmışdı. 1980-ci illərin ortalarında artıq Heydər Əliyev Azərbaycanın və ümumən türk-müsəlman xalqlarının lideri idi. Rus şovinizmi isə ayaqda idi. Nizami Cəfərova görə: “Etiraf edək ki, Heydər Əliyev Türküstanın dövlət başçıları Nursultan Nazarbayev, İslam Kərimov, Saparmurad Niyazov, Əsgər Akayev ilə görüşlərində, münasibətlərində öz ağsaqqallıq missiyasını, türk dünyasının lideri vəzifəsini məharətlə yerinə yetirirdi”.

İqtisadi, siyasi və mədəni cəhətdən birləşmiş türk xalqları yeni dünyanın mühüm gerçəkliyindən biri olmuşdu. Və Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclisi Dünya azərbaycanlılarının həmrəylik gününün keçirilməsi üçün qərar qəbul etmişdi. 1993-cü ildə bu həmrəylik bayram kimi təntənəli surətdə qeyd olunmuşdu.

Ulu öndər dünya ictimaiyyəti qarşısında da böyük siyasi nüfuz sahibi olub. Nizami Cəfərov ulu öndər siyasi portretinin bu tamamlayıcı çizgisini sözlə belə rəsm edir: “Heydər Əliyev yalnız Azərbaycanın, ümumən azərbaycanlıların rəhbəri deyil, dünyanın gələcəyi üçün məsuliyyət daşıyan böyük ictimai-siyasi xadimlərdəndir”.

***Əlizadə ƏSGƏRLİ,***
***AMEA Ədəbiyyat İnstitutu direktorunun müşaviri, filologiya elmləri doktoru***

# “Onun ünsiyyət qurmaq qabiliyyətinə heyran qalmışdım”

**Bu sözləri Ceymstaun Fondunun İdarə Heyətinin üzvü, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, beynəlxalq ekspert Metyu Brayza deyib.**



ABŞ-ın ölkəmizdəki keçmiş səfiri Metyu Brayza “Report” informasiya agentliyinə müsahibəsində ümummilli lider Heydər Əliyevin bacarıqlı rəhbər, siyasi lider kimi üstün cəhətlərindən danışıb, eləcə də onunla bağlı yadında qalan maraqlı epizodları xatırlayıb. Amerikalı diplomat SSRİ-nin dağılmasından sonra Azərbaycanın neft-qaz biznesinin heç vaxt özünə gəlməyəcəyi ehtimalının olduğunu yada salıb: “Heydər Əliyevin uzaqgörənliyi Azərbaycana enerji sektorunu dirçəltməyə və son nəticədə öz enerji resurslarını kəmərlər vasitəsilə ixrac etməyə imkan verdi. Onun uzaqgörənliyi həm də geosiyasi cəhətdən balanslaşdırılmış şəkildə xarici investisiyaların cəlb edilməsində göründü. Bu, Böyük Britaniya, Türkiyə və Yaponiya şirkətlərindən, eləcə də Rusiya və hətta İrandan investisiyalar cəlb etmək demək idi”.

Heydər Əliyevlə ilk görüşünün qeyri-rəsmi şəraitdə, Prezidentin Bakıdakı iqamətgahında baş tutduğunu deyən M.Brayza onun sadə ünsiyyət qurmaq qabiliyyətinə heyran qaldığını deyir: “Onun gözlərində qonaqpərvərlikdən həzz aldığını göstərən xüsusi isti enerji hiss edirdim. O, sanki çay və kofe içmək üçün bizi binanın aşağı mərtəbəsinə aparmağa tələsirdi”.

M.Brayza Heydər Əliyevlə bağlı ən parlaq xatirəsini 2001-ci ilin yanvarında ABŞ-da keçirilən mübahisəli prezident seçkilərindən sonra Bakıdakı görüşdə yada salır: “O vaxt bizdə keçmiş vitse-prezident Albert Qor səslərin çoxunu qazansa da, rəqibi Corc Buş qalib elan edildi və ABŞ Prezidenti seçildi. Heydər Əliyevlə söhbətə başlamazdan öncə dedi ki, Xəzər dənizinin problemlərindən danışmaq üçün buradayıq. Amma bilirəm ki, siz həmişə olduğu kimi, məndən yenə də Azərbaycanda demokratiya barədə soruşacaqsınız. Ona görə icazə verin, mən də sizdən ölkənizdəki demokratiya haqqında soruşum dedi və əlavə etdi: “Düz başa düşmüşəm, hə? Sizdə seçkilər keçirildi, amma səslərin çoxunu toplayan şəxs prezident elan edilmədi, yeni prezidentiniz əvvəllər prezident olmuş, eləcə də xüsusi xidmət orqanının rəhbəri işləmiş şəxsin oğludur. Bu, doğrudur? Seçkiləri udan şəxsin qardaşının başçılıq etdiyi ştatda isə seçki məhkəmə ilə başa çatıb? Hmm! İndi mənə Azərbaycandakı demokratiyadan danışa bilərsiniz”.

Bu, Heydər Əliyevin mahiyyətini əks etdirən çox dərin bir müşahidə idi. O, dərin analitik düşüncəli, yüksək intellektli, ətrafındakıların reaksiyalarına diqqətlə yanaşan və hər zaman meydan oxumağa hazır biri idi”. Müsahibənin sonunda M.Brayza qeyd edir ki, Heydər Əliyev ölkənin enerji sektorunu dirçəltmək üçün kifayət qədər vəsaitin olmadığını bilirdi, ona görə də müxtəlif ölkələri təmsil edən şirkətlərin cəlb olunduğu “Əsrin müqaviləsi”ni təşkil etdi.

Bəli, az sonra tarix ümummilli liderin təməlini atdığı bütün layihələrdə olduğu kimi, bu məsələdə də yanılmadığını sübuta yetirdi.

***“Xalq qəzeti”***

# “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı”



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Azərbaycan Milli Məclisinin deputatı, akademik Nizami Cəfərov Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetində “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı” mövzusunda mühazirələr oxuyub.**

Əvvəl özbək dili və ədəbiyyatı kafedrasında Nizami Cəfərovla görüş keçirilib.

Kafedranın müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Firuzə Burxanova universitet haqqında məlumat verib, qeyd edilib ki, bu ali təhsil ocağı 1937-ci ildən fəaliyyət göstərir. 1947-ci ildən isə universitet dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyır. Azərbaycan və özbək xalqlarının böyük oğlu, özbək ədəbiyyatının klassikinə çevrilmiş Maqsud Şeyxzadə də ömrünün sonunadək bu universitetdə dərs deyib.

Sonra Firuzə Burxanova özbək dili və ədəbiyyatı kafedrasının tarixi, elmi fəaliyyəti haqqında məlumat verib, burada çalışan professor-müəllim heyəti və müasir dövrdə tələbələrin ədəbiyyata olan marağı haqqında söhbət açıb.

Nizami Cəfərov Azərbaycan və özbək xalqlarının dost və qardaş xalqlar olduğunu qeyd edib, Özbəkistan alimləri ilə əməkdaşlıq edən Azərbaycanın tanınmış ədəbiyyatşünasları haqqında danışıb. Ulu öndər Heydər Əliyevin yaratdığı əsaslar üzərində ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan akademik deyib ki, ötən il Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistana üç dəfə səfər edib ki, bu da əlaqələrimizin yüksək səviyyəsindən xəbər verir.

Sonra Nizami Cəfərov müəllimlərin müxtəlif səpkili suallarını cavablandırıb.

Görüşdən sonra N.Cəfərov tələbələr qarşısında Azərbaycan ədəbiyyatı ilə bağlı ilk mühazirəsini oxuyub.

Nizami Cəfərov qəzetimizin müxbiri ilə müsahibəsində deyib: “Mühazirələri mi ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr etdim. Azərbaycan–Özbəkistan dostluq və qardaşlığına ulu öndərin tarixi töhfələrindən xüsusi söhbət açdım. Özbək tələbələrə Azərbaycan ədəbiyyatı tarixi haqqında ətraflı məlumat verdim, çalışdım ki, ədəbiyyatımızın tarixi barədə tələbələrdə ümumi təsəvvür yaradım. Dədə Qorquddan Koroğluya, 20-ci əsrin əvvəllərinə qədər olan mərhələdə ədəbiyyatımız nələr qazanıb, bu haqda da təbii ki, söhbət açdım.

Söhbətlərimi Azərbaycan xalqının tarixi, dilin tarixi, ədəbiyyatın tarixi üzərində qurdum. Mühazirələrdə Türk xalqlarının ədəbiyyat tarixi, ümumi Şərq ədəbiyyatının və ümumdünya ədəbiyyatından qaynaqlanan ortaq dəyərlərin tarixi, ədəbiyyatı haqqında da söhbət açdım. Azərbaycan ədəbiyyatının özbək ədəbiyyatı ilə müqayisəsi üzərində də dayandım. Təbii ki, söhbətlərimdə müasir Azərbaycan və özbək ədəbiyyatı üzərində də dayandım. Ümumiyyətlə, söhbətlərim maraqla dinlənildi, çoxsaylı suallara cavab verdim”.

N.Cəfərov eyni zamanda bildirib ki, belə səfərlərin müntəzəm olaraq keçirilməsinin tərəfdarıyam. Azərbaycan alimlərinin Özbəkistanın ali məktəblərində, özbək alimlərin isə Azərbaycan universitetlərində müxtəlif mövzularda mühazirələr oxuması ancaq ümumi işin xeyrinə olar.

***Qulu KƏNGƏRLİ***
**Daşkənd**

**Ümummilli lider Heydər Əliyevi ilk dəfə yaxından 1991-ci ilin mart ayında - Azərbaycan yazıçılarının Filarmoniyanın binasında keçirilən IX qurultayında görmüşdüm. O vaxt təqaüddə olan Heydər Əliyev Naxçıvanda yaşayırdı, elə oradan da Azərbaycan Ali Sovetinin deputatı seçilmişdi, parlamentin iclasında iştirak etmək üçün həmin ərəfədə Bakıya gəlmişdi. Sonralar özünün də xatırladığı kimi, qurultaya yazıçıların dəvəti ilə gələn Heydər Əliyevə Filarmoniyanın salonunda böyük səmimiyyət, istiqanlılıq və yüksək ehtiram göstərilmiş, yazıçılarla aralarında mehriban söhbətlər olmuş, hörmət və ehtiramla Rəyasət Heyətinə dəvət etsələr də, zalda oturmağa üstünlük vermişdi.**



# Siyasətin ustası, sözün qədirbiləni

Heydər Əliyevin ədəbiyyata, sənətə, şair və yazıçılara, söz-sənət adamlarına isti, doğma münasibətinin, onlara xüsusi diqqət və qayğı ilə yanaşmasının kökü hələ sovet illərinə – onun Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrlərə gedib çıxır. Yuxarı ədəbi nəsilə mənsub ayrı-ayrı ədəbiyyat adamları ilə söhbətlərdə bu barədə çox eşitmişəm, yazılan xatirələrdə çox oxumuşam. Heydər Əliyev yazıçıların hələ ötən əsrin 70-ci illərində keçirilən ən mötəbər tədbirlərinə qatılar, onlarla birbaşa ünsiyyətdə olar, öz dəstəyini əsirgəməzmiş.

Hətta Azərbaycana rəhbərlik etdiyi ilk illərdə SSRİ Yazıçılar İttifaqının rəhbərliyi ilə Moskvada görüş keçirmiş, bu addımı ilə yazıçı fikrinə, yazıçı sözünə xüsusi önəm verdiyini sərgiləmiş, Sovet İttifaqının bu ali qurumunun rəhbərləri bir respublika başçısının belə həssas davranışını böyük rəğbətlə qarşılamışdılar. Azərbaycan yazıçılarının 1981-ci ilin iyununda keçirilən qurultayında isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevin artıq ənənəyə çevrilmiş iştirakı təkcə ünsiyyətlə məhdudlaşmır, o, iclasda geniş nitq söyləyir və yazıçı sözünün, yazıçı mövqeyinin cəmiyyət üçün yüksək əhəmiyyətini vurğulayırdı.

Heydər Əliyevin bu münasibəti ötən əsrin 90-cı illərinin ikinci yarısından etibarən daha miqyaslı və əhatəli şəkil aldı. Artıq dövr və zaman da dəyişmişdi – Azərbaycan öz dövlət müstəqilliyini bərpa etmişdi, Heydər Əliyev isə müstəqil Azərbaycan Respublikasının Prezidenti idi. Yazıçıların 1997-ci ilin oktyabrında keçirilən X qurultayına bu dəfə Azərbaycanın Prezidenti kimi gələn Heydər Əliyev geniş və əhatəli nitqində həmişə yazıçılar, şairlər, mədəniyyət xadimləri ilə bir yerdə olduğunu xatırladaraq bunun səbəbini belə izah elədi: “Birincisi, şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm. Şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam... Bu “oxumuşam, unutmamışam” sözləri, sadəcə, bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam”.

Nitqinin davamında isə yazıçıların indiki qurultayının əvvəlkilərdən fərqləndiyini vurğuladı: “İndi isə bizim bu qurultayımız tamam başqa bir şəraitdə keçir. Keçmiş zamanlarda nə qədər böyük nailiyyətlər əldə etmişiksə də, mən hesab edirəm ki, bu qurultay indiyə qədər olan bütün qurultaylardan, yazıçıların toplantılarından, konqreslərindən – hamısından üstündür. Çünki müstəqil Azərbaycan Respublikasının sərbəst yazıçıları müstəqil dövlətimizdə özlərinin ilk qurultayına toplaşmışlar. Bu, çox sevindirici haldır. Bu, müstəqilliyimizin bizə verdiyi töhfələrdir ki, biz indi artıq heç kəsdən, heç bir mərkəzdən, ideologiyadan asılı olmayaraq, özümüz sərbəst olaraq həyatımızın hər sahəsini araşdırırıq, o cümlədən, öz ədəbiyyatımızı, mədəniyyətimizi istədiyimiz kimi müzakirə edirik və istədiyimiz istiqamətdə aparırıq. Bu azadlıq, sərbəstlik, müstəqillik əvəzsiz bir nemətdir”.

Azərbaycan Prezidenti Heydər Əliyev qurultaydakı bu səmimi və dərin məzmunlu fikirlərindən bir neçə həftə sonra - 24 noyabr 1997-ci ildə “Azərbaycan yazıçılarına dövlət qayğısının artırılması haqqında” fərman imzaladı. Fərmanda yazıçıların yaradıcılıq imkanlarının genişləndirilməsi məqsədilə onlara dövlət qayğısının artırılması, eləcə də qurultayda irəli sürülmüş fikir və təkliflərin nəzərə alınaraq bir sıra mühüm qərarların qəbulu nəzərdə tutulurdu. Bu fərmanla Azərbaycan Yazıçılar Birliyinin bədii nəşrlərinin dövlət büdcəsi hesabına çap edilməsinə, istedadlı gənc yazıçılar üçün təqaüdlərin təyin olunmasına başlanıldı.

Mənim Heydər Əliyevlə sonrakı təmas və ünsiyyətim mətbuatla bağlı tədbirlərə təsadüf edib. Dövlət müstəqilliyinin bərpasının ilk illərində fərqli mətbu nəşrlərin fəaliyyətə başlaması ilə yeni məzmun alan, bir neçə ildə əhəmiyyətli inkişaf mərhələsi keçən Azərbaycan mediası ötən əsrin 90-cı illərinin sonu – 2000-ci illərin əvvəllərinə doğru bəzi obyektiv və subyektiv səbəblərdən iqtisadi çətinliklərlə üzləşdi. Mətbuat və bununla paralel olaraq jurnalistlər sosial problemlərlə qarşı-qarşıya qaldılar. Belə bir situasiyada mətbuatın üz tutacağı ünvan Azərbaycan dövləti və onun başçısı idi. O dövlət başçısı ki, 1998-ci il avqustun 6-da imzaladığı fərmanla Azərbaycanda yüz ildən çox bərqərar olan senzuranı ləğv etmiş, bunun ardınca isə kütləvi informasiya vasitələri üzərindən əlavə dəyər vergisinin götürülməsi, ölkəyə gətirilən qəzet kağızına tətbiq olunan gömrük rüsumunun ləğvi ilə bağlı tədbirlər görmüş, 2000-ci ilin martında kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər proqramını təsdiqləmişdi.

Azərbaycan mətbuatının inkişaf yoluna, müstəqilliyin ilk illərindən bugünə qədərki dövrə nəzər salanda Heydər Əliyevin hakimiyyətə gəlişindən sonrakı illəri mediaya dövlət qayğısının başlanması mərhələsi kimi qeyd etmək lazım gəlir. Heydər Əliyev istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi zaman mətbuatı həmişə diqqətdə saxlayıb, sözün qiymətini bilən böyük siyasi xadim kimi mətbu fikrə xüsusi önəm verib.Bu diqqətin təzahürü idi ki, mətbuatın belə çətin dövrünü yaşadığı illərdə Heydər Əliyev bir neçə dəfə qəzet redaktorları ilə müxtəlif formatlarda görüşlər keçirdi.

2001-ci ilin dekabrında baş redaktorları qəbul edən ümummilli lider bizi təmkin və səbirlə dinlədi. Görüşdə mən də çıxış elədim, jurnalistlərin mənzil probleminə toxunaraq indiki maddi imkanlarla jurnalistlərin Bakı şəhərində ev almasının bir xəyal olduğunu diqqətə çatdırdım, bir neçə təklif verdim. Görüşün nəticəsi olaraq növbəti mərhələlərdə ardıcıllıqla mətbuatın ayaqda qalması istiqamətində əməli addımlar atıldı, bir sıra qəzetlərin “Azərbaycan” nəşriyyatına olan borcları donduruldu, sonradan isə birdəfəlik silindi, AzərTAC dövlət agentliyi öz xəbər bülletenlərini qəzetlərə ödənişsiz göndərməyə başladı.

Heydər Əliyev mətbuatın gücünü çox dəqiq qiymətləndirməyi bacaran, jurnalistlərlə işin əhəmiyyətini qəbul edən müdrik siyasi xadim idi. Mən öz çıxışlarımın birində onu jurnalistlərin böyük dostu adlandırmışdım. Məhz milli mətbuatın inkişafına göstərdiyi diqqət və qayğının nəticəsi idi ki, 2002-ci ildə o, “Ruh” Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi “Jurnalistlərin dostu” mükafatına layiq görüldü. Heydər Əliyevlə növbəti görüşümüz də elə həmin il martın 22-də “Hyatt Regensy” mehmanxanasında “Jurnalistlərin dostu” mükafatının təqdimolunma mərasimində gerçəkləşdi.

Yadımdadır, ümummilli lider o tədbirdə çox maraqlı və dərin məzmunlu çıxış etdi. Bu mükafatı yüksək qiymətləndirdiyini bildirən Heydər Əliyev xoş ünsiyyətindən, zarafatından da qalmayaraq “İlk dəfə olaraq, mən jurnalistlərin, nəhayət, xoşuna gəlmişəm və onlar məni mükafatlandırıblar” – dedi, sonra isə əlavə etdi ki, keçmişdə olduğu kimi, bu gün də jurnalistlərin dostudur və həmişə də jurnalistlərin dostu olaraq qalacaq, bundan sonra da jurnalistlərə əlindən gələn yardımı edəcək. Çıxışının sonunda mətbuatın, jurnalistlərin fəaliyyətinə bir daha yüksək qiymət verdi: “Jurnalistika elə bir sahədir ki, ümumiyyətlə, tənqidlə məşğuldur, bütün başqa vəzifələri ilə bərabər, əsas məqsədi tənqid etmək, nöqsanları aşkar etmək, onların aradan qaldırılması üçün çalışmaqdır. Jurnalistika cəmiyyətdə həmişə bu işləri görüb, bu gün də görür və çox uğurla görür”. Ayrı-ayrı məmurların mediaya, jurnalistlərə qarşı kin, qəzəb püskürdüyü bir vaxtda dövlət başçısının bu fikirləri olduqca zəruri və qiymətli idi.

2002-ci ildə Heydər Əliyevin media nümayəndələri ilə daha bir görüşü oldu. İyulun 22-də – Milli Mətbuat Günündə ölkənin aparıcı qəzet redaktorları ilə görüşən dövlət başçısı onlarla üç saat yarımdan artıq söhbətləşdi, geniş müsahibə verdi. Mənim Qarabağla bağlı sualımı olduqca ətraflı, təxminən, 45 dəqiqə cavablandırdı – məxsusi vurğuladı ki, indiyədək heç kimə demədiyi məsələləri açır. Dedi ki, siz ziyalı insanlarsınız, redaktorlarsınız, bu məsələləri bilməlisiniz. O, Qarabağ danışıqlarının bağlı qapılar arxasında keçirilən, bizim heç ağlımıza da gətirmədiyimiz məqamlarını açıb danışdı. Eyni zamanda Azərbaycanın iştirakı ilə regionda türk zolağı yaradıla biləcəyindən bəzi dünya siyasətçilərinin narahatlıq keçirdiklərinə toxundu. Şübhəsiz ki, müdrik siyasətçi bu sirləri təsadüfən faş etmirdi. Görünür, kimlərisə təkcə bağlı qapılar arxasında deyil, həm də ictimai tribunadan, mətbuat vasitəsilə, necə deyərlər, Azərbaycan xalqının gözü qabağında ifşa etməyin vaxtı-məqamı çatmışdı.

Heydər Əliyev o zaman mənim sualıma cavab verərkən indi aktual olan Zəngəzur məsələsi ilə bağlı da çox maraqlı bir nüansa toxundu. Bildirdi ki, hələ 1920-ci ildə bu sərhədləri quranda Azərbaycanın Moskvada heç kimi olmayıb, ermənilərin isə hakimiyyətdə güclü mövqeləri olub. O vaxt Azərbaycanın torpağını – Zəngəzuru, xüsusən onun Mehri hissəsini kəsib Ermənistana veriblər ki, İranla sərhədi olsun. Bu, tamamilə süni bir şeydir. Baxın, hələ 1920-ci ildə ermənilər nə haqqında düşünüblər: İranla sərhədləri olsun!

Prezident vaxtilə Dövlət Təhlükəsizlik Komitəsi sistemində fəaliyyət göstərdiyi illərdə həmin sərhədləri qoruyanlardan biri olduğunu xatırladaraq dedi ki, o zaman sovet respublikaları arasında sərhəd haqqında heç söhbət gedə bilməzdi. Dəmir yolu var idi, Bakı–Yerevan qatarı işləyirdi. Oradan – Mehridən qatar gedib-gəlirdi, heç bir maneə yox idi. Amma baxın, 1920-ci ildə düşünüblər ki, İrana çıxması üçün gərək Ermənistana sərhəd verilsin və veriblər.

Heydər Əliyev o gün bizimlə görüşdə çox ciddi və həssas məqamlar üzərində dayandı. Həmin gün axşam isə Milli Mətbuat Günü ilə bağlı tədbirimizə qatıldı, yenə bir saatdan artıq bizimlə bir yerdə oldu.

...Bu il Heydər Əliyevin anadan olmasının 100 illiyidir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan olunub. Bu münasibətlə dövlət və hökumət qurumlarının təşəbbüsü ilə çoxsaylı tədbirlər keçirilir, hələ ötən əsrdə Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Heydər Əliyevin müxtəlif fəaliyyət sahələrində, ən fərqli istiqamətlərdə gördüyü məqsədyönlü işlər barədə cild-cild kitablar yazılır. Hələ Sovetlər Birliyi dönəmində görülən bu işlərə, həyata keçirilən bu tədbirlərin miqyasına nəzər salanda Heydər Əliyevin gələcəklə bağlı uzaqgörən siyasətinin bu gün müstəqil Azərbaycanın tərəqqisi üçün nə qədər böyük əhəmiyyət daşıdığı aydın görünür. Vəfatından 20 ilə yaxın müddət ötsə də, biz yenə onunla bir yerdəyik. Heydər Əliyev öz idealları sayəsində cismani yoxluğunu hiss etdirməyən azman bir şəxsiyyətdir. Bizdən sonrakı nəsillərin də onunla bir yerdə olacağına isə heç bir şübhə yoxdur!..

***Rəşad MƏCİD,***
***Azərbaycan Mətbuat Şurasının sədri,***
***Azərbaycan Yazıçılar Birliyi sədrinin müavini***

# Ulu öndərin təbiətə qayğı ənənəsinə sədaqət

**Azərbaycan Respublikasının Nazirlər Kabineti və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.**



Nazirlikdən qəzetimizə bildirilib ki, yaşıllıqların artırılmasına, ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş ulu öndər Heydər Əliyevin 100-cü ildönümü münasibətilə Müşfiqabad qəsəbəsində keçirilən ağacəkmə aksiyasında Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Nazirlər Kabinetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları iştirak ediblər.



Aksiya iştirakçıları Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkiblər.

Ağacəkmə aksiyasının keçirilməsində məqsəd ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, ümummilli liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdir.

*“Xalq qəzeti”*



# Milli idealların təntənəsi

**Sumqayıt Dövlət Universitetinin Heydər Əliyev Məktəbində “Müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin bəhrəsidir” mövzusunda elmi-praktik konfrans keçirilib.**

Məclisi giriş sözü ilə universitetin rektoru Elxan Hüseynov bildirdi ki, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin aparıcı xəttini azərbaycançılıq məfkurəsinin formalaşdırılması və Azərbaycan dövlətçiliyi konsepsiyasının gerçəkləşdirilməsi dayanır. Müstəqil dövlətin memarı və qurucusu Heydər Əliyev XX əsrin sonları XXI əsrin əvvəllərində müstəqil, sosial yönümlü dövlət siyasəti ilə Azərbaycanı bugünkü tərəqqi yoluna çıxarıb. Ulu öndərin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyası isə bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir.

Konfransda SDU-nun prorektoru Elmar Xəlilovun “Heydər Əliyevin Azərbaycan dövlətçilik tarixində yeri mövzusunda məruzəsi dinlənilib. Kafedra müdirləri Məftun Heydərova, Arzu Baxşəliyev, elmi hissə müdiri Samir Orucov, tələbə Həsən Həsənov çıxışlarında bildiriblər ki, dünya miqyaslı siyasətçi və dövlət xadimi Heydər Əliyev bütün istiqamətlərdə müstəqilliyin möhkəm və etibarlı təməllərini yaratdığı kimi, gələcəyin inkişaf konsepsiyalarını da işləyib hazırlayıb.

Qeyd edilib ki, ulu öndərin “Azərbaycan dünyaya Günəş kimi doğacaqdır” uzaqgörənliyi ölkəmizin bugünkü hərtərəfli inkişafı ilə gerçəkləşib. Bu gün qürurla yaşadığımız Qələbə sevincinin mənbəyində də ümummilli liderin siyasəti dayanır. Tarixi ədalətin bərpa edilməsi böyük Heydər Əliyevin dühasından qaynaqlanan ideya və əməllərin təntənəsidir.

*“Xalq qəzeti”*



# İntellektin milli idealları

**“İntellektual mülkiyyəti qoruyub saxlayın, ona sahib olan dünyaya sahib olub, dünyanı idarə edəcək”. Bu sözlər uzun illər öncə deyilsə də, öz aktuallığını bu gün də itirməyib. Əksinə, daha aktual olub, çünki bəşəriyyət texnologiyalar əsrində yaşayır və müasir texnologiyaların inkişafı məhz intellektə bağlıdır. Eyni zamanda intellekt dövlətin qurulmasında və inkişaf etdirilməsində çox önəmli rol oynayır.**

Dünyada müxtəlif ölkələrdə yüksək intellektə malik olan bir çox dövlət xadimləri olub. Almaniya kanslerləri Otto fon Bismark və Konrad Adenauer, ABŞ prezidentləri Tomas Jefferson və Franklin Ruzvelt, Böyük Britaniya baş nazirləri Uinston Çörçill və Marqaret Tetçer, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk, Pakistanın banisi və lideri Ali Cinna və sözsüz ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyev.

Bu siyahıda adları çəkilən şəxslərin hər biri böyük xalqların və dövlətlərin nümayəndələri olublar, sadəcə, bir şəxs istisna olmaqla. Bu da hər bir azərbaycanlı üçün qürur mənbəyi olan – cənab Heydər Əliyevdir.

1969-cu ildə Heydər Əliyev Azərbaycanın rəhbəri seçildi və sonra Sov.İKP Mərkəzi Komitəsi Siyası Bürosunun üzvü seçilərək, dünyanın aparıcı ölkəsi olan SSRİ-nin 9 rəhbərlərinin biri oldu. Sov.İKP MK Siyasi Bürosunun tarixində 177 üzvü olub və onlardan Siyasi Bürodan uzaqlaşdırıldıqdan sonra siyasətə qayıda bilən bir, yaxud iki nəfər oldu. Biri Heydər Əliyevdir. O, Siyasi Bürodan uzaqlaşdırıldıqdan sonra Azərbaycana döndü və dövlətin Prezidenti seçildi.

Onun hakimiyyəti dövründə elmə, incəsənətə xüsusi diqqət yetirilirdi. 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəldikdən sonra dünyanın aparıcı zəkaları Azərbaycana gəlməyə başladılar. Tanınmış musiqiçi Mstislav Rostropoviç, dünya elmində çevriliş etmiş azərbaycanlı alim Lütfi Zadə, tanınmış fiziklər, Nobel mükafatı laureatı, Jores Alferov və akademik Roald Saqdeyev, dünyaca məşhur həkim Maykl De Beyki və digərləri. Bu insanları Heydər Əliyevin intellekti və onun boyük dövlət adamı olması cəlb edirdi.

İntellekt nədir, onu ölçmək mümkündürmü? İntellekt insanın gördüyü işlərlə ölçülür və ona qiymət böyük şəxslər tərəfindən verilir. İnsanın yüksək intellekti, eyni zamanda, məxsus olduğu xalqın mənəvi və mədəni dəyərlərinə olan məhəbbəti və bağlılığı ilə ölçülür.

1978-ci ildə Kirovabad (indiki Gəncə) şəhərinin iki rayona bölünməsi qərarı verildi. Mərkəzdən, yəni, Moskvadan təklif gəldi ki, bir rayona Leninski ya Sovetski, digərinə, zavodlar cəmləşən hissəyə Raboçi, yaxud Proletarski adı verilsin. Amma hər bir gəncəlinin qəlbində bir arzusu var idi, rayonlardan birinə şəhərin qədim adının verilməsi. Amma bunu deməyə heç kəsin cəsarəti çatmırdı, çünki güçlü kommunist rejimi var idi. Müəssisələrdə müzakirələr başladı və insanlar bir qərara gələ bilmirdilər. Nəhayət, Heydər Əlyev şəhərin fəallarını Bakıya dəvət etdi və özünə məxsus olan səbirlə hər kəsi dinlədi. Biri dedi Sovetski, digəri Proletarski və s. Hər kəsi dinlədikdən sonra Heydər Əliyev şəhərin aktivinə bir sualla müraciət etdi. Bu torpağın dünyaya verdiyi ən böyük oğulun adı nədir? Dərhal cavab verdilər: Nizami. Bəs dünyaya bu böyük oğulu bəxş edən torpağın adı nədir. İnsanlar ayağa qalxıb alqışlarla: Gəncə, Gəncə – dedilər. “Gedin, bir rayona Nizami, digərinə isə Gəncə adı verin, – dedi Heydər Əliyev. Bir müddətdən sonra artıq şəhərə onun qədim adı qaytarıldı.

Bu, nə idi, kommunist rejiminə etirazmı? Mərkəzdə buna o qədər də isti baxmadılar. Hətta Heydər Əliyevin vəzifədə qalıb-qalmaması məsələsinə baxırdılar, amma o, öz yolunu davam etdirirdi.

1982-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə uzaq Sibirdən Azərbaycanın böyük oğlu, filosof-şair Hüseyn Cavidin nəşi Azərbaycana gətirilib, Naxçıvanda torpağa tapşırıldı. Yenədəmi rejimə etiraz? Düşünürəm ki, bu gənc nəsilə bir mesaj idi, insan öz mədəni və mənəvi dəyərlərinə, vəzifəsindən asılı olmayaraq, necə bağlı olmalıdır.

İnsanın yüksək intellekti ən mürəkkəb anlarda yaranmış vəziyyətdə çıxış yollarını tapmağa imkan verir.

1994-cü ildə, “Əsrin müqaviləsi” imzalanmadan öncə Heydər Əliyev dünyanın aparıcı neft şirkətinin birinin prezidenti ilə görüşdü. Məlum idi ki, onlar Azərbaycanın şərtlərini qəbul etmək istəmirlər, amma, eyni zamanda danışıqların nəticəsindən asılı olmayaraq onlarla dost olmaq lazım idi. Görüşdə Azərbaycan tərəfindən Heydər Əliyev, onun köməkçisi, aparatın şöbə müdiri və xarici işlər naziri, digər tərəfdən şirkətin prezidenti və onun köməkçisi və tərcüməçisi (gənc bir xanım) iştirak edirdilər. Görüş gözləndiyi kimi, bir nəticə vermədi və şirkətin nümayəndələri görüş yerini tərk etməyə hazırlaşırdılar. Bu zaman Heydər Əliyev şirkətin prezidentinə müraciət edib soruşdu – “Sizin yanınızdaki xanım kimdir? Cavab – “Mənim köməkçim və tərcüməçim”. “Çox gözəl”, – dedi Heydər Əliyev. Sonra əlavə etdi: “Mənim yanımda mənim köməkçim oturub, sizin köməkçiniz qalsın burada, siz isə mənim köməkçimi özünüzlə aparın”. Bunu eşidən şirkətin prezidenti əsəbiləşərək qəti etiraz etdi. Heydər Əliyev bir az düşünərək ciddi tərzdə dedi: “Siz tam haqlısız, sizin köməkçiniz çox yaraşıqlıdır, mənimki isə yox və özü də kişidir. Mən sizə köməkçimi və şöbə müdirini verirəm, sizin köməkçiniz isə burada qalsın”. Bunu eşidən şirkətin prezidenti bir qədər də əsəbiləşib ayağa qalxdı. Bu zaman Heydər Əliyev xarici işlər nazirinə tərəf baxıb dedi: “Bu gün, deyəsən, səni də qurban verəsi olacayıq, vəziyyət bunu tələb edir”. Nəhayət, her şeyi başa düşən şirkətin prezidenti yüksəkdən gülərək ayağa qalxıb Heydər Əliyevə yaxınlaşıb onu qucaqlayaraq dedi: “Mən bura gələndə bilirdim ki, böyük dövlət və siyasi xadimlə görüşəcəyəm, amma indi müdrik qəlbli və incə yumor hissi olan bir insanı görərək Sizinlə dost olmaq istəyirəm”. Bu nə idi, incə yumormu? Xeyir, bu dərin intellektin nəticəsi idi. Belə mürəkkəb vəziyyətdə dərin intellekt çıxış yolu tapıb yad adamı dost etdi. Bir müddət sonra “Əsrin müqaviləsi” imzalandı. Belə addım, bəlkə də, siyasi qanunları pozurdu, ziddiyyət yaradırdı, amma Heydər Əliyev elə bir şəxsiyyət idi ki, o, siyasi qanunları və qaydaları özü yaradırdı.

Dərin intellektə məxsus olan şəxslərin arasında elələri var ki, onlara dahi insanlar deyirlər. Verilənlərin böyük massivlərini beyinlərində saxlayan, onları təhlil edən və lazımi anda, lazımi bilgini istifadə edib effektiv qərarları qəbul edən insanlara dahi deyirlər.

Alimlərin dediyinə görə, XX əsrdə belə dahilərdən biri Albert Eynşteyn idi. Onun dediyinə görə, fizika elmi onun beynində bölünməz vahid idi və hər nəticənin orada öz yeri, öz hüceyrəsi var idi və belə insanların inanılmaz yaddaşı olurdu.

1946-cı ildə Ordubadda Rəhim Rəhimov adlı bir gənc həkim çalışırdı. Onun orta məktəb müəllimi qonşuluqda yaşayırdı. Özü və xanımı ağır xəstə idilər. Bir oğulları var idi. Qonşusu dəfələrlə Rəhim doktora müraciət edirdi ki, oğluna bir arayış versin ki, onu hərbi xidmətə aparmasınlar. Çünki evdə ondan başqa kimsə işləmirdi. Nəhayət, uzun təzyiqlərdən sonra həkim belə arayışı verdi. Bir həftə sonra həkimi Naxçıvan şəhərinə, Dövlət Təhlükəsizlik Komitəsinə çağırdılar. Bir neçə saat gözlədikdən sonra otağa gənc zabit Heydər Əliyev daxil oldu. O, soruşdu: – “Bu arayşı siz vermisiz?” “Bəli”, – dedi həkim. Burada yazılanlar doğrudurmu? Həkim: Xeyr – dedi. Bəs nə üçün yazmısız? Həkim vəziyyəti anlatdı. Zabit bir az düşünərək: “Sizi burada hər kəs dürüst insan və gözəl həkim kimi tanıyır, gedin və bir daha belə şeylər etməyin”– dedi və arayışı cırdı. Bu hadisələrin üstündən illər keçdi. Heydər Əliyev Azərbaycan KP Mərkəzi Komitənin birinci katibi seçildi. Həkim Rəhim Rəhimov Bakıya köçüb tanınmış həkim və akademik oldu.

1974-cü ildə akademik Rəhim Rəhimov Onkologiya Mərkəzinə müdir təyin olundu və ondan öncə Mərkəzi Komitədə Heydər Əliyevlə görüşdü. Akademik Rəhim Rəhimovun dediklərinə görə bir saata yaxın olan görüşdə Heydər Əliyev onkologiya sahəsinin elə incəliklərindən danışdı ki, elə bir fikir yaranırdı ki, Heydər Əliyevin tibbi təhsili var. Görüş başa çatdı və Rəhim Rəhimov otağı tərk edəndə birdən Heydər Əliyev gülümsəyərək soruşdu: “Daha yanlış arayışlar vermirsiz?”. Bu nə idi, sadəcə dərin yaddaşmı? Xeyr. Bu, dərin intellektin nəticəsi idi, lazımi anda, lazımi məlumatı beyindən alıb istifadə etmək. Bu baxımdan Heydər Əliyev, sözsüz ki, dahi idi.

2000-ci ildə Heydər Əliyevin dediyinə görə, ABŞ-da olarkan, gözlənilmədən ata Buş tərəfindən onun “ranço”-suna dəvət edildi. ABŞ prezidentlərinin protokoluna uyğun olaraq “ranço”ya ancaq böyük dövlətlərin liderləri dəvət olunur. Heydər Əliyev düşünürdü, görəsən, nə səbəbdən dəvət olunub. Gəzinti zamanı Buş Heydər Əliyevi göl üzərində katerdə gəzməyə dəvət etdi. Təkbətək qalanda öz təcüməçisi vasitəsilə Heydər Əliyevdən soruşdu: “İraqda hakimiyyəti dəyişmək olarmı?” “Olar, amma saxlamaq çox çətin olacaq” – cavab verdi Heydər Əliyev. Zaman göstərdi ki, Heydər Əliyev nə qədər haqlı idi. Ata Buş bir vaxtlar Mərkəzi Kəşviyyat İdarəsinin rəhbəri, sonra isə ABŞ-ın Prezidenti olmuşdu və bəlkə də, dünyanın ən məlumatlı şəxslərindən biri idi. Buna baxmayaraq, Heydər Əliyevin dərin intellektinə və biliklərinə əmin idi ki, bu sualı verdi.









Hər bir xalq dünyaya böyük xadimlər verib. Əgər Böyük Britaniyada soruşsanız ki, sizin XX əsrdə dünya siyasətinə verdiyiniz ən böyük düha kim olub, dərhal Uinston Çörçilin adı çəkiləcək. Soruşanda ki, nə üçün belə böyük şəxsiyyətə Biq Benin (Britaniya Parlamenti) önündə ona sadə heykəl qoymusuz, qısa cavab belə olur. Uinston Çörçill o qədər böyük şəxsiyyət olub ki, onun heykələ ehtiyacı yox, heykəlin ona ehtiyacı olub.

Heydər Əliyevə qoyulan ən böyük heykəlin müəllifi və memarı məhz özü oldu – bu, əbədi yaşayan müstəqil Azərbaycan dövlətidir.

Heydər Əliyev Azərbaycan üçün böyük işlər gördü, amma bu dünyadan ürəyində həyata keçməyən bir arzu ilə köçdü. İşğal olunmuş torpaqlarımızın qaytarılması, qaçqınların doğma yurdlarına dönməsi. Bu arzunu həyata cənab İlham Əliyev keçirdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər Ordumuz 30 il işğal altında olan torpaqlarımızı geri qaytardı.

Hər bir insan dünyaya gələrkən onun Allah qarşısında bir borcu olur: Bu, özündən sonra həyatda böyük iz qoymaqdır. Bu borcu Heydər Əliyev artıqlaması ilə qaytardı. O, Azərbaycan xalqına müasir düşüncəyə və yüksək təhsilə sahib olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi bəxş etdi. 2014-cü ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun 70 illiyi qeyd olunurdu. 70 ildə bu ali məktəbi dünyanın müxtəlif ölkələrindən 100.000-dən çox gənc bitirmişdir. Amma onların içində ancaq bir şəxs ən yüksək kürsüyə layiq görülmüşdür. Bu azərbaycanlı İlham Əliyevdir.

Bu gün Azərbaycanda və xüsusən Qarabağ bölgəsində böyük tikinti-quruculuq işləri həyata keçirilir, mənəvi dəyərlərimiz bərpa olunur. Qarabağdan inci qədər gözəl olan muğam səsi gəlir. Bu işlərdə cənab Prezidentin və Azərbaycan Respublikasının birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın müstəsna xidmətləri var.

Bu gün ölkəmizin hər bir bölgəsində anaların gözlərində hələ qurumamış göz yaşları var. Bu göz yaşları ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş oğullarımız üçün olan göz yaşlarıdır. Artıq vaxt çatıb və mən əminəm ki, qısa bir zamanda Azərbaycan Prezidenti cənab İlham Əliyev Xankəndidə Azərbaycan Bayrağını ucaldacaq və analarımızın üzündə hələ qurumayan göz yaşları sevinc yaşlarına çevriləcək.

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi, AMEA-nın akademiki***

# *Vaqif Mustafayev:* Qorbaçov etiraf etdi ki, həqiqətən, Heydər Əliyevə həsəd aparıb

**Müsahibimiz görkəmli kinorejissor, ümummilli lider Heydər Əliyev barədə sənədli kinoserialın müəllifi Vaqif Mustafayevdir.**

**– Vaqif müəllim, ulu öndər Heydər Əliyev ömrünün hər ili bir əsrə bərabər olan 100 illik yubiley günündə sizi redaksiyamızda görmək çox xoşdur. Ulu öndərin həyat və fəaliyyətinin hər günü xalqımız, millətimiz üçün milli-mənəvi sərvətdir. Qəzetimizin "Heydər Əliyev xatirələri işığında" layihəsinin çoxsaylı qonaqlarının söylədikləri hər xatirə o xəzinəni daha da zənginləşdirir. Sizin danışacaqlarınız xatirələr də, heç şübhəsiz, o xəzinənin qiymətli eksponatı olacaq. Bir neçə müsahibənizdə qeyd edirsiniz ki, Heydər Əliyev sizin həyatınızda böyük rol oynayıb. O rol nədən ibarətdir?**

– Ümummilli lider Heydər Əliyev təkcə mənim həyatımda yox, Azərbaycanda elə bir layiqli sənət adamı yoxdur ki, onun taleyində mühüm rol oynamasın. Hətta keçmiş sovet respublikalarında yaşamış bir çox tanınmış sənət adamlarının həyatında Azərbaycan xalqının bu böyük oğlu müstəsna rol oynayıb. Ölkəmizdə incəsənət və mədəniyyət sahəsində çalışan yaşlı nəslin, hətta orta nəslin elə bir nümayəndəsi olmaz ki, Heydər Əliyevin qayğısını, dəstəyini görməmiş olsun. Görməyənlər də onun varisi, layiqli davamçısı Prezident İlham Əliyevin qayğı və dəstəyini görüblər.

Mən bunu demişəm və indi də təkrar edirəm ki, rejissor peşəsi və işi çox çətindir. Rejissor işini alpinistin dağa dırmaşmağı ilə müqayisə etmək olar, baxırsan ki, alpinist dağa dırmaşır, qəfil yıxılır ayağını, qolunu sındırır və xəstəxanada yatır. Elə ki, müalicə alıb sağalır, qolunu, ayağını bərpa edir, sonra yenə də zirvələri fəth etməyə səy göstərir. Kino sənəti də belədir, ağır və çətin sənətdir. Bəzən əsl sənətlə məşğul olan insan belə ondan bezir. Mən özüm bəzən deyirəm ki, kaş bu sənətə gəlməyəydim, kaş rejissor olmayaydım. Amma yadıma düşəndə ki, axı mən Heydər Əliyev haqqında 12 film çəkmişəm, dərhal fikrimdən daşınıram.

Niyə bu filmləri ilk dilə gətirdim? Çünki bu filmlər mənim fəaliyyətimin ən vacib hissəsidir. Ona görə də düşünürəm ki, yox, elə mən düz edib kinoya gəlmişəm, rejissor sənətini seçmişəm. Axı bunu mən bacarıram və peşəmi də sevirəm.

Siz doğru qeyd etdiniz ki, Heydər Əliyevin ömrünün hər ili bir əsrə bərabərdir. Amma nə məndən qabaq, nə də məndən sonra o ömrü sistemli şəkildə lentə köçürən, tarixiləşdirən olmayıb və yox idi də. Çünki bu gərgin əmək, ciddi səylər, qətiyyət və prinsipiallıq tələb edirdi. Gedib Moskvada Qorbaçovu tapmaq, onu danışmağa və çəkiliş etməyə razı salmaq lazım idi. Məndən əvvəl də bunu etməmişdilər və məndən sonra da heç kim bunu etmədi. Və nə yaxşı ki, mən bunu etdim. Bu, mənim şəxsi təşəbbüsüm idi və buna çox sevinirəm, çox şadam. Xoşbəxt bir insan, sənət adamıyam ki, öz milli liderim haqqında tarixi gerçəyi dünyaya göstərmək, gələcək nəsillərə çatdırmaq məramı ilə bunu etmişəm.

**– Vaqif müəllim, ulu öndər haqqında 12 sənədli film çəkmisiniz. Özünüz də söhbətimizə başlamazdan qabaq dediniz ki, Heydər Əliyevi belə çəkilişlərə razı salmaq o qədər də asan məsələ deyildi. Heydər Əliyev, umumiyyətlə, özü haqqında çox məlumat verməyi xoşlayan adam deyidi. Onu necə razı sala bildiniz?**

– Mən Heydər Əliyevsiz 4 film çəkmişdim. Ondan qabaq da mənə sənədli film çəkməklə bağlı çoxlu xahişlər olmuşdu. Xüsusilə, Moskvadan. Xahiş edirdilər ki, mən görkəmli yəhudi aktyoru və rejissor, SSRİ xalq artisti Solomon Mixoels haqqında sənədli film çəkim. 1946-cı ildə o, repressiyasının qurbanı olmuşdu və Stalinin birbaşa əmri ilə güllələnmişdi. Baxmayaraq ki, Stalin mükafatı almışdı və dünyada çox tanınmış aktyor idi. Prodüser gəlmişdi və 1 ay dalımca gəzdi ki, mən bu işi öhdəmə götürüm və film çəkim. Mən qəti etiraz etdim və dedim ki, "bilirsiniz, mən bədii filmlər rejissoruyam. Eldar Ryazanovun sinfini bitirmişəm. Mən sənədli filmdə özümü təsəvvür edə bilmirəm, çünki özümü orada görmürəm. Soruşdum ki, niyə siz hesab edirsiniz ki, mən yəhudi aktyoru haqqında sənədli film çəkə bilərəm? Dedi, mən buna əminəm. O, maraqlı şəxsiyyət idi, amma mən hesab etdim ki, bu iş mənlik deyil.

Bir-iki ildən sonra həmin adamlar Moskvadan mənə təklif etdilər ki, Stalin haqqında film çəkim. Yəni, Solomon Mixoelsi güllələyən Stalindən. Taleyin ironiyasına baxın ki, az bir vaxtdan sonra Solomon Mixoelsi güllələyən diktator haqqında 3 seriyalı sənədli film çəkməli idim. Mən bundan da canımı qurtardım. Sonra Bakıya gəldim, o vaxtkı ölkə rəhbəri mənə xəbər göndərdi ki, bir nəfər haqqında burada film çəkim. 1990-cı il idi. Dedim yox, mən heç bir şəxsiyyət haqqında film çəkmək fikrində deyiləm. Sonra Türkmənistandan da təklif oldu, ondan da imtina etdim.

Və sanki, birdən məndə nəsə bir çevrilmə baş verdi. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdanda məndə onun şəxsiyyətinə qarşı böyük maraq oyandı. Sovetlər vaxtlarında apardığım müşahidələrim yadıma düşdü. Heydər Əliyev tədbirlər keçirirdi, müxtəlif açılışlarda, toplantılarda çıxış edirdi. Yaxşı mənada məni çox təəccübləndirdi ki, bu insan kütləni yox, oradakı hər bir insanı görürdü. Məsələn, xalq arasında çıxış edəndə 15-ci sırada kimsə dayanıb, deyirdi ki, Məmməd, necəsən, çoxdandır görünmürsən. Bax, bu xalqı, insanları, tək fərdləri görmək, onları duymaq qabiliyyəti idi məni çəkən. Sonra onun istedadı, onun xalqın ağır günlərində, dövlətin fəlakətin caynağında olduğu bir vaxtda qayıtması gözlərim önündə canlanırdı.

Biz onu yaşamışıq, biz onu görmüşük. Boz ab-hava, hər yer boz, o balaca polietilen paketlər vare, onların parçaları göydə uçur. Belə bir vaxtda düşünürsən ki, başqa planetdə yaşamaq, Azərbaycanda yaşamaqdan daha yaxşıdır.

1993-cü ildə Heydər Əliyev gəldi, xalqı səfərbər etdi, dövləti qurdu, sabitlik yaratdı, xalqın dinini, dilini – hər şeyi qaytardı və ölkə yenə də başladı yaşamağa. Bütün bunları görən, müşahidə edən adam kimi, onun haqqında film çəkmək məndə çox böyük maraq oyatdı. Çox uzun olmayan bir zamanda dörd film çəkdim və ulu öndərə göndərdim. Nəhayət, 99-cu ildə biz görüşdük və hər şey də buradan başladı.

**– Vaqif müəllim, bu yerdə sizə bir sual vermək istəyirəm. Özünüz etiraf etdiniz ki, bədii filmlər ustası olmusunuz. Amma Heydər Əliyev ilə işləmək, təbii ki, aktyor ilə işləmək deyildi. Maraqlıdır, Heydər Əliyevi çəkmək nə qədər asan, nə qədər çətin idi?**

– Əlbəttə, mən sənədli film ilə bədii filmin fərqini yaxşı bilirəm. Axı mən Heydər Əliyevi aktyor kimi yox, dahi bir şəxsiyyət kimi görürdüm. Mənim yerimə kim olsa, özünü itirərdi. Amma Heydər Əliyev hər bir sahədə, eləcə də kino sahəsində çox böyük usta, çox böyük professional idi. O, çox gözəl bilirdi ki, kamera çəkir, qırmızı işıq yanır, operator hansı məsafədən çəkir və necə olmaq lazımdır. Biz onunla əvvəldən danışırdıq və o, bu ab-havanı yaradırdı. Heydər Əliyev istəyirdi ki, adam çəkinməsin. Ya zarafat edirdi, ya darağını çıxarıb başını darayırdı, nəsə elə bir hərəkət edirdi ki, adam bir balaca sakitləşirdi.

Hiss edirdin ki, sən iş görürsən və o da sənin həmmüəllifindir, həmkarındır. Bax, belə bir ab-hava yaradırdı və biz işləməyə başlayırdıq. Çəkilişdən əvvəl hər şeyi deyirdim ki, nəyi nəzərdə tuturam, necə düşünürəm. İşimi asanlaşdıran o idi ki, Heydər Əliyev çox böyük professional, həm də dramaturji istedada malik olan bir insan kimi söhbəti elə yönləndirirdi, verdiyin suala elə cavab verirdi ki, o cavab dramaturji baxımdan tam cavab olurdu – əvvəli, ortası, kuliminasiyası və sonu. Artıq sən onu montaj etməyə o qədər də əziyyət çəkmirdin.

Heydər Əliyev danışırdı və bilirdi ki, bunun həcmi neçə dəqiqə olacaq. Yəni, yüksək professionallıqla o, sənin həmmüəllifin olurdu və film də alınırdı. Filmlər o qədər gözəl alınırdı ki, özüm də heyran qalırdım. Sənədli filmlər tarixində, hansısa ölkənin rəhbəri haqqında filmlərin tarixində ilk dəfə Heydər Əliyev haqqında çəkdiyimiz filmlər beynəlxalq mükafatlar, qran-prilər aldı. Hələ bu harasıdır, ilk dəfə sənədli filmlər tarixində sənədli filmin qəhrəmanı mükafat aldı.

2002-ci il avqustun 2-də kino günündə "Əsl məhəbbət" haqqında filminin qəhrəmanı – Heydər Əliyevə yüksək mükafat təqdim elədilər. Əsl insani qəhrəmanlıq nə deməkdir? Sevgisinə sədaqət. Heydər Əliyev öz sevgisini karyeraya dəyişmədi. Öz şəxsi həyatını karyeraya dəyişmədi.

Yəqin, həyatı haqqında məlumatınız var. Ulu öndər Dövlət Təhlükəsizlik Komitəsində işləyirdi və Zərifə xanımın atası Əziz Əliyevin də ailəsi nəzarət altında idi, təqib olunurdu. Hətta, Dövlət Təhlükəsizlik Komitəsinin ovaxtkı sədri Yemelyanov onu iki dəfə çağırır və deyir ki, sən o ailədən imtina et. Heydər Əliyev bunu etmir. Bu, iradə idi, sədaqət və əsl sevgi idi. Ona görə də indi onun adını daşıyan sarayda o mükafatı Heydər Əliyevə təqdim edəndə çox sevinirdi...

**– Vaqif müəllim, 12 film çəkdiniz, bu filmləri çəkən zaman Heydər Əliyev ilə yaxından tanış oldunuz. Heydər Əliyev şəxsiyyəti, obrazı haqqında əvvəlki təəssüratlarınızla tanışlıqdan sonrakı təəssürat arasında fərq hiss etdinizmi?**

– Heydər Əliyev ilə nəinki tanış oldum, hətta onu çəkilişlər zamanı, kənarda daha çox izlədim, Heydər Əliyevi daha da çox öyrəndim. Heydər Əliyevin



şəxsiyyətini, onun fəaliyyətini daha dərindən dərk etməyə başladım. Heydər Əliyevin həyat və fəaliyyətini hansısa yazılmamış romanın qəhrəmanına bənzətməyə başladım. Mənə maraqlı idi ki, Heydər Əliyev, bəlkə, işdə bir cür, evdə başqa cür olur. Amma gördüm ki, həmin o yüksək mədəniyyət, əxlaq evdə də eynidir, çöldə də, başqa yerdə də. Etiraf edim ki, belə bir şəxsiyyətə rast gəlməmişəm. İndi düşünürəm ki, Heydər Əliyev olmasaydı, başqa bir tarixi şəxsiyyət haqqında – başqa bir adam haqqında film çəkməzdim. Nə də təklif olunan o insanlar – Solomon Mixoels, Fidel Kastro haqqında mən film çəkməzdim. Yəni, kim olursa-olsun, film çəkməzdim.

**– Bəs, niyə Heydər Əliyev haqqında film çəkməyə qərar verdiniz?**

– Çünki Heydər Əliyev o qədər dramatik situasiyalar, fəqli şəraitlərdə yaşayıb, həyatında bir-birinin ardınca davam edən dramatik şəraitlərə düşüb ki, bunu 10 qəhrəmana bölsək, hər bir qəhrəmana kifayət edər. Yəni, bir ömürdə, bir şəxsiyyətdə, onun həyatında nə qədər dramatik şərait ola bilər? Məsələn, insanları xilas etməyə görə Dövlət Təhlükəsizlik Komitəsinə gəldi və nə qədər insan xilas etdi. Profilaktikanı insanları qazamata salıb onlara əzab verməkdən üstün tutdu. Nə qədər sənətkarı, ziyalını, elm adamını xilas etdi, bunu siz yaxşı bilirsiniz. Respublikaya rəhbər gəldi və ən geridə qalmış respublikanı qabaqcıllar sırasına qaldırdı. Bunlar həqiqət idi və gözümüzün qabağında baş vermişdi. Mən bunları məktəbdə, universitetdə oxuyarkən izləyirdim. 1982-ci ildə Moskvaya getdi. 12 nazirliyə və 20-yə yaxın komitəyə rəhbərlik etdi. Onların içində dəmiryolu da var idi, təhsil, kino, mədəniyyət, səhiyyə də var idi. İndi bəziləri bir nazirliyə rəhbərlik edə bilmirlər. Amma SSRİ miqyasında 30-a yaxın bir-birindən nəhəng komitə və nazirliyə nəzarət edirdi.

SSRİ nəhəng bir dövlət idi. Heydər Əliyev o nəhəng dövlətin iqamətgahı olan Kremldəki rəhbərlərin hamısından fərqlənirdi. Heydər Əliyev nəhəng şəxsiyyət idi. Kremldə əksər işləri o, idarə edirdi. SSRİ dövlətini faktiki əsas idarə edənlərdən biri idi. Sonra müstəqil dövlətə gəlib rəhbərlik etməyə və dövləti qurmağa başladı. İnsanda nə qədər enerji, əzmkarlıq, qətiyyət olarmış...

Mənim bir filmim var, adı "Dövlət"dir, 3 hissədən ibarətdir. Heydər Əliyev necə dövləti qurur. Sonuncu sənədli filmim "Ata yolu"dur. Bu günlərdə Nizami kinoteatrında nümayiş olunub. Bu filmdə ölkə Prezidenti İlham Əliyevin öz atası haqqında fikirləri, izlədiyi, müşahidə etdiyi bütün məqamlar nümayiş etdirilir. Tamaşaçıların hamısı kino xadimləri idi və onlar çox təsirlənmişdilər.

**– Vaqif müəllim, bütün bu filmləri çəkdiyiniz dövrlərdə Heydər Əliyev ilə üz-üzə gəlmisiniz, söhbətləriniz olub. Bizə yadınızda qalan xatirə barədə danışa bilərsinizmi? Layihəmizin də əsas məramı məhz Heydər Əliyev haqqında xatirələri oxucularımıza çatdırmaqdır.**

– Çəkdiyim bu filmlər ona çox əziz idi. Bu yaxınlarda AzTV-nin mədəniyyət kanalı bir veriliş çəkmişdi. O verilişdə mənim Heydər Əliyev haqqında xatirələrimi lentə almışdılar. Amma mən o xatirələr haqqında yox, orada olan arxiv materialları haqqında danışmaq istəyirəm. İlk dəfə o arxiv materiallarını orada gördüm. Yəni, AzTV-nin çox zəngin arxiv materialları var. İlk dəfə orada gördüm ki, Heydər Əliyev Prezident Aparatında keçirdiyi yığıncaqda deyir ki, "siz Vaqif Mustafayevin filimini görmüsünüz? Görməmisinizsə, gedin baxın ona. Bilirsiniz, ona çox xoş idi ki, mən bu işlə məşğulam. Məsələn, gedib Moskvada Qorbaçovu tapıb, min əziyyətlə, zülmlə, çətinliklə, həyatımı risk altında qoydum. Nəyə görə? Qisas üçün. Mənim üçün əsas qisas idi. Deyirdim ki, birdən Qorbaçov ölər, biz qisası almağı çatdırmarıq. Getdim, 3 ilimi sərf etdim, onu tapdım.

Heydər Əliyev inanmırdı ki, mən gedib onu taparam və üstəlik, ondan müsahibə alaram. 1999-cu ildə biz görüşəndə dedi ki, "Axı sən boynuna niyə yüksək öhdəlik götürürsən: Deyirsən mən gedib Qorbaçovu tapacam, onu danışdıracam, film çəkəcəm". Təklif mənim idi. Heydər Əliyevə deyirdim: "Cənab Prezident, mənə elə gəlir ki, sizin Kremldən kənarlaşdırılmanızda paxıllıq böyük rol oynayıb". Dedi: "Düz deyirsən". Dedim: "O paxıllığı Qorbaçov Sizə qarşı edib". Dedi: "Fikrin düzdür, indi nə etmək istəyirsən?" Dedim: "Film çəkmək istəyirəm. Fikrim odur ki, Qorbaçovu tapım, onu danışdırım". Dedi: "Bunu necə edə bilərsən? Sən azərbaycanlısan. Qorbaçov Azərbaycan xalqının başına nə bəlalar gətirib. 20 Yanvar faciəsini yada salaq. O, səni yaxına buraxmaz". Dedim: "Cənab Prezident, qarşıma böyük, ali məqsəd qoyanda ona nail oluram. Məqsədim Qorbaçovu tapmaqdır, soruşum ki, bütün onları niyə etmisən? Bu bəlaları niyə Azərbaycan xalqının başına açmısan? O boyda nəhəng Heydər Əliyevi vəzifədən ədalətsizcəsinə uzaqlaşdırmısan?" 3 ildən sonra, nəhayət, buna nail oldum. Bunu bacardım.

Qorbaçovla müsahibəni başa vurandan sonra Bakıya gəlməyə 14–15 saat vaxt var idi. Pal-paltarım, əşyalarım mehmanxanada idi. Amma maşını mehmanxanaya yox, aeroporta sürdürdüm. Düşünürdüm ki, aeroportda daha çox xilas olmaq şansım var...

**– Elə bir təhlükə var idi?**

– Müsahibəni onun adına olan Fondda çəkirdim, orada da hər addımbaşı bir cangüdən var idi. Fikrini dəyişib başqa şey edə bilərdi. Qorbaçov çox əsəbiləşmişdi. Müsahibəmiz iki saat yarım çəkdi. Halbuki mənə 15 dəqiqə vaxt vermişdi. O müddət ərzində hər şeyi etiraf etdi. Etiraf etdi ki, 20 Yanvarda Bakıya qoşunların girməsi ilə bağlı fərmana o, qol çəkib. O fərman heç yerdə yox idi, tapa bilmirdim. Dedi, başqa nə edə bilərdim? Bakatinlə o birisi yanıma gəldi. Dedilər ki, sənəd lazımdır, buna qol çəkməlisən. Filmdə bütün bunlar var. Onu da etiraf etdi ki, doğrudan da, Heydər Əliyevə paxıllıq edirdi.

Bəzi adamlarla danışmışdım. Maşına minən kimi materialları verdim ki, təcili surətlərini çoxaltsınlar. Mənə bir şey olarsa, materiallar qalsın. 13–14 saat sərnişinlər arasında gizləndim. Nəhayət, sağ-salamat Bakıya çatdım. Sonra Heydər Əliyevi çəkdim.

***

Montaj olundu, film hazırlandı. Bununla sakitləşmədim. Filmi Almaniya, Fransa kimi ölkələrin festivallarına yox, birinci Rusiyaya apardım. Rusların nə düşündüyünü öyrənmək, reaksiyalarını müşahidə etmək mənim üçün vacib idi. Azərbaycanın Heydər Əliyevi və Rusiyanın Qorbaçovu haqqında nə fikirləşirlər? Film Qran-Pri mükafatı aldı. Bu, o demək idi ki, Rusiya tamaşaçısı öz simpatiyasını, rəğbətini azərbaycanlı Heydər Əliyevə vermişdi. Bununla da sakitləşmədim. Yekaterinburqa getdim. Orada da nüfuzlu sənədli filmlər festivalı keçirilirdi. Orada jurinin sədri dünya səviyyəli rejissor Qleb Panfilov idi. Film bu festifalın da əsas mükafatını aldı.

Ondan sonra Heydər Əliyevlə Şəhidlər xiyabanında görüşdük. Dedi: "Haradasan, tapılmırsan respublikada? Gündə bir mükafat alırsan". Dedim: "Cənab Prezident, bu, Sizin sayənizdədir. Sizin şəxsiyyətinizə olan marağın sayəsindədir". Çox sevinirdi. Bu sevinci gözlərində görə bilirdim. Ən əsası bildi ki, Qorbaçov elə-belə, cəzasız qalmır. Azərbaycanlı getdi, onu çəkdi. Ora gedəndə böyük ideya daşıyıcısı deyildim.

**– Vaqif müəllim, demək olarmı ki, sizin sadaladığınız sənədli filmlərinizin yüksək mükafatlar almasının əsas səbəbkarı Heydər Əliyev idi?**

– Əlbəttə. Bu ifadəni ona demişdim. Demişdi ki, mükafatı alan sənsən. Düzünü deyək, başqası haqqında çəksəydim, ona kim mükafat verərdi? Hansı sənədli filmdə filmin qəhrəmanına mükafat verilir? Qəhrəmana böyük maraq var idi və bu maraq getdikcə artırdı. Heydər Əliyev artıq bizim qəlblərimizə, yaddaşlarımıza köçüb. Əsas daşıyıcı disklər, qəzet, kitab deyil, qəlblərimizdir. Biz də bunu uşaqlarımıza, onlar da öz uşaqlarına ötürür. Məndə bir ssenari var idi. Yazmışdım "1923-cü il – əbədiyyət". Bizdə belə bir alqış var, deyirlər, 100 il yaşa. Heydər Əliyev 100 ildir yaşayır. Hələ neçə yüz illər yaşayacaq...

**– Sizcə, Heydər Əliyev haqqında hər söz deyilibmi, hər şey çəkilibmi?**

– Xeyr. Sizə bir epizod danışım. Çexiyada mənim tanışlarım, dostlarım, jurnalistlər var. Heydər Əliyev Praqada olanda onlara demişdim ki, yaxınlaşıb çəkərsiniz. Heydər Əliyev də bunu bilirdi. Elə oldu ki, Heydər Əliyev Bakıya təyyarə ilə qayıtmalı oldu. Həmin jurnalistlərə demişdi ki, Vaqifə deyərəm, Sizi Bakıya dəvət eləsin, gəlib, Bakıda çəkiliş apararsınız. Elə də oldu. Onlarla birlikdə Prezident Aparatına gəldik. Haradasa 6–7 nəfər idi. Heydər Əliyev qəbulda onları adbaad qeyd etdi. Masada əyləşdilər. Mən də küncdə bir yerdə əyləşdim. Qulağım çaldı ki, mənim haqqımda söhbət gedir. Heydər Əliyev məni göstərərək dedi ki, küncdə oturan o oğlan Azərbaycan xalqının düşmənini ifşa edib. Azərbaycan xalqının qəhrəmanıdır. Mən o sözlərdən sonra iki dəfə də balacalaşdım.

Çex jurnalistləri ilə vidalaşandan sonra, qonşu otağa keçmək üçün ona yaxın olan qapıya yaxınlaşdı. Cəld qapını açdım. Yaxınlaşıb çərçivənin yanında dayandı. Bir qədər fikrə dalıb, mənə tərəf döndü və dedi: "Sənin mənim haqqımda neçə filmin qalıb?" Dedim: "7 film çəkmişəm, 5-i qalıb. Simvolik olaraq 12 film nəzərdə tutmuşam, 100 film də çəkilsə, həyatınızı, fəaliyyətinizi sığışdırmaq olmaz". Dedi: "Deməli, 5 film qalıb?" Ardınca dedi ki, 5 filmi, bəs, necə çatdıracaqsan? Dedi və getdi. Qapını örtdü. Duruxub qalmışdım. Evə dönəndən sonra da səhərə kimi başıma min fikir gəldi. "O nə demək idi axı? Necə yəni bunu necə çatdıracaqsan?" Bu söhbət olub 2003-cü ildə. Düşündüm, bəlkə məni kosmosa göndərirlər? Çünki həmişə mənə deyirdi ki, mütləq sınaq keçməlisən.

Ağlıma Qaqarinin kosmosa uçmağı gəlirdi. O vaxtlar televiziyada görürdüm ki, insanı kabinənin içərisində fırladırlar. Mən də özümü orada təsəvvür edirəm və kosmosdan qayıtmıram. O fikir qalmamışdı ağlıma gəlməsin. Bir fikirdən başqa. O fikir təkcə məni yox, bütün xalqı sarsıtdı. Deməli, özünü nəzərdə tuturmuş. Deməli, mən beş filmi necə çatdıracam? Onun həyatı bitəcəkmiş, dünyanı tərk edəcəkmiş. Mən eşitmişdim ki, dahi insanlar öz həyatlarını uşaqlığından sonuna kimi görürlər. Heydər Əliyev də dahi idi.

Amma hələ bu acı və bəd xəbər qulağımızdan uzaq idi. Mənim 50 illiyim idi. Heydər Əliyev klinikada müalicə alırdı. Orada da məni unutmamışdı. Düşünürmüş ki, klinikadadır, Bakıda kimsə Vaqifin qayğısına qalmayacaq. Görün o boyda şəxsiyyət məni yada salır və "Şöhrət" ordeninin təltifi ilə bağlı sərəncamı orada imzalayır.

**– Həmin təqdimatı eşidəndə hansı hissləri yaşadınız?**

– İlk növbədə, onu düşündüm ki, belə şey ola bilməz. Mümkün deyil. Adi bir məmurun təzyiqi qalxanda, heç kimi qəbul etmir. Amma bu insan necə dahidir ki, adi bir rejissor Vaqif Mustafayevin yubileyini xatırlayır və bunu qeyd etməyi unutmur. Demək, Heydər Əliyev hər şeyi düşünürmüş.

***Müsahibəni qələmə aldı:***
***R.İLQAR,***
***"Xalq qəzeti"***

**Ümummilli liderimiz Azərbaycan xalqının tarixində müstəsna rolu olmuş dahi şəxsiyyətlərin xatirəsini həmişə uca tutaraq zamanında onlara həsr edilmiş müxtəlif xatirə kompleksləri və muzeylər yaratmışdır. Bu insanların həyat və fəaliyyəti ilə bağlı nə varsa, ehtiramla tədqiq edilərək mənəvi dəyərlər kimi qorunub saxlanılmış və böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması işində ideoloji vasitə kimi geniş istifadə edilmişdir.**

***Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olmuşdur və bunu zamana, siyasi vəziyyətə baxmayaraq etmişdir. Sovet Azərbaycanı dönəmində 10 ildən artıq müddətdə Sovet Azərbaycanının rəhbəri olanda və hətta ideoloji əngəllər çərçivəsində o, Azərbaycan xalqının maraqlarını qoruyurdu və milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***




# Naxçıvanın çağdaş müqəddəs ziyarətgahı

"Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə, cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzinə çevrilmişdir" sözlərinin müəllifi olan ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda geniş muzeylər şəbəkəsinin yaradılmasına hər zaman xüsusi diqqət və qayğı göstərmişdir. Onun müdrikliyi, uzaqgörənliyi, ictimai-siyasi fəaliyyəti, bütövlükdə, hər bir Azərbaycan gənci üçün nümunədir və əsl dövlətçilik məktəbidir. Bu gün sadə peşə adamından tutmuş rəhbər işçiyədək hamı ümummilli lider Heydər Əliyevin irsini, onun idarəçilik prinsiplərini öyrənməli, onlardan birmənalı şəkildə bəhrələnməlidir. Bu məqsədə nail olmağın ən təsirli yollarından biri Heydər Əliyev Muzeyidir. Ulu öndərin siyasi irsinin gələcək nəsillərə çatdırılmasında bu muzeyin xidməti əvəzsizdir.

Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin adını daşıyan Heydər Əliyev Muzeyi 18 fevral 1999-cu ildə Naxçıvan şəhərində yaradılmış və 10 may 1999-cu ildə fəaliyyətə başlamışdır. 2005–2006-cı illərdə əsaslı olaraq yenidən qurulan muzeyin 20 dekabr 2006-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə təntənəli açılış mərasimi keçirilmişdir. Heydər Əliyev Muzeyi dünya tarixinin dahi şəxsiyyətlərindən biri, Azərbaycanın böyük siyasi və dövlət xadimi, dünya azərbaycanlılarının ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əlirza oğlu Əliyevin həyatı və ictimai-siyasi fəaliyyətinə dair materialların toplanmasını, komplektləşdirilməsini, mühafizəsini, öyrənilməsini, kütləvi nümayişi və təbliğini həyata keçirən muxtar respublika əhəmiyyətli mədəniyyət və elmi tədqiqat müəssisəsidir.

Muzey Naxçıvan şəhərinin mərkəzində Heydər Əliyev prospektində yerləşir. Muzeyin ümumi sahəsi 958 kvadratmetrdir. Muzey 577 kvadratmetrlik ekspozisiya zalından və kitabxanadan, 83 kvadratmetrlik muzey fondundan ibarətdir. Yüksək səviyyəli muzey xidməti göstərmək üçün muzeydə kitabxana yaradılmış, burada ümummilli liderimiz haqqında çəkilmiş filmləri nümayiş etdirmək üçün lazımi şərait yaradılmış, kompüter dəstləri quraşdırılmışdır. Həmçinin muzeyin internet saytı yaradılmışdır.

420 ədəd eksponatla fəaliyyətə başlayan Heydər Əliyev Muzeyi eksponatlarının zənginliyi və orijinallığı ilə başqa muzeylərdən fərqlənir. Hazırda muzey fondunda ümummilli liderimizin həyat və fəaliyyətini özündə əks etdirən 5 min 413 eksponat toplanmış və bunlardan 3 mindən çoxu ekspozisiyada və kitabxanada nümayiş etdirilir.

Bu eksponatlar ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirir.

Bu gün Azərbaycan Respublikasında ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan çoxsaylı muzey və mərkəz fəaliyyət göstərir. Bunlar içərisində Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyev Muzeyinin xüsusi yeri və əhəmiyyəti vardır. Muzeyi yeni yaranmış digər muzeylərdən fərqləndirən əsas cəhət odur ki, bu mədəniyyət müəssisəsi ulu öndərimizin doğulub boya-başa çatdığı, ilk əmək fəaliyyətinə başladığı, 1969-cu ildən Azərbaycanın rəhbəri kimi qurub-yaratdığı, 90-cı ildən isə qoruyub saxladığı və sonrakı illərdə Azərbaycan Respublikasının Prezidenti kimi özünün birbaşa himayəsi nəticəsində günü-gündən inkişaf edib çiçəklənən doğma Naxçıvan torpağında yaradılmışdır. Həm də Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyev Muzeyi ümummilli liderin sağlığında Azərbaycanda yaradılmış ilk muzeydir. Ulu öndər Heydər Əliyev 1999-cu ilin oktyabr ayında Naxçıvana səfəri zamanı özü bu muzeyi ziyarət etmişdir.

Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyini digərlərindən fərqləndirən əsas cəhətlərdən biri də ulu öndərin muzeyin yerləşdiyi bölgə ilə əlaqələrinə dair eksponatların burada kifayət qədər çox olmasıdır. Belə materiallar muzey eksponatlarının əksəriyyətini təşkil edir. Qədirbilən xalqımız öz dahi oğlunun əziz xatirəsini beləcə əbədiləşdirərək onun mənalı həyatı, zəngin və çoxşaxəli fəaliyyəti barədə bilikləri gənc nəsillərə təbliğ edir, öyrədir.

Heydər Əliyev Muzeyi ümummilli liderimizin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli bir missiyanı öz üzərinə götürmüş və bu gün də bu missiyanı uğurla həyata keçirir.

Ulu öndərimizin şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, xüsusilə, gənc nəsil üçün əsl örnək, həyat məktəbidir. Heydər Əliyev yeni, müstəqil Azərbaycanın qurucusudur. O, bu quruculuğa ötən əsrin 60-cı illərinin sonundan başlamışdır. Azərbaycan tarixinin otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, Azərbaycan xalqının ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz ulu öndərin adı ilə bağlıdır. Rəhbərliyinin birinci dövründə həyata keçirdiyi əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarətdir ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı.

Bütün bunlar ulu öndərin millət və xalq qarşısında tarixi xidmətlərinin cüzi bir hissəsi olmaqla, müstəqil dövlətçiliyin daha da möhkəmlənməsinə yönəldilmiş milli konsepsiyanın tərkib hissələri idi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlər ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxartmışdır. Heydər Əliyevin həyat və fəaliyyətini, ölkəmizin tarixi taleyində oynadığı misilsiz rolunu və əvəzsiz xidmətlərini özündə ehtiva edən Heydər Əliyev Muzeyi respublikamızda xüsusi yeri olan elmi-tədqiqat müəssisəsidir.

Daim milli qurtuluş və müstəqillik duyğuları ilə yaşamış Heydər Əliyevin siyasi fəaliyyətinin bütün dövrlərini özündə əks etdirən bu muzeydə nümayiş etdirilən eksponatlar ümummilli liderimizin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisinin sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir.

Muzeydə zəngin fond materialları, orijinal sənədlər və eksponatların köməyilə ulu öndərin mənalı həyatı, xalqımızın, millətimizin rifahına, xoş gələcəyinə yönəldilmiş fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri işıqlandırılmış, hər bir tarixi hadisə ilə bağlı Heydər Əliyevin öz sözləri, fikirləri, seçilmiş müdrik, nəsihətamiz kəlamları verilmişdir. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada uşaqlıq və gənclik dövrü, təhsil illəri, ilk əmək fəaliyyətinə başladığı və Dövlət Təhlükəsizlik Komitəsindəki xidməti, 1969–1982-ci illər Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana tarixi qayıdışı və muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyət dövrü öz əksini tapıb.

Həqiqət budur ki, 1969–2003-cü illər Azərbaycanın ictimai-siyasi, mədəni tarixi ümummilli lider Heydər Əliyev tərəfindən böyük uzaqgörənlik və müdrikliklə yaradılmışdır. 60-cı illərin sonundan ulu öndərin başladığı bu siyasi proseslər sonda Azərbaycanın dövlət müstəqilliyinin qazanılması ilə dövlətçilik tarixinə əbədi yazıldı.

Bu gün Heydər Əliyev siyasi irsindən öyrəndiklərimiz Onun xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərinin sadəcə bir hissəsidir. Hazırda Azərbaycanda və dünyada nüfuzlu elmi-tədqiqat və siyasət mərkəzlərində, ali təhsil müəssisələrində Heydər Əliyev siyasi irsi araşdırılır, öyrənilir və tədris edilir. Heydər Əliyev dühasını, onun ictimai-siyasi və həyat fəaliyyətini öyrənmək, tədqiq və təbliğ etmək təcrübəsi isə ilk dəfə Naxçıvanda sağlığında adını daşıyan muzeydə reallığa çevrildi.

Hər bir Azərbaycan gənci, ziyalısı, vətəndaşı bu siyasi irsi mütləq öyrənməli və dövlətçilik naminə bu irsdən bir təlim, nəzəriyyə kimi istifadə etməlidir. Heydər Əliyev Muzeyində qorunub saxlanılaraq nümayiş etdirilən minlərlə eksponat ümummilli liderimizin dövlətçilik və siyasi fəaliyyətinin öyrənilməsində, onun mənalı həyatı, zəngin və çoxsahəli fəaliyyəti barədə faktların gənc nəslə çatdırılmasında böyük rol oynayaraq tamaşaçıların xüsusi diqqət və marağına səbəb olur. Muzey Heydər Əliyev dövlətçilik təliminin öyrənilməsində və təbliğində çox mühüm bir missiyanı yetirir.

Heydər Əliyev siyasi irsi həm də mənəviyyat və mədəniyyət salnaməsidir. Bu isə ziyalılarımızın, gənclərimizin, məktəblilərimizin, hərbçilərimizin ulu öndərin irsinə marağının daha da artmasına səbəb olur, onlarda Heydər Əliyevin simasında doğma vətənə məhəbbət, tariximizi, mədəniyyətimizi dərindən, hərtərəfli öyrənməyə geniş maraq oyadır və insanlarda mənəvi-əxlaqi, bədii-estetik tərbiyənin, elmi dünyagörüşünün formalaşmasına müsbət təsir göstərir. Muzeydə hər bir eksponat ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Azərbaycanın müasir dövlətçilik tarixi və ümummilli liderimizin siyasi irsinin tədqiqatçıları burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər. Ulu öndərimizin heyranlıq doğuracaq dərəcədə coşqun siyasi fəaliyyəti gənclərin daim diqqət mərkəzindədir.

Heydər Əliyev bütün ömür yolunda daim ətrafında olan insanları öz qeyri-adi fitri istedadı, yaddaşı, bacarığı, qətiyyəti, tükənməz enerjisi və hadisələri qabaqlamaq bacarığı ilə heyrətləndirib. Bu səbəbdən onun həyatının hər bir dövrü əsl örnək, həyat məktəbidir. O, təhsildə qazandığı uğurları ilə bugünkü gəncliyə nümunə olub, diplomatlar üçün əvəzsiz siyasət məktəbi yaradıb. Onun 25 illik xüsusi xidmət yolu hər bir zabit üçün əsl kəşfiyyat, qəhrəmanlıq və vətənpərvərlik məktəbinə çevrilibdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır. Bu gün fəxr edirik ki, ümummilli liderimiz Heydər Əliyev bizim müasirimizdir. Bu faktın özü hər bir Azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev siyasi irsinin öyrənilməsi bundan sonra da uzun illər, dərin araşdırmalar, çoxillik elmi tədqiqatlar tələb edir.

Bu irsi dərindən öyrənmək və təbliğ etmək məqsədi ilə Naxçıvan şəhərində fəaliyyət göstərən ali və orta ixtisas təhsil müəssisələrinin müəllim və tələbələrin iştirakı ilə Heydər Əliyev Muzeyində vaxtaşırı lektoriyalar və açıq dərslər keçirilir. Burada ulu öndərin siyasi fəaliyyətinin müxtəlif dövrləri tarixi-siyasi və ideoloji baxımdan öyrənilir və işıqlandırılır. Bu zaman muzeydə qorunub saxlanılaraq nümayiş etdirilən eksponatlardan əyani vəsait kimi geniş istifadə edilir. Həmçinin ulu öndərin təhsil illərini özündə əks etdirən sənədlər gənc nəslin təlim-tərbiyəsində istifadə edilən əyani vəsait kimi əvəzsiz rol oynayır.

Ali və orta məktəblərin tələbə və şagirdlərinin iştirakı ilə muzeydə keçirilən müasir dövr tarix dərslərində Azərbaycanın dövlətçilik tarixinin son yarım əsrlik tarixi dövründə Heydər Əliyevin dövlət müstəqilliyimizin qazanılması yolundakı əvəzsiz xidmətləri geniş tədris olunur. Dərslərdə XX əsr Azərbaycan tarixinin elə məqamlarına toxunulur ki, burada ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətini yaratması, yaranmış dövlətin iqtisadi-siyasi və ideoloji əsasları öz əksini tapır. Çünki Heydər Əliyev siyasi irsi müstəqil Azərbaycanın dövlətçilik tarixidir.

Ötən müddət ərzində Heydər Əliyev Muzeyi ilə təhsil müəssisələri arasında interaktiv əlaqənin təşkili, ümumtəhsil məktəblərinin və muzeyin bu sistemə qoşulması məsafəli tədrisin, açıq dərslərin təşkilinə öz töhfəsini vermişdir. Bununla da Naxçıvan Muxtar Respublikasının bütün ümumtəhsil məktəbləri muzeydə keçirilən açıq dərsləri izləyə bilir.

Bu gün Azərbaycan xalqı qürur və iftixar hissi keçirir. Ümummilli liderimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur.

***Ramil ORUCƏLİYEV,***
***Heydər Əliyev Muzeyinin direktoru,***
***Əməkdar mədəniyyət işçisi***

# Ümummilli liderin 100 illiyi Buxarestdə qeyd edildi



**Azərbaycanın Rumıniyadakı səfirliyi Buxarestdə ulu öndər Heydər Əliyevin 100 illiyi və Azərbaycanın Müstəqillik Günü münasibətilə silsilə tədbirlər çərçivəsində rəsmi qəbul keçirib.**

Tədbirdə Rumıniya Parlamentinin Deputatlar Palatasının sədri İon Marçel Çolaku, Rumıniyanın keçmiş prezidenti Emil Konstantinesku, Parlamentin Deputatlar Palatasının sədr müavini Vasile-Daniel Suçu, Rumıniya–Azərbaycan parlamentlərarası əlaqələr üzrə İşçi Qrupun rəhbəri Simonis Alfred və qrupun üzvləri, senatorlar və deputatlar, ziyalılar, tanınmış iş adamları, bu ölkədə yaşayan və təhsil alan azərbaycanlılar iştirak ediblər.

Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfov çıxış edərək ümummilli lider Heydər Əliyevin bir dövlət xadimi və dahi şəxsiyyət kimi müasir Azərbaycanın qurulmasında əvəzsiz xidmətlərindən danışıb.

Tədbirdə fəxri qonaq qismində iştirak edən Rumıniya Parlamentinin Deputatlar Palatasının sədri İon Marçel Çolaku çıxış edərək, ulu öndərin 100 illiyi münasibətilə Rumıniya xalqı adından Azərbaycan xalqını təbrik edib. Rumıniyanın Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olduğunu, münasibətlərimizin inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatdığını qeyd edib.

Tədbirdə ümummilli liderin həyat və fəaliyyətini əks etdirən videoçarxlar nümayiş etdirilib, milli mahnılarımız səsləndirilib.

***"Xalq qəzeti"***

# "Əbədi sevgi" dastanı

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin və görkəmli elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş "Əbədi sevgi" adlı tədbir təşkil olunub.**

Mərasimdə "Prezident Heydər Əliyev" tankeri və "Zərifə Əliyeva" gəmi-bərəsinin göyərtələrində Xalq artisti Nəzakət Teymurovanın ifa etdiyi "Küçələrə su səpmişəm" xalq mahnısına çəkilmiş videoklip nümayiş edilib.

Tədbirdə ASCO-nun təşəbbüsü ilə hazırlanmış "Prezident Heydər Əliyev" tankerinin və Ro-Pax tipli "Zərifə Əliyeva" gəmi-bərəsinin poçt markaları da təqdim olunub. ASCO-nun sədri Rauf Vəliyev poçt markalarının möhürlənməsi prosedurunu həyata keçirib.

Tədbir çərçivəsində ASCO-nun sifarişi ilə yazılmış "Ulu Öndər Heydər Əliyev və Milli Gəmiçilik Siyasəti" kitabının təqdimatı da olub.

***"Xalq qəzeti"***




# Tbilisidə ulu öndərin xatirəsinə şahmat turniri

**Tbilisidə ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş şahmat turniri keçirilib.**

Azərbaycanın Gürcüstandakı səfirliyinin, Gürcüstan Xarici İşlər, Mədəniyyət, İdman və Gənclər nazirliklərinin, Şahmat Federasiyasının və "SOCAR Energy Georgia" şirkətinin birgə təşkilatçılığı ilə reallaşan turnirdə Azərbaycan, Gürcüstan, Qazaxıstan və digər ölkələrdən olan idmançılar iştirak ediblər.

Turnirin açılışında çıxış edən Azərbaycan səfiri Faiq Quliyev deyib ki, Gürcüstan və gürcü xalqı da tarixi şəxsiyyət, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin diqqətindən kənarda qalmayıb. Bu turnir də ulu öndərimizin xatirəsinə həsr olunub.



Gürcüstan Şahmat Federasiyasının prezidenti Akaki İaşvilinin sözlərinə görə, bu cür tədbirlər ölkələrimiz arasında əlaqələrin inkişafına və möhkəmlənməsinə xidmət edir. Eyni zamanda, fenomen şəxsiyyət Heydər Əliyevə olan sevgini özündə əks etdirir.

***"Xalq qəzeti"***




# Türk dünyası ulu öndəri ehtiramla anır



**Dünən İstanbulda Türk Ağsaqqalları İctimai Birliyi və Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Heydər Əliyevin türk dünyası iqtisadiyyatında və siyasi inkişafında lider rolu" mövzusunda konfrans keçirilib.**

Azərbaycan Milli Məclisinin deputatı Ramil Həsənin moderatorluğu ilə keçirilən konfransda qeyd edilib ki, hazırda Türkiyə ilə Azərbaycan arasında münasibətlər tarix boyu bu qədər yaxın olmayıb. Ulu öndərin əsasını qoyduğu mühüm missiyalar Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə çıxış edən Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, Türk Ağsaqqalları İctimai Birliyinin rəhbəri Südeyif İmamverdiyev, Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin rəhbəri Elşən Quliyev, "SOCAR Türkiyə" şirkətinin baş direktoru Elçin İbadov, Milli Məclisin deputatları İmamverdi İsmayılov, Mahir Abbaszadə, Malik Həsənov, Sadiq Qurbanov və başqaları çıxışlarında bildiriblər ki, hər bir xalqın taleyində müstəsna rol oynayan, xilaskarlıq missiyası həyata keçirən tarixi şəxsiyyətlər olur. Azərbaycan xalqının tarixində bu şəxsiyyət ümummilli lider Heydər Əliyevdir. Ulu öndər bütün həyatı boyu doğma xalqının inkişafı və tərəqqisi uğrunda çalışmış, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir. Bu gün Heydər Əliyevin banisi olduğu müasir müstəqil Azərbaycanı Prezident İlham Əliyev dünyada güclü və nüfuzlu dövlətə çevirib. Qazanılan bütün uğurların əsasında isə Heydər Əliyev siyasəti dayanır. Ümummilli lider daim Türkiyə ilə münasibətlərə xüsusi diqqət yetirib, "Bir millət, iki dövlət" tezisi ilə hər iki ölkənin əlaqələrini daha da möhkəmləndirib.

# Dünyanı heyran qoyan insan

## *Planetar miqyaslı dahi şəxsiyyət Heydər Əliyevin 100 illiyi xaricdə geniş qeyd olunur*

**Bu gün dünyanın məşhur dövlət xadimlərinin, nüfuzlu siyasətçilərinin beyin mərkəzlərinin Heydər Əliyevin adını tarixdə silinməz izlər buraxmış dahi şəxsiyyətlərlə bir sırada çəkməsi ümummilli liderin şəxsiyyətinə beynəlxalq miqyasda verilən qiymətdir. Dünya şöhrətli siyasətçi və dövlət xadiminə ən layiqli qiyməti isə müstəqilliyi yolunda canını fəda etdiyi Azərbaycan xalqı və dövləti verdi: Ümummilli Lider, Ulu Öndər! Milli mənsubiyətini qürur mənbəyi sayan bu titulların sahibinin 100 illiyinin dünyanın dörd tərəfində dərin hörmət və sevgi ilə qeyd edilməsi bu gün hər bir azərbaycanlını qürurlandırır.**

### ABŞ-da şahmat turniri



***ABŞ-ın Nyu-York şəhərində Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş şahmat turniri keçirilib. Yarış Birləşmiş Ştatlarda fəaliyyət göstərən beynəlxalq dərəcəli şahmat ustası Elvin Bağır-Pourun rəhbərlik etdiyi "Chess father" şirkətinin təşkilatçılığı və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə baş tutub.***

Açılışda çıxış edən Elvin Bağır-Pour ümummilli liderin xatirəsini yad edərək bildirib ki, hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Heydər Əliyev məhz belə tarixi şəxsiyyətlərdəndir. Yubiley yarışında müxtəlif şəhər və ştatlardan gəlmiş 5–60 yaş arasında 50-dən çox idmancı iştirak edib.

Turnirdə yerli beynəlxalq qrossmeyster Maksim Dlugi birinci, ABŞ-da yaşayan azərbaycanlı şahmatçı Əli Əlizadə ikinci, amerikalı şahmatçı Danielo Kuellar isə üçüncü yeri tutub.

### Həştərxanlılar ulu öndəri hörmətlə xatırlayırlar



***Rusiyanın Həştərxan vilayətində Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirin açılışında Azərbaycan rəhbərinin regionlararası əməkdaşlığın, xüsusən də Rusiyanın Həştərxan vilayəti ilə əlaqələrin inkişafında böyük rolu vurğulanıb.***

Çıxış edənlər bu istiqamətdə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirdiklərini, ona hörmətlə yanaşdıqlarını bildiriblər. Tədbirin davamı olaraq Azərbaycanın və Həştərxan vilayətinin incəsənət ustalarının iştirakı ilə musiqili proqram təqdim edilib. Azərbaycan və rus dillərində mahnılar səsləndirilib, Azərbaycan və Rusiyanın folklor qrupları milli rəqslərlə çıxış ediblər.

### “Heydər Əliyev–2023” təlimi uğurla davam edir



***Türkiyənin Qars şəhərində Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə iştirakı ilə “Heydər Əliyev–2023” təlimi keçirilir.***

Bu barədə Türkiyə Müdafiə Nazirliyinin “Twitter” hesabında paylaşım edilib. “Tək ürək, tək yumruq! Türkiyə Silahlı Qüvvələrimiz ilə Azərbaycan Silahlı Qüvvələri Qarsda icra etdikləri “Heydər Əliyev–2023” təlimi uğurla davam edir”, – paylaşımda bildirilib.

### Litvada yubiley konserti



***Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycanın Xalq artisti, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli və dirijor Fuad İbrahimovun iştirakı ilə Litva Filarmoniyasında konsert düzənlənib. Azərbaycanın Litvadakı səfirliyindən “report”a verilən məlumata görə, konsertdən əvvəl Filarmoniyanın foyesində Anna İbrahimbəyovanın fotolarından ibarət fotosərgi təşkil olunub.***

Konsert proqramında Üzeyir Hacıbəylinin, Qara Qarayevin və Fikrət Əmirovun bəstələri ilə yanaşı, cazın şahzadəsi, bəstəkar Vaqif Mustafazadənin də əsərlərinə yer verilib.

### Baykal – Amur magistralının baş icraçısı



***Rusiya Prezidentinin köməkçisi İqor Levitin Azərbaycanın ümummilli liderinin 100 illik yubileyi ilə bağlı keçirilən sərgidə ümummilli liderin Baykal – Amur magistralının (BAM) tikintisinə və müasir Rusiyanın nəqliyyat infrastrukturuna verdiyi töhfədən danışıb. O, Heydər Əliyevin BAM-ın baş icraçısı kimi layihənin irəliləməsində məqsədyönlü və əzmli olduğunu qeyd edib.***

“Heydər Əliyevin yüzilliyi ərəfəsində onun fəaliyyət istiqamətlərindən bir fraqment olaraq Baykal – Amur magistralının tikintisini göstərmək istərdik. Heydər Əliyev Siyasi Büroya və hökumətə bu yolun vacibliyini sübut edənlərdən biri olub. Onunla heç də hamı razı deyildi, amma inandıra bildi. Üstündən 50 il keçəndən sonra görürük ki, əgər BAM-ın tikintisində Heydər Əliyevin əzmkarlığı və qətiyyəti olmasaydı, bu gün indiki həcmdə yüklərlə Uzaq Şərqə gedə bilməzdik”, – deyə Rusiya Prezidentinin köməkçisi vurğulayıb.

### Ümummilli lider beynəlxalq konqresdə yad edilib




***Cənubi Koreyanın paytaxtı Seulda Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının (AİPS) 85-ci konqresi keçirilir. Ənənəyə uyğun olaraq əvvəlcə qitə bölmələrinin, o cümlədən Avropa İdman Mətbuatı İttifaqınn (AIPS Europe) növbəti ali forumu təşkil olunub.***

Ölkəmizi hər iki məclisdə təmsil edən Azərbaycan İdman Jurnalistləri Assosiasiysının birinci vitse-prezidenti, AIPS Europe İcraiyyə Komitəsinin üzvü Nərgiz Mahmudzadə moderatoru olduğu qitə bölməsinin sosial media hesablarının cari vəziyyəti haqqında hesabat verib. Qeyd edib ki, ölkəsinin ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Azərbaycan İdman Jurnalistləri Assosiasiyası uğurlu layihələrə start verib. AIPS Europe üçün rəsmi internet saytının hazırlanması da həmin layihələr sırasındadır. Artıq bu sahədə müəyyən müsbət addımlar atılmışdır və işlər sürətlə davam edir.

Təşəbbüs Avropa ölkələri milli assosiasiyalarının nümayəndələri tərəfindən alqışlarla qarşılanıb. AİPS Europe prezidenti Çarlz Kamenzuli bu istiqamətdə Nərgiz Mahmudzadənin rolunu və əməyini yüksək qiymətləndirib.

*Hazırladı:*
*İ.HƏSƏNQALA,*
*“Xalq qəzeti”*




# Ulu öndərə həsr olunmuş kitabın təqdimatı

**Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində Xalq yazıçısı Elmira Axundovanın Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı fəaliyyətindən bəhs edən "Dövlətin keşiyində" adlı kitabının təqdimat mərasimi keçirilmişdir. Tədbirdə DTX-nin əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları və onların ailə üzvləri iştirak etmişlər.**



Tədbirdə çıxış edənlər Elmira Axundovanın yaradıcılığından ətraflı söhbət açmış, uzun illər ərzində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin tədqiqatçısı kimi dahi rəhbər barədə çoxlu sayda kitab ərsəyə gətirdiyini, bu sahədə təqdirəlayiq işlər gördüyünü vurğulamışlar.

Sonra təhlükəsizlik orqanlarının fəaliyyətinin təbliğində göstərdiyi xidmətlərə görə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinin adından Elmira Axundovaya mükafat təqdim edilmişdir. Elmira Axundova göstərilən diqqətə görə təşəkkürünü bildirmiş, ulu öndərlə bağlı xoş xatirələrini bölüşərək, sözügedən nəşrin işıq üzü görməsinin dahi şəxsiyyətin dövlətçilik yolunda göstərdiyi misilsiz xidmətlərin təbliği işinə daha bir töhfə olacağına, bu kitabın Heydər Əliyev haqqında müəllifi olduğu digər kitablar kimi geniş oxucu auditoriyası qazanacağına əminliyini ifadə etmişdir.

Sonda kitab müəllif tərəfindən imzalanaraq tədbir iştirakçılarına təqdim olunmuşdur.

***"Xalq qəzeti"***

# "Xarıbülbül" çal-çağırının sədası yenidən dünyaya yayılır

## *Bugünlərdə Türk dünyasının nəbzi qardaş xalqların builki mədəniyyət paytaxtı Şuşada döyünür*

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirilir. Artıq üçüncü ildir ki, Türk dünyasının nəbzi özünün builki mədəniyyət paytaxtında – Şuşada döyünür.**



Möhtəşəm Zəfərdən sonra Turan ellərinin qürur və fəxarət qalasına çevrilmiş doğma Şuşada milli musiqimiz yenidən bütün dünyaya pərvazlanacaq, "nə mutlu türküm" deyən hər kəsin qəlbini riqqətə gətirəcək. Mayın 9-dan 12-dək davam edəcək "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının təşəbbüskarları və təşkilatçıları bu nəcib və möhtəşəm missiyanın icraçıları yenə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyidir.

Dünən Şuşa şəhərində start götürən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumu (Qaqauz Yeri), Özbəkistan, eləcə də Özbəkistanın Qaraqalpaqıstan Muxtar Respublikası, Rusiya Federasiyasının Altay, Xakasiya, Saxa (Yakutiya), Tatarıstan, Tıva respublikaları, Şimali Kipr Türk Cümhuriyyəti, Türkmənistan təmsil olunur.

Təşkilat komitəsindən aldığımız məlumata görə, 3 gün davam edəcək beynəlxalq festivalın proqramı müxtəlif musiqi janrlarında konsert proqramları, rəngarəng sərgilər, eləcə də müxtəlif təqdimatlarla zəngindir. Festivalın proqramına uyğun olaraq dünən səhər saatlarından tamaşaların, iştirakçı ölkələrin sənətkarlıq nümunələrinin və milli mətbəxinin təqdimatı olub. "Qarabağ" otelinin qarşısında təşkil olunan tədbirdə 6 türk dövlətinin mətbəx və sənətkarlıq nümunələri sərgilənir.

**Dövlət rəsmilərinin, respublikanın tanınmış mədəniyyət, incəsənət və elm xadimlərinin ziyarət etdikləri təqdimat hər kəsdə xoş təəssürat yaradıb. Əməkdar artist Emil Əfrasiyab Şuşada ilk dəfə olmaqdan məmnunluq duyduğunu ifadə edib:**

–İlk dəfədir ki, Azərbaycanın dilbər guşəsi, mədəniyyət paytaxtımız Şuşadayam. Unudulmaz hislər keçirirəm, sanki, yuxudayam. Bu günləri bizlərə, Azərbaycan xalqına yaşatdığı üçün Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Bu, çox önəmli, unudulmaz günlərdir. "Heydər Əliyev İli"ndə təşkil olunan budəfəki festival olduqca əlamətdardır. Belə möhtəşəm konsertdə iştirak etmək biz musiqiçilər üçün böyük şərəfdir.

**Şuşaya dördüncü dəfədir gəldiyini söyləyən Xalq artisti Ənvər Sadıqov hamı kimi gözəl əhval-ruhiyyədə olduğunu söyləyib:**

–Hər dəfə elə bilirəm ki, bu müqəddəs torpağa ilk dəfə ayaq basıram. Bu Qələbəni bizlərə yaşadan Müzəffər Ali Baş Komandana və rəşadətli Ordumuza minnətdarıq. Qarabağın azadlığı uğrunda şəhid olanlara Allahdan rəhmət diləyirik və xalqımız heç vaxt onları unutmayacaq. İnanıram ki, Zəfərimiz əbədi olacaq. Cıdır düzünə ilk dəfə qalxanda keçirdiyim hisləri sözlə ifadə edə bilmirəm. Şuşada olmağın özü elə bir duyğudur ki, gərək onu yaşayasan, hiss edəsən. Dünyanın bir çox ölkələrində Azərbaycan musiqisini təbliğ etmişik, tanıtmışıq, lakin Şuşada konsert vermək, çıxış etmək başqa bir aləmdir. Çox qürurluyam ki, bu gün Şuşadayam, belə möhtəşəm bir konsertdə iştirak edirəm.

**Türkiyəli aşpaz Ahmet Yetimova da Azərbaycanda olmaqdan qürur hissi keçirdiyini deyib:**

–Şuşaya gəldikdən sonra çox duyğulandım. Azərbaycan bizim ana Vətənimizdir. Bu torpaqların işğaldan azad olunması bizlərə də qürur hissi yaşatdı. Azərbaycana ilk dəfədir gəlirəm. Şuşanı bizim Qara dəniz bölgəsi ilə müqayisə edirəm. İnanırıq ki, Qarabağın çox böyük gələcəyi var. Tədbir başlayandan müşahidə edirəm ki, gələn hər kəs gözəl əhval-ruhiyyədədir. Türk xalqlarının təamlarının və sənətkarlıq məhsullarının festival çərçivəsində nümayiş olunması bir ayrı gözəllikdir.

Sonra Xan qızı Natəvanın evinin həyətində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı çərçivəsində Şuşa Dövlət Musiqili Dram Teatrının hazırladığı "Dəli Domrul" tamaşasının premyerası olub. Bu tamaşa Altay Məmmədovun "Kitabi-Dədə Qorqud" dastanının "Duxa Qoca oğlu Dəli Domrulun boyu" əsasında qələmə aldığı eyniadlı pyes əsasında hazırlanıb. Meydan üslubunda səhnələşdirilmiş tamaşada dünyanın faniliyi, məhəbbətin ucalığı ön plana çəkilir. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimov, rəssamı Valeh Məmmədov, rejissor assistenti Zəhra Salayeva, musiqi tərtibatçısı Ağasəlim Feyzullayevdir.

Qeyd edək ki, festival günlərində müxtəlif məkanlarda "Bayraq", "Qəhrəmanlıq", "Qarabağ məclisi", "Poeziya", "Dədə Qorqud", "Dərvişlər", "Molla Nəsrəddin" mövzularında guşələr də yaradılıb. Bu guşələrdə müxtəlif bədii təqdimatlar, tamaşalar göstəriləcək. Bunlaradan əlavə, Cıdır düzü, Üzeyir Hacıbəylinin heykəlinin qarşısı, Bülbülün ev-muzeyi və Şuşanın digər məkanlarında müxtəlif konsert proqramları, sərgilər və film nümayişləri olacaq.

Oxucularımızın nəzərinə çatdıraq ki, keçən il martın 31-də Türkiyənin Bursa şəhərində TÜRKSOY-a üzv ölkələrin mədəniyyət nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün Türk dünyasının mədəniyyət paytaxtı elan edilib. Həmin il dekabrın 6-da Prezident İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.

Builki "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında TÜRKSOY-un üzvü olan ölkələrin təmsilçiləri, regionun türkdilli xalqlarının milli yaradıcılıq kollektivləri iştirak edirlər. "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının ardınca, mayın 12-də "Şuşa Türk dünyasının mədəniyyət paytaxtı – 2023" tədbirinin rəsmi açılış mərasimi olacaq.

Beləliklə, xalqımız üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən, Türk dünyasının birlik və həmrəyliyinin rəmzinə çevrilən Şuşa türksoylu xalqlar arasında qarşılıqlı əməkdaşlığın, səmimi dostluğun perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

***"Xalq qəzeti"***

# İnsan sərrafı, söz himayədarı



**Ulu öndər Heydər Əliyevin qələm əhliylə çox sıx əlaqəsi olduğu, onlara xüsusi münasibət bəslədiyi hamıya məlumdur. Onu tanıyan, onunla həmsöhbət olan hər bir yazıçının mərhum prezidentlə bağlı xoş xatirələri var. Mənim də belə xatirələrim az deyil, belə düşünürəm ki, onlardan bəzilərini oxucularla bölüşsəm, bu böyük şəxsiyyətin portretinə bəzi ştrixləri əlavə etmiş olaram.**

Dahilər barədə söhbətlər həmişə maraqlı olur, bu cür qeyri-adi fenomenlər, bir qayda olaraq, diqqəti özünə çəkir. Amma etiraf edək ki, bizim üçün fenomenal şəxsiyyətlər nə qədər maraqlı olsa da, dünya şöhrətli siyasi xadim, ümummilli liderimiz Heydər Əliyev fenomeni daha maraqlıdır.

Yəqin, oxucular bilirlər ki, Böyük İpək Yolunun bərpası, Əsrin müqaviləsi, Qafqazda sülh və sair nəhəng layihələr məhz ulu öndərin adıyla bağlıdır. Belə bir şəxsiyyətlə tanışlığımdan necə qürurlanmayım!

Mən onunla da fəxr edirəm ki, Şota Rustavelinin bilavasitə orijinaldan tərcümə etdiyim "Pələng dərili cəngavər" poeması möhtərəm Heydər Əliyevin və Eduard Şevardnadzenin müqəddimələri ilə açılır.

Həmin illərdən yadda qalan hadisələr çoxdur. İstərdim ki, yeri gəlmişkən, bir neçəsini də xatırlayım:

2000-ci ildə ulu öndərimizin təşəbbüsü ilə Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Bütün dünya ölkələrindən diaspor nümayəndələri Bakıya axışdılar. Xoşbəxtlikdən mən də həmin qurultayın nümayəndə heyətinin tərkibində idim, sonradan İdarə Heyətinə də seçildim. Qurultay yekunlaşandan sonra Azərbaycan prezidentinin adından qonaqlara ziyafət verildi. Həmin tədbirdə ulu öndərimiz tarixi söz söylədi. O, üzünü salondakılara tutub dedi: "Siz dünyanın müxtəlif ölkələrindən gəlmisiniz. Həmin ölkələr çox inkişaf etmiş də ola bilər, son dərəcə firavan da. Ancaq həmin ölkələrdə ayağınız altındakı torpaq Azərbaycan torpağı kimi etibarlı ola bilməz, çünki bu, sizin hər biriniz üçün Vətən torpağıdır". Əlbəttə, bu belədir.

Onun mən müşahidə etdiyim bir xüsusiyyətini vurğulayım: Heydər Əliyevin ən əziz dostu həqiqət idi. Bir dəfə, görüşlərin birində Şevardnadze üzündə xoş təbəssüm Heydər Əliyevə dedi ki, sizdən bizə neft axırsa, bizdən də sizə su-çay axır. O, Kür çayını nəzərdə tuturdu. Aradakı mehriban münasibətə rəğmən, ulu öndər onun cavabında söylədi: "İcazə ver, sənin bu fikrinə cüzi düzəliş edim. Neft bir türk dövlətindən (yəni Azərbaycandan) baş alıb sizin ölkənizdən keçməklə bir başqa türk dövlətinə (Türkiyəyə) axır; Kür çayı da həmçinin, başlanğıcını o başdakı türk məmləkətindən alır, sizin ərazinizdən keçərək başqa bir türk ölkəsində dənizə qovuşur. Belə ki, siz hər iki halda tranzit ölkəsiniz. Əlbəttə, etibarlı tranzitin də böyük əhəmiyyəti var. Buna görə də sağ olun.

Bir dəfə, hər iki ölkənin nümayəndə heyətinin üzvləri Bakıda Opera və Balet Teatrında prezidentlərin – Heydər Əliyev və Şevardnadzenin yolunu gözləyirdik. Onlar prezident iqamətgahında görüşdükdən sonra Opera və Balet Teatrında baş tutacaq tədbirə qatılmaq üçün bura gəlməli idilər. Birdən teatrın qapısı açıldı və Azərbaycanın o zamankı mədəniyyət naziri Polad Bülbüloğlu daxil oldu. Polad müəllim Aparatdakı görüşdən gəlirdi. O, məni görcək dedi: "Möhtərəm prezident Eduard Sevardnadzedən səni soruşdu". Əminliklə deyə bilərəm ki, dünyamiqyaslı siyasətçi bir yazıçını görmək arzusu ilə soruşmayıb. Ulu öndər çox incə siyasətçi idi, sadəcə, məni soruşmaqla həmkarına işarə edib ki, Gürcüstanda yaşayan hər bir soydaşım mənim üçün əzizdir.

Buna bənzər bir əhvalat Tiflisdə də baş vermişdi: Cənab Heydər Əliyev qeyri-rəsmi səfərlə Eduard Şevardnadzenin yubileyində iştirak etmək üçün Tiflisə təşrif gətirmişdi. Mən də orda idim. Hər ehtimala qarşı özümü toparlamışdım ki, tərcümə lazım olsa, layiqincə edim. Ulu öndər bunu duymuşdu. Vaxt az idi, Azərbaycan nümayəndə heyəti həmin gün vətənə qayıtmalı idi. Odur ki, ulu öndər üzünü tədbir iştirakçılarına tutub dedi: "İmir Məmmədliyə olan hörmətimə rəğmən, belə qərara gəldim ki, vaxta qənaət etmək məqsədi ilə rus dilində danışım..." Onun "İmir Məmmədliyə olan hörmətimə rəğmən" kəlməsi də nəvaziş xətrinə deyilməmişdi. Ulu öndər bu kəlməsi ilə qonşu dövlətin məmurlarına deyirdi ki, sizinlə çiyin-çiyinə işləyən soydaşım mənim diqqət mərkəzimdədir... Belə əzəmətli şəxsiyyət tərəfindən deyilən bu sözlər isə arif insanlar üçün hər şey demək idi.

Bu xatirələri söyləyərkən bir şeyə də aydınlıq gətirim: çox adam elə bilir ki, mən Eduard Şevardnadzenin tərcüməçisi olmuşam. Tərcüməçisi deyil, müşaviri idim. Əlbəttə, lazım gəldikcə onun şifahi çıxışlarını canlı tərcümə də etmişəm. Tərcümədən söz düşmüşkən, doxsanıncı illərin sonu olardı, ulu öndərimiz Gürcüstanda rəsmi səfərdə idi. Gürcüstan parlamentində çıxış etməli idi. Niyəsə onun şəxsi tərcüməçisi gecikmişdi. Gəlib ona məlumat verdilər ki, tərcüməçi gəlib çıxdı. Prezident təəccüblə soruşdu: "İmir Məmmədli burada deyil ki?" Dedilər, buradadır, ancaq sizin öz tərcüməçiniz gəldi, İmir Məmmədliyə ehtiyac qalmadı. Onda Heydər Əliyev dönüb dedi: "Mən istəyirəm, Gürcüstan parlamentarilərinin qarşısındakı çıxışımı İmir Məmmədli tərcümə etsin, çünki fikir vermişəm, o, adamın hiss və emosiyalarını da tərcümə edir." Sözsüz ki, ulu öndərin bu sözləri məni çox ruhlandırdı, bildim ki, bu sözləri də məqsədyönlü dedi və onun həmin çıxışını canlı olaraq ruh yüksəkliyi ilə tərcümə etdim.

Bu yerdə onu da deyim ki, dünyada bəlkə də yeganə yazıçıyam ki, üç prezidentlə birlikdə nahar etmişəm. Bu, belə baş verib. Bakıda mühüm tədbir keçirilirdi, buna görə də Gürcüstan prezidentinin rəsmi səfəri Türkiyənin o zamankı prezidenti Əhməd Necdət Sezərlə üst-üstə düşmüşdü. Nahar zamanı belə qərara gəldilər ki, hər üç prezidentin arasında dil ünsiyyəti yarada biləcək bir nəfər də onlarla birlikdə olsun. Məsələ burasındadır ki, Sezərlə Şevardnadzenin arasında tərcüməçiyə ehtiyac var idi. Belə ki, bu missiya mənim öhdəmə düşdü və prezidentlərlə birlikdə nahar etməli oldum. Həmin məclisdə mənim üçün son dərəcə xoş oldu ki, ulu öndərimiz məni Əhməd Necdət Sezərə təqdim etdi və timsalımda Türkiyə prezidentinə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar barədə dolğun məlumat verdi.

Bir dəfə görüşlərin birində ulu öndər belə bir əhvalat danışdı: O, Moskvada istefaya gedəndən sonra axşamlar çıxar, qaldıqları evin yaxınlığındakı bağda gəzərmiş. Belə axşamların birində görür ki, qarayanız bir oğlan bağda onu addımbaaddım izləyir. O düşünür, bu təxribat planı ola bilər, yəqin rəqiblərim belə qərara gəliblər ki, məni öz soydaşımın əli ilə aradan götürsünlər. Məlum məsələdir ki, ulu öndər həddindən artıq cəsur bir şəxsiyyət idi. O, ölümün gözünə baxırmış kimi, həmin oğlana üz tutub yanına çağırıb. Oğlan onun yanına gələndə soruşub: "A bala, kimsən, bu parkda nə gəzirsən?" Oğlan onun cavabında deyib: "Möhtərəm Heydər Əlirza oğlu, mən gürcüstanlıyam, gəldim ki, deyim, bu çətin günlərinizdə bütün Borçalı camaatı sizinlədir". Ulu öndər həmin əhvalatı xatırlayarkən əlavə etdi ki, heyf, mən onun adını, soyadını soruşmadım...

Mən isə xatirələrdən ibarət bu yazıya son olaraq deyərdim ki, həmin oğlanın adını, soyadını soruşmağa ehtiyac yoxdur, o, istənilən Borçalı azərbaycanlısı ola bilərdi.

***İmir MƏMMƏDLİ***




# Heydər Əliyev: Qızıl kəlamlar

- Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!
- Vətənə, millətimə, xalqıma məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur.
- Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır.
- Demişəm və indi də deyirəm: həyatımın bundan sonrakı hissəsini xalqa bağışlamışam.
- Mən həyatımın mənasını xalqıma xidmətdə görürəm. Azərbaycan mənim həyatımın mənasıdır.
- Mən müstəqil Azərbaycanın dövlətçiliyini, suverenliyini, bütövlüyünü qorumaq üçün həyatımı qurban verməyə hazıram.
- Bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının öz müstəqilliyini qorumaq əzmindən asılıdır.
- Xalqımız üçün qürur hissini yaradan, iftixar hissini verən odur ki, o, artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var.
- Mənim ən böyük qüvvəm, gücüm, ən böyük silahım xalqın mənə göstərdiyi etimaddır, etibardır və xalqın dayağıdır.
- Mən inanıram, əminəm ki, biz müstəqilliyinin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir.

## QHT nümayəndələri Türkiyədə



**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə vətəndaş cəmiyyəti nümayəndələrinin qardaş Türkiyəyə işgüzar səfəri başlayıb.**

Agentliyin İcraçı direktoru Aygün Əliyeva, Prezident Administrasiyasının məsul əməkdaşı Əli Pənahov, QHT rəhbərləri, media nümayəndələrindən ibarət nümayəndə heyəti Ankarada xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan parkı ziyarət edib, ulu öndərin abidəsi önünə əklil qoyaraq xatirəsini ehtiramla yad edib.

Qeyd edək ki, nümayəndə heyəti qardaş Türkiyəyə səfər çərçivəsində ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar anım tədbirində iştirak edəcək və müxtəlif görüşlər keçirəcək. Nümayəndə heyəti, həmçinin zəlzələdən zərər çəkən Kahramanmaraş bölgəsini ziyarət edəcək.

# Ana, daha məhbus deyiləm, yanınıza gəlirəm...

## *Azərbaycanda əfv edib bağışlamaq ənənəsinin təməlini ulu öndər qoymuşdu*

**Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında Prezident sərəncamı elə bir tarixi sənəd oldu ki, onun haqqında söz demək, təqdir etmək istəməyən yoxdur. Hamı bu faktı yüksək qiymətləndirir və cənab Prezidentin mərhəmət hisslərini alqışlayır.**







Mən isə bu məqamda on il əvvəl, may ayının bu günlərində Milli Məclisdə müzakirə edilən bir məsələyə deputat Mehriban xanım Əliyevanın münasibətini yada salmaq istəyirəm. Həmin günlər parlamentdə ulu öndərin 90 illik yubileyi ərəfəsində amnistiya aktı haqqında qanun layihəsi müzakirə edilirdi. Deputat Mehriban Əliyeva müzakirələrin birində demişdi: " İnanıram ki, bağışlamaqla, xoş niyyətlə, mərhəmətlə bu dünyada bir çox şeyləri yaxşılığa doğru dəyişdirmək mümkündür". O günlər bu çıxışa münasibət bildirən türk qəzetçisi öz yazısının sərlövhəsindəcə qeyd etmişdi ki, "Biz də inanırıq".

Həmin müzakirələr haqqında verilən rəsmi məlumatda deyilirdi ki, layihəyə əsasən, Amnistiya aktı təqribən 9 min şəxsə şamil oluna bilər. Bu akt əsasında 2 mindən artıq məhkumun azadlığa buraxılması gözlənilir. Yəni ulu öndərin təkcə yüz illiyi deyil, doxsan illiyi də minlərlə soydaşımızın ailəsinə sevinc gətirmişdi. Ömrünün bütün illəri və ayları Azərbaycan xalqına xidmətdə keçmiş dahi siyasətçinin ad günləri, yubileyləri də daim unudulmaz faktlarla yadda qalır.

Ekspertlər yazırlar ki, Prezident İlham Əliyevin imzaladığı sonuncu əfv sərəncamı müstəqillik dövrümüzün ən əhatəli analoji sənədidir. Sərəncamın preambulasında qeyd edilir ki, bu addım Heydər Əliyevin misilsiz xidmətlərini, insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm verdiyini xatırlayaraq, humanizm, mərhəmət və insanpərvərlik ənənələrini davam etdirərək, cəzadan azad olunacaq şəxslərin müstəqil dövlətimizin rifahına və cəmiyyətin inkişafına öz töhfəsini verəcəklərinə inanaraq, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın), insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq atılmışdır.

Yəni söhbət təkcə kiminsə cəzadan azad edilməsindən getmir. Söhbət törətdiyi əmələ görə cəzalandırılmış şəxsin islah olunmasına, cəmiyyət üçün təhlükə törətməyəcəynə əminlikdən gedir. Bəzən əfv faktlarını bilavasitə azadlıqdan məhrum edilmiş şəxslərin hüquqlarının təmin edilməsi kimi qiymətləndirirlər. Ancaq mütəxəssislərin fikrincə, bu qəbildən olan sənədlər imzalananda hüquqları daha çox qorunan azadlıqdan məhrum edilmişlərin ailə üzvləri, əzizləridir.

Yadımdadır, doxsanıncı illərin əvvəllərində "Dalğa" qəzeti üçün Bakıdakı qadın həbsxanasından bir reportaj hazırlamışdım. Məhbus qadın demişdi ki, on üç yaşlı oğlumu qonşuların gözü qarşısında ayaq altına salıb təpikləyən 50-55 yaşlı kişini məhz həmin camaatın gözü qarşısında yaba ilə ölümcül vəziyyətə saldım. Cəzalandırıldım. Amma indi düşünürəm ki, səbrli olmaq lazım idi. Həmin adam yaba ilə yox, qanunun gücü ilə cəzalandırılmalı idi. Çünki mən üç ildən çoxdur ki, övladlarımdan aralı yaşayıram. Üç ildir ki, azadlığın dadını bilmirəm. Üç ildir ki, əzizlərim hər saat, hər an mənim qayıdacağımı gözləyirlər. Mən əsəblərimə sahib ola bilmədiyimə görə əzizlərimin hüquqlarını pozmuşam.

O gün hiss etmişdim ki, səhvin etiraf edilməsi şəxsin islahının göstəricisidir. Dövlət başçımız məhz islah olunmuşları əfv edir.

... Ulu öndərin ölkəmizə rəhbərlik etdiyi doxsanıncı illərdə imzalanan əfv sərəncamlarından birinin icrası zamanı "Xalq qəzeti" üçün hazırladığım yazının qəhrəmanından – əfv olunmuş şəxsdən soruşmuşdum ki, əzizlərinə deyə biləcəyin ilk söz necə olardı? Oğlan dedi ki, səsim çatsaydı burdan Kürdəmirə hayqırardım: "Ana, daha məhbus deyiləm, yanınıza gəlirəm!"

Cənab Prezidentin mayın 8-də imzaladığı sərəncamla səkkiz yüzdən artıq məhkum bağışlanmışdır. İndi artıq doxsanıncı illər deyil. İndi mobil telefonla yüzlərlə anaya, bacıya, övlada zəng edildi ki, mən artıq məhbus deyiləm, yanınıza gəlirəm.

... Hələ bu ilin yanvarında ekspertlər yazırdılar ki, 2023-cü il mühüm humanist addımlarla yadda qalacaq. Təbii ki, bu proqnozun əsaslandırılması da var idi. Ən böyük əsas ilin "Heydər Əliyev ili" elan edilməsi idi.

Ekspert yazırdı ki, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan humanizm siyasəti ölkəmizin hüquqi dövlət quruculuğu prosesində mühüm yerə malikdir. Təsadüfi deyil ki, məhkumların cəzasının yüngülləşdirilməsi, yaxud onların cəzadan tam azad edilməsi tədbirlərini həyata keçirmək məqsədilə 1995-ci ildə ölkəmizdə Bağışlanma Məsələləri üzrə Komissiya yaradılmış, 2001-ci ildə isə onun adı Əfv Məsələləri Komissiyası kimi qəbul edilmişdir. Bütövlükdə, 1995-2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv fərmanı imzalanıb ki, ümummilli lider tərəfindən imzalanan bu fərmanlar ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilmişdi.

Bununla yanaşı, ölkəmizdə 1998-ci ildə ölüm cəzası aradan qaldırılıb və Azərbaycanın adı Şərqdə bu cəzanı ləğv edən ilk ölkələrdən biri kimi tarixə düşüb. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasətini və ənənələrini layiqincə davam etdirən Prezident İlham Əliyev əfv institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin edib. Prezident İlham Əliyev dövlət başçısı kimi 36 əfv sərəncamı imzalayıb. Bütövlükdə, indiyə qədər əfv barədə imzalanmış 68 fərman və sərəncam 8987 nəfərə şamil edilib.

Bundan başqa, hər zaman nəcib, humanist təşəbbüsləri ilə ali insani dəyərlərə yüksək qiymət verən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olarkən məhz onun təşəbbüsü ilə 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya aktları qəbul edilmişdi. Həmin təşəbbüslər xeyirxahlıq və mərhəmət kimi mənəvi idealların təcəssümünə çevrilib.

Xüsusilə xatırladılmalı faktlardan biri də odur ki, Azərbaycan Prezidentinin təşəbbüsü əsasında Milli Məclis tərəfindən qəbul edilmiş "8 Noyabr – Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" 2021-ci il 5 noyabr tarixli qərar 17 min 267 şəxsə şamil olunmuşdu. Bu qərar tətbiq olunan şəxslərin sayına görə indiyədək qəbul edilmiş ən geniş amnistiyadır. Amnistiyanın tətbiqi nəticəsində şəxslər ayrı-ayrı cəzalardan, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediliblər, bəzilərinin isə cəza müddəti azaldılıb. Bütün bunlar Azərbaycan dövlətinin humanizm siyasətinin əyani ifadəsidir.

Cənab Prezidentin mayın 8-də imzaladığı sənəd isə indiyədək ən çox məhbusa şamil edilən əfv sərəncamıdır. Ancaq hələlik. Çünki qarşıda hələ çox böyük əlamətdar günlərimiz var və həmin günlər münasibətilə də amnistiya və əfvlərin olacağı istisna edilmir. Şəxsən mən Xankəndidə Azərbaycan Bayrağının ucaldılmasının ilk ildönümü münasibətilə imzalanan möhtəşəm əfv sərəncamını oxumağı çox arzulayıram. Həm də buna inanıram.

*İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"*

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 96 (30212) 10 may 2023-cü il, çərşənbə

veb-sayt: www.xalqqazeti.az


## Bakı Limanının əməkdaşları “Heydər zirvəsi”nə yürüş ediblər

**Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə Bakı Limanının bir qrup əməkdaşı Qızıl qaya massivində, dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən “Heydər zirvəsi”nə yürüş edib.**

Azərbaycanın ən yüksək yaşayış məntəqəsi olan Xınalıq kəndindən piyada start götürən yürüş boyunca iştirakçılar Qızıl qaya massivinin ətəyində yerləşən düşərgədə gecələyib, relyef və iqlim şəraitinin sərt, mürəkkəb olmasına baxmayaraq zirvəyə uğurla qalxa biliblər.

*İdman xəbərləri*

# Dünyanın ən sərrast atıcıları Bakıda mübarizəyə başlayıblar



**Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ən nüfuzlu turnirlərdən biri – güllə atıcılığı üzrə dünya kuboku yarışı planetin hər yerindən ən dəqiq nişançıları Bakıda bir araya gətirib. Bakı Atıcılıq Mərkəzində dünyanın 66 ölkəsinin 600-dən çox idmançısı öz aralarında ən sərrastları müəyyənləşdirmək üçün mübarizəyə başlayıblar.**

Yeri gəlmişkən, dəqiq nişançıların səbirsizliklə gözlədiyi dünya çempionatı da avqustda Bakıda olacaq. Paris Olimpiadasında iştirak üçün 48 lisenziyanın paytaxtımızda öz sahibini tapması böyük önəm daşıyır. Şübhəsiz, bütün bunlar təsadüfi deyil. Azərbaycanın bu idman növünün inkişafına verdiyi böyük töhfələr xüsusi əhəmiyyətə malikdir. Ümumilikdə, ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanın beynəlxalq idman arenasında tanınmasında misilsiz xidmətləri bugünkü nailiyyətlərin əsasında durur.

Elə dünya kubokunun açılış mərasimində çıxış edənlər də vurğulayıblar ki, ümummilli lider Heydər Əliyev digər sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşmış, onun gələcək inkişaf perspektivlərini ciddi nəzərə almışdı.

Gənclər və idman naziri Fərid Qayıbov çıxışında bu növdə ilk Olimpiya qızılının məhz ulu öndərin prezidentliyi dövründə qazanıldığını bildirib. Nazir qeyd edib ki, ölkəmizdə üçüncü dəfə keçirilən dünya kuboku yarışı Azərbaycanda atıcılıq idman növünün inkişafında böyük rolu var.

Azərbaycan Atıcılıq Federasiyasının, Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Olimpiya çempionu Zemfira Meftahəddinova dünya kuboku yarışına komandamızın böyük heyətlə qatıldığını bildirib.

Açılış mərasimində çıxış edən Beynəlxalq Atıcılıq İdman Federasiyasının İdarə Heyətinin üzvü Hazem Hosni isə “Paris 2024” Yay Olimpiya Oyunlarında tətbiq olunacaq yeni qaydaların qüvvəyə mindiyini bildirib.

Əyləncə proqramı ilə davam edən tədbir başa çatdıqdan sonra yarışa start verilib.

Qeyd edək ki, yarış iştirakçıları altı gün ərzində güllə atıcılığının 10 növündə güclərini sınayacaqlar.

***L.QURBANOVA, “Xalq qəzeti”***

## “O, Günəş ömrüdür, sönməyəcəkdir!”

**Sabunçu Rayon Mərkəzi Kitabxanasında ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdə Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, şair İbrahim Yusifoğlunun “O, Günəş ömrüdür, sönməyəcəkdir” adlı poeması təqdim olunub.**



Kitabda ötən əsrin 90-cı illərində xalqın təkidi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin doğma Vətənin xilası naminə göstərdiyi misilsiz fədakarlıqlarından bəhs olunur. Ulu öndərin Azərbaycan xalqının milli-mənəvi, əxlaqi dəyərlərinin qorunmasında, milli dövlətçiliyimizin gücləndirilməsində göstərdiyi danılmaz xidmətlərdən də söz açılır. Poemada həmçinin, 1980-ci illərdə Böyük Britaniyanın məşhur “Tayms” nəşrinin Heydər Əliyevi yüksək bacarıq və keyfiyyətlərinə görə “SSRİ-nin parlayan ulduzu” adlandıraraq onun Sovet İttifaqının növbəti rəhbəri olmağa əsas namizəd kimi qiymətləndirilməsi xüsusi vurğulanır.

Kitabın “Heydər Əliyev – böyük millət və dövlət xadimi” adlı hissəsinin ön söz müəllifi Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini Adil Əliyev, “Heydər Əliyevin bədii obrazı haqqında” olan hissənin ön söz müəllifi isə filologiya elmləri doktoru, AMEA-nın professoru, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü Salidə Şərifovadır.

Tədbirin sonunda şair İbrahim Yusifoğlu ulu öndər haqqında poemanı böyük məhəbbətlə qələmə aldığını söyləyib, həmçinin tədbir təşkilatçılarına və qonaqlara minnətdarlığını bildirib.

***Fidan SALMANOVA, “Xalq qəzeti”***

## Badmintonçumuzun gümüş medalı

**Azərbaycan badmintonçusu Edi Reski Dviçayo “International” seriyalı “YONEX Luxembourg Open 2023” turnirində uğurla çıxış edib.**



Təmsilçimiz əsas mərhələdə polşalı Mikolaj Szimanovskiyə və avstriyalı Gnedt Volfqanqa, yarımfinal uğrunda qarşılaşmada isə Almaniya təmsilçisi Mattias Kicklitza 2:0 hesabı ilə qalib gəlib. Yarımfinalda indoneziyalı Krişna Adi Nugrahı 2:1 hesabı ilə məğlub edən Edi finalda hindistanlı Sankar Muthusamu ilə gücünü sınayıb. Gərgin mübarizə şəraitində keçən həlledici qarşılaşmada uduzan idmançımız turnirin gümüş medalı ilə kifayətlənib.

Edi Reski Dviçayo ikinci yerə sahib olmaqla yanaşı, həm də hesabına daha 2130 reytinq xalı əlavə edib.

***Q.LEYLA, “Xalq qəzeti”***

## Dünya seriyasında güləşçilərimiz 2 medal qazanıblar

**Çimərlik güləşi üzrə Dünya seriyasının ilk mərhələsini güləşçilərimiz 1 gümüş və 1 bürünc medalla başa vurublar.**



Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən yarışda İbrahim Yusubov (90 kq) A qrupunda ilk qarşılaşmalarda belçikalı Yonas Van Kaenegem, yunanıstanlı Xristos Samartsidis və panamalı Elton Morrisona, 1/4 finalda isə fransalı Matis Mayranda qalib gəlib. Təmsilçimiz yarımfinalda macarıstanlı Patrik Puespoekini mübarizədən kənarlaşdırsa da, həlledici görüşdə gürcüstanlı Dato Piruzaşviliyə minimal fərqlə (2:3) uduzaraq gümüş medalla kifayətlənib.

Ramiz Həsənov (70 kq) B qrupunda panamalı Vilfrido Samanieqo, perulu Con Karreno və venesuelalı Vilfredo Rodrigesi, 1/4 finalda dominikanlı Albaro Kamaçonu məğlub edib. Yarımfinalda türkiyəli Servet Coşkunla bacarmayan güləşçimiz rumıniyalı Stefan Komaya sonuncu xal prinsipinə əsasən qalib gələrək bürünc medal qazanıb.

Qeyd edək ki, Dünya seriyasının ikinci mərhələsi iyunun 10-11-də Sinqapurda olacaq.



## “Küləyə qalib gəl”: “Bakı Marafonu – 2023” keçirilib

**Heydər Əliyev Fondunun təşəbbüsü və “Azercell Telekom” MMC-nin eksklüziv tərəfdaşlığı ilə “Bakı Marafonu – 2023” təşkil edilib.**

Dövlət Bayrağı Meydanında “Küləyə qalib gəl” şüarı ilə keçirilən yarışa 19 min 500 idmansevər qatılıb. Həm Azərbaycandan, həm də dünyanın fərqli ölkələrindən marafonçular yarışda 21 kilometr məsafəni qət ediblər.

Sonda yarışın qalibləri mükafatlandırılıblar.


## BİLDİRİŞ

“Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC tərəfindən Bakı şəhəri, Nərimanov rayonunun Vaqif prospekti, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov və Nəsib bəy Yusifbəyli küçələrinin kəsişməsində salınacaq yeni parkın layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınması üçün keçirilən ikimərhələli tenderin birinci mərhələsi yekunlaşmışdır. Birinci mərhələnin yekunu olaraq 5 şirkət iddiaçı kimi qeydə alınmış və onlardan 3-ü ikinci mərhələdə iştirak hüququ qazanmışdır.

***Tender komissiyası***




## Dünyanın ilk elektrikləşdirilmiş yolu istifadəyə veriləcək

**Elektrikli nəqliyyat vasitələrinin yolda olarkən simsiz enerji ilə doldurulmasının məntiqi yeni konsepsiya deyil. Yaponiya da daxil olmaqla bəzi ölkələr bu proqramı bir müddətdir sınaqdan keçirir. İsveç isə bu tətbiqi 2025-ci ildə daimi istifadəyə verməyi hədəfləyir. Xəbəri “cnn.com” saytı verib.**

İsveçdə ilk dəfə olaraq “E20” magistralının “Elektrik Yol Sistemi” (ERS) ilə təchiz edilməsi qərara alınıb. ERS vasitəsilə elektriklə işləyən nəqliyyat vasitələrinin enerji doldurma (şarj) məntəqələrində dayanmadan daha çox məsafə qət etməsi planlaşdırılır.

Sınaqlar yük maşınları və evakuatorlar kimi ağır nəqliyyat vasitələrinə yönəlsə də, tətbiq olunacaq texnologiya böyük ehtimalla avtomobilləri də əhatə edəcək. Mobil telefonların simsiz doldurulması kimi, elektrikli avtomobilləri də idarə edərkən şarj etmək mümkün olacaq.

Qeyd edək ki, nəzərdə tutulan plan çərçivəsində İsveçdə 3 min kilometrdən çox yolların elektrikləşdirilməsi planlaşdırılır. “E20” magistralı bu planın birinci mərhələsidir.

***Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”***

## HAVA PROQNOZU

✓ *Mayın 10-da*

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Gecə 10-15°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 11-16, gündüz 23-28° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 3-8°, gündüz 10-15°, bəzi yerlərdə 18-20° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 3-8°, gündüz 8-13°, bəzi yerlərdə 15-20° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 10-14°, gündüz 21-26° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 8-13°, gündüz 18-23°, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 10-15°, gündüz 23-28° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 11-16°, gündüz 20-25°, dağlarda gecə 9-13°, gündüz 15-19° isti olacaq.

*Sənət inciləri*

## “Mirvari sırğalı qız”

**“Mirvari sırğalı qız” məşhur holland rəssamı Yan Vermeyerin şah əsəridir. Adından da bəlli olduğu kimi, əsərin əsas motivini qulağında mirvari sırğa olan gözəl qızın müəmmalı baxışları təşkil edir. Əsəri bəzən “Holland Mona Lizası” da adlandırırlar. Tablo hazırda Hollandiyanın Haaqa şəhərindəki Mauritshuis rəsm qalereyasında saxlanılır.**



Əsərdə qızın çiyninin üzərindən geri dönərək poza verməsi təsvir olunub. Onun dodaqları, sanki, nəsə danışmaq istəyir. Rəssam qızın gözəlliyinə diqqəti yönəltmək üçün tünd fonda sarı və mavi rənglərdən istifadə etmişdir.

Qeyd edək ki, orijinalda tablonun arxa fonlarının rəngi tünd yaşıl olsa da, zaman keçdikcə qara rəngə çevrilib. Qızın saçları ipək örtük altında gizlənib. Qulağında yalnız böyük bir mirvari sırğa var və sırğanın bir hissəsi kölgədə itir.

Onu da bildirək ki, sənətkar əsərdə mirvarini saflıq və təmizlik simvolu kimi təqdim etmişdir.

***Leyla HADİ, tələbə-jurnalist***


BAŞ REDAKTOR ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5048
SİFARİŞ 1078
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00